**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Qərb Universiteti**

*«İqtisadiyyat, marketinq və menecment» kafedrası*

# İqtisadi tarix

**(dərs vəsaiti)**

**Bakı – 2007**

Tərtib edən:
İqtisad elmləri doktoru,
professor ***Q.Y.Əbdülsəlimzadə***

Tələbələrə kömək məqsədiylə nəşr olunan bu mühazirə mətnləri “İqtisadi tarix” kursu üzrə Qərb Universiteti “İqtisadiyyat, marketinq və menecment” kafedrasında tərtib olunub təsdiq edilmiş 90 saatlıq tədris proqramına uyğun hazırlanmışdır.

**Kompüterdə yığan və kompüter tərtibçisi:**
**İmamova Tahirə**

© Əbdülsəlimzadə Q.Y.

# Ön söz

Hər hansı bir konkret elm sahəsini dərindən öyrənib dərk etmək, onun tarixən formalışıb keçdiyi inkişaf yolunu bilmək zəruridir. Çünki öyrənilən predmetin tarixi ilə ətraflı tanışlıq, onun konkret problemlərinin, ümumi qanunauyğunluqlarının, özünəməxsus cəhətlərinin daha asanldıqla qavranılmasına kömək edir.

«İqtisadi tarix» yaxud «xalq təsərrüfatı tarixi» kursu – iqtisadi nəzəriyyə, tarix və konkret iqtisadiyyat elmlərinin qovşağında meydana çıxıb, tədricən müstəqil bir tədqiqat, habelə tədris sahəsinə çevrilmişdir.

Müasir mərhələdə hərtərəfli hazırlıqlı iqtisadçı, işgüzar inzibatçılıq və sahibkarlıq fəaliyyəti ilə səmərəli məşğul olmaq üçün müxtəlif ölkələrin, eyni zamanda bütövlükdə dünya iqtisadiyatının müəyyən tarixi mərhələlərdə keçdiyi enişli-yoxuşlu inkişaf yolunun izlənməsi, şübhəsiz istər elmi-nəzəri, istərsə əməli-praktik, istərsə də geniş dünya görüşünə malik şəxsiyyətin formalaşması prosesinin ayrılmaz tərkib hissəsidir. Aydındır ki, dünya təsərrüfat həyatında tarixən baş vermiş köklü kəmiyyət və keyfiyyət dəyişikliklərinin obyektiv tənqidi təhlili və onun nəticələrindən, habelə ibrət dərslərindən yaradıcılıqla düzgün faydalanmaq, təkcə hər hansı bir cəmiyyətin real həyatda qarşılaşdığı cari iqtisadi-sosial qayğıların deyil, həm də yaxın, orta, uzunmüddətli perspektiv problemlərin həllinə dərkolunmuş münasibət əlverişli imkanlar yaradır.

İqtisadi tarix kursunu öyrənən tələbələr üçün nəzərdə tutulmuş bu yığcam dərs vəsaitində yeri gəldikcə tarixi ardıcılıqla, Azərbaycanın da iqtisadi-sosial inkişaf yolu məsələləri öz əksini tapmışdır.

«Hər bir elmin predmeti
onun tarixindən başlayır»
***Heqel***

# Giriş: «İqtisadi tarix» kursunun məqsəd və vəzifələri

1. İctimai elmlər və iqtisadi tarix
2. İqtisadi tarixin problemləri və kursun quruluşu
3. İqtisadi tarixə dair mənbə və ədəbiyyatlar

*** * ***

**1.** İqtisadi nəzəriyyə, tarix və konkret iqtisadiyyat elmlərinin qovşağında meydana çıxıb, tədricən müstəqil bir tədqiqat, habelə tədris sahəsinə çevrilmiş "iqtisadi tarix", yaxud «xalq təsərrüfatı tarixi» XIX əsrin ikinci yarısından etibarən Qərbi Avropanın, ABŞ-ın universitetlərində geniş tədris olunmağa başlanmışdır.

İqtisadi tarix, hazırda baş verən inteqrasiya və qloballaşma prosesləri nəticəsində vahid sistem kimi formalaşan dünya təsərrüfat həyatının keçdiyi uzun, mürəkkəb, ziddiyyətli inkişaf yolunun obyektiv mənzərəsini yaradır. İqtisadi tarix ayrı-ayrı ölkələrin və bütövlükdə dünya iqtisadiyyatının, ümumi təsərrüfat həyatının inkişaf qanunauyğunluqlarının dərk olunmasında, bu prosesin özünəməxsus cəhətlərinin öyrənilməsində, şübhəsiz mühüm əhəmiyyətə malikdir.

Ümumdünya miqyasında və müxtəlif ölkələrin timsalında iqtisadi həyatın üzləşdiyi problemlər, həmin məsələlərin həlli yolları, təsərrüfatın yüksəlişini təmin edən amillər, bu proseslərin rastlaşdığı çətinliklər, həm öyrənmək baxımından,

həm də konkret şəraitə uyğun tətbiq olunmaq cəhətdən böyük maraq kəsb edir.

Xüsusilə planlı sosialist, yaxud inzibati-amirlik sistemindən bazar münasibətlərinə keçən ölkələr, o cümlədən də Azərbaycan Respublikası üçün dünya ölkələrinin son 200 il ərzində sərbəst rəqabətli iqtisadi sistemi və onun müxtəlif modelləri, variantları bir örnək rolu oynaya bilər.

Hərtərəfli hazırlıqlı iqtisadçılar, işgüzar inzibatçılıq fəaliyyəti ilə səmərəli məşğul olan kadrlar üçün Planetin müxtəlif ölkələrinin təsərrüfat həyatı xüsusiyyətlərinin, habelə bütöv-lükdə dünya iqtisadiyyatının müəyyən tarixi mərhələlərdə keçdiyi inkişaf yolunun ardıcılıqla izlənib dərk edilməsi, istər elmi-nəzəri, istərsə də şəxsiyyətin formalaşması baxımından vacibdir.

Bu təhlil və zəruri ibrət dərsləri, dünya təsərrüfat həyatı miqyasında baş vermiş dəyişikliklərin tənqidi qavranması, habelə onun iqtisadi-sosial nəticələrindən yaradıcılıqla faydalanmaq, təkcə cari təsərrüfat problemlərinin deyil, həm də orta və uzunmüddətli perspektiv məsələlərin həllinə daha əlverişli imkanlar yarada bilər.

Təsadüfi deyildir ki, məşhur alman filosofu Heqelin fikrincə, **hər hansı bir elmin özünü öyrənib dərk etmək üçün, ilk növbədə onun tarixini bilmək lazımdır**.

İqtisadi tarix kursunun məqsədi, vəzifəsi və əhəmiyyəti, onun daha sonrakı biliklərimiz, cəmiyyətin mürəkkəb iqtisadi-sosial problemlərini dərk etməyimiz üçün ilkin mərhələ rolunu oynamasıdır.

Bu mənada iqtisadiyyatın həm müasir, həm də gələcək olduqca mürəkkəb, risk və bacarıq, ağıl və uzaqgörənlik tələb edən çoxsaylı məsələlərindən baş açmaq üçün, şübhəsiz onun keçdiyi inkişaf yolunu, həmin yolun daxili mərhələlərini, onların oxşar və fərqli xüsusiyyətlərini hökmən bilib fərqləndirmək, obyektiv meyarlarla qiymətləndirmək lazımdır.

Vətənin və Torpağın uğurlu gələcəyi naminə ağılla düşünüb, cəsarətlə hərəkət etmək lazımdır. Mürgüləyən düşüncə eybəcərliklər yaratdığından, iqtisadçı zəkası həmişə axtarışda olmalı və əminliklə qədim yunanların belə bir hikmətini xatırlamalıdır: «Düşüncə tərzi cəzalandırıla bilməz!»

* * *

**2.** İqtisadi tarixin tədqiq edib öyrəndiyi və tədris etdiyi problemlərin əhatə dairəsi olduqca geniş, həm də çoxşaxəlidir. Təsərrüfat həyatının müxtəlif məsələləri arasında, ayrı-ayrı ölkələrin timsalında aşkar fərqlər olsa da, lakin iqtisadi proseslərin oxşar ümumi cəhətlərə malik olmaları danılmazdır.

Aydındır ki, iqtisadi tarixin öyrənilməsi ölkə-dövlət, region (bölgə, qrup ölkə) və qlobal (dünya) miqyasında, yaxud istiqamətində aparıla bilər.

Qərb Universitetinin tədris xüsusiyyətlərini və «iqtisadi tarix» kursuna ayrılan dərs saatalrının miqdarını nəzərə alaraq, bu fənnin ümumiləşdirilmiş şəkildə qrup ölkələr, habelə qlobal istiqamətdə işıqlandırılması məqsədəuyğun sayılmışdır. Eyni zamanda bu kursun müxtəlif mövzularının öyrənilməsində konkret məsələlərə toxunulduqda, yeri gəldikcə Azərbaycanın təsərrüfat həyatı ilə müqayisələr edilərək, müəyyən nəticələr çıxarılmışdır.

«İqtisadi tarix» kursunu məntiqi və tarixi bir ardıcıllıqla, müxtəlif mənbələr və staistika məlumatları əsasında, təhlil və ümumiləşdirmələr yolu ilə aşağıdakı quruluşda (strukturda) öyrənilməsi məqsədəuyğun hesab olunmuşdur:

– iqtisadi tarixin predmeti və metodu, onun dövrləşdirilməsi;

– kapitalizmdən əvvəlki dövrün iqtisadi tarixi;

– sənaye çevrilişindən sonra dünya ölkələrinin iqtisadi inkişafının ümumi mənzərəsi;

– dünya iqtisadiyyatında iki sistemin yaranması, inkişafı və rəqabətinin iqtisadi-sosial nəticələri;

– planlı sosialist iqtisadiyyatının əsas inkişaf mərhələləri, uğurları və dağılması;

– yüksək inkişaf etmiş sənaye ölkələrinin müasir təsərrüfat həyatı;

– inkişaf etməkdə olan ölkələrin milli dirçəliş və iqtisadi-sosial yüksəliş yolları;

– postsosialist və postsovet ölkələrinin iqtisadi-sosial inkişaf problemləri;

– Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf yolunun yekunları, müasir problemləri və perspektivləri;

– vahid dünya təsərrüfat sisteminin formalaşması prosesi və bəşəriyyətin qlobal iqtisadi-sosial problemləri.

Şübhəsiz, iqtisadi tarixin tədrisi üçün nəzərdə tutulan belə bir mövzu quruluşunda və kursun strukturunda müəyyən dəyişikliklər aparmaq, əlavələr və ixtisarlar etmək mümkündür. Əsas məqsəd ayrı-ayrı ölkələrin və bütövlükdə dünyanın keçdiyi mürəkkəb, habelə ziddiyyətli iqtisadi inkişaf yolunun real yekunlarından, habelə dərslərindən düzgün nəticələr çıxararaq, onlardan faydalanmaqla yanaşı, daha səmərəli iqtisadi-sosial yüksəliş perspektivlərini müəyyənləşdirməkdən ibarət olmalıdır.

* * *

**3.** Dünya miqyasında iqtisadi tarixi öyrənmək üçün müxtəlif mənbəə və əsərlərdən istifadə olunur.

Bunların sırasında tarixi maddi mədəniyyət abidələrini, yazılı mənbələri, qədim əlyazmalarını, qanun məcəllələrini, inzibati və hüquqi sənədləri, statistika materiallarını, ayrı-ayrı mövzulara dair kitabları, əsərləri, elmi-nəzəri, habelə qəzet-jurnallarda çap olunmuş məqalələri göstərmək lazımdır.

Müxtəlif ölkələrin və ümumiyyətlə dünya təsərrüfat həyatının bütöv bir tam halında dolğün mənzərəsini yaradan bu geniş mənbə, habelə əsərləri şərti olaraq 3 istiqamətə ayırmaq mümkündür:

a) **xarici ölkə** mənbələri və müəlliflərinin əsərləri;

b) **keçmiş Sovet İttifaqı** ərazisindəki mənbə və müəlliflərin əsərləri;

c) **Azərbaycan** mənbələri və müəlliflərinin əsərləri.

Xarici ölkə müəlliflərindən danışarkən, ilk növbədə, iqtisadi tarixin yaradıcılarından sayılan ingilis **Arnold Toynbi** (1852-1883) və onun «İngiltərədə XVIII əsrdə sənaye çevrilişi» kitabı qeyd edilməlidir.

**Fransada F.K. Numa Deninin** (1830-1889) «Qədim Fransanın ictimai quruluşunun tarixi» əsəri, Qərbi Avropa ölkələrində feodalizmin meydana çıxıb qərarlaşması prosesinə həsr olunmuşdur.

Digər fransız tədqiqatçılarından **Mark Blok** (1886-1944) «Fransa aqrar tarixinin səciyyəvi cəhətləri», **L.Ernest Kamil** ölkənin XVIII–XIX əsr iqtisadi tarixinə dair bir sıra əsərlərində, **Fernan Brodel** (1902-1985) "Aralıq dənizi və orta əsrlər II Filippin dövründə" və "XV–XVIII əsrlərdə maddi sivilizasiya, iqtisadiyyat, kapitalizm" adlı üçcildlik kitablarında, ümumiləşdirilmiş materiallar əsasında, iqtisadi tarixin əsrləri əhatə edən problemlərini öyrənmişlər.

**Almaniyada Karl Byuxer** (1847-1930) "Xalq təsərrüfatının yaranması" **Verner Zombart** (1863-1941) "Müasir kapitalizm", "Burjuaziya", "XIX əsr və XX əsrin əvvəllərində Almaniyanın xalq təsərrüfatı", **K.Marksın**, **F.Engelsin**, **M.Veberin**, **J.Şumpeterin** bir sıra əsərlərində iqtisadi tarixin aktual məsələləri öz əksini tapmışdır.

**ABŞ-da** ənənəvi iqtisadi tarix istiqamətindən müəyyən dərəcədə fərqlənsə də, "**yeni iqtisadi tarix**" adı altında müasir statistika metodları, habelə elektron-hasablayıcı maşınlar (EHM) vasitəsilə **A.Konrad**, **Q.Meyer, R.Foqel, S.Enqerman** XIX əsr Amerika iqtisadi tarixinin müxtəlif problemlərini tədqiq etmişlər. Son dövrlərdə ABŞ-da bu istiqamətdəki tədqiqatlar, ümumi iqtisadi nəzəriyyə, iqtisadi

inkişaf və uzunmüddətli perspektiv inkişafın tərkibində aparılır.

Keçmiş SSRİ məkanında siyasi və ideoloji xarakter daşısa da, iqtisadi tarix problemləri həm mərkəzdə, həm də müttəfiq respublikalarda elmi-tədqiqat institutlarında tədqiq olunmuş, universitetlərdə, ali məktəblərdə tədris edilmişdir.

**Rus** alimlərindən İ.A.Qladkov, D.Q.Vinoqradov, D.M.Petruşevski, İ.M.Kulişer, V.T.Çuntulov, V.Q.Sarıçev, F.Y.Polyanski, V.A.Jamin və başqaları bu yolda çox səmərəli fəaliyyət göstərmişlər.

**Ukraynada** P.İ.Lyaşenko, T.İ.Derevyankin və başqaları iqtisadi tarix sahəsində üçcildlik sanballı tədqiqat əsərini hazırlayıb nəşr etmişlər.

**Gürcüstanda** P.İ.Ququşvili, V.S.Advadze, V.S.Bax-tadze, A.İ.Breqvadze, A.L.Quniya, B.A.Xasia ölkənin iqtisadi tarixinin ayrı-ayrı inkişaf mərhələlərindəki aktual problemlərini tədqiq etmişlər.

**Kazaxstan və Orta Asiyada** S.B.Baişev, O.B.Camalov, K.D.Gunusov, A.A.Annaklıçev, S.Q.Qulyamov, M.R.Rəsulov, X.R.Sabirov öz elmi-tədqiqat işlərini bu regionun (bölgənin)iqtisadi tarix problemlərinə həsr etmişlər.

Eyni zamanda digər keçmiş müttəfiq respublikalarda «xalq təsərrüfatı tarixi», yaxud «iqtisadi tarix» istiqamətində elmi-nəzəri tədqiqatlar aparılmış, müxtəlif monoqrafiyalar, kitablar, dərsliklər nəşr olunmuşdur. Həmin əsərlərdə iqtisadi tarixin həm ümumi nəzəri problemləri, həm də konkret respublika ilə bağlı problemləri öz əksini tapmışdır.

Azərbaycanda iqtisadi tarix məktəbinin yaranması, formalaşması və inkişaf etdirilməsində akademik **Ə.S.Sumbat-zadənin** müstəsna xidmətləri olmuşdur. O, Azərbaycanda XIX əsr və XX əsrin əvvəllərində ölkənin çoxsahəli təsərrüfat həyatının real mənzərəsini zəngin arxiv sənədləri, habelə statistika materialları əsasında yaratmış, onun ziddiyyətli

dönüşlərini, qanunauyğun inkişaf meyllərini təhlil edərək ümumiləşdirmişdir.

Bu elmi məktəbin yetişdirmələri olan M.A.İsmayılov, Q.Y.Əbdülsəlimzadə, Ə.K.Dilbazov, M.Ə.Musayev, Ə.Ə.Umayev, T.T.Vəliyev, S.H.Haqverdiyeva, L.Q.Əliyeva, A.M.Qasımova, Q.N.Heydərov, Ə.Ə.Kərimov və başqaları öz monoqrafiya, əsər, elmi-nəzəri məqalələrində XIX–XX əsrdə Azərbaycanın təsərrüfat həyatının bir sıra mühüm problemlərini ilk dəfə tədqiq edərək ümumiləşdirmişlər.

Həmin müəlliflərin monoqrafiya, məqalə və kollektiv əsərlərində Azərbaycanda xalq təsərrüfatının müxtəlif sahələrinin – sənayenin, kənd təsərrüfatının, nəqliyyatın, tikintinin, xidmət dairəsinin keçdiyi inkişaf yolu, onun ayrı-ayrı mərhələlərinin özünəməxsus xüsusiyyətləri, ümumi iqtisadi qanunauyğunluqlar axarında gedişi prosesi zəngin arxiv sənədləri – materialları, ilkin mənbələr, rəsmi statistika külliyyatları əsasında qruplaşdırılaraq hərtərəfli təhlil olunmuş və ölkənin iqtisadi inkişafının dolğun mənzərəsi yaradılmışdır.

# Mövzu I. İqtisadi tarixin predmeti və metodları, onun dövrləşdirilməsi

1. İqtisadi tarixin predmeti və metodları
2. Dünya təsərrüfat həyatının keçdiyi tarixi inkişaf yolunun ümumi mənzərəsi
3. İqtisadi tarixin dövrləşdirilməsi

* * *

**1.** «İqtisadi tarix», yaxud «xalq təsərrüfatı tarixi» müəyyən bir məntiqi, tarixi, xronoloji ardıcıllıqla ayrı-ayrı ölkələrin, bölgələrin (regionların, qrup dövlətlərin) və bütövlükdə dünyanın ümumi təsərrüfat həyatını, iqtisadiyyatını öyrənir.

İqtisadi tarix, dövlətlərin, ölkələrin, milli təsərrüfatların və qlobal dünya iqtisadiyyatının ən qədim zamanlardan başlayaraq indiyədək keçdiyi böyük, yüksəlişli-enişli, mürəkkəb, ziddiyyətli yolun müxtəlif cəhətlərini, əsas problemlərini, başlıca məsələlərini aydınlaşdırır.

İqtisadi tarixin **predmeti**, yəni elmin, onun tədris kursunun nəyi öyrəndiyini dedikdə – ayrı-ayrı ölkələrin, o cümlədən də Azərbaycan Respublikasının və dünyanın timsalında **iqtisadi sistemlərin** (təsərrüfat formalarının, iqtisadi inkişaf modellərinin) **meydana gəlməsi**, **inkişaf edib möhkəmlənməsi**, ən yüksək **iqtisadi-sosial yüksəliş səviyyəsinə** çatması, nəhayət tədricən öz əvvəlki üstünlüklərini itirərək, **sıradan çıxıb getməsi** və **məhv olması** başa düşülür.

Dünya təcrübəsi göstərir ki, bəşər cəmiyyətinin yaranıb meydana çıxdığı uzun bir tarixi dövr, minilliklər ərzində müxtəlif ölkələrin və xalqların təsərrüfat həyatında müəyyən iqtisadi quruluşlar (sistemlər) yaranmış, davam etmiş və

obyektiv-subyektiv səbəblər nəticəsində elə bir zaman gəlib çatmışdır ki, həmin **sistemlər** (quruluşlar) öz yerlərini bəzən **dinc** (təkamül) yolu, bəzən də **zorakılıq** (inqilab), **müharibə**, işğallar vasitəsiylə yeni bir **quruluşa** (sistemə) vermişlər. Bu tarixi inkişaf və iqtisadi sistemlərin bir-birini əvəz etməsi, şübhəsiz insan cəmiyyəti həyatının **qanunauyğun prosesidir**.

Bir sıra ictimai elmlərin qovşağında yerləşən iqtisadi tarix elmi, cəmiyyət qarşısında duran aşağıdakı vəzifələrin həyata keçirilməsinə müəyyən kömək göstərir. Həmin vəzifələr bunlardır:

1. İqtisadi tarix, ölkələrin və dünyanın keçdiyi inkişaf yolunu ümumiləşdirərək, bu tarixi təcrübədən öyrənmək əsasında, konkret şəraitdə hansı yollarla iqtisadiyyatı inkişaf etdirmək üçün düşünüb, daha səmərəli üsullar axtarılmasına, gələcək perspektivlərin müəyyənləşdirilməsinə kömək göstərir. **Bunu praktik, həyati, praqmatik vəzifə adlandırırlar**.

2. İqtisadi tarix istər ölkənin, istərsə də dünyanın inkişaf yolunun siyasi-ictimai, iqtisadi-sosial, mənəvi-əxlaqi nəticələrini obyektiv qiymətləndirib, gələcək üçün düzgün istiqamət seçməyə imkan yaradır. **Buna, keçmişi tənqidi baxımdan dəyərləndirərək, ölkənin perspektiv inkişaf yollarını düzgün müəyyənləşdirmək vəzifəsi deyilir**.

3. İqtisadi tarix, keçmiş iqtisadi bazaya, əvvəlki nəsillərin əməyi ilə yaradılmış potensial imkanlara, təbii sərvətlərə, milli ənənə, mentalitet, tarixi irs məsələlərinə, xalqın mənəvi-əxlaqi dəyərlərinə, milli-psixoloji xüsusiyyətlərinə qayğı ilə yanaşmağı öyrədir. Şübhəsiz, təsərrüfat həyatının keçmiş, həqiqətən müsbət, müasir dövrün tələblərinə cavab verən meyllərini qoruyub saxlamaqla yanaşı, vaxtı keçmiş, mütərəqqi irəliləyişə əngəl olan səbəblər cəsarətlə aradan qaldırılmalıdır. **Bunu iqtisadi tarixin mədəni-əxlaqi vəzifəsi kimi səciyyələndirmək olar**.

4. İqtisadi inkişafın yolları müəyyənləşdirilərkən, ölkənin real iqtisadi resursları qiymətləndirilərkən, irəli sürülən fikir və

konsepsiyalar xoş arzulara, kimə yaxud nəyə isə yarınmaq xatirinə deyil, milli mənafe, habelə ümumi bəşəri dəyərlər naminə edilməlidir. **Bu, iqtisadi tarixin elmi-nəzəri vəzifəsi və vətəndaşlıq mövqeyi borcudur**.

5. Müxtəlif ölkələrin və dünyanın təsərrüfat həyatını öyrənən iqtisadi tarix, insanların ümumi dünyagörüşünün formalaşmasına, məntiqi düşüncə tərzinin yaranmasına, yeni ideyaların meydana çıxmasına, səmərəli təkliflərin irəli sürülməsinə və bunların əsaslandırılmış surətdə həyata keçirilməsinə geniş imkanlar açır. **Bu vəzifə isə, insanların ümumi dünyagörüşü səviyyəsi, yeni iqtisadi təfəkkür tərzinin formalaşması, müasir dövrün tələblərinə uyğün hərtərəfli hazırlıqlı yeni tipli mütəxəssis kadrların yetişdirilməsi ilə bağlıdır**.

Cəmiyyət haqqında olan elmlərin bir istiqaməti sayılan iqtisad elminin tərkib hissəsi kimi **iqtisadi tarix**, müstəqil sahə olaraq, öz qarşısına qoyulmuş vəzifələri həyata keçirmək üçün aşağıdakı üsul və metodlardan istifadə edir:

a) **tarixi ardıcıllıq metodu**, o deməkdir ki, iqtisadi tarix müxtəlif ölkələrin və ümmumiyyətlə dünyanın çoxsahəli təsərrüfat həyatında baş verən mürəkkəb prosesləri, kəmiyyət-keyfiyyət dəyişikliklərini müəyyən bir xronoloji-tarixi ardıcıllıqla öyrənir;

b) **məntiqilik metodu** dedikdə, iqtisadi tarixin öyrəinilməsi prosesində tarixi ardıcıllıqla yanaşı, əsaslandırılmış məntiqi düşüncə tərzi və obyektiv elmi nəticələr çıxarmaq bacarığının vəhdəti nəzərdə tutulur. Deməli, cəmiyyətin təsərrüfat həyatı tarixi şərait, konkret yaranmış iqtisadi-sosial vəziyyət nəzərdən keçirilərək, məntiqi surətdə hərtərəfli təhlil olunmalıdır. Bu mənada, hər hansı bir ölkənin, yaxud dünyanın iqtisadi tarixinin öyrənilməsi gedişində, tarixi metodla məntiqi metod qarşılıqlı vəhdət halında bir-birini tamamlamalıdır;

c) **müqayisəli təhlil metodu**, o deməkdir ki, iqtisadi tarix öyrəndiyi prosesləri və elmi təhlil əsasında gəldiyi nəticələri əvvəlki dövrlərlə obyektiv, qərəzsiz müqayisə etmək yolu ilə yekunlaşdırmaq təməlində əsaslı fikirlər söyləyir. Aydındır ki, yalnız tarixi faktların və təsərrüfat həyatında baş verən mürəkkəb əlaqəli hadisələrin əvvəlki dövrlərlə müvafiq müqayisəli təhlili, şübhəsiz cəmiyyət həyatının gələcək iqtisadi-sosial inkişaf meylləri barəsində düzgün perspektivləri müəyyənləşdirməyə imkan yarada bilər;

ç) **iqtisadi modelləşdirmə metodu**, o deməkdir ki, müxtəlif ölkələrin təsərrüfat həyatlarının oxşar cəhətləri əsasında vahid bir iqtisadi model yaradılır. Həmin nümunə xarakterli iqtisadi model, digər ölkələrin də təsərrüfat həyatlarında ümumiləşdirmələr aparmağa, müəyyən qanunauyğunluqları dərk etməyə yardımçı, köməkçi olur;

d) **riyazi-staitistika metodu**, ölkənin təsərrüfat həyatında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini, yaxud iqtisadi-sosial irəliləyişləri, habelə böhran və inflyasiya proseslərini riyazi-statistika üsulları, müasir mərhələdə isə kompüter-internet imkanları ilə öyrənilib qiymətləndirilməsini təmin edir;

e) **sosial-psixoloji metod**, cəmiyyətdəki iqtisadi-ictimai amillərlə yanaşı, ölkənin təsərrüfat həyatında baş verən müxtəlif istiqamətli dəyişikliklərdə, ölkə əhalisinin sosial-psixoloji durumunu, insanların hadisələrə münasibətini, xalqın milli mentaliteti amillərini də nəzərə alır;

ə) **proqnozlaşdırma metodu**, hər hansı bir ölkənin, yaxud cəmiyyətin iqtisadi-sosial inkişafı yekunlarının elmi təhlili əsasında, onun gələcək kəmiyyət və keyfiyyət dəyişikləklərinin başlıca meyllərini irəlicədən söyləməyə imkan verir.

Şübhəsiz, bu metodlardan konkret vəziyyət və şəraitə uyğun bir tərzdə istifadə edilməsi tələb olunsa da, lakin daha səmərəli nəticələrə nail olmaq üçün, həmin üsullardan qarşılıqlı

əlaqə əsasında, kompleks surətdə faydalanmaq məqsədəuyğundur.

*** * ***

**2.** Bəşəriyyət öz iqtisadi-sosial inkişafında çoxəsrli və olduqca mürəkkəb bir tarixi yol keçmişdir.

Son arxeoloji qazıntılar və dünyanın müxtəlif ərazilərinə səpələnmiş maddi abidələr, ilk insan yaşayış məskənlərinin təxminən 3 milyon illik yaşı olduğunu sübut edir.

Qədim daş dövründən başlayaraq, əvvəllər təbiətin verdiyi hazır nemətlərlə kifayətlənməyə məcbur olan insanlar, tədricən müxtəlif təyinatlı əmək alətləri yaradaraq, istehsal edən təsərrüfat tipinə keçmişlər. Oturaq həyat tərzinə keçid, əkinçiliyin maldarlıqdan ayrılması, köçəriliyin tədricən aradan qalxması, müxtəlif metallardan istifadə olunması, sənətkarlıq və ticarətin genişlənməsi, bəşəriyyətin tarixi təkamül prosesinin mühüm mərhələləri kimi səciyyələnir.

Qədim sivilizasiya və təsərrüfat həyatı, habelə ticarət mərkəzləri kimi Misiri, Babilstanı, Mesopotamiyanı, Midiyanı, Çini, Hindistanı, İranı, Qafqazı, Yunanstanı, İtaliyanı, Cənubi Amerikanı göstərmək olar.

Bu ərazilərdə hələ qədim zamanlardan dəmir, mis, qızıl, gümüş istehsal olunmuş, zərif ipək və yun parçalar toxunmuş, əmək alətləri hazırlanmış, müxtəlif silahlar, bəzək əşyaları düzəldilmiş, gəmiçilik xeyli inkişaf etmişdi.

Məhz bu təməldə istər Şərqdə, istərsə də Qərbdə Bağdad, Təbriz, Roma, Afina, London, Bəsrə, Qahirə, Şam, Madrid, Bombey, Şanxay və digər şəhərlər meydana çıxmış, ticarət, sənətkarlıq, əkinçilik yüksək səviyyəyə çatmış, şəhər dövlətləri, imperiyalar, xilafatlar yaranmış, müəyyən tarixi dövr ərzində yaşamış, nəhayət məhv olub getmişlər.

Məlumdur ki, son bir neçə əsrə qədər bütün dünya ölkələrinin təsərrüfat həyatında həlledici istehsal sahələri əkinçilik və maldarlıqdan ibarət olmuşdu.

O dövrdə əsasən torpaqla bağlı əkinçilik, maldarlıq, bağçılıq və qismən də sənətkarlıq üzərində qurulan istehsal üsulları – **Asiya** istehsal üsulu və **Antik istehsal** üsulu istiqamətlərində inkişaf etmişdi.

Asiya istehsal üsulu şəraitində **hakimiyyət**, onun **adamları** və **edarəetmə** strukturları ölkənin bütün yeraltı-yerüstü sərvətlərinin sahibi, habelə bölüşdürücüsü sayılırdı. Torpağı, suvarma şəbəkəsini, digər sərvət və obyektləri öz əlində mərkəzləşdirmiş bu istehsal üsulu, bəzən **Şərq istehsal üsulu** da adlandırılmışdı.

**Antik istehsal** üsulu isə, Şərq istehsal üsulundan fərqli olaraq, hakimiyyətin tam mülkiyyət hüququ ilə yanaşı, xüsusi mülkiyyətə, onun formalaşmasına və inkişafına yol vermiş, habelə müəyyən imkanlar yaratmışdı.

Bu istehsal üsullarının hər ikisi, şübhəsiz müəyyən forma dəyişikliklərinə uğramaqla, dünyanın müxtəlif ölkələrində əsrlər boyu yaşayıb, davam etmişdir.

Qeyd etmək zəruridir ki, eramızın əvvəllərində yəni 2 min il bundan qabaq, Şərqin ümumi inkişaf səviyyəsi Qərbi Avropa ölkələrindən xeyli yüksək olmuşdu. Bu üstünlük özünü – **şəhərlərin** kəmiyyət və keyfiyyətində, ticarət əlaqələrində, əhalinin savadlılıq səviyyəsində, şəhər və kənd əhalisinin say nisbətində, metallardan istifadə olunmasında göstərmişdi.

XIV əsrdən başlayaraq, xüsusən XV əsrin ikinci yarısından etibarən, Qərbi Avropa ölkələrində **iqtisadi yüksəliş** dövrünün formalaşdığını söyləmək mümkündür. Bu isə XV-XVI əsrlərdəki Böyük Coğrafi Kəşflərlə əlaqədar idi.

1492-ci ildə **Xristofor Kolumbun** gəmi ekspedisiyası Amerika sahillərinə çataraq, bu qitəni ilk dəfə kəşf etdi.

1498-ci ildə **Vasko de Qammanın** ekspedisiyası Hindistan sahillərinə gəlib çatdı.

1519-1521-ci illərdə **Fernando Magellan** Yer kürəsi ətrafında ilk dövrü səyahətini həyata keçirdi.

Dünya miqyasında yeni ərazilərin və ölkələrin kəşfi, onlarla ticarət, habelə işgüzar əlaqələrin yaradılması, ticarət limanları inşaası, kapitalın hərəkəti üçün əlverişli imkanlar açdı.

Böyük coğrafi kəşflər eyni zamanda müstəmləkələr ələ keçirməyin əsasını qoydu. XVI əsrdən başlayaraq yeni zəbt edilmiş torpaqlarda ilk müstəmləkə dövlətləri sayılan Portuqaliya, İspaniya və İngiltərənin bir neçə yüz il davam etmiş ağalığı başlandı.

Artıq XVI əsrdən başlayaraq, **Qərbi Avropa** tədricən öz ümumi iqtisadi-sosial inkişaf səviyyəsinə görə **Şərq ölkələrini** ötməyə başladı.

Məhz bu dövr Qərbi Avropa tarixində dönüş nöqtəsi kimi səciyyələnir. Həmin dövrün əlamətdar xüsusiyyəti kimi **ilkin kapital** yığımı prosesini, **manufaktura** bazasında sənaye istehsalının genişlənməsini, nəhayət XVIII əsrdə «**sənaye inqilabı, yaxud çevrilişi**» nəticəsində fabrik-zavod istehsalına keçidi göstərmək olar.

* * *

**3**. İqtisadi tarixin mürəkkəb və ciddi mübahisələr doğuran metodoloji məsələlərindən biri – onun **dövrləşdirilməsi**, yaxud iqtisadi-sosial inkişaf prosesinin **müəyyən mərhələlərə** bölünməsidir.

Aydındır ki, bütövlükdə vahid bir orqanizm kimi formalaşan və ayrı-ayrı milli iqtisadiyyatların cəmi (məcmui) kimi başa düşülən dünya təsərrüfat həyatı (sistemi) öz çoxəsrlik tarixi yolunda müxtəlif **pillələrdən**, **mərhələlərdən**, **dövrlərdən** keçib gələrək, müasir səviyyəyə yüksəlmişdir.

Bu elmi-nəzəri problemə yanaşmada müxtəlif fikir və mövqelər vardır:

a) **ictimai-iqtisadi quruluşlara, yaxud formasiyalara görə dövrləşdirmə**. Marksizm nəzəriyyəsi yaradıcılarının və

onların tərəfdarlarının üstünlük verdiyi bu mövqeyə görə, bəşəriyyət öz tarixi inkişafında aşağıdakı 5 dövrü keçir, yaxud keçməlidir (ibtidai-icma cəmiyyəti, quldarlıq, feodalizm, kapitalizm, kommunizm (sosializm);

b) **sivilizasiyalara görə dövrləşdirmə**, aşağıdakı ardıcıllığı nəzərdə tutur:

– **Neolit**, yaxud daş dövrü (3.000-3.500 il davam etmişdir);

– **Şərq quldarlığı**, yaxud **tunc** dövrü (2.000-2.300 il davam etmişdir);

– **Antik** dövr, yaxud **dəmir** dövrü (1.200-1.300 il davam etmişdir);

– **İlkin feodalizm** dövrü (700-800 il davam etmişdir);

– **Sənaye önü**, **ərəfəsi**, **qabağı** dövrü (400-500 il davam etmişdir);

– **Sənaye**, **yaxud industral** cəmiyyət dövrü (200-300 il davam etmişdir);

– **Sənayedən sonrakı**, yaxud **postindustrial** cəmiyyət dövrü (son 50 ili əhatə edir).

**Sivilizasiyalara görə** dövrləşdirmənin **başqa bir** variantına əsasən, bəşəriyyət tarixində 7 sivilizasiyasının olduğu göstərilir:

– Qərb sivilizasiyası;
– Latın Amerikası sivilizasiyası;
– Sərqi Avropa sivilizayası;
– İslam sivilizasiyası;
– Hind sivilizasiyası;
– Çin sivilizasiyası;
– Yapon sivilizasiyası

Müasir iqtisadi nəzəri fikir, «**cəmiyyətin inkişafının sənaye səviyyəsi**» meyarını başlıca şərt kimi götürərək, aşağıdakı mərhələləri qəbul edir: (sənaye inkişafına qədər olan cəmiyyət, sənaye yaxud industrial cəmiyyət, postindustrial

cəmiyyət, neoindustrial cəmiyyət, informasiya yaxud məlumat cəmiyyəti).

Qeyd zəruridir ki, iqtisadi tarixin dövrlərə bölünməsinə dair başqa fikirlər də olmuşdur.

Məsələn, Şərqin böyük mütəfəkkiri, ərəb alimi **Əbdürəhman ibn-Xəldum** (1332-1406) göstərmişdi ki, cəmiyyət öz inkişafında **köçərilik**, **oturaq həyat** və **mədəniyyət** mərhələlərindən keçmişdir.

Yaxud amerikalı arxeoloq **L.Morqanın** fikrincə, bəşər cəmiyyəti tarixi inkişafında – **vəhşilik**, **barbarlıq** və **sivilizasiya** mərhələlərini yaşamışdır.

Alman iqtisadçısı və tarixçisi **V.Zommbartın** mövqeyinə görə, tarixdə **fərdi**, **keçid** və **ictimai** cəmiyyətlər mövcud olmuşdur.

**F.List** (Almaniya), bəşəriyyətin inkişaf mərhələlərini **ovçuluq**, **balıqçılıq**, **əkinçilik**, **manufaktura** dövrləri kimi təsəvvür etmişdir.

**K.Byuxer** (Almaniya), iqtisadi inkişaf dövrlərini **ev təsərrüfatı**, **şəhər təsərrüfatı** və **xalq təsərrüfatı** kimi səciyyələndirilmişdir.

**B.Hilderbrand** (Almaniya) iqtisadi inkişaf dövrlərini – **natural**, **pul** və **kredit** mərhələlərinə ayırmışdı.

**P.Maslov** (Rusiya) göstərmişdi ki, bəşəriyyətin keçdiyi inkişaf yolu – **təcrid olunmuş təsərrüfatdan, icma təsərrüfatından, əyalət təsərrüfatından, milli təsərrüfatdan, dünya təsərrüfatından** ibarətdir.

İqtisadi tarixin dövrləşdirilməsi baxımından Azərbaycanın keçdiyi iqtisadi-sosial inkişaf yolunu aşağıdakı kimi dövrləşdirmək mümkündür:

I. **Qədim** dövr (ən qədim vaxtlardan eramızın IV-V əsrlərinə qədər).

II. Orta əsrlər dövrü (V-VI əsrlərdən başlayaraq XVIII əsrə qədər).

III. Yeni dövr (XIX əsrin əvvəllərindən, çar Rusiyası tərəfindən işğaldan XX əsrin əvvəllərinə qədər).

IV. Azərbaycan Demokratik Cümhuriyyəti dövrü (1918-1920-ci illər).

V. Azərbaycanın rus bolşevik rejimi tərəfindən işğalı dövrü (1920-1991-ci illər).

VI. Suveren və müstəqil Azərbaycan Respublikası dövrü (1991-ci ildən sonra).

VII. Azərbaycan Respublikasının vahid dünya iqtisadi sisteminə və təsərrüfat həyatına inteqrasiyası (XXI əsr və sonrakı dövr).

İqtisadi tarix kursunun müəyyən dövrlər üzrə tədqiq və tədris edilməsi ona görə zəruridir ki, zaman-məkan daxilində formalaşan müxtəlif iqtisadi sistemlər, bir-birindən təkcə nə istehsal etmələrinə görə deyil, **ilk növbədə necə, hansı istehsal vasitələrinə** malik olmaları ilə fərqlənmişlər. Bu mənada, iqtisadi tarix mahiyyət etibarilə əsasən yüksələn xəttlə irəliləsə də, lakin inkişaf meylləri bir çox hallarda **vaxt amilini** gözləməli olmuşdu.

# Mövzu II. Kapitalizmdən əvvəlki dövrün iqtisadi tarixi

## Mövzu II.1. İbtidai icma təsərrüfatı inkişafının əsas cəhətləri və xüsusiyyətləri

1. İbtidai icma quruluşunda təsərrüfat həyatının başlıca xüsusiyyətləri
2. İbtidai icma quruluşunda əmək, əmək alətləri və əmək bölgüsü
3. İbtidai icma cəmiyyətinin pozulması və məhv olması

* * *

**1.** Dünyanın bütün xalqları insanlığın ilk inkişaf nöqtəsi və mərhələsi sayılan ibtidai icma cəmiyyətindən keçərək, tarxi inkişaf yolunun çətin cığırları ilə tərəqqiyə, yüksəlişə doğru irəliləmişlər. Bu yolda insanların əmək fəaliyyəti həlledici rol oynamışdır.

Bəşəriyyətin hazırladığı və istifadə etdiyi əmək alətlərindən asılı olaraq, adətən onun tarixini – **daş**, **tunc** və **dəmir** dövrlərinə ayırırlar. Minilliklər boyu davam etmiş ibtidai icma cəmiyyətinin xronoloji cəhətdən hüdudları əsasən **daş dövrünə** təsadüf edir. Daş dövrü isə özü 3 mərhələyə yaxud pilləyə bölünür, ayrılır:

a) Qədim daş dövrü, yaxud **paleolit** (e.ə. 2,5 milyon – 12 min il);

b) Orta daş dövrü, yaxud **mezolit** (e.ə. XII – VIII-ci minilliklər);

c) Yeni daş dövrü, yaxud **neolit** (e.ə. VIII – III-cü minilliklər).

Bəzən bəşəriyyətin və onun təsərrüfat həyatını (iqtisadi tarixini) insanın müxtəlif qida məhsullarını (meyvə, köklü bitkilər, şirələr) yığıb-toplamaq, habelə heyvan, quş, balıq ovlamaqla bağlı, təbiətin verdiyi hazır məhsulların sərfi (istehlakçısı) dövrü kimi də səciyyələndirirlər. Daha sonrakı dövrü isə insanların təbiətin verdiyi hazır məhsullarla kifayətlənməyərək, tələbatların artması qanuna əsasən, onların özlərinin müxtəlif məhsulları istehsalı ilə, yəni **maldarlıqla**, **əkinçiliklə**, **bağçılıqla**, **bəsit sənətkarlıqla** məşğul olmaları mərhələsi kimi müəyyənləşdirirlər.

İbtidai icma quruluşu tarixində insanların **oddan** istifadə etməyə başlamaları, yaxud **odun kəşfi** son dərəcə böyük əhəmiyyəti olan, həqiqətən inqilabi bir hadisə idi. Oddan istifadə bəşəriyyətin istər maddi, istər sosial, istərsə də mənəvi həyatında köklü dəyişikliklərin əsasını qoyaraq, onu başqa canlılar (heyvanat) aləmindən qətiyyətlə ayırdı, soyuqdan, yırtıcı heyvanların hücumundan qorudu, müxtəlif alətlər hazırlanması işini xeyli asanlaşdırdı.

İbtidai icma quruluşunun başlıca xüsusiyyətləri kimi aşağıdakıları qeyd etmək olar: **əvvələn**, burada ümumi, **kollektiv**, **icma** mülkiyyəti olmuş, yaxud hər şey hamıya məxsus olmuşdur. Uzun illər boyu bu qaydalar ailə münasibətlərinə də aid olduğundan, cəmiyyətdə **ana xətti**, yəni **matriarxat** hökm sürmüşdü. Lakin sonralar **əkinçilik** və **maldarlığın** (çobançılığın) inkişafı ilə bağlı olaraq, habelə ailə münasibətlərində qan qohumları arasında nigah əlaqələri qadağan olunduğundan, tədricən cəmiyyətdə **ata xətti**, yəni **patriarxat** üstünlük təşkil etmişdir.

**Sonra**, ibtidai icma quruluşunda əldə olunmuş, yaxud hazırlanmış məhsullar icma üzvləri arasında müəyyən şərtləri nəzərə almaqla, **bərabər**, **ədalətli bölgü** əsasında həyata keçirilmişdi.

**Daha sonra**, ibtidai icma cəmiyyətinin ağac, sümük, daş kimi materiallardan hazırlanmış əmək alətlərindən ibarət

maddi-texniki bazası xeyli bəsit, zəif və az məhsuldar olmuşdur.

**Nəhayət**, ibtidai icma quruluşunda insanların **əl əməyi**, onların həyat tərzi və yaşayışlarını təmin edən başlıca mənbə olmuşdu.

Bütün bu cəhətlər göstərir ki, bəşəriyyətin inkişafının ilk pilləsində insanlar təbiətin sınaqları, həyat tərzinin doğurduğu ziddiyyətli çətinliklərlə gündəlik mübarizə, necə deyərlər «olum, ya ölüm!» qaydalarının hökm sürdüyü bir cəmiyyətdə yaşamışlar.

Həmin quruluşa qiymət verən F.Engels yazmışdı ki, ibtidai icma cəmiyyətində hakimlərin, polisin, həbsxanaların, varlıların, yoxsulların olmaması bir möcüzə kimi insanı heyran edir. Orada hər iş məsləhətlər əsasında, ədalətlə həll olunurdu. Bu quruluşun əzəməti ilə yanaşı, onun təbii məhdudluğu özünü bunda göstərmişdi ki, həmin cəmiyyətdə ağalıq və əsarət üçün yer olmamışdır.

Azərbaycanın ərazisində ibtidai icma cəmiyyətinin izlərini **Azıx**, **Daş Salahlı**, **Tağlar mağarası**, **Qobustan qaya təsvirlərinin** nümunəsində görmək olar. Ümumiyyətlə Qafqaz və Azərbaycanın qədim insan məskənlərindən biri olduğunu indiyədək aparılmış arxeoloji qazıntılar təsdiq etməkdədir. Bu sahədə gələcəkdə daha böyük uğurların qazanıla biləcəyi təbiidir və mümkündür.

*** * ***

**2.** Belə bir məşhur ifadə vardır ki, insanı əmək yaratmışdır. Doğrudan da, **əmək və təbiət** həmişə, xüsusilə də ibtidai icma quruluşunda insanların yaşayışının əsas şərti olmuşdur. Əmək anlayışı, insanın fiziki və əqli imkanlarının şüurlu surətdə, məqsədyönlü şəkildə sərfi, yalnız insanlara məxsusdur. O dövrdə insan özünə qida məhsulları əldə etmək, ova getmək, ətrafındakı təbiət hadisələri, vəhşi heyvanların,

digər qəbilələrin hücumlarından qorunmaq üçün başqa icma üzvlərinin köməyinə möhtac idi. İnsanların müəyyən bir işi həyata keçirmək üçün öz səy, bacarıq və əmək alətlərini birləşdirərək birgə fəaliyyət göstərməsi – **əmək kooperasiyası** adlanır. Şübhəsiz, burada icma üzvlərinin **yaş**, **cins**, **sağlamlıq xüsusiyyətləri** nəzərə alınırdı ki, buna **təbii əmək** bölgüsü deyilir.

İbtidai-icma cəmiyyətinin ilkin dövrlərində kişilər vuruşmuş, ov etmiş, balıq tutmuş, ərzaq şeyləri əldə etmiş və bu işlər üçün zəruri olan alətləri hazırlamışlar. Qadınlar isə əsasən ev işləri ilə məşqul olmuşlar. Lakin tədricən icma quruluşunun təsərrüfat həyatında mühüm dəyişikliklər baş vermişdi.

İbtidai icma quruluşunun əmək alətləri **daş**, **ağac**, **sümükdən** hazırlanmış **bəsit** xarakteli, **az** məhsuldar, tez sıradan çıxan **daş balta**, **daş alət**, **ucluq taxılmış nizə**, **sümükdən hazırlanmış kəsici alətlər**, sonralar **ox**, **kaman**, **toxa**, **xış**, daha sonralar isə **mis**, **tunc**, **dəmir alətlər** olmuşdu.

Minillikləri əhatə edən ibtidai icma şəraitində tədricən oturaq həyata keçmək, qismən xüsusi mülkiyyətə sahib olmaq, qəbilə və tayfalar arasındakı müxtəlif təyinatlı məhsulların mübadiləsi, cəmiyyətdə **ictimai əmək bölgüsünün**, yəni peşə və sənətlə, əmək fəaliyyəti ilə bağlı sahələrin meydana çıxmasına səbəb olmuşdu.

Tarixdə **ilk**, **birinci** əmək bölgüsü ayrıca çoban tayfaların meydana çıxması və maldarlıqla əkinçiliyin biri-birindən ayrılmasıdır.

**İkinci** ictimai əmək bölgüsü cəmiyyətin inkişafı, istehsalın genişlənməsi, əmək alətlərinin təkmilləşməsi ilə bağlı, **sənətkarlığın maldarlıq və əkinçilikdən**, yəni kənd təsərrüfatından ayrılması olmuşdur.

Aparılmış arxeoloji qazıntılar və tapılmış maddi mədəniyyət abidələrinin izləri sübut edir ki, **birinci əmək bölgüsü** eramızdan 10 min il əvvəl Tailand ərazisinin şimal-

qərb hissəsində; Ön Asiya və Aralıq dənizi hövzəsinin sərgində; 6 min il əvvəl Hind-Çində; 5 min il əvvəl İran və Orta Asiyada; 4 min il əvvəl Nil çayı vadisində; 3 min il əvvəl Hindistanda; 2-3 min il əvvəl İndoneziya, Çin, Mərkəzi Amerika və Peruda baş vermişdi.

**İkinci əmək** bölgüsü, yəni sənətkarlığın əkinçilik və maldarlıqdan ayrılması isə eramızdan əvvəl ikinci minillikdə başlanaraq, ilk növbədə metallardan istifadə ilə bağlı olmuşdu.

* * *

**3.** Bəşəriyyətin siyasi, vətəndaş və iqtisadi tarixi müxtəlif cəmiyyətlərin bir-birini əvəz etməsi əsasında, fasiləsiz bir təbii proses kimi ardıcıllıqla getmişdir. Ümumdünya miqyasında vaxt etibarilə ən uzun bir müddəti əhatə etmiş ibtidai-icma quruluşu da, müəyyən zaman daxilində formalaşıb fəaliyyət göstərdikdən sonra tədricən pozulub dağılmağa və məhv olub sıradan çıxmağa başladı.

İbtidai-icma cəmiyyətində istehsalın zəif inkişaf etməsi və məhdudluğu üzündən orada insanların birgə əmək fəaliyyəti nəticəsində əldə olunmuş müxtəlif məhsullar, elə icma daxilində də bərabər bölgü qaydaları əsasında sərf olunmuşdu. Bu səbəbdən, həmin şəraitdə ayrı-ayrı məhsulların mübadiləsi üçün uzun müddət real iqtisadi zəmin olmamışdı. Lakin birinci ictimai əmək bölgüsü meydana gəldikdən sonra əvvəlki qapalılıq vəziyyəti köklü surətdə dəyişdi. Maldar (çoban) tayfaların əkinçilik məhsullarına, öz növbəsində əkinçiliklə məşğul olan tayfaların ət, süd, dəri, yun kimi məhsullara olan ehtiyacları, həmin məhsulların müxtəlif tayfalar arasında mübadiləsini zəruri etməklə yanaşı, eyni zamanda onların hazırladıqları məhsulların getdikcə artırırlmasına təkan vermişdi. Bu ilkin zəruri mübadilə münasibətləri, tədricən genişlənərək, ayrı-ayrı tayfalar, qəbilələr arasında müntəzəm iqtisadi əlaqələrə çevrilmişdi. Xüsusilə sənətkarlığın müstəqil

bir sahə kimi maldarlıq və əkinçilikdən ayrılması, insanların gil qablar hazırlanması, əl toxuculuğu ilə məşğul olmaları, daha sonralar metal əridilməsinə yiyələnərək nizə, balta, bel, toxa, mişar hazırlamaları ibtidai-icma quruluşunun həm məhsuldar qüvvələrinin inkişafında, həm də istehsal münasibətlərində yeni bir mərhələnin başlanğıcını qoydu.

Cəmiyyətin maddi-texniki bazasında baş verən kəmiyyət və keyfiyyət dəyişikləri, təbii olaraq onun ictimai quruluşunda da, mülkiyyət və bölğü münasibətlərində də, mübadilə və iqtisadi əlaqələr sistemində də yeni, fərqli meyllərin bərqərar olması ilə nəticələnmişdi. Xüsusi mülkiyyət və əmlak fərqlərinin artması, icmada ağsaqqal, kahin, şaman, hərbi rəhbər olan müxtəlif adamların öz mövqelərindən şəxsi varlanmaq üçün istifadə etmələri, icma yoxsullarının və əsir-girov götürülmüş insanların əməyindən faydalanmaları, həmin cəmiyyətin tədricən pozulması prosesini şərtləndirmişdi

İbtidai-icma cəmiyyətinin tədricən pozulması, getdikcə dağılıb məhv olması, bir sıra ciddi səbəblərlə bağlı olmuşdu. Həmin səbəblər aşağıdakılar idi:

a) cəmiyyətdə ictimai əmək bölgüsünün, yəni maldarlığın əkinçilikdən və sənətkarlığın əkinçilikdən, maldarlıqdan ayrılmasının dərinləşməsi;

b) müxtəlif maldar və əkinçi qəbilələr, yaxud qruplar arasında mubadilə, alış-veriş, alqı-satqı münasibətlərinin əvvəllərə nisbətən xeyli güclənməsi;

c) icma üzvləri arasında sərvət və mülkiyyət fərqlərinin meydana çıxması, habelə tədricən kəsginləşməsi;

ç) əmək alətlərinin getdikcə təkmilləşdirilərək, müxtəlif təyinatlı əkinçilik, maldarlıq, ovçuluq, sənətkarlıq məhsulları istehsalının artması;

d) əkin sahələrinin, iri mal-qara sürülərinin ayrı-ayrı ailələrin, yaxud Afrika ölkələrində qəbilə **ağsaqqalarının**, Qərbi Avropa ölkələrində **hərbi rəhbərlərin**, Şərq ölkələrində

**hakimlərin və din xadimlərinin** (kahinlərin) əlində cəmləşməsi;

e) əvvəllər mövcud olmuş icma üzvlərinin bərabərliyi prinsipinin getdikcə pozularaq, icmanın varlı və yoxsul təbəqələrə, sosial qruplara ayrılması, bölünməsi;

ə) icmanın varlı-imkanlı bir qrup adamının, yoxsul və borclu düşmüş adamları, habelə qəbilələr arası vuruşmalarda əsir düşənləri özlərinə qul (kölə) edərək, onların əməyindən müxtəlif işlərdə istifadə olunması.

Yuxarıda göstərilən səbəblər kompleksi, xüsusilə icma daxilində istehsalın inkişafı, əmək alətlərinin təkmilləşdirilməsi, icma mülkiyyətinin xüsusi mülkiyyətlə əvəz olunması, kollektiv (birgə) əməyin yerini fərdi əmək tətbiqinin tutması, icma daxilində təbəqələşmə prosesi, bəşəriyyət tarixində ilk ictimai quruluşun məhv olub, öz yerini quldarlıq cəmiyyətinə verməsinə səbəb olmuşdu.

Bəşəriyyət tarixində ilk ictimai-iqtisadi quruluş olmuş ibtidai icma cəmiyyətinin dağılaraq quldarlığa keçidi, eramızdan əvvəl 4-5 minillikləri əhatə edərək qədim **Mesopotamiyada**, **Misirdə**, **Çində**, **Yunanıstanda**, **Romada** baş vermişdi.

Maraqlıdır ki, bəzən ibtidai-icma cəmiyyətinin mahiyyəti, xüsusiyyətləri, onun vəşəriyyətin uzun bir tarixi təkamül prosesinin ilkin zəruri mərhələsi olması reallığı təhrif olunaraq, bu quruluş «qızıl əsr» kimi səciyyələndirilmiş, guya insanların o zaman «böyük zəhmət çəkmədən, qayğısız yaşamaları» haqqında (alman iqtisadçısı Byuxer, fransız maarifçisi Russo, rus iqtisadçısı və filosofu Bulqakov) müəyyən fikirlər söüləmişlər.

İbtidai-icma quruluşunun hərtərəfli obyektiv elmi-nəzəri təhlili göstərir ki, təbiət qüvvələri qarşısında aciz olan, qorxu və aclıq təhlükəsi altında yaşamış qədim əcdadlarımız, yalnız özlərinin gündəlik çətin əmək fəaliyyətləri sayəsində, ziddiyyətli, mürəkkəb təkamül yolu ilə irəliləyərək, ictimai-

iqtisadi inkişafın sonrakı daha mütərəqqi mərhələsi sayılan quldarlıq cəmiyyətinə keçə bilmişlər.

# Mövzu II.2. Quldarlıq cəmiyyəti şəraitində iqtisadi inkişaf

1. Quldarlıq quruluşunun meydana gəlməsi və səciyyəvi xüsusiyyətləri
2. Qədim Şərq ölkələrinin təsərrüfat həyatı və Asiya istehsal üsulu
3. Qədim Yunanıstan və Romanın iqtisadi inkişafı. Antik istehsal üsulu
4. Quldarlıq cəmiyyətinin ziddiyyətləri və iflası

* * *

**1.** Dünyanın və bəşəriyyətin tarixində quldarlıq quruluşu, yaxud cəmiyyəti **zorakılığa** əsaslanmış, qullarla qul sahibləri, yəni quldarlar arasındakı **barışmaz ziddiyyətlərlə**, insanın insan tərəfindən amansız istismarı ilə səciyyələnmişdir.

İbtidai icma cəmiyyətinin dağılaraq, quldarlıq quruluşuna keçməsi asan və bütün ölkələrdə eyni vaxtda baş verməmişdir. Məsələn, qədim Şərq ölkələrində hələ eramızdan əvvəl V-III minilliklərdə, Avropada eramızdan əvvəl V-IV yüzilliklərdə, digər bir sıra ölkələrdə isə xeyli sonralar quldarlıq formalaşmışdı.

Quldarlıq quruluşu bəşər cəmiyyətinin və onun təsərrüfat həyatının inkişafında ibtidai-icma quruluşuna nisbətən irəliyə, tərəqqiyə doğru atılmış yeni bir addım olmuşdu. Bu cəmiyyət xüsusi mülkiyyət münasibətlərinə əsaslanıb, iqtisadi əlaqələri xeyli genişləndirdiyindən, əməyin zorakılıq və amasız istismar formalarının tətbiq edilməsinə baxmayaraq, bütövlükdə istər Şərq, istərsə də Qərb ölkələrində məhsuldar qüvvələrin, habelə əmək məhsuldarlığının yüksəldilməsinə, şübhəsiz daha əlverişli imkanlar yaratmışdı.

Cəmiyyətin iqtisadi həyatındakı bu yenilik və tərəqqi meylləri özünü təkmilləşdirilmiş dəmir alətlərin müxtəlif təsərrüfat sahələrində tətbiqində, metal emalının sürətlə inkişaf edərək bədii sənətkarlığa çevrilməsində, çarxlı arabanın ixtirasında, taxtadan hazırlanmış gəmilər qayırılmasında, bəsit hərbi texniki vasitələrin inkişafında, incəsənət nümunələrində, yeni şəhərlərin salınmasında və onların özünəməxsus memarlıq tərtilatında göstərmişdi.

Quldarlıq quruluşunun ilk dövrlərində qulların əməyindən təsərrüfat həyatının nisbətən məhdud sahələrində istifadə olunduğu halda, tədricən onun tətbiq dairəsi genişlənmişdir. Bu proses isə cəmiyyətdə ictimai və əmlak bərabərsizliyini kəsginləşdirmiş, əhalinin varlılara və yoxsullara bölünərək təbəqələşməsini sürətləndirmiş, əsarətli şərtlərlə borc verən sələmçilik fəaliyyətinə geniş meydana açmışdı.

Bu quruluşun meydana çıxıb formalaşmasının başlıca səbəbləri kimi:

a) ictimai əmək bölgüsünün dərinləşməsini;

b) xüsusi mülkiyyətin rolunun artmasını;

c) əhalinin əmlak və sərvətinin qeyri-bərabərliyini;

ç) əsir düşmüş, yoxsullaşmış, borclu adamların əməyindən qul kimi istifadə olunmasını;

v) əvvəlki dövrlərə nisbətən daha çox məhsullar istehsalı və bunun nəticəsində mübadilə, ticarət əlaqələrinin sürətlə genişlənməsini göstərmək olar.

Quldarlıq şəraitində, cəmiyyətdə **üçüncü ictimai əmək bölgücü** baş vermiş və tacirlər təbəgəsi formalaşaraq, yüksəlməyə başlamışdır.

Müxtəlif təyinatlı məhsulların bilavasitə istehsalı ilə deyil, onların bir yerdən digərinə daşınaraq sırf alqı-satqısı ilə məşğul olan, alıcılarla satıcılar arasında vasitəçilik edən **tacirlər təbəqəsinin** meydana çıxıb fəaliyyət göstərməsi təsadüfi olmayıb, cəmiyyətdə baş vermiş ictimai əmək

bölgüsünün dərinləşməsi, təsərrüfat həyatında canlanma, istehsalın həcminin artması və onların mübadilə arazisi çərçivəsinin əhəmiyyətli dərəcədə genişlənməsi ilə bağlı olmuşdu.

Quldarlıq quruluşunun səciyyəvi cəhətlərindən biri, orada əhalinin təbəqələşməsi və xüsusi mülkiyyət əsasında əmlak bəlabərsizliyinin yaratdığı haqqsızlığı, hakim dairənin mənafeyini qorumaq üçün **dövlət hakimiyyətinin** meydana çıxması olmuşdu. Azlığın çoxluq üzərində ağalığını təmin etmiş dövlət, tədricən imtiyazlı (patrisi) təbəqənin geniş xalq kütləsi (plebnylər) üçün əsl zorakılıq və itaət aparatına çevrilmişdi.

Qeyd etmək lazımdır ki, quldarlıq cəmiyyətinin ilk mərhələlərində **patriarxal**, ev köləliyi (quldarlığı) formasında olmuşdur. Həmin şəraitdə qullar nisbətən azad idilər, onların əməyindən ev və yardımçı təsərrüfatlarda istifadə olunurdu. Bu təsərrüfat isə **natural** xarakter daşıyaraq, əsasən ailənin öz ehtiyac və tələblərini ödədiyindən, bazarla əlaqəsi yox idi, yaxud çox az idi. Mübadilə və alış-veriş natural, yəni məhsulların bir-biri ilə baş-başa dəyişdirilməsi formasında aparılmışdı.

Sonralar isə cəmiyyətin və onun iqtisadi əlaqələrinin, habelə başqa yerlərlə ticarət münasibətlərinin genişlənməsi nəticəsində, bütövlükdə qul əməyinə əsaslanan **klassik** quldarlıq istehsal üsulu əmələ gəlib qərarlaşmışdı.

*** * ***

**2.** Qədim Şərq xalqları, quldarlıq quruluşu mərhələsinə dünya tarixində birinci daxil olmuşlar. Şərqin geniş ərazisi və əlverişli iqlim, torpaq, təbii yeraltı-yerüstü sərvətləri, dəniz yolları, ticarət əlaqələri buranın Mesopotamiya, Misir, Hindistan, Çin və digər ölkələrində quldarlıq quruluşunun

formalaşmasına, habelə iri quldar dövlətlərin yaranıb, əsrlər boyu fəaliyyət göstərməsinə səbəb olmuşdu.

Həmin ölkələrdə quldarlıq quruluşunda müəyyən fərqli cəhətlər nəzərə çarpsa da, onlarda əsasən **patriarxal quldarlıq**, yaxud köləlk forması hökm sürmüşdür.

Qədim Şərqin Babilistan, Mesopotamiya, Misir kimi quldarlıq ölkələrində başlıca yaşayış mənbəyi sayılan torpaq üzərində əsasən **icma** və **dövlət** mülkiyyəti formaları geniş yayılmışdı. Əkinçilik isə Şərq ölkələrində iri suvarma (irriqasiya) sistemləri əsasında fəaliyyət göstərmişdi. Bu ölkələrdə torpağın becərilməsi, qul əməyindən mərkəzləşdirilmiş dövlət hakimiyyəti vasitəsilə istifadə etməyi bir zərurət kimi irəli sürmüşdü. Əsasən çay vadilərində yerləşən suvarılan əkinçilik işi bir sıra bəndlər qurmaq, kanallar çəkmək, göllər yaratmaq, bataqlıqları qurutmaq üçün xeyli əmək sərf olunmasını tələb edirdi. Şərqin bir sıra ölkələrində qulların müəyyən əmlakı və torpaq sahələri də olmuş, onların ailə qurmasına icazə verilmiş, habelə nisbi sərbəstliyinə imkan yaradılmışdı. Əkinçiliklə yanaşı, sənətkarlığın müxtəlif növlərinin geniş yayılıb inkişaf etməsi, torpağın dövlət məmurlarına, müəyyən adamlara icarəyə verilməsi və hərbiçilərə paylanması təcrübəsi, bu ölkələrdə əhalinin böyük bir hissəsinin dövlətə vergi ödəyən nisbətən sərbəst istehsalçılar kimi fəaliyyətinə imkan yaratmışdı. Eyni zamanda Şərqin quldarlıq ölkələrində din xadimlərinin, kahinlərin, məbədlərin, əsir düşənlərin, qul kimi satın alınanların və borcu olanların qul əməyi əsasında aparılan böyük torpaq sahələri olmuşdu.

Şərqdə formalaşmış quldarlıq quruluşu **Asiya istehsal üsulu** kimi səciyyələnir. Bu o deməkdir ki, torpaq üzərində bir növ **ümumi**, **kollektiv**, **icma** mülkiyyəti başlıca şərt olmuş, lakin torpağın yaradıcısı Tanrı, yer üzərində **sahibi**, **ağası**, **bölgüsünü** həyata keçirən isə dövlət, hakimiyyət və hakim sayılmışdır.

Quldarlıq quruluşunun təsərrüfat həyatı, əvvəlki dövrlərə nisbətən çox rəngarəng və zəngin olmuşdur. Kənd təsərrüfatı sürətlə inkişaf etmiş; dəmir əmək alətləri təkmilləşdirilmiş; sənətkarlığın müxtəlif sahələri, toxuculuq böyük uğurlar qazanmış; daxili-xarici ticarət əlaqələri genişlənmiş; şəhərlər salınmış, iri saraylar, məbədlər, suvarma kanalları inşa olunmuş; bu gün də insanları heyran edən Misir ehramları, Roma, Yunanıstan sənətkarlıq abidələri tikilmiş; elm, incəsənət, mədəniyyət öz dövrü üçün xeyli irəliləmişdir.

* * *

**3.** Qədim Yunanıstan və Romanın timsalında quldarlıq quruluşu özünün klassik inkişaf səviyyəsinə çatmışdı. Bu proses ilk növbədə əmtəə (məhsul) istehsalının artımı və müxtəlif səbəblər üzündən qula, köləyə çevrilmiş adamların sayının getdikcə sürətlə artması ilə əlaqədar olmuşdu.

Bu ölkələrdə quldarlıq quruluşu şəraitində quldarın adı istehsal vasitələri kimi qul üzərində də tam mülkiyyət hüququ olmuşdu. Qul sahibi öz istehsal vasitələri ilə bərabər, qulu da satışa çıxara, kiməsə bağışlaya, hətta öldürə bilərdi. Qədim dünyanın müxtəlif ölkələrinin qul bazarlarında onları adi bir əşya, iş heyvanı kimi alıb-satırdılar. K.Marks yazmışdı ki, kəl öz gördüyü işi satmadığı kimi, qul da öz işini qul sahibinə satmır, çünki «qul öz iş qüvvəsi ilə birlikdə həmişəlik öz ağasına satılmışdır».

Ağır əmək şəraitinə və ədalətsiz təhqirlərə dözməyərək etiraz edənləri, bu əsarətdən qaçmaq istəyənləri ibrət olsun deyə qul sahibləri damğalayır, böyunlarına dəmir xalta keçirir, lazım gəldikdə əl-ayaqlarını zəncirləyirdilər.

Quldarlıq quruluşu şəraitində iqtisadiyyatın əsas və aparıcı sahəsi kənd təsərrüfatı olsa da, lakin digər bir sıra sahələr də, xüsusilə sənətkarlıq, habelə ticarət əlaqələri də xeyli genişlənmişdi. Məsələn, o dövrdə Yunanıstanda qul əməyi

sənət və sənətkarlığın inkişafında geniş tətbiq edilmişdi. O zamanlar qul əməyi əsasında təşkil olunmuş iri sənətkarlıq emalat-
xanaları – **erqasteriya** adlanırdı. Eyni zamanda qul əməyindən tikinti işlərində, qızıl və gümüş mədənlərində, habelə digər sahələrdə, ev işlərində də geniş istifadə olunmuşdu.

Romada quldarlıq dövründə qul əməyindən ən çox kənd təsərrüfatında – əkinçilikdə, bağçılıqda, üzümçülükdə geniş istifadə olunmuşdu. Roma əyanlarının – **latifundiyalar** adlanan böyük malikanə və torpaq sahələrində yüzlərlə, hətta minlərlə qul işləyirdi. Bu latifundiyalar **kəndli** torpaqlarının, habelə boş dövlət torpaqlarının zəbt olunması yolu ilə yaradılmışdı.

Qədim Yunanıstan və Romada olmuş quldarlıq quruluşu – **Antik istehsal** üsulu adlanır. Onun başlıca xüsusiyyəti – qulun sərbəstliyinin məhdudlaşdırılması, onun amansız istismarı və hüquqlarının pozulub-tapdalanması olmuşdu.

Quldarlıq quruluşunda quldarların və azad adamların vətəndaşlıq, əmlak, siyasi üstünlükləri, onların bu üstün hüquqlarını qoruyub-saxlamaq üçün **dövlətin** (zorakılıq aparatının) yaradılmasını zəruri etmişdi. **Deməli**, dövlət hakim bir qrupun, qul sahiblərinin çoxsaylı qullar üzərində hakimiyyətini təmin etmək üçün meydana çıxmışdı.

Yunan tarixçisi Strabonun məlumatları və arxeoloji qazıntıların nəticəsində tapılmış maddi mədəniyyət abidələri belə bir fikir söyləməyə əsas verir ki, qədim Azərbaycan ərazisində əkinçilik, sənətkarlıq kimi sahələrdə **qul əməyindən** müəyyən səviyyədə istifadə olunmuşdur.

Lakin qədim Qafqaz və Azərbaycan ərazisində quldarlıq (köləlik) bir ictimai-iqtisadi quruluş (formasiya) kimi deyil, yalnız konkret təsərrüfat (uklad) forması kimi müəyyən sahələrdə, habelə dini məbəd, ehram, ziyarət yerlərində, müqəddəs sayılan ocaqlarda, onun ünsürləri fəaliyyət göstərmişdir.

Quldarlıq münasibətlərinin iqtisadi-ictimai bir quruluş, yaxud cəmiyyət kimi bu yerlərdə formalaşa bilməməsinin əsas səbəbi, təbii iqlim və yaşayış vasitələri əldə etməyin nisbətən asanlığı ilə yanaşı, nəsil-qəbilə quruluşu qalıqlarının daha güclü təsiri, habelə yerli əhalinin özünəməxsus psixoloji-mentalitet xüsusiyyətləri ilə bağlılığı olmuşdu.

* * *

**4.** Eramızdan əvvəl I-II yüzilliklərdə və eramızın əvvəllərində dünya miqyasında, yəni həm Şərqdə, həm də Qərbi Avropada minillikləri əhatə etmiş quldarlıq quruluşu böhran keçirərək tədricən dağılmağa başlamışdı. Həmin cəmiyyətin iqtisadi bir sistem kimi tənəzzülünə səbəb, bu istehsal üsulunun öz daxili potensial imkanlarının tükənməsi, antik quldar dövlətlərin apardıqları fasiləsiz müharibələr, köçəri tayfaların dağıdıcı basqınları, vaxtaşırı baş verən kütləvi xəstəliklər, əkin sahələrinin azalması meyli, sənətkarlıq məhsullarının keyfiyyətinin pisləşməsi, qullardan ibarət işçi qüvvəsi axınının kəsgin surətdə azalması və nəhayət qul əməyinin maraqsız bir zorakı məşğuliyyət kimi məhsuldarlıq səviyyəsinin aşağı düşməsi olmuşdu.

Obyektiv-subyektiv xarakterli bu mürəkkəb və ziddiyyətli proseslər, quldar şəhərlərin (polislərin) sosial-mədəni mərkəzlər kimi öz əvvəlki əhəmiyyətini tədricən itirməsi nəticəsində, şəhər əhalisinin ölkənin kənd yerlərinə «axını» başlanmışdı. Təbiiidir ki, belə bir vəziyyətdə şəhərlərin sosial-iqtisadi mərkəz kimi əhəmiyyəti azalmış, əksinə kəndlərin rolu xeyli artmağa başlamışdı. Beləliklə, quldarlıq quruluşu daxilində məntiqi surətdə yeni, – torpaq və onunla bağlı istehsal münasibətlərini şərtləndirən feodalizm ünsürləri formalaşmağa başlamışdı. Köləlik və zorakılıq üzərində qurulan quldarlıq cəmiyyətini, onun öz daxili ziddiyyətləri kökündən sarsıtdı.

Bu cəmiyətdə qullarla quldarlar, əqli əməklə fiziki əmək, şəhərlə kənd arasında getdikcə kəsginləşən ümumi ziddiyyətli vəziyyətin nəticəsi olan aşağıdakı səbəblər, quldarlıq quruluşunun ictimai-iqtisadi bir sistem kimi məhvini sürətləndirmişdi:

a) sahibi olduqları geniş torpaq sahələri və plantasiyalarda qulları amansız istismar edən quldarlarla qullar arasında gizli-açıq mübarizənin getdikcə güclənməsi nəticəsində, e.ə. 74-71-ci illərdə məşhur Spartak üsyanının baş verməsi;

b) cəmiyyətin inkişafının əsasını təşkil edən qul əməyinin getdikcə öz üstünlük və səmərəliliyini itirərək, maraqsız, həvəssiz bir məşğuliyyətə çevrilməsi;

c) quldar şəhərləri (polisləri) ilə ölkənin əyalətləri və **kolonat** adlanan icarədar ilə torpaq sahibləri arasında ziddiyyətlərin kəsginləşməsi;

ç) quldarlıq cəmiyyətinin mövcud olduğu ərazilərə bir sıra **köçəri** və **vəhşi tayfaların** vaxtaşırı dağıdıcı hucumlarının aramsız davam etməsi;

e) bu quruluşun hakim olduğu ölkələrdə tez-tez saray və hərbi çevrilişlərin baş verməsi;

ə) əvəllər başqa ölkələri zəbt edən quldar dövlətlərin, tədricən zəifləyərək, artıq özlərini müdafiə mövqelərinə keçməsi və ölkəyə ucuz qul əməyinin axıb gəlməsinin kəsqin surətdə azalması;

i) quldar şəhərlərində xeyli miqdarda yoxsullaşmış və dilənçiləşmiş insanlardan ibarət **narazı kütlənin** toplaşması, habelə onların hakimiyyətə qarşı çıxışları.

Deməli, ilk daxili inkişaf imkanlarını itirmiş quldarlıq cəmiyyəti, eramızın III-V əsrlərindən etibarən, tədricən öz yerini feodalizmə verməyə başlamışdı. Quldarlıq quruluşu ona görə dağıldı ki, bu cəmiyyətin əsasını təşkil edən istehsal üsulu, təsərrüfatçılıq formaları, iqtisadi cəhətdən səmərəsiz olmuş,

kobud əmək alətləri ilə işləməyə məcbur edilən qullar dözülməz vəziyyətə salınmışdılar.

Quldarlıq cəmiyyəti bəşəriyyətin tarixi inkişaf və tərəqqisində zəruri bir mərhələ olmuşdu. O dövrdə maldarlıqla yanaşı əkinçilik xeyli irəliləmiş, bağçılıq-meyvəçilik genişyayılmış, nəhəng suvarma şəbəkələri qurulmuş, iri şəhərlər inşa olunmuş, möhtəşəm məbədlər, ehramlar tikilmiş, yollar və körpülər salınmışdır. Qədim dünyada bir sıra bilik sahələri, xüsusilə riyaziyat, mexanika, astronomiya, fəlsəfə, hüquq elmləri öz dövrünə görə yüksək səviyyəyə çatmışdı. Quldarlıq dövrünün bədii ədəbiyyatı, mədəniyyət və incəsənət abidələri bəşər mədəniyyəti xəzinəsinin təkrarsız nümunələri, klassik əsərləridir. Təsadüfi deyildir ki, F.Engels minillikləri əhatə edərək, Şərq və Qərb ölkələrində hökm sürmüş quldarlığı səciyyələndirərək yazmışdır: «Biz heç bir vaxt unutmamalıyıq ki, bütün iqtisadi, siyasi və zehni inkişafımızın ilkin şərti elə bir quruluşdan ibarət olmuşdu… Həmin təməl olmasaydı müasir sivilizasiya da ola bilməzdi».

# Mövzu II.3. Feodalizm dövründə iqtisadi inkişaf

1. Feodalizm cəmiyyətinin əsas xüsusiyyətləri
2. Feodal şəhərlərinin meydana çıxması, sənətkarlıq və ticarətin inkişafı
3. «Böyük coğrafi kəşflər» və bunun iqtisadi-sosial nəticələri
4. Feodalizmin cəmiyyətinin dağılması səbəbləri

* * *

**1.** Tarix baxımından feodalizm quruluşu, quldarlıq cəmiyyətindən sonra və kapitalizmdən (azad sahibkarlıq) fəaliyyətindən əvvəl meydana çıxmış bir iqtisadi-ictimai quruluşdur. Ümümdünya tarixində təxminən 1500 illik bir dövrü (IV-XVIII əsrləri)əhatə etmiş feodalizm Şərqdə və Qərbdə yerləşən Çin, Hindistan, Yaponiya, Misir, Fransa, Almaniya, Hollandiya, İtaliya, İngiltərə, Rusiya kimi ölkələrdə, yerli xüsusiyyətlərə malik olsa da, onun əsasını feodalın torpaq üzərində tam, kəndli üzərində isə natamam mülkiyyəti, yəni kəndlinin torpaq sahibindən şəxsi asılılığı təşkil etmişdi. Kəndlilərin məhdud torpaq sahəsi və bəsit öz istehsal vasitələri olsa da, lakin onlar qeyri-iqtisadi məcbüriyyət üzündən feodalın (mülkədarın, senyorun, bəyin, xanın) mülkiyyətçisi sayıldığı torpaq sahələrində işləyib, onu əkib-becərib, əvəzini müxtəlif formalarda ödəməli idilər. Bu cəmiyyətə xas olan aşağıdakı ümumi cəhətləri göstərmək olar:

a) iri torpaq sahələrinin feodalların əlində olması;

b) kəndlilərin özlərinin müəyyən torpaq sahələrinin olması və onların əmək alətləri, yaşayış binaları, mal-qara üzərində fərdi mülkiyyətlərinin qalması;

c) feodalizm cəmiyyətində kəndlilər torpaq mülkiyyəti hüququna malik olmasalar da (həmin torpaq sahəsi feodala, hakimə, dövlətə, kilsəyə, məscidə məxsus ola bilərdi), lakin onu nəslən müxtəlif şətrlər əsasında, yəni işləyib ödəmək, məhsulun bir hissəsini torpaq sahibinə vermək, yaxud pulla ödəniş yolu ilə əkib-biçə bilməsi;

ç) feodalizm şəraitində müxtəlif ölkələrdə kəndlinin feodaldan şəxsi, hüquqi asılılığı (təhkimliçiliyi), torpaq baxımından asılılığı, kəndlilərin ümumiyyətlə hüquqsuzluğunun geniş yayılması;

e) feodalizmdə kənd təsərrüfatının ticarət, sənaye, sənətkarlıq üzərində hakim üstünlüyünün olması;

q) cəmiyyətin maddi-texniki bazasının bəsit və aşağı səviyyədə olması, dini təlimlərin geniş yayılması, elmi biliklərin zəif inkişafı, əl əməyinin üstünlüyü, fərdi təsərrüfatların geniş yer tutması.

Quldarlıq cəmiyyəti dağıldıqdan sonra dünyanın müxtəlif ölkələrində, müəyyən halları çıxmaq şərtiylə, torpaq sahələri icma (ümumi) mülkiyyətdə qalmış, meşələrdən, örüşlərdən, otlaqlardan, çay, dəniz və göllərin nemətlərindən birgə istifadə olunmuşdu.

Lakin getdikcə vəziyyət dəyişərək, kəsgin əmlak bərabərsizliyi yaranmış, torpaq üzərində xüsusi mülkiyyət meylləri güclənmiş, saray əyanılarına, döyüşçülərə, din xadimlərinə, məmurlara arxalanan hərbi başçılar tədricən hakimlərə, krallara, padşahlara, xəlifələrə çevrilmişlər. Onlar müxtəlif yollarla zəbt və işğal etdikləri geniş torpaq sahələrini öz hakimiyyətlərinin dayağı saydıqları adamlara paylayaraq, əvəzində onlardan «sədaqət və hərbi qulluq», – **vassallıq** tələb etmişlər. Bu cır şərtlərlə paylanmış torpaqlar **«feod»** (vərəsəlik əsasında torpağa, mülkə, əmlaka sahiblik) adlandırılmış və **feodalizm** sözü də buradan əmələ gəlmişdir.

Qeyd etmək lazımdır ki, elmi dövrləşdirmə baxımından **feodalizm** 3 böyük mərhələyə ayrılır:

– İlkin feodalizm – eramızın IV-V – IX-X əsrləri;

– İnkişaf etmiş (yüksələn feodalizm) – eramızın X-XIV əsrləri;

– Son, yaxud sonrakı feodalizm – XIV-XVIII əsrləri.

* * *

**2.** Feodalizm quruluşunun ilk dövrlərində, hələ quldarlıq cəmiyyəti vaxtında meydana çıxıb formalaşmış bir sıra şəhərlərin inkişafı xeyli zəifləmiş, bəziləri isə hətta süqut etmişdi. Lakin tədricən cəmiyyətdə baş verən iqtisadi canlanma, sənətkarlığın inkişafı, ticarət əlaqələrinin genişlənməsi, əhalinin sayının artması, təbii olaraq yeni yaşayış məskənlərinin, məntəqələrin, xırda, orta və iri şəhərlərin meydana çıxmasına səbəb olmuşdu.

İlk dövrlərdə kənd əhalisi arasından çıxmış bacarıqlı sənətkarlar və tacirlər, feodal malikanələri ətrafında, yollar ayrıcında, kilsə və məscidlərin ətrafında fəaliyyət göstərərək, həmin torpağın yaxud ərazinin sahibinə müəyyən miqdarda haqq verirdilər. Hətta iri feodalların qəsrlərində ağalar üçün müxtəlif məişət, bəzək əşyaları hazırlayan sənətkarlar, onlara ayrılmış xüsusi binada dərziliklə məşğul olur, dülgərlik edir, zərgərlik məmulatları hazırlayırdılar.

Feodalizmin sonrakı inkişafı, ictimai əmək bölgüsünün dərinləşməsi, iqtisadi-ticarət əlaqələrinin genişlənməsi, tədricən daha iri, əhəmiyyətli şəhərlərin formalaşmasına səbəb olmuşdu. Qeyd etmək lazımdır ki, IX-XIII əsrlərdə meydana çıxmış kiçik şəhərlərdə bir neçə min adam, orta şəhərlərdə 18-20 min nəfər, daha iri şəhərlərdə isə 80-100 min əhali yaşamışdı. Belə böyük şəhərlər sırasında Bağdadı, Şamı, Parisi, Milanı, Konstantinopolu (Stambulu), Florensiyanı, Sevilyanı, Kordovanı, Romanı, Londonu göstərmək olar.

Azərbaycanda eramızın III-IV əsrlərindən başlayaraq formalaşan və torpaq üzərində ağalıq münasibətlərinə

əsaslanan feodalizm cəmiyyətində, ölkənin təsərrüfat həyatının başlıca sahələrini – əkinçilik, maldarlıq, sənətkarlıq, meyvə-tərəvəzçilik, ticarət təşkil etmişdi.

Əlverişli coğrafi mövqeyə və zəngin sərvətlərə malik Azərbaycan torpaqlarını zəbt etmək üçün orta əsrlər boyu buraya sasanilərin, ərəblərin, monqolların, rusların zaman-zaman fasiləsiz dağıdıcı hücumları olmuşdu. Həmin basqın və müharibələr nəticəsində şəhər-kəndlər dağıdılmış, dinc əhali qırılmış, ölkənin iqtisadiyyyatının ayrı-ayrı sahələri ciddi zərər çəkmişdi.

Yüzillikləri əhatə etmiş feodalizm dövründə obyektiv – subyektiv səbəblərlə bağlı Azərbaycanın təsərrüfat həyatı kəsgin enib-qalxmalar yolu ilə getsə də, lakin ölkə əhalisinin məşğuliyyət peşəkarlığı, təsərrüfatçılıq təcrübəsi, əmək-zəhmət səyləri, torpağa bağlılığı, mədəni səviyyəsi nəticəsində məhsuldar qüvvələr inkişaf etmiş, Qəbələ, Beyləqan, Şamaxı, Təbriz, Gəncə, İsfahan, Dərbənd, Bakı, Şəki kimi şəhərlər mühüm sənətkarlıq-ticarət mərkəzləri kimi formalaşıb fəaliyyət göstərmişlər.

Feodalizm cəmiyyyətinin müəyyən mərhələsində Şərqdə və Qərbi Avropada yeni yaranmış şəhərlərin sahibi (senyoru), həmin şəhərin salındığı torpağın ağası (feodalı) hesab olunurdu. Həmin şəxs, o şəhərin idarəciçiliyi məsələlərində, vergilərin toplanmasında, məhkəmə işlərində böyük nüfuza malik idi. Lakin sonralar şəhərlər və onların əhalisinin varlı təbəqəsi müxtəlif yollarla (razılaşma, vergi ödənişi, mübarizə vasitəsiylə) tədricən nisbi, yaxud tam müstəqilliyə nail ola bilmişdilər.

Feodalizm şəraitində cəmiyyətin təsərrüfat həyatının əsas sahəsi kənd təsərrüfatı olsa da, getdikcə digər sahələrin, ilk növbədə sənətkarlığın, ticarətin ciddi irəliləyişi baş vermişdi. Bu isə ilk növbədə şəhərlərlə bağlı idi. Əmək alətlərinin təkmilləşdirilməsi və istehsal prosesində yeni material, habelə üsullardan istifadə edən sənətkarlar metal əridilməsi, müxtəlif

metalların emalı, dəmirçiliklə məşğul olmaq, silah qayırmaq, zinyət şeyləri hazırlamaq, müxtəlif parçalar toxumaq, geyim paltarları tikmək sahəsində xeyli təcrübə qazanaraq, mahir sənət ustalarına çevrilmişdilər.

Böyük şəhərlərin zərbxanalarında qızıl və gümüş metallardan hazırlanmış müxtəlif dəyərlərə malik pul nişanları (sikkələr) buraxılmışdı.

Sənətkarlar daha yaxşı işləmək və öz hüquqlarını qorumaq üçün **sexlər şəkilində** birləşərək fəaliyyət göstərirdilər. Həmin sexlər **eyni**, yaxud yaxın **peşədən** olan sənətkarları birləşdirirdi. Burada sənətkar ustalar və onun peşəsini öyrənən usta əlaltıları çalışırdı. Sexdə xammal əldə etmək, keyfiyyətli məhsul hazırlamaq, məhsula qiymət qoymaq sahəsində ciddi qaydalar qoyulmuşdu. Bütövlükdə sexi, onun sahibi sayılan **sex ustası** idarə edirdi.

Feodalizmdə torpağın sahibi, ağası – **seynor**, xırda torpaq sahibləri isə **vassal** adlanırdılar. Hakimiyyəti idarə edənlər **zədəganlar** təbəqəsini təşkil edirdilər. **Ruhanilər** isə böyük nüfuz  sahibi kimi iri torpaq sahibi idilər. **Kəndlilər** yaşadıqları torpağın sahibi olan feodala – mülkədara, eyni zamanda ən iri feodal sayılan **krala**, ölkənin hakiminə tabe idilər.

Feodal şəhərlərinin ən varlı hissəsi **tacirlər** olmuşdu. Sənətkarlıqla məşğul olan sexlərdəki qaydalara uyğun olaraq, şəhərlərdə **gildiya** təşkilatları fəaliyyət göstərmişdilər. İttifaq və birlik xarakteri daşıyan bu təşkilatlar, tacirlərin mənafelərini müdafiə etmişdi. Gildiya təşkilatlarının əsas vəzifələri:

– kənardan gələn tacirlərin yerli tacirlərlə rəqabətinə yol verməmək;

– ticarətdə ölçü və çəki vahidlərini qaydaya salaraq, bu işləri tənzimləmək;

– tacirlərin əldə etdikləri müəyyən imtiyazları və hüquqlarını feodalların müxtəlif qəsdlərindən, habelə özbaşınalığından qorumaq olmuşdu.

Əsasən şəhərlərdə yaşayan **tacirlər** və **sələmçilər** feodalizm cəmiyyətinin təsərrüfat həyatında, ölkənin daxili bazarının formalaşmasında, kəndlə şəhər arasında, yaxın-uzaq ölkələrlə ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynamışdılar. Təsadüfi deyildir ki, ilk bəsit banklar, sələmçilik fəaliyyəti, lombardlar, İtaliya, Hollandiya, Fransa kimi ölkələrdə orta əsrlərdə meydana çıxaraq, şəhərlərin, sənətkarlığın, ticarətin inkişafına xidmət etmişdir.

* * *

**3.** XV-XVI əsrlərdə Qərbi Avropa ölkələrində təsərrüfat həyatının inkişafı, Şərqdə türklərin ön Asiya və Balkanlarda əraziləri zəbt etmələri, Misir sultanlarının Qırmızı dəniz hövzəsində ticarəti öz ixtiyarlarında saxlaması, yeni ticarət yolları, alış-veriş bazarları axtarmağı irəli sürürdü. Eyni zamanda o dövrdə Avropada qızıl və gümüş pullara olan tələbat xeyli artsa da, həmin metal mədənləri Avropa ölkələrində çox məhdud idi. Başqa bir amil kimi XI-XIII əsrlərdəki «xaç, yaxud səlüb» yürüşlərindən sonra, hərbiçillikdən başqa digər sənətlərə həqarətlə yanaşan Portuqaliya, İspaniya və digər ölkələrin yoxsullaşmış zədəqanları, öz vəziyyətlərini yaxşılaşdırmaq, habelə şəhər sələmçilərinə olan borclarını qaytarmaq üçün yollar axtarırdılar.

Bu səbəblər nəticəsində Avropa ölkələrində yeni ticarət yolları açmaq, ölkələr zəbt etmək, qızıl-gümüş ələ keçirmək məqsədiylə müxtəlif dəniz səyahətləri, ekspedisiyaları təşkil edildi. Həmin uzunmüddətli və çətin səfərlər – Yerin kürə şəklində olması fikrinin sübut edilməsi, okeanlarda üzmək üçün xüsusi gəmilərin (karavellaların) yaradılması, kompasın və dəniz xəritələrinin təkmilləşdirilməsi, yeni coğrafi kəşflərlə nəticələndi.

«Böyük coğrafi kəşflər» dedikdə, 1492-ci ildə **Xristofor Kolumbun** Amerikanı kəşfi, 1497-1498-ci illərdə **Basko da Qamanın** Hindistana dəniz yolunu tapması, 1519-1521-ci illərdə **Fernanda Magellanın** Atlantik okeanından keçərək Asiya qitəsinə çatması nəzərdə tutulur.

Dünyanın təsərrüfat həyatı və iqtisadi əlaqələrində yeni bir mərhələ olmuş bu kəşflərin mühüm iqtisadi-sosial nəticələri kimi aşağıdakıları göstərmək mümkündür:

– Avropa dövlətlərinin tədricən Amerika, Cənub Şərqi Asiya, Okeaniya və Avstraliyadakı müəyyən əraziləri ələ keçirərək, bu yerlərin gələcək müstəmləkələrə çevrilməsinə zəmin yaratdı.

– Avropa, Afrika, Avstraliya, Amerika qitələrinin ticarət dəniz yollarının əlaqələndirilməsi nəticəsində, tədricən dünya bazarı formalaşmağa başladı.

– Yeni zəbt olunmuş ərazilərin ələ keçirilmiş sərvətlərinin, ilk növbədə qızıl və gümüşünün Avropa ölkələrinə daşınması, burada həmin metallara olan tələbin azalması nəticəsində, onların qiyməti kəsqin surətdə (10-15 dəfə) ucuzlaşdı. Kənd təsərrüfatının əsas istehsal sahəsi olan bu ölkələrdə, ərzaq və xammal məhsullarının qiymətlərinin isə cəmi 2-3 dəfə bahalaşması aşkar ziddiyyətli bir iqtisadi vəziyyət yaradaraq, «qiymətlər inqilabına» səbəb oldu.

– «Qiymətlər inqilabı» prosesi Avropa ölkələrində feodalların, kəndlilərin getdikcə müflüsləşməsinə, səbəb olduğu halda, şəhər burjuaziyasının isə təsərrüfat həyatında öz mövqelərini sürətlə möhkəmləndirilməsini təmin etdi.

– Böyük coğrafi kəşflər nəticəsində, dünyanın iqtisadi ticarət mərkəzi Aralıq dənizi hövzəsindən Atlantik okeanına keçdi. Ənənəvi ticarət yollarının, o cümlədən Şərqlə Qərb ölkələri arasında uzun əsrlər boyu əsas ticarət körpüsü rolunu oynamış Böyük İpək Yolu, İtaliyanın məşhur Genuya, Florensiya, Venetsiya kimi şəhərləri öz əvvəlki əhəmiyyətini itirərək, tənəzzülə uğradılar.

* * *

**4.** Bəşəriyyətin tarixi təkamül və iqtisadi-sosial inkişaf yolunda müəyyən bir mərhələ olmuş feodalizm quruluşu, özündən əvvəlki ibtidai-icma və quldarlıq cəmiyyətləri kimi tarixi-təbii qanunauyğunluqlar əsasında meydana çıxıb formalaşmış, təşəkkül taparaq yüksəlmiş, nəhayət yeni dövrün tələblərinə cavab verməyərək, öz daxili ziddiyyətləri, habelə xarici amillərin təsiri nəticəsində, tədricən yerini məntiqi surətdə daha mütərəqqi sayılan sərbəst sahibkarlıq fəaliyyəti (kapitalist) sisteminə vermişdir.

Şübhəsiz feodalizm quruluşu öz dövrünün məhsuldar qüvvələri və istehsal münasibətləri üçün daha geniş imkanlar yaratmış, ilk növbədə həm Şərq, həm də Qərb ölkələrində iqtisadiyyatın kənd təsərrüfatı, sənətkarlıq, ticarət kimi sahələri xeyli irəliləmişdi. Böyük coğrafi kəşflər dünyanın müxtəlif əraziləri arasında iqtisadi-ticarət əlaqələrini əhəmiyyətli dərəcədə genişləndirmiş, kompas kəşf olunmuş, coğrafi xəritələr tərtib edilmiş, kitab çapına başlanmışdır.

Ölkələrin təsərrüfat həyatını bürümüş bu meyllər, əvvəllər iqtisadi münasibət və əlaqələrdə əsas rol oynamış qapalı təsərrüfat tipindən, əmtəə-pul münasibətlərinə keçid üçün əlverişli şərait yaratmış, sələm kapitalının rolunu xeyli artırmışdı. Bu mənada, feodal qəsrlərinin divarlarını silahlar deyil, əmtəə-pul münasibətlərinin ölkənin təsərrüfat həyatında daha həlledici rol oynaması dağıtdı.

XVI əsrdən başlayaraq, dünya miqyasında feodalizm cəmiyyətinin daxilində elə ciddi, iqtisadi-ictimai dəyişikliklər baş verirdi ki, həmin proseslər torpaq üzərində **feodalların** ağalığına və milyonlarla kəndlilərin **yoxsulluğuna**, **hüquqsuzluğuna**, **istismarına**, habelə formalaşmaqda olan **yeni sahibkarlar** təbəqəsinin maraqlarına uyğun gəlmirdi. Həmin mərhələdə cəmiyyətin **məhsuldar qüvvələri** (insanlar və onların hərəkətə gətirdikləri istehsal vasitələri) ilə həmin

cəmiyyətin istehsal münasibətləri (mülkiyyət, sahibkarlıq, ağalıq və asılılıq) arasında ziddiyyətlər son dərəcədə kəsginləşmişdi.

Xüsusilə əmtəə-pul münasibətlərinin inkişafı sayəsində natural təsərrüfatın əmtəə təsərrüfatına çevrilməsi və bunun da öz növbəsində sərbəst sahibkarlıq (kapitalist) təsərrüfatına keçməsi, həmin prosesi sürətləndirmişdi. Bu ziddiyətlər isə bəzi ölkələrdə nisbətən dinc (təkamül yolu), bəzilərində isə kəndli çıxışları, üsyanları, burjua inqilabları (sıçrayışlar yolu) ilə həyata keçirilmişdi. Nəticədə, bəşəriyyət tarixində 1.500 illik bir dövrü əhatə etmiş **feodalizm cəmiyyətini**, azad (sərbəst) sahibkarlıq, yəni **kapitalizm quruluşu** əvəz etmişdir.

Feodalizm cəmiyyətinin dağılmasını şərtləndirən səbəblər arasında: ictimai əmək bölgüsünün daha da dərinləşməsini; ticarət və sələm kapitalının təsərrüfat həyatında rolunun artmasını; istehsalın yeni sahələrinin meydana çıxmasını; manufaktura sənayesinin inkişafını; sənətkarlığın müstəqil bir sahəyə çevrilməsini; şəhərlərin kənddən ayrılmasını və onların arasında ziddiyyətlərin kəsginləşməsini; Fransada «**Jakeriya**», İngiltərədə **Uot Tayler** (XIV əsr), Çexiyada **Jan Qusun** adı ilə bağlı antifeodal hərəkatını (XV əsr), Almaniyada **Tomas Münsterin** başçılığı ilə kəndli müharibəsini XVI əsr, Rusiyada **Stepan Razin** və **Yemelyan Puqaçovun** (XVII-XVIII əsrlər) hərəkatlarını; Çində kəndli müharibələri və üsyanlarını; Niderland (XVI əsr), İngiltərə (XVII əsr), Fransa (XVIII əsr) burjua inqilablarını; **ilkin kapital yığımı**, yəni kəndlilərin torpaqlarının zorakılıq, yaxud digər üsullarla əllərindən alınması («çəpərləmələr» hadisəsi) və müstəmləkələrin qarət edilməsini göstərmək olar. Feodalizm cəmiyyətinin bütün hökmranlığı dövründə, onun ədalətsiz istehsal və bölgü prinsiplərinə qarşı aşkar-gizli, bəzən din pərdəsi altında, bəzən də üsyan formasında genişlənmiş xalq kütlələrinin etiraz çıxışları, xüsusilə bu quruluşun son

mərhələsində daha kəsgin bir xarakter alaraq, möhkəmlənməkdə olan burjua münasibətlərinə yönəlmişdi.

Bütün bu obyektiv və subyektiv səbəblər üzündən cəmiyyətdə, onun ictimai-siyasi, iqtisadi-sosial, mənəvi-əxlaqi həyatında baş verən proseslər, feodalizmdən yeni bir quruluşa, kapitalizmə keçməyə əlverişli şərait yaratdı.

# Mövzu III. Kapitalizm quruluşu

## Mövzu III.1. İlkin kapital yığımı prosesi

1. İlkin kapital yığımının mahiyyəti və mənbələri
2. İlkin kapital yığımı prosesinin gedişi və iqtisadi-sosial nəticələri

* * *

**1.** Feodalizm cəmiyyətinin daxilində tədricən alqı-satqı, yəni əmtəə-pul münasibətlərinin genişlənməsi, müxtəlif əmtəə istehsalçılarının təbəqələşməsi, manufaktura müəssisələrinin (sexlərin) meydana çıxıb güclənməsinə səbəb olmuşdu.

Feodalizm quruluşunun daxilindən yetişib, həmin cəmiyyətin yerini tutmuş kapitalist istehsal üsulunun formalaşması üçün 2 şərtin olması zəruridir. **Birincisi**, istiehsal vasitələrindən, yaşayış imkanlarından məhrum olmuş, yaxud zorakı yollarla həmin imkanları itirmiş yoxsul insanlar olmalıdır. Belə yüz minlərlə insan kütləsi yaşayıb dolanmaq və ailəsini saxlamaq üçün iri torpaq sahiblərinə, müəssisələrin ağalarına (mülkiyyətçilərinə) işləməlidirlər. **İkincisi**, daha iri müəssisələr, zavodlar, fabriklər, gəmi tərsanələri (emalatxanaları) yaratmaq üçün lazım olan **pul-kapital** sərvətlərinin bir qrup iş adamlarının (biznes – sahibkarlıq fəaliyyəti ilə məşğul olanların) əlində toplanmalı idi. Bəzən bəşəriyyətin iqtisadi tarixində mühüm, habelə zəruri bir proses kimi səciyyələnən ilkin kapital yığımının əsl məqsəd və mahiyyəti, həyata keçirilməsi üsulları, doğurduğu son iqtisadi-sosial nəticələr düzgun şərhi olunmayaraq, belə fikirlər irəli sürülür ki, guya hələ qədim zamanlardan bir dəstə çalışqan, qənaətcil insanlar öz səyləri nəticəsində var-dövlət toplayıb,

böyük sərvət sahibi olmuşlar. Əksinə, başqaları isə elə əvvəllərdən tənbəllik etmiş, avaraçılıqla məşğul olmuş və nəticə etibarilə yoxsullaşmışlar…

İqtisadi tarixin müxtəlif ölkələrin timsalında gedişinin obyektiv elmi təhlili göstərir ki, əslində dünya miqyasında, ilk növbədə Avropada sərt qayda-qanunlarla aparılmış, yüz minlərlə adamın zorakılıqla istehsal və yaşayış vasitələrindən məhrum edilməsi (ayrı salınması), yəni ilkin kapital yığımı prosesi, son dərəcə amansızlıqla həyata keçirilmişdi.

Belə sərt şərtlər əsasında həyata keçirilən ilkin kapital yığımı, dünyanın müxtəlif ölkələrində, o cümlədən İngiltərədə «çəpərlənmə»; Rusiyada təhkimli kəndlilərin öz torpaqlarından ayrı salınıb əllərindən alınması; əhalinin bir hissəsinin başqa yerlərə köçürülməsi ilə səciyyələnmişdir. Təsadüfi deyilməmişdir ki, «ilkin kapital yığımı bəşəriyyətin tarixinə qılınc və qanla, alov və zorakılıqla yazılmışdır» (K.Marks).

Hələ kapitalist istehsalından xeyli əvvəl baş verib, onun meydana çıxması üçün zəruri şərt sayılan ilkin kapital yığımı prosesi, XV əsrin sonlarından İngiltərədə kəndlilərin kütləvi surətdə zorakılıqla torpaqlarının əvvəllərindən alınması (torpaqsızlaşdırılması) kimi ədalətsiz addımlardan başlayaraq, sonralar da amansızlıqla davam etmişdir. Bu mənada İngiltərə, kəndlilərin və xırda sənətkarların öz mülkiyyətindən, torpaq sahəsindən məhrum edilməsinin «klassik nümunəsi» sayıla bilər.

Ölkənin iri mahud manufakturalarının xammalı olan yuna artan tələbi, bu prosesə ciddi təsir göstərmişdi. Feodallar, mülk və torpaq sahibləri, gəlirli bir təsərrüfat sahəsinə çevrilən qoyunçuluğa böyük maraq göstərərək, iri sürülər saxlamağa başladılar. Bu fəaliyyət və məşğuliyyət növü müəyyən ərazi tələb etdiyindən, feodallar kəndliləri müxtəlif yollarla öz yurd-yuvalarından çıxarır, kütləvi halda qovur, «etiraz çıxışlarını və əhalinin müqavimətini» aradan qaldırmaq bəhanəsi altında, lazım gəldikdə dövlətin silahlı qüvvələrini köməyə çağırır,

həyasızlıqla əkinə yararlı sahələri zəbt edərək otlaqlara çevirirdilər. Məşhur «qoyunlar adamları yedilər» ifadəsi də, məhz kəndlilərin əvvəllər sərbəst istifadə etdikləri torpaqlardan zorakılıqla çıxarılaraq, onların səfil və dilənçi vəziyyətinə salınması dövründə meydana çıxmışdı.

Avropanın digər ölkələrinə nisbətən kapitalist inkişaf yoluna gec daxil olmuş Rusiyada və onun işğal etdiyi ərazilərdə, o cümlədən də Qafqazda istehsalçıların istehsal vasitələrindən ayrı salınması, yaxud əllərindən alınması bir qədər fərqli baş verərək, 1861-ci il kəndli islahatı nəticəsində, təhkimçilik hüququnun ləğvindən sonra daha intensiv surətdə getmişdir. Ona görə də həmin islahatı və onun nəticələrini, əkinçilikdə formalaşmaqda olan kapitalizmin mənafeyi naminə, kəndlilər üzərində aşkar kütləvi zorakılıq kimi səciyyələndirmək lazımdır. Çunki həmin islahat və sonrakı addımlardan məqsəd, – kapitalizm üçün mülkədar üsulu ilə «torpaqların təmizlənməsi» olmuşdu.

Kapitalizmin tədricən inkişaf etməkdə olduğu ölkələrdə kəndlilərin torpaq sahələrindən məhrum edilməsi 2 nəticə ilə yekunlaşdı. **Əvvələn**, iri mülkədarların geniş torpaq sahələri nəinki olduğu kimi qaldı, hətta kəndlilərdən qoparılıb alınmış **«kəsiklər»** hesabına artaraq, onlara əlavə renta şəklində müəyyən gəlir əldə etməyə imkan yaratdı. Eyni zamanda vərəsəlik hüququ əsasında ənənəvi feodal mülkiyyəti tədricən dönüb, onun transformasiyası əsasında burjua (kapitalist) mülkiyyəti oldu. **Sonra** isə kəndlilərin, sənətkarların öz torpaq və əmlaklarını itirməsi, onları kapitalistlərin yaratdıqları müxtəlif zavod-fabriklərdə çalışmaq üçün ucuz muzdlu iş qüvvəsinə çevirdi. Digər tərəfdən, hələ orta əsrlərdən başlayaraq tacirlər və sələmçilər təbəqəsinin müxtəlif yollarla topladıqları sərvət, sonralar bir sıra kapitalist müəssisələrinin inşasına, yenidən qurulmasına, yaxud alqı-satqısına yönəldilmişdi.

Kapitalist istehsal üsulu üçün zəruri olan ilkin kapital yığımı prosesi gedişində, böyük coğrafi kəşflərdən sonra müstəmləkə ərazilərinin zəngin sərvətlərinin ələ keçirilməsi, ticarət əlaqələrinin, xüsusilə qul alverinin genişlənməsi mühüm rol oynamışdır.

Amerika qitəsinin kəşfindən sonra dünyanın müxtəlif ölkələrindən, ilk növbədə isə Avropadan buraya axışan sərvət düşğünləri, yerli əhalini hər vasitə ilə sıxışdıraraq geniş ərazi sahələrini ələ keçirmiş, qızıl-gümüş mədənlərini talan etmiş, qul alveri ilə məşğul olaraq ilkin var-dövlət toplamışlar.

Dünya miqyasında tədricən formalaşan burjuaziyanın ilkin kapital yığımının mühüm mənbələrindən biri, zəbt olunmuş müstəmləkələrdə yerli əhalinin əməyinin amansız istismarı, bu ərazilərlə aparılan ticarət əlaqələrinin qeyri-ekvivalent (qeyri-bərabər) dəyər xarakteri daşıması, dəniz quldurluğunun geniş yayılması, Avropa tacirlərinin Afrika ölkələrində zənciləri «ovlayıb», qul kimi bir sıra ölkələrin, ilk növbədə Amerikanın iri pambıq plantasiyaları sahiblərinə satılması olmuşdu.

Dənizaşarı müstəmləkə ölkələri ilə ticarət əlaqələrini genişləndirmək məqsədilə, başqa vasitələrdən də istifadə olunmuşdu. Məsələn, hollandiyalı, ingilis və fransız tacirləri XVI əsrdə Hindistanla daha müntəzəm və etibarlı ticarət aparmaq məqsədiylə Ost-Hind şirkətini təşkil etmişdilər. Bu şirkətin geniş şəbəkəsi vasitəsilə avropalı tacirlər Hindistanla yanaşı, Cənub-şərqi Asiya və Çinlə işgüzar ticarət əlaqələri quraraq, mərkəzləşdirilmiş qaydada bu ərazilərdə istehsal olunmuş parça, iplik, indiqo, ipək, çay, tiryək, müxtəlif sənətkarlıq, habelə kənd təsərrüfatı məhsullarının həm region (bölgə) daxilində, həm də Avropa ölkələrində alqı-satqısını öz nəzarətlərinə keçirmişdilər.

Tədricən siyasiləşən və İngiltərə, Hollandiya, Fransa hökumətləri tərəfindən himayədarlıq edilərək, yardım göstərilən bu şirkətlər şəbəkəsi, müstəmləkə malları ilə ticarət

inhisarını öz əllərində saxladıqlarından, onların gəlirləri ildən-ilə artaraq, çox böyük bir məbləğ təşkil etmişdi.

Rusiyada isə dövlətin xüsusi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlardan müəyyən məbləğ alaraq xəz, şərab, duz və digər məhsulların istehsalını, habelə satışını onların ixtiyarına verməsi təcrubəsi, şubhəsiz tacirlərə böyük mənfəət gətirərək, ölkədə ilkin kapital yığımı prosesində müəyən rol oynamışdı.

Beləliklə istər ayrı-ayrı ölkələrdə, istərsə də dünya təsərrüfat həyatı təcrübəsində müəyyən fərqli cəhət və üsullarla getsə də, ümumi zəruri tarixi bir proses kimi xırda əmtəə istehsalçılarının (kəndlilərin, sənətkarların) əmlak – mülkiyyətdən sərt zorakılıqla məhrum edilməsi, təbii qanunauyğun meyl olmuşdur.

Kəndlilərin torpaq sahələrinin «çəpərlənərək» onların əlindən zorla alınması, başqa ərazilərin zəbt olunaraq müstəmləkələr kimi talam edilməsi, dənizaşarı torpaqların əhalisinin əsarət altına alınaraq qul vəziyyətinə salınması, yeni tipli kapitalist əmək intizamı qaydalarının amansız üsullarla həyata keçirilməsi, dünya miqyasında ilkin kapital yığımı prosesinin formaca müxtəlif, mahiyyətcə isə eyni dərəcədə əzablı səhifələri, hadisələri olmuşdur. K.Marksın yazdığı kimi, həqiqətən «yenicə doğulan kapital, təpədən-dırnağa qədər qan və çirkab içindədir».

Bütün bunlardan göründüyü kimi yeni bir iqtisadi münasibətlər sistemi kimi formalaşan sərbəst sahibkarlıq fəaliyyəti (kapitalizm) cəmiyyəti qan-qada və haqq-ədaləti tapdalamaq qaydaları içərisindən yetişib, sərt rəqabət və kəsgin bərabərsizlik prinsipləri təməlində inkişaf edərək, sürətlə yüksəlmişdir. Bu mürəkkəb və ziddiyyətli proses müxtəlif ölkələrin konkret ictimai-iqtisadi, habelə sosial-mədəni inkişaf səviyyəsindən asılı olaraq, rəngarəngliyi ilə seçilsə də, son məqsəd etibarilə yeni ictimai-iqtisadi bir quruluşun, – kapitalizm cəmiyyətinin formalaşmasına xidmət etmişdir.

* * *

**2.** Kapitalizm cəmiyyəti və onun əsasını, təməlini təşkil edən kapitalist istehsal üsulu öz tarixi yüksəlişində – **sadə kooperasiya**, **manufaktura** və **maşınlı iri sənaye mərhələlərini** keçmişdir. Bu tarixi mərhələlərin birinin digərinə keçməsi nəticəsində, əməyin kapital sahiblərinə formal tabeliyi, işçinin real tabeliyi ilə əvəz olunmuş və fəhlənin kapitalistdən asılılığı sanki görünməz, lakin məcburi tellərlə bağlanmışdı.

**Kapitalist sadə kooperasiyası** – əməyin ictimailçəşdirilməsinin, yaxud birgə fəaliyyət nəticəsində ümumiləşdirilməsinin elə bir formasıdır ki, burada eyni işi görən xeyli adam çalışaraq, sahibkardan (kapitalistdən, ağadan, mülkiyyətçidən) öz əməyinə görə haqq alır, yaxud muzdla işləyir. Şübhəsiz, kapitalist sadə kooperasiyası, ayrı-ayrılıqda işləyərək, eyni adlı məhsullar hazırlayan xırda əmtəə istehsalından xeyli üstün və səmərəli idi. Çünki bu tipli istehsal binalara, alətlərə, xammalın daşınmasına, hazır məhsulların anbarlarda saxlanmasına, təkrar əlavə xərclərə qənaət olunmasına imkan yaratmışdı. Eyni zamanda əmək məhsuldarlığını xeyli yüksəldərək, bəndlərin inşasına, dəmir yolları çəkilməsinə, bataqlıq sahələrin qurudulmasına, məhsulun tez yığılmasına şərait yaradırdı.

Qeyd etmək lazımdır ki, əmək kooperasiyası hələ quldarlıq və feodalizm cəmiyyətlərində də bəsit şəkildə fəaliyyət göstərməsinə baxmayaraq, ondan müntəzəm surətdə deyil, yeri gəldikcə bir sıra işləri həyata keçirmək üçün istifadə olunmuşdu. Kapitalist cəmiyyətinin **ilk çıxış nöqtəsi sayılan** əmək kooperasiyası, tədricən bu quruluşda əməyin (kollektiv) tətbiqinin hökmran formasına çevrildi.

Əməyin yeni əsaslar üzərində kooperativləşdirilmsəsi, tədricən əmək məhsuldarlığının artması, fəhlələrin peşə-sənət qabiliyyətlərinin yüksəlməsi sayəsində xammal-materiallara

qənaət edilməyə başlandı, nisbətən daha ucuz məhsulların istehsalı mümkün oldu, işçilərin müxtəlif yollarla istismarı hesabına kapitalistlərin mənfəəti sürətlə çoxaldı.

Beləliklə «bir çox şəxsin eyni bir istehsal prosesində və ya müxtəlif, lakin bir-birilə əlaqədar olan istehsal proseslərində müntəzəm şəkildə yanaşı işlədiyi və qarşılıqlı təsir göstərdiyi» (K.Marks) kapitalist sadə kooperasiyası, bu istehsal üsulunun təməl pilləsi olmuşdur.

**Kapitalizmin manufaktura dövrü** – əmək bölgüsünün olması və müəyyən texnikaya, yaxud texniki bazaya əsaslanmasə ilə səciyyələnir. Kapitalist istehsalının **manufaktura** forması Qərbi Avropada və Rusiyada XVI-XVIII əsrlərdə hökm sürmüşdür.

Tarixən kapitalist manufakturası 2 yolla formalaşmışdır və öz daxili quruluşuna görə **heterogen və üzvi** manufakturalara ayrılmışdır. Manufakturanın ikili xarakteri orada istehsal edilən məhsulun hazırlanması prosesinin xüsusiyətləri və texnologiyası ilə bağlı olmuşdur. **Heterogen** tipli manufakturada hazırlanan məhsul, onun müxtəlif hissələrinin, ayrı-ayrı əməliyyatlarının mexaniki surətdə birləşdirilməsi yolu ilə yaradılmışdı. Məsələn, kareta və saat istehsalı bu formaya nümunə ola bilər. **Üzvi** manufakturada isə istehsal olunan məhsullar, bir sıra ardıcıl əməliyyatlarının nəticəsində hazırlanırdı. Məişətdə geniş istifadə olunan tikiş iynəsi, sancaq və digər məhsulların hazırlanması buna misal ola bilər. Sancaq istehsal edən manufakturada adi məftilin hazır məhsula çevrilməsi prosesi, müxtəlif əməliyyatları ardıcıllıqla həyata keçirən 72, bəzən isə hətta 92 nəfər dar ixtisasa malik fəhlənin əlindən keçməli idi.

Kapitalizmin manufaktura mərhələsində baş vermiş əmək bölgüsü, cəmiyyətin iqtisadi inkişafı üçün mütərəqqi bir meyl daşısa da, lakin digər tərəfdən kapitalın əmək üzərində

ağalığının nisbətən mədəni və daha incə istismar aləti rolunu oynamışdır. Burada əmək məhsuldarlığının yüksəldilməsi, fəhlənin fiziki və mənəvi mənada şikəst edilməsi hesabına əldə olunmuşdu.

Manufaktura dövründə sahibkardan alınan xammal və materiallarla evdə muzdla məhsul hazırlanması (kapitalist üsulu ilə evdə iş) forması, başqa ölkələrlə yanaşı, Qafqazda, o cümlədən də Azərbaycanda, xüsusilə ipəkçilikdə, sənətkarlıqda geniş yayılmışdı.

Manufakturanın əlavəsi kimi meydana çıxmış bu forma, ticarət kapitalının xırda əmtəə təsərrüfatına nüfuz edib, onun kapitalist istehsalına çevrilməsi ilə nəticəlndi.

Manufakturalarda əmək bölgüsünün olması və texnikadan istifadə edilməsi nəticəsində istehsal xeyli artmış, daxili bazar genişlənmiş, evdə kapitalist üsulu ilə müəyyən işin müzdla yerinə yetirilməsi geniş yayılmışdı. Bu şərtlər, manufaktura istehsalından **iri maşınlı istehsala** keçmək üçün əlverişli zəmin yaratdı.

**Kapitalizmin maşınlı iri istehsala** keçməsi **sənaye inqilabı ilə** bağlı olmuşdur. Bu dövr XVIII əsrin sonlarından başlayaraq, XIX əsr ərzində ilk növbədə İngiltərədə, sonralar isə Almaniyada, Fransada, İtaliyada, daha sonra ABŞ, Rusiya, habelə digər ölkələrdə baş vermişdir.

Kapitalizmin takamül və inkişaf yolu ilə yaratdığı istehsalın məntiqi nəticəsi kimi təkmilləşmiş yeni maddi-texniki baza əsasında iri maşınlı fabrik-zavod, sənaye mərhələsinə keçidi, cəmiyyətin təsərrüfat həyatında ciddi kəmiyyət, habelə keyfiyyət dəyişikləri ilə səciyyələnmişdir.

Manufaktura dövründə çevrilişin başlanğıc nöqtəsini iş qüvvəsi (insan amili) təşkil etdiyi halda, iri maşınlı sənaye istehsalı şəraitində ağırlıq mərkəzi – əmək vasitələrinə keçmişdi.

Beləliklə maşın və texniki vasitələr, əmək məhsuldarlığını yüksəltməyin və cəmiyyətin sərvətinin

artırılmasının həlledici amilinə çevrildi. İri maşınlı istehsal əsasında qurulan müəssisələr, fəhləni maşının canlı əlavəsinə çevirərək, əmə-yin gərginliyini artırmış və bu məqsədlə təkcə yaşlı işçilərin deyil, daha ucuz başa gələn qadınların, yeniyetmələrin, hətta azyaşlı uşaqların da əməyindən geniş miqyasda, həm də amansızlıqla faydalanan sahibkarlara mənfəət əldə etməyə əlverişli şərait yaratmışdı.

Klassik kapitalizm münasibətləri kimi səciyyələnən bu tarixi dövr, ümumdünya miqyasında cəmiyyət həyatının bütün sahələrində, xüsusilə iqtisadiyyatda məhsuldar qüvvələrin yeni texniki baza və mütərəqqi texnologiya təməlində qurulmasını təmin etdi.

# Mövzu III.2. İngiltərədə «sənaye çevrilişi» və bunun iqtisadi-sosial nəticələri

1. İngiltərədə «sənaye çevrilişini» şərtləndirən səbəblər
2. Sənaye çevrilişinin dünyanın digər ölkələrinin iqtisadi inkişafına təsiri
3. Kənd təsərrüfatda kapitalizmin inkişaf xüsusiyyətləri və aqrar bölmənin iki inkişaf yolu

* * *

**1.** XVIII əsrin 60-cı illərindən İngiltərədə, Qərbi Avropa ölkələri arasında ilk olaraq «sənaye inqilabı», yaxud «sənaye çevrilişi» başlanmışdı.

«Sənaye inqilabı»nın məhz İngiltərədə baş verməsinn, şübhəsiz ictimai-siyasi və iqtisadi-sosial səbəbləri, amilləri olmuşdu.

Bu tarixi səbəblər sırasında XVII əsrdə baş vermiş və ölkədə feodalizm münasibətlərini dağıtmış burjua **inqilabını**, **kəndlilərin təbəqələşməsini**, **kənd təsərrüfatı istehsalının kapitalist inkişaf yoluna keçməsini, zəbt olunmuş müstəmləkə ərazilərinin zəngin sərvətlərinin soyulub talan edilməsini, ticarət əlaqələrinin genişlənməsini və bütün bunların nəticəsində xeyli ilkin kapital üığımı toplanması prosesini göstərmək olar**.

İngiltərədə «sənaye çevrilişi»ni şərtləndirən amillər sırasında **daxili və xarici rəqabət** mübarizəsi də mühüm rol oynamışdı. O dövrdə dünya bazarında Hollandiya, İsveç, Hindistan, Rusiyanın müxtəlif metallardan hazırlanmış məmulatları, toxuculuq və əl əməyinə əsaslanmış sənətkarlıq məhsulları, ingilis malları ilə ciddi rəqabət aparırdı.

Aydındır ki, geniş əraziyə, kifayət qədər zəngin təbii sərvətlərə, ucuz iş qüvvəsinə malik olan həmin ölkələrə dünya bazarında üstünlük göstərmək və tədricən qalib gəlmək üçün, hökmən yeni **texnika**, habelə **texnologiyaya** əsaslanan maşınlı **fabrik-zavod** istehsalına **keçmək tələb olunurdu**.

Əsasən əl əməyinə arxalanan **manufaktura** tipli istehsaldan, yeni tipli fabrik-zavod isçtehsalı mərhələsinə **keçid zərurəti**, ilk növbədə **elm və** texnikanı inkişaf etdirərək, onun nailiyyətlərini uğurla istehsalda tətbiq etməyi irəli sürürdü.

Həyatın və istehsalın tələbatları, İngiltərədə nəzəri, habelə təcrübi (praktik, tətbiqi) elmlərin inkişafına güclü təkan verdi.

1733-cü ildə burada mexanik **Con Key** tərəfindən toxuculuq sənayesində böyük dəyişiklik yaradaraq, əmək məhsuldarlığını dəfələrlə yüksəldən «uçan məkik» adlı öz dövrü üçün son dərəcədə əhəmiyyətli olan əsl texniki yenilik, 1738-ci ildə ilk əyirici maşın yaradıldı. 1765-ci ildə toxucu G.Harqrivs tərəfindən ixtiva olunan «Genni» adlanan texniki cəhrə, eyni vaxtda 20-dək sapın dartılmasına və burulmasına imkan yaratdı. 1785-ci ildə **E.Kartrayt** mexaniki toxucu dəzgah yaratdı. Bu texniki yenilik, toxucu dəzgahın məhsuldarlığını keyfiyyətcə yeni bir mərhələyə qaldıraraq, onu 40 dəfə artırmağa imkan verdi. 1756-cı ildə **A.Debri çuğunun** yeni, daha keyfiyyətli növlərini kəşf etdi. 1769-cu ildə **Geyms Uaat** buxar maşınını (mühərrikini) kəşf etdi. O, sonrakı 15 il ərzində bu sahədə təkmilləşdirmələr apararaq, 1784-cü ildə universal buxar maşını yaratdı. 1837-ci ildə U.Kuk və G.Uniston elektromaqnit teleqrafını kəşf etdikləri üçün **xüsusi patent aldılar**.

İngiltərədə **əyiricilik**, **toxuculuq**, **pambıq-parça** istehsalından başlayaraq, ölkədə «sənaye çevrilişi» tədricən digər sahələrə də ciddi təsir göstərmişdi. Bu ilk növbədə metallurgiya, metal emalı və maşınqayırma kimi sənaye sahələrinə aid olmuşdu.

Sonrakı dövrdə elmi-texniki nailiyyətlərin təkcə sənayedə deyil, kənd təsərrüfatı, tikinti, şəhərsalınma, gəmiçilik, dəmir yolu sahələrində də tətbiqi böyük dəyişikliklər yaratmışdı.

Cənubi Uelsdə, Şotlandiyada, Yorkşirdə yeni daş kömür hövzələrinin istifadəyə verilməsi, dənizə çıxış təmin edən birləşdirici kanalların tikintisi, limanların inşası və yenidən qurulması, iri körpülər salınması işləri təkcə ölkənin cari ehtiyacları baxımından deyil, eyni zamanda gələcək iqtisadi-sosial inkişaf perspektivləri baxımından mühüm əhəmiyyətə malik idi.

Xüsusilə həvəskar mexanik D.Stefenson tərəfindən parovozun ixtirası, nəqliyyat sahəsində yüklərin və sərnişinlərin daşınması işində əsl ingilab yaratdı. Dünyada ilk dəmir yolu sayılan İngiltərənin Stokton və Darlinqton şəhərləri arasındakı xəttdə həmin parovozdan istifadə olunmuşdur.

İngiltərədə XVIII əsrin ikinci yarısından başlanmış «sənaye çevrilişi», XIX əsrin 30-cu illərinə qədər davam edərək, ölkəni o zamankı dünyanın ən qabaqçıl sənaye dövlətinə – «dünya emalatxanasına» çevirmişdi.

* * *

**2.** XVIII-XIX əsrlərdə İngiltərədə olmuş «sənaye çevrilişi» və bu prosesin elm-texnika, texnologiya sahələrindəki görkəmli nailiyyətləri, təkcə bu ölkədə deyil, eyni zamanda dünyada, xüsusilə Qərbi Avropa dövlətlərində iqtisadiyyatın inkişafına, ölkədə məhsuldar qüvvələrin yüksəlişinə imkanlar açmışdır.

Tədricən, sənaye çevrilişinin doğurduğu müsbət nəticələr özünü Avropanın Fransa, Almaniya, İtaliya, Rusiya kimi ölkələrində, habelə okeanın o tayında, ABŞ və Kanada da göstərməyə başladı.

Bu ölkələrdə təkcə sənayenin müxtəlif sahələrinin deyil, eyni zamanda kənd təsərrüfatında da muzdlu əməyə əsaslanan

kapitalist tipli fermer təsərrüfatları sürətlə inkişaf etməyə başladı. Aydındır ki, bu ölkələrin inkişaf yolları heç də eyni deyildi. Məsələn, Almaniya və İtaliya sənayenin inkişaf yolu, Rusiya və ABŞ-da kənd təsərrüfatının aparılması xüsusiyyətləri, Fransa və İngiltərənin elmi-texniki nailiyyətlərdən faydalanması səviyyəsi, ayrı-ayrı ölkələrin xarici ticarətlərinin həcmi, istiqamətləri, xüsusiyyətləri eyni olmamışdı.

Lakin bu ölkələrin əksəriyyətinin iqtisadi inkişafının ümumi ortaq cəhəti – tədricən bütövlükdə onların təsərrüfat həyatının **sənaye təməlində qurulması, əkminçilik və sənətkarlıqdan manufaktura (emalatxana) istehsalına, daha sonra isə sənaye və iri sənaye istehsalına keçmək meyli, istiqaməti** olmuşdur. Həmin proses iqtisadi-sosial inkişafın qeyri-bərabərliyi qanunauyğunluqları əsasında getmişdir.

**Fransada** sənaye çevrilişi XVIII əsrin sonlarından başlanmış və ölkədə feodalizm qalıqlarının, maneyələrinin davam etməsi nəticəsində bu proses İngiltərəyə nisbətən ləng getmişdir. XIX əsrin başlanğıcında İngiltərədə buxar maşınlarının sayı 5 mini öldüyü halda, Fransanın sənaye müəssisələrində cəmisi 15 belə maşın işləmişdi.

Lakin ölkənin yüngül, xüsusilə toxuculuq sənayesi sahələri xeyli sürətlə inkişaf edərək, öz məhsul buraxılışını əhəmiyyətli dərəcədə artırmağa nail olmuşdular. Fransada manufaktura və ev (fərdi) tipli sənayenin üstünlük təşkil etməsinə baxmayaraq, tədricən iri fabrik-zavodların sayı artmışdı.

Fransanın sənaye yolu ilə irəliləməsinə əngəl törədən səbəblər sırasında, burada maliyyə qruplarının (zədəganların timsalında) ağalığını, ölkənin vergi və gömrük qaydalarındakı nöqsanları, burada kapitalizmin əsasən istehsal-xidmət deyil, sələmçilik xarakteri daşıyıb, həmin istiqamətdə inkişaf etməsi xüsusiyyətini göstərmək olar.

Kənd təsərrüfatına gəldikdə, o dövrdə ölkənin milli gəlirinin 75 faizini verən bu sahədə ticarət və sahibkar əkinçiliyinin imkanları, habelə güclü rəqabəti nəticəsində xırda kəndli təsərrüfatları müflisləşmiş, tədricən öz torpaq sahələrini itirmiş kənd əhalisi, iş tapmaq məqsədiylə şəhərlərə axışmışdılar. XIX əsrin ortalarında ölkənin 8 milyon kəndli həyətindən 3 milyonu son dərəcə yoxsul vəziyyətdə yaşadığından, vergi ödəyə bilmirdi. Əkinçiliklə yanaşı Fransada heyvandarlıq da sürətlə inkişaf etmişdi. Daxili və xarici bazarlarda böyük tələbat olan merinos qoyunların sayı 10 milyon başa çatmışdı.

XIX əsrin70-ci illərində Fransa, dünyada İngiltərədən sonra öz sənaye potensialına görə ikinci yeri tutsa da, lakin onun aqrar bölməsi məhsullarının ümumi dəyəri, sənaye məhsullarının dəyərindən 2,5 dəfə çox olmuşdur.

**Almaniyada** sənaye çevrilişi, o dövrdə Avropanın iqtisadi və siyasi cəhətdən geridə qalmış bir ölkəsi kimi XVIII əsrin sonlarından başlanmışdır. İngiltərənin texniki nailiyyətlərindən istifadə edən Almaniya ilk vaxtlar bir sıra mexaniki avadanlığı ölkəyə idxal etsə də, sonralar alman alimləri və ixtiraçılarının kəşfləri, ölkənin sənaye yolu ilə irəliləməsinə geniş imkanlar açdı.

Tədricən ölkədə buxar maşınlarının müxtəlif sahələrdə tətbiqinə başlanmış, çuqun əridilməsi üçün domna sobaları tikilmiş, sürətlə kitab çap edən dəzgah yaradılmış, daşyonan maşın, naxışvuran dəzgah ixtira edilmişdir. Yüngül sənayenin toxuculuq və ipəkçilik sahələrində tətbiq edilən yeni texniki vasitələr ciddi uğurlarla nəticələnmişdi.

Almaniyada ağır sənayenin daş kömür hasilatı, metal emalı, metallurgiya, dağ-mədən, kimya, elektrotexnika kimi sahələrinin yeni texniki baza əsasında inkişafında, ölkənin yerli bank-səhmdar şirkətləri ilə yanaşı, xarici (ingilis, fransız, holland və sair) kapital da fəal iştirak etmişdi.

Ölkənin sənaye yolu ilə irəliləyişinin 70 illik (1800-1870) yekunları, – daş kömür çıxarılmasının 90 dəfə, çuqun istehsalının 3,5 dəfə, polad əridilməsinin (1850-1870-ci illər) 35 dəfə, dəmir yollarının uzunluğu 2 dəfədən çox, xarici ticarət sahəsində ixrac və idxalın dəfələrlə artması, Almaniyanı öz sənaye istehsalı göstəricilərinə görə təkcə Avropada deyil, dünya miqyasında da aparıcı dövlətlərdən birinə çevirmişdi. Beləliklə, XIX əsrdə Almaniya sənayesi özünün sənətkarlıq, sadə kapitalist kooperasiyası və manufaktura pillələləri kimi tarixi təkamül və inkişaf mərhələlərini adlayaraq, iri maşınlı istehsal səviyyəsinə yüksəlmişdir.

**ABŞ-da** kapitalist istehsalı və bu əsasda sənaye çevrilişi üçün iqtisadi zəmin, 1775-1783-cü illəri əhatə etmiş müstəqillik uğrunda istiqlaliyyət müharibəsindən sonra yaranmışdı. Burjua ingilabı xarakteri daşıyan bu müharibə nəticəsində, ölkədə İngiltərə tərəfindən tətbiq olunan feodal qayda-qanunları ləğv edildi; yeni ağrar qanunları əsasında kapitalistcəsinə qurulan fermer təsərrüfatları təşkil olunub fəaliyyətə başladı; ölkədə ticarət və sənayenin inkişafına mane olan əngəllər aradan qaldırıldı; vahid nəqliyyat və pul sisteminin qaydaya salınması, daxili bazarın, habelə millətin formalaşmasını sürətləndirdi; sərbəst sahibkarlıq fəaliyyəti və iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin hüquqi bazasının yaradılmasına başlandı; ABŞ müstəqil bir dövlət kimi beynəlxalq aləmdə digər dünya ölkələri ilə birbaşa siyasi və iqtisadi əlaqələr yaratdı.

ABŞ-da sənaye çevrilişi İngiltərədə olduğu kimi yüngül sənayenin pambıq parça toxuculuğu sahəsində başlanmışdı. Ölkədə ilk belə fabrik 1791-ci ildə tikilərək, mexaniki toxucu dəzgahlarla təchiz olunmuşdu. Sonrakı dövrdə texniki kəşf və nailiyyətlərin tətbiqi nəticəsində qazanılmış uğurlar sayəsində, ABŞ-da toxunmuş yüksək keyfiyyətli parça nümunələri, 1851-ci ildə Londonda keçirilmiş beynəlxalq sərgidə birinci mükafata layiq görülmüşdür.

Başqa ölkələrin, ilk növbədə İngiltərənin texniki nailiyyətləri ilə yanaşı, öz ixtira və kəşflərinin cəsarətlə təsərrüfat həyatının müxtəlif sahələrində tətbiqi, ABŞ-da tədricən metallurgiya, maşınqayırma, nəqliyyat, gəmiçilik, telefon rabitəsi, silah, kənd təsərrüfatı avadanlıqları hazırlanması işində əsl çevriliş yaratdı.

Sənaye inqilabı ABŞ-da ciddi iqtisadi-sosial dəyişikliklərə yol açdı. Əgər XVIII əsrin sonlarında ölkə əhalisinin 90-95 faizi kəndlərdə yaşamışdısa, XIX əsrin 60-70-ci illərində bu rəqəm 50-55 faizə enmişdi. 1820-1860-cı illər ərzində sənayedə çalışanların sayı 350 mindən 2,1 milyon nəfərə çataraq 6 dəfə artmışdı. Ölkədə çuqun istehsalı 40 dəfədən, daş kömür çıxarılması 90 dəfədən xarici ticarət dövriyyəsi 10 dəfədən çox artmışdı.

1861-1865-ci illərin vətəndaş müharibəsi nəticəsində,ölkənin şimalının quldar cənub üzərində qələbəsi, bütün ölkə ərazisində istər sənaye istehsalında, istərsə də aqrar bölmədə fermer təsərrüfatalrının timsalında kapitalist münasibətlərinin inkişafına yeni təkan verdi.

İqtisadi və sosial inkişafını elmi-texniki tərəqqinin son nailiyyətləri əsasında quran ABŞ, öz snaye istehsalını dinamik surətdə artıraraq, XIX əsrin 80-cı illərində dünya sənaye məhsulunun 28 faizini vermiş, bu göstərici baxımından digər ölkələri geridə qoyaraq, İngiltərənin səviyyəsinə yaxınlaşmışdı.

**İtaliyada** sənaye çevrilişi bir qədər gec, XIX əsrin 40-cı illərində başlanmış və fabrik-zavod tipli kapitalist istehsalının inkişafı əsasən ölkənin şimal əyalətlərini əhatə etmişdi. Buna başlıca səbəb, ölkənin feodal pərakəndəliyi və onun cənub ərazilərində hökm sürən mühafizəkar aqrar-torpaq münasibətlərinin yaratdığı müxtəlif əngəllər olmuşdu. İqtisadiyyatın ayrı-ayrı sahələrinin, xüsusilə də sənaye istehsalının kapitalist münasibətləri əsasında formalaşması üçün ilk növbədə ölkənin siyasi birliyinə nail olmaq, onun

Avstriya əsarəti və mütləqiyyət rejimindən azad edilməsi tələb olunurdu.

1848-1849-cu illər ingilabı, sonrakı xalq üsyanları və azadlıq mübarizəsi qələbə ilə başa çatdıqdan sonra, ölkənin məhsuldar qüvvələrinin inkişafı üçün nisbətən əlverişli imkanlar yarandı. Daxili və xarici amillərin təsiri nəticəsində ləngiyən sənaye çevrilişi prosesi, İtaliyada XIX əsrin sonlarında başa çatmışdı. Dövlətin ölkənin iqtisadi həyatında fəal iştirak etməsinə baxmayaraq, sənayenin nisbətən zəif inkişafı, kənd təsərrüfatının üstünlüyü, Avropanın iri dövlətlərindən biri sayılan İtaliyanın kapitalizm mərhələsinin fərqləndirici xüsusiyyətləri olmuşdu.

**Kanadada** kapitalist münasibətlərinin formalaşması XIX əsrin 20-30-cu illərindən başlanmışdır. 1841-ci ildə ölkəni iki yerə parçalamış Yuxarı və Aşağı Kvebek əyalətlərinin vahid Kanada şəkilində birləşdirilməsi, 1854-cü ildə feodalizmin ləğvi, ticarət əlaqələri ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması, habelə digər iqtisadi islahatların həyata keçirilməsi, ölkənin kapitalistcəsinə inkişafını xeyli sürətləndirmişdir.

Ölkədə mərkəzləşdirilmiş dövlətin yaradılması, onun geniş ərazisinin müxtəlif hissələri arasında gömrük maneələrinin ləğvi, milli bazarın formalaşması prosesində mühüm rol oynamışdır.

Kanadaya o dövrdə İngiltərə, digər Avropa ölkələri, habelə ABŞ-dan iş qüvvəsi, texniki yeniliklər, xeyli kapital axını, burada 30 min km-ə yaxın dəmir yolu xəttlərinin çəkilib istifadəyə verilməsi ilə səciyyələnmişdir. Geniş şəbəkəli dəmir yolu nəqliyyatının fəaliyyəti, ölkədə iqtisadiyyatın müxtəlif sahələrinin, xüsusilə də ağır sənayenin ayrı-ayrı sahələrinin inkişafında mühüm rol oynamışdır.

**Yaponiyada** sənaye çevrilişi istiqamətində real dəyişikliklər XIX əsrin 60-cı illərində ölkədə baş vermiş Meydzi (1867-1868-ci illər) burjua ingilabından sonra baş

vermişdir. Sonrakı dövrdə həyata keçirilmiş feodal asılılığı və müxtəlif məcburi ödənişlərin ləğvi əvəzində kəndlilərdən torpağın qiymətinin 3 faizi həcmində mərkəzi hökumətə illik vergi ödənilməsini müəyənləşdirən islahatlar, ölkdə kapitalist münasibətlərinin inkişafına şərait yaratdı.

Fabrik-zavod istehsalına əsaslanan bu kapitalistcəsinə inkişaf yoluna keçid mərhələsində, yapon sahibkarları və işgüzar dairələri Qərbi Avropa, habelə ABŞ-ın texniki nailiyyətləri, istehsalat təcrübəsi, sərmayə imkanlarından bacarıqla faydalanmışlar.

Yapon dövləti iqtisadiyyatın bir sıra sahələrinin, xüsusilə hərbi sənayenin və ordunun təchizatına xidmət edən istiqamətlərin inkişafına maliyyə, habelə təşkilatı yardım göstərmişdir. XIX əsrin 70-80-cı illərində sahibkar kapitalı hesabına 1300 emal müəssisəsi yaradılmış, dövlət vəsaiti hesabına tikilmiş iri müəssisələr «Mitsui», «Mitsubisi» kimi şirkətlərə nisbətən ucuz qiymətə satılmışdır.

Lakin ölkənin xammal məhdudluğu, xarici bazarlandan asılılığı, milli-psixoloji mentaliteti, kapitalistcəsinə inkişaf istiqamətində müəyyən uğurlara qazanılmasına baxmayaraq obyektiv səbəblərə bağlı, o dövrdə yapon cəmiyyətinin təsərrüfat həyatı və məişəti çox az dəyişmişdi.

**Rusiyada** hələ I Pyotrun islahatları vaxtından (XVII – XVIII əsrlər) əsası qoyulmuş ölkədə sənayenin metallurgiya, metal emalı, pambıq-ipək parça, şüşə, gəmiçilik kimi sahələrinin inkişafı və xarici ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində dövlət tərəfindən iqtisadi, habelə inzibati üsullarla rəsmi himayədarlıq siyasətinin həyata keçirilməsinə baxmaaraq, ölkə uzun müddət kapitalist münasibətlərinin sürətlə inkişaf etdiyi Qərbi Avropa ölkələrindən, xüsusilə də İngiltərə, Hollandiya kimi dövlətlərdən xeyli geridə qalırdı.

Ölkədə yeni kapitalist münasibətlərinin formalaşıb genişlənməsinə mane olan səbəblər sırasında, burada mül-

kədar-təhkimçilik asılılığının hökm sürməsini, sırf kəndli ölkəsi kimi qalmasını, ümumi iqtisadi-sosial inkişaf səviyyəsinin və göstəricilərinin, habelə əhalinin əksəriyyətinin (90 faizdən çoxunun) savadsız olması idi.

Rusityada sənaye çevrilişi, Qərbi Avropa ölkələrinə nisbətən xeyli gec – XIX əsrin 30-40 illərindən başlayaraq, təxminən yarım əsrlik bir dövrü əhatə etmişdir.

Ölkədə sənaye çevrilişi prosesinin səciyyəvi xüsusiyyətlərindən biri, maşınqayırma sənayesi və ona xidmət göstərməli olan yardımçı sahələrin zəif inkişaf etməsi idi. Ona görə də Rusiya sənayesinin müxtəlif sahələrində, ilk növbədə isə toxuculuq, pambıq-parça, əyiricilik müəssisələrində tətbiq olunan texniki vasitələrin, buxar mühərriklərinin, maşınların, dəzgahların əksəriyyəti xarici ölkələrdən qızıl və gümüş pula idlax olunmuşdu.

Digər tərəfdən, ölkədə sənaye çevrilişi prosesi təhkimçilik hüququnun qaldığı bir şəraitdə getdiyindən, yeni formalaşan kapitalist tipli fabrik-zavodların sərbəst, həm də müəyyən qədər peşə-sənət qabiliyyətinə malik muzdlu işçilərlə təmin olunmasında, şübhəsiz əlavə çətinliklər yaratmışdı. Ona görə də yeni yaradılmış maşınlı sənaye müəssisələrində qadın və uşaq əməyindən geniş istifadə olunmuşdu.

Maşınlı iri kapitalist sənayesi inkişafının həm səbəbi, həm də nəticəsi sayılan 1861-ci ildə təhkimçilik hüququnun ləğv edilməsi, tam şəkildə olmasa da, bütövlükdə ölkənin məhsuldar qüvvələrinin yüksəlişinə və bu əsasda yeni tipli istehsal münasibətlərinin formalaşmasına təkan verdi.

Tədricən baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri sayəsində, ölkədə fəhlələrin sayı getdikcə artmağa başladı, yüngül sənaye ilə yanaşı maşınqayırma, metallurgiya, daş kömür, neft-yanacaq, habelə müxtəlif növ nəqliyyat sahələrinin inkişafı sürətləndi, xarici ticarət dövriyyəsinin həcmi, dəfələrlə artdı. Ölkədə sənaye çevrilişinin uğurları nəticəsində, tədricən feodal quruluşu kapitalist istehsal üsulu ilə əvəz olunması

prosesi başlansa da, lakin ölkənin elmi-texniki cəhətdən geriliyi, xarici kapitaldan asılılığı, feodal əsarətinin qalıqları müxtəlif sahələrdə özünü göstərmişdi.

XIX əsrin əvvəllərindən başlayaraq, **Azərbaycanda** meydana çıxaraq fəaliyyət göstərən **manufaktura tipli** istehsal müəssisələrinin getdikcə inkişaf edərək, kapitalist fabrik-zavodlarına çevrilməsi prosesi genişlənmişdir. Bu prosesə, Azərbaycanın XIX əsrin əvvəllərində Rusiya tərəfindən işğalından sonra, çar Rusiyasının buranın müxtəlif xammallarına olan böyük tələbatı da öz təsirini göstərmişdir. Əlbəttə, bu məsələnin ölkənin xammal bazasına çevirmək cəhdləri kimi mənfi xüsusiyyətlərini göstərməklə yanaşı, o dövrdə ölkənin məhsuldar qüvvələri üçün açdığı imkanlar, geniş satış bazarları yaratmağı da qeyd olunmalıdır.

Məhz həmin tələbat nəticəsində Azərbaycanda ipək, neft, metal emalı, gəmiqayırma, maşınqayırma müəssisələri yaranıb inkişaf etmişdir. Bu dövrdə Azərbaycanda hazırlanmış sənaye, kənd təsərrüfatı məhsulları, sənətkarlıq nümunələri Rusiya və dünya sərgilərində iştirak edərək, müxtəlif medallar qazanmışlar.

Bu faktlar göstərir ki, dünyanın iqtisadi tarixində elmlə texnikanın qarşılıqlı əlaqəsi və vəhdətinin ifadəsi olmuş İngiltərədəki «sənaye çevrilişi» yaxud «sənaye inqilabı», dünyanın bir sıra ölkələrində olduğu kimi Azərbaycanda da məhsuldar qüvvələrin yüksəlişində yeni rolunu oynamış, mərhələ, habelə burada bir sıra təsərrüfat sahələrinin yeni texniki baza təməlində yüksəlişinə imkan yaratmışdır.

* * *

**3.** XVIII-XIX əsrlərdən başlayaraq kapitalizm münasibətləri və qaydaları təkcə sənayedə deyil, xüsusilə Qərbi Avropa ölkələrində həm də kənd təsərrüfatında inkişaf

etmişdir. Lakin hələ uzun müddət dünya ölkələrinin iqtisadiyyat və təsərrüfat həyatında kənd təsərrüfatı üstün mövqe tutmuşdu.

Kapitalizmə keçidlə bağlı əvvəlki feodal-mülkədar mülkiyyəti dağılmağa başladı. Bunun nəticəsində, bir tərəfdə xırda kəndli və digər tərəfdə burjua torpaq mülkiyyəti formalaşmışdır. Lakin tədricən kəndlilərin var-yoxdan çıxması prosesi gedişində, kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpağın xeyli hissəsi, kapitalistcəsinə aparılan təsərrüfatlarda cəmləşmişdir. Xırda kəndli təsərrüfatalrında əkilib-bəcərilən torpaqların sahəsi getdikcə azalmağa doğru meyl etmişdir.

Ayrı-ayrı ölkələrin keçdiyi tarixi inkişaf yolunun özünəməxsus xüsusiyyətlərindən və konkret ictimai-iqtisadi şəraitdən asılı olaraq, kənd təsərrüfatında kapitalizmin inkişafı 2 istiqamətdə – Prusiya və Amerika yolları ilə getmişdir.

**Prusiya yolu adlandırılan birinci yol** – ondan ibarət olmuşdur ki, kənd təsərrüfatında köhnə mülkədar ağalığı əsasən qalır və torpaq islahatları keçirilməklə, tədricən kapitalist təsərrüfatına çevrilir. Kənd təsərrüfatının **kapitalist təkamül yolu** adlanan bu tipli inkişaf **Almaniyada**, **Rusiyada**, **İtaliyada**, **Yaponiyada** və başqa ölkələrdə olmuşdur.

Kənd təsərrüfatında kapitalizmin Prussiya yolu çətin və iqtisadi cəhətdən səmərəsiz bir inkişaf istiqaməti olmuşdu. Aqrar bölmədə kapitalist münasibətlərinin formalaşması və inkişafı əsasən köhnə qaydalarla, habelə xeyli ləng getdiyindən, Prusiya yolu cəmiyyətin yeni tələblərinə cavab vermirdi. Lakin digər tərəfdən Almaniya, Rusiya və digər bir sıra ölkələrin ictimai-iqtisadi gerçəkliyi, habelə inkişaf xüsusiyyətləri, kənd təsərrüfatında kapitalizmin məhz bu yolla formalaşması prosesini, tarixi bir zərurət kimi irəli sürmüşdü.

**Amerika yolu kimi səciyyələndirilən ikinci yol** – ondan ibarətdir ki, **burjua inqilabı nəticəsində** köhnə mülkədar təsərrüfat dağılır, kənd təsərrüfatında **təhkimçilik buxovları qırılır**, sərbəst xırda, orta kəndli təsərrüfatları, yaxud

**fermerlər** üstün rol oynamağa başlayırlar. Bu tipli inkişaf yolu, özünü ən bariz surətdə ABŞ-da göstərmişdir.

Kənd təsərrüfatında kapitalizmin Amerika yolu, feodal-mülkədar torpaq sahibliyinin aradan qaldırılması və torpaq üzərində mülkiyət hüququ ilə bağlı əvvəlki müxtəlif istismar formalarından azad olmuş kəndli, fermer təsərrüfatlarının bazar prinsiplri əsasında fəaliyyətini nəzərdə tuturdu. Bu yol, feodal əsarəti və buxovlarından xilas olmuş kəndlinin, burjua tipli fermerə çevrilməsidir.

Aqrar bölmədə kapitalist münasibətlərinin formalaşması üçün ABŞ-da müstəqillik əldə etdikdən sonra qəbul olunmuş qanunlar və həyata keçirilmiş tədbirlər mühüm rol oynamışdır. Bu qayda-qanunlara əsasən istənilən vətəndaş dövlətdən torpaq sahəsi satın ala bilərdi; başqa ölkələrdən gəlmiş mühacirlərə 640 akr (0,4 hektar) torpaq sahəsi əldə etməyə icazə verilirdi; özbaşına zəbt olunmuş istifadəsiz torpaqları həmin şəxslərə aşağı qiymətlərlə satmaq olardı. Prezident A.Linkolnun 1862-ci ildə imzaladığı qanuna əsasən, fermerlər müəyyən şərtlər daxilində pulsuz torpaq sahələrinə malik ola bilərdilər.

Ölkənin kapitalist inkişaf yolu ilə irəliləyən Şimal ştatları və quldar Cənub arasındakı vətəndaş müharibəsindən sonra, 1865-ci ildə ABŞ hökuməti Cənubun torpaqsız əhalisinə müəyən torpaq sahələri ayrılması siyasətini həyata keçirməyə başladı.

XIX əsrin 80-ci illərində artıq ABŞ-da 4 milyon nəfərdən artıq torpaq mülkiyyətçisi 284 milyon akr əkin üçün yararlı olan torpaq sahəsinə malik idi. Ölkədə yaradılmış əlverişli şəraitdə kapitalistcəsinə inkişaf edən aqrar bölmə, daxili bazarın tələbini tam ödəməklə yanaşı, onun istehsal etdiyi ərzaq və xammal məhsulları, ABŞ-ın ümumi ixracının 83 faizini təşkil etmişdi.

Kapitalizmdən əvvəlki torpaq sahibliyi formalarının istər Prusiya yolu, istərsə də Amerika yolu ilə dəyişməsi nəticəsində, sənaye ilə yanaşı kənd təsərrüfatında da kapitalist

münasibətləri bərqərar olmuş, eyni zamanda əvvəlki mülkədar və kəndli torpaqlarının əhəmiyyətli bir hissəsi – **bankların**, **kənd burjuaziyasının**, **sənayeçilərin**, **tacirlərin**, **sələmçilərin əlinə keçmişdir**.

Beləliklə, dünya miqyasında kənd təsərrüfatı istehsalında istər Prusiya yolu, istərsə də Amerika yolu ilə başlanmış dəyişikliklər, aqrar bölmənin kapitalistcəsinə, sərbəst sahibkarlıq prinsipləri əsasında, bazar münasibətləri iqtisadiyyatının tələblərinə uyğun inkişaf istiqamətlərini müəyyənləşdirdi.

# Mövzu III.3. İnhisarçı kapitalizm mərhələsinə keçid və inhisarların əsas formaları

1. XIX əsrin sonunda dünya iqtisadiyyatında irəliləyişlər və müxtəlif ölkələrin iqtisadi inkişafında qeyri-bərabərlik meylləri
2. Dünya miqyasında istehsalın və kapitalın təmərküzləşməsi prosesi
3. İnhisarların meydana çıxması və əsas formaları

* * *

**1.** Azad rəqabətin hökm sürdüyü kapitalizm, XIX əsrin 60-70-ci illərində özünün ən yüksək inkişaf səviyyəsinə çatdı. Sonrakı dövrdə kapitalizmin **inhisarçı**, yaxud imperializm mərhələsinə keçidi başlanmışdır. Müxtəlif ölkələri əhatə etmiş bu prosesin mahiyyəti, – bazarda sərbəst rəqabəti iri inhisar birliklərinin istehsal, satış və qiymət sahəsində hökmüranlığının əvəz etməsidir.

Dünyanın siyasi və iqtisadi-sosial mənzərəsində baş vermiş bu hadisələr, onda əvvəllər görünməmiş yeni kəmiyyət, habelə keyfiyyət dəyişikliklərinin getdiyini sübut edirdi.

İmperializm mərhələsinin səciyyəvi əlamətləri kimi istehsalın təmərküzləşməsi və mərkəzləşməsi prosesini, təsərrüfat həyatında bankların daha fəal rol oynamasını, sənaye və bank kapitalının qovuşaraq maliyyə oliqarxiyası yaratmasını, dünya ərazisinin, xammal və satış bazarlarının yenidən bölüşdürülməsi uğrunda kəsginləşən rəqabət mübarizəsini qeyd etmək olar.

Belə bir cəhəti də qeyd etmək maraqlıdır ki, azad sahibkarlıq mərhələsindən inhisarlar dövrünə keçid, müxtəlif

ölkələrdə ümumi meylləri və qanunauyğunluqları üzə çıxarsa da, lakin ayrı-ayrı bölgə və ölkələrdə bu mərhələnin, baş verən proseslərin özünəməxsus xüsusiyyətləri olmuşdur.

Məsələn, **Böyük Britaniyada** imperializm mərhələsi daha açıq və qabarıq şəkildə **müstəmləkəçilik** xarakteri daşımışdır. Təsədüfi deyildir ki, Böyük Britaniyanın dünyanın müxtəlif qitələrində 50-dən artıq müstəmləkə ölkəsi, yaxud ərazisi olmuşdu.

**Fransada** inhisarçılıq mərhələsi, müstəmləkələr əldə etməklə yanaşı, onun sələmçilik (borc kapitalı) fəaliyyəti daha geniş surətdə özünü göstərmişdir.

**ABŞ-da** bu **meyl**, **sənayedə** və kənd təsərrüfatında sərbəst sahibkarlığa geniş imkanlar yaratmaq, ölkəyə iş qüvvəsi və «beyin axını», yəni müxtəlif sahələrdə çalışan ağıllı adamların, mütəxəssislərin, «intellektual mülkiyyət» sahiblərinin cəlb edilməsi ilə fərqlənmişdir.

İmperializm mərhələsində sənaye istehsalının müxtəlif sahələrində elmi-texniki tərəqqinin nailiyyətlərinin sürətlə tətbiqi nəticəsində, ciddi irəliləyişlər əldə edilmişdir. Bu dövrün texniki yenilikləri sırasında, – poladəritmənin yeni üsulunun kəşfini, sulfat turşusu və soda istehsalını, universal dəzgah və mexanizmlərin yaradılmasnı, buxar turbinlərinin, daxili yanacaq mühəriklərinin, dizellərin buraxılışını göstərmək olar.

Azad sahibkarlıqdan inhisarçı mərhələyə keçid, dünyada müstəmləkə sisteminin yaranıb başa çatması prosesi ilə səciyyələnir. Beləki 1870-1914-cü illər ərzində, iri güclü dövlətlərin müstəmləkə siyasəti və işğalları nəticəsində Afrika qitəsinin demək olar bütün ərazisi, Latın Amerikasının hamısı bir qrup dövlətlərin müstəmləkə və yarım müstəmləkəsinə çevrilərək, onlar üçün ucuz xammal bazasına, əlverişli satış bazalarına, bol iş qüvvəsi mənbəyinə çevrilmişdi.

Ümumiyyətlə dünya ölkələrinin tarixən, eləcə də müəyyən inkişaf mərhələlərində bir-birindən fərqli inkişafı,

habelə ümumi inkişaf meylləri, qanunayuğunluqları ilə yanaşı özünəməxsus cəhtlər kəsb etməsi, təbii bir prosesdir. Lakin azad sahibkarlıq və sərbəst rəqabət mərhələsində xeyli genişlənən bu proses, inhisarçılıq dövründə daha ciddi problemlər yaratmışdır.

Məlumdur ki, tarixi gedişin obyektiv və subyektiv səbəbləri üzündən dünyanın müxtəlif ölkələrinin ictimai-siyasi, iqtisadi-sosial, mədəni inkişaf yolları bir-birinə bənzəmir.

Müəyyən qrup ölkələr başqalarına nisbətən daha yüksək templə, hətta sıçrayışlarla irəliləyirlər. Bu inkişaf prosesi isə düz xətt üzrə olmayıb, enib-qalxan meyllərlə, iqtisadi-sosial böhranlarla, ölkələr və dövlətlər arasında rəqabət mübarizəsinin şiddətlənib-zəifləməsi ilə səciyyələnmişdir.

Məsələn, 1860-cı ildə ümumdünya sənaye istehsalında İngiltərə I yeri, Fransa II yeri tuturdu. Dünyanın və Avropanın bir çox ölkələri o zaman iqtisadi inkişaf baxımından, hələlik xeyli geridə idilər.

Lakin müəyyən bir vaxt ötdükdən sonra ABŞ Fransanı qabaqlayaraq, öz sənaye məhsulu istehsalına görə dünyada II yerə çıxa bildi. Daha bir qədər sonra, XIX əsrin sonu və XX əsrin əvvəllərində ABŞ İngiltərəni də ötərək, dünyada sənaye məhsulu istehsalına görə I yerə çıxdı. Son 100 il ərzində o, öz birinciliyini qoruyub saxlaya bilmişdir. Hazırda ABŞ dünya məhsulunun 18 faizini (12 tril. dollar) və dünya ticarət dövriyyəsinin 15 faizini (3 tril. dollar) verir.

Həmin dövrdə Almaniya öz iqtisadi inkişafı ilə Fransanı ötərək, ABŞ və İngiltərədən sonra sənaye məhsulu istehsalının həcminə görə dünyada III yerə çıxdı. Bir qədər sonra isə, artıq XX əsrin əvvəllərində Almaniya sənaye istehsalının həcminə görə İngiltərəni ötərək, dünya miqyasında ABŞ-dan sonra II yerə çıxa bildi.

İqtisadi-sosial inkişafın bu dalğavari gedişi, məhsuldar qüvvələrin kəmiyyət və keyfiyyət dəyişiklikləri, şübhəsiz ayrı-ayrı iri dövlətləri təkcə iqtisadi sahədə rəqabət aparan ölkələr

çərçivəsində saxlaya bilməzdi. Tədricən onlar arasında davam edən iqtisadi rəqabət mübarizəsi başqa sahələrə də təsir edərək, son nəticə etibarilə siyasi sahədə də açıq-açığına düşmənçilik edən tərəflərə çevirdi. Diplomatlar arasında belə bir fikir geniş yayılmışdır ki, dövlətlərin və hökumətlərin əbədi dost-düşmənləri olmur, onların əbədi mənafeləri olur. Bu mənada dövlətlərin dünənki rəqiblərinin bugün müttəfiqlərə və bugünkü müttəfiqlərinin isə gələcəkdə rəqibə (düşmənə) çevrilməsi mümkündür.

Həmin mövqedən yanaşılsa, bir qrup ölkələr tərəfindən başlanaraq, sonradan dünyanın xeyli ölkəsinin cəlb edildiyi I dünya müharibəsi (1914-1918-ci illər) təsədüfi sayıla bilməz. Minyonlarla adamın məhvinə, maddi və mənəvi nemətlərin itirilməsinə, hərbi və mülki əhalinin qırılmasına səbəb olmuş bu müharibə, həmin siyasi-iqtisadi rəqabətə nümunə sayıla bilər.

Bir tərəfdən Almaniya ilə İngiltərə, digər tərəfdən isə Almaniya ilə Fransa arasında Elzas və Lotaringiya mədənləri uğrunda gedən ziddiyyətli mübarizə, bu ölkələrin münasibətlərini son dərəcədə kəskinləşdirilmişdi. Eyni zamanda həmin dövrdə Rusiya ilə Almaniya arasındakı münasibətlər də xeyli kəsginləşmindi. 35 ölkənin cəlb olunduğu və 1,5 milyard adamın yaşadığı ərazilərdə aparılmış bu müharibədə 70 milyon nəfər hərbi səfərbərliyə alınmışdı. Bu rəqəm həmin dövlətlərdə yaşayan əmək qabiliyyətli əhalinin yarıdan çoxunu təşkil etmişdi. Mütəxəssislərin hesablamalarına görə I dünya müharibəsinin ümumi xərcləri o vaxtkı məzənnə ilə 360 milyard dollara (qızıl pulla) başa gəlmişdi.

Həmin müharibədə iştirak edən dövlətlərin siyasət və iqtisadi maraqlarında Qafqaz və xüsusilə Azərbaycan, onun dünya iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edən neft sərvətləri əhəmiyyətli rol oynamışdı.

Ümumiyyətlə I dünya müharibəsi, Planet miqyasında iqtisadiyyatın son dərəcədə pozulmasına, maliyyə sisteminin dağılmasına, pulun qiymətdən düşməsinə, müxtəlif ölkələrin əhalisinin həyat səviyyəsinin kəsgin surətdə pisləşməsinə səbəb olmuşdu. Bu müharibə dünyanın sonrakı ictimai-siyasi inkişafına da öz ciddi təsirini göstərmişdi. Məhz bu mənada Almaniyada, Rusiyada, Şərqin bir sıra ölkələrində, Latın Amerikasında baş vermiş kütləvi narazılıq, inqilabi çıxış, çevriliş, dəyişikliklər nəticəsində, ümumdünya miqyasında iki sistemin yaranması, onların rəqabəti və mübarizəsi dövrü başlanmışdı.

*  *  *

**2.** XIX əsrin sonu və XX əsrin əvvəlləri ümumdünya miqyasında sərbəst sahibkarlıq, işgüzar biznes fəaliyyəti ilə səciyyələnən kapitalist istehsal üsulu, öz inkişafının sərbəst rəqabət mərhələsindən, inhisarçı (monopolist) mərhələsinə daxil olmağa başladı.

Sərbəst sahibkarlıq və rəqabət mərhələsindən inhisarçı kapitalizm, yaxud imperializm mərhələsinə keçid prosesi mürəkkəb, habelə çoxcəhətli iqtisadi-sosial hadisə idi. Çünki bu mərhələdə, müəyyən istisnalarla, demək olar ki, dünyanın əksər dövlətləri və bölgələrində məhsuldar qüvvələrin inkişafı, iqtisadiyyatın ayrı-ayrıt sahələrinin dinamik yüksəlişi, elm və texnikanın tərəqqisi, o vaxta qədər görünməmiş bir səviyyəyə çatmışdı.

İqtisadi inkişaf gedişində elə bir dövr başlandı ki, azad rəqabət əsasında kapitalın və istehsalın təmərküzləşməsi, habelə mərkəzləşməsi, yeni mühüm proseslərin meydana gəlməsini şərtləndirmişdi. **Təmərküzləşmə** – istehsal vasitələri və iş qüvvəsinin ayrı-ayrı müəssisələrdə toplanması, yaxud cəmləşməsidir. **Mərkəzləşmə** isə, tədricən iqtisadiyyatda istehsalın əsas hissəsinin bir qrup ən iri müəssisələrdə

cəmləşərək, inhisar formasını almasıdır. Başqa sözlə, bu mərhələdə təsərrüfat həyatında **azad rəqabəti** inhisarlar əvəz etməyə başlamışdı.

Eyni zamanda istehsalın yüksək inkişaf səviyyəsinə çatmış təmərküzləşməsi maliyyə oliqarxiyasının yaranmasına, dünya miqyasında xammal və satış bazarları uğrunda rəqabət mübarizəsinin daha da kəsginləşməsinə səbəb olmuşdu. Şübhəsiz, bu mürəkkəb proses şəxsi arzuların və subyektiv istəklərin deyil, istehsalın miqyaslarının xeyli dərəcədə artması, tələblə təklifin nisbəti, xüsusilə də rəqabət mübarizəsinin son dərəcə kəskinləşməsi ilə bağlı olmuşdu.

Ümumdünya təsərrüfat tarixində XIX əsrin sonu və XX əsrin əvvəlləri ciddi elmi-texniki nailiyyətlər, habelə Planetin müxtəlif ölkələrində məhsuldar qüvvələrin əvvəlki dövrlərə nisbətən daha güclü inkişafı ilə səciyyələnir.

Məhz bu dövrdə, dünyanın bir sıra ölkələrinin metallurgiya sənayesində polad əridilməsinin **Bessemer**, **Marten**, **Tomas** kimi yeni mütərəqqi üsulları tətbiq olunmağa başlanmışdı. Cəmiyyətin mülki və hərbi xarakterli tələbatları ənənəvi metal növləri ilə yanaşı, tamamilə yeni keyfiyyətləri ilə fərqlənən materiallar tələb edirdi. Bu mənada elmlə, texnika ilə istehsalat arasında üzvi bir əlaqə vardır. Beləki elm öz kəşf və yenilikləri ilə istehsalda dəyişikliklər yaratdığı kimi, istehsalatın da ehtiyac və tələbləri etmin, texnikanın yüksəlişinə güclü təsir göstərmişdi.

Elm və texnikanın vəhdəti təməlində yaradışmış mükəmməl daxili yanacaq, buxar, elektrik mühərrikləri geniş yayılaraq, istehsalatda yorucu əl əməyini mexaniki vasitələrlə əvəz etmişdi. Bu dövrdə öz texniki imkanları, digər enerji növlərinə çevrilmə qabiliyyəti və rahat tətbiqi cəhtdən əhəmiyyətli dərəcədə fərqlənən elektrik enerjisi, təkcə istehsal proseslərində deyil, həm də xidmət dairəsi, eləcə də məişətdə əsl çevriliş yaratmışdı.

XIX əsrin sonu və XX əsrin əvvəllərində dünyanın nisbətən daha yüksək inkişaf etmiş ölkələrində tədricən ağır sənayenin maşınqayırma, daş kömür, neft çıxarma, kimya kimi sahələri sürətlə inkişaf edərək, keyfiyyətcə yeni bir mərhələyə daxil olmuşdur.

*** * ***

**3.** İmperializm mərhələsi sərbəst sahibkarlıq fəaliyyəti və azad rəqabətdən, inhisarların ağalığına keçid dövrü kimi də səciyyələndirilə bilər. İnhisarların fəaliyyətində aşağıdakı cəhətlər əlamətdar sayılır:

a) onların əlində istehsalın əhəmiyyətli hissəsi, yaxud istehsalın bir sıra mühüm hissələri cəmləşir;

b) bunun sayəsində onlar bazara müəyyən çərçivələr daxilində qiymətləri diktə etmək imkanı qazana bilirlər;

c) bazarda hakim mövqe tutduqlarından, daha yüksək mənfərət əldə etmək imkanına malik olurlar.

İstehsalda inhisarların müxtəlif formaları meydana gəlib formalaşmışdır. Onların ən sadə formaları – **konvensiya**, **rinq**, **korner**, **puldur**. Bu forma bir neçə iri sahibkar arasında müəyyən əmtəələrin vahid satış qiymətlərinin qoyulmasını nəzərdə tuturdu. İnhişarların sonrakı inkişafı **kartellərin**, **sindikatların**, **trestlərin** və **konsernlərin** formalaşmasına səbəb olmuşdur.

**Kartel** – eyni istehsal sahəsinin bir sıra müəssisələrinin elə birləşməsidir ki, onun iştirakçıları istehsal vasitələri və istehsal olunmuş məhsul üzərində öz mülkiyyətini saxlayır. Kartel iştirakçıları öz məhsullarını özləri satırlar. İstehsal edilməli ümumi məhsulda hər bir kartel üzvünün kvotu (payı), satış qiymətləri, satış bazarları bölüşdürülüb müəyyənləşdirilir. Kartel müqaviləsini imzalayanlar, bağlanmış sazişdə nəzərdə tutulan şərtləri pozduqda, böyük məbləğdə cərimə olunur, yaxud kartelin üzvlüyündən çıxarılırdılar.

**Sindikat** – eyni adlı əmtəələr istehsal edən müəssisələrin elə bir birləşməsidir ki, burada istehsal vasitələri sindikat iştirakçılarının öz mülkiyyətində qalır, istehsal olunmuş məhsul isə sindikatın mülkiyyəti olur. Deməli, hazırlanmış məhsul xüsusi bir **həlqə**, **kontor** tərəfindən reallaşdırılır. Karteldən fərqli olaraq, sindikat ayrı-ayrı müəssisələrin bazarla bilavasitə əlaqəsini kəsir. Adətən sindikatlar bir qayda olaraq, **eyni cür (yekcins)** əmtəələrin, məhsulların (ayaqqabı, paltar, maşınqayırma, avtomobil, kimya) kütləvi istehsal edildiyi sahələrdə yaranır.

**Trest** – sindikatın nisbətən daha yüksək inhisar formasıdır. Burada istehsal vasitələri üzərində sahibkarların, mül-
kiyyət sahiblərinin (kapitalistlərin) birgə mülkiyyəti yaranır. Trestin təşkili zamanı müəssisənin sahibləri istehsal vasitələri üzərində mülkiyyətini, habelə texnologiya, patentlər və deməli istehsal etdikləri məhsullar üzərində də öz mülkiyyətini birliyə verir. Onlar bu mülkiyyətin əvəzində səhmlərə sahib olur və həmin səhmlər üçün müəyyən **pay** (**dividend**) alırlar.

**Konser** – formal olaraq müstəqil, üzərində maliyyə nəzarəti qoyulmaq şərti ilə bir sıra müəssisələri birləşdirən inhisardır. Konsern adətən müxtəlif sənaye sahələrinin müəssisələrini, ticarət firmalarını, bankları, nəqliyyat və maliyyə kompaniyalarını özündə birləşdirir.

Dünyanın müxtəlif ölkələrində o dövrdə inhisarın bu və ya digər forması daha geniş yayılmışdır. Məsələn, Almaniyada **kartellər**, Rusiyada və Fransada **sindikatlar**, ABŞ-da **trestlər**, Yaponiyada **konsernlər** üstünlük təşkil etmişdi.

Dünya iqtisadiyyatında və ayrı-ayrı ölkələrin təsərrüfat həyatında baş verən inhisarlaşmaq prosesi və onun müxtəlif formalarının geniş yayılması, azad sahibkarlıq fəaliyyətinin yerini artıq inhisarçılığın tutduğunu göstərirdi.

Müasir dövrdə elmi-texniki inqilabın nailiyyətlərinin təsiri altında, bütün dünyada istehsalın təmərküzləşməsi,

beynəlxalq miqyasda formalaşan trans milli korparasiyaların (TMK-ın) yaranıb fəaliyyət göstərməsi ilə davam edir.

Qeyd etmək lazımdır ki, azad rəqabət sahibkarlığını əvəz etmiş inhisarlar, istər onların özləri arasında, istərsə də inhisarlarla inhisarda olmayanlar arasındakı rəqabət mübarizəsini xeyli kəskinləşdirilmişdir. İnhisarçılıq mərhələsində rəqabətin xammal, satış, kredit, qiymət sahəsindəki müxtəlif formalarının yeni təzahürləri meydana çıxır.

İnhisarların aparıcı rol oynadığı bir mərhələdə, bank kapitalı ilə sənaye kapitalının qovuşması nəticəsində maliyyə oliqarxiyası formalaşmağa başlamışdı. Maliyyə oliqarxiyasının təşkilat forması, bir sıra iri kapital sahiblərinin sənaye, bank, kredit, sığorta, nəqliyyat, ticarət və digərlərinin birliyindən ibarətdir. Tədricən bu cür inhisar qrupunun fəaliyyət dairəsi, müəyyən bir ölkənin hüdudlarını aşaraq, başqa dövlətləri də əhatə etməyə başlamışdır.

İnhisarçı kapitalizm mərhələsində əvəllər mövcud olmuş əmtəə-mal ixracı əvəzinə, kapital ixracı başlıca rol oynamağa başladı.

Əvvəllər dünya miqyasında kapital ixrac edən ölkələr arasında İngiltərə, Fransa və Almaniya xüsusilə fərqlənmişlər. Birinci dünya müharibəsindən sonra iqtisadi inkişaf və maliyyə ehtiyatları cəhətdən xeyli güclənmiş ABŞ-ın kapital ixracı getdikcə artmışdır. İkinci dünya müharibəsindən sonra ABŞ-la yanaşı Yaponiya da ön sıraya çıxmış, Almaniya, Fransa, İngiltərə kimi ölkələr bu sahədə öz səylərini artırmışlar.

Bu proses bir tərəfdən müəyyən ölkədə toplanan kapital «artıqlığı» ilə bağlıdırsa, digər tərəfdən də həmin kapitalın başqa ölkələrdə tətbiq olunaraq, daha yüksək mənfəət gətirməsi ilə əlaqədardır. Məsələn, XX əsrin ikinci yarısında ABŞ-ın xarici investisiyalarının gətirdiyi mənffət norması Afrika qitəsi ölkələrində 24-25 faiz, Asiya qitəsi ölkələrində 30 faiz, Avropada isə 10%-ə yaxın olmuşdur.

Başqa ölkələrə kapital ixracı başlıca olaraq iki formada – **sahibkar** və **borc kapitalı** kimi baş verir. Sahibkar kapitalı ixracı özü iki cür – birbaşa (**müstəqim**) və **portfel** şəklində olur. **Müstəqim** kapital (investisiya) qoyuluşları xaricdəki müəssisələr üzərində tam nəzarətə imkan verir. **Portfel** qoyuluşları isə müəyyən faizlə verilməklə yanaşı, eyni zamanda müvafiq razılaşmalar əsasında qismən nəzarət və şərikli fəaliyyətə də imkan yaradır.

## Mövzu IV. Beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi və dünya təsərrüfatının formalaşmısının başa çatması

1. Beynəlxalq əmək bölgüsü və dünya təsərrüfat həyatının beynəlmiləlləşməsi
2. Kapital ixracı və onu doğuran səbəblər
3. Beynəlxalq inhisarların meydana çıxması və fəaliyyəti
4. Müstəmləkə sisteminin formalaşması prosesinin başa çatması

* * *

**1. Beynəlxalq əmək bölgüsü** – əməyin ictimai ərazi bölgüsünün daha yüksək bir forması olub, ayrı-ayrı ölkələrin bir-biri ilə mübadilə etdikləri (sattıqları-aldıqları) müəyyən növ məhsullar istehsalı üzrə ixtisaslaşmasıdır.

Bu prosesin qanunauyğun bir hadisə kimi zəruriliyi: cəmiyyətin məhsuldar qüvvələrinin sürətlə inkişafı; təbii sərvətlərin dünya ərazisində qeyri-bərabər yerləşməsi; tələb-təklifin dəyişikənliyi; daxili və xarici bazarların əhəmiyyətli dərəcədə genişlənməsi; müxtəlif ölkələr arasında iqtisadi-ticarət əlaqələrinin güclənməsi ilə izah olunur.

Bu amillər isə **dünya bazarının** formalaşıb inkişaf etməsinin obyektiv əsasını təşkil edir.

Beynəlxalq əmək bölgüsünün ünsürləri bəşəriyyətin tarixi inkişaf yolunun və təsərrüfat həyatının müxtəlif mərhələlərində olmuşdur. Lakin dünya miqyasında sənaye inqilabından sonra müxtəlif ölkələrin təsərrüfat həyatının sürətlə yüksəlişi və elmi-texniki sahədəki nailliyyətləri, çoxcəhətli beynəlxalq iqtisadi-ticarət əlaqələrinin inkişafına

güclü təkan vermişdir. Məlumdur ki, vaxtilə hər hansı bir ölkənin təbii sərvət, iqlim və əhalisinin peşə-əmək qabiliyyətindən, ümumi inkişaf səviyyəsindən asılı olaraq , onlar məsələn çay (Hindistan), kofe (Braziliya), kənd təsərrüfatı məhsulları (Afrika ölkələri), neft (Ərəb ölkələri, Meksika), meşə materialları (Rusiya) üzrə ixtisaslaşmışlar. Şübhəsiz, bu obyektiv prosesin müsbət və mənfi cəhətləri olmuşdur.

**Beynəlxalq ixtisaslaşma isə** ölkələr arasında əmək bölgüsünün müəyyən bir sahə, yaxud şirkət (müəssisə) daxilində ayrıca bir məhsul buraxılışı ilə səciyyələnən istehsalın təşkili formasıdır.

Kapitalizm və onun yüksək mərhələsi sayılan imperializm mərhələsində, bu proseslər daha geniş bir miqyasda davam etmişdir. XIX əsrin sonlarında dünyanın Afrika, Asiya, Cənubi Amerika kimi ölkələrinin əsasən sənətkarlığa və əl əməyinə üstünlük verən istehsalının, Qərbi Avropa, habelə ABŞ-dan gətirilən ucuz sənaye malları ilə rəqabətə davam gətirməməsi, həmin ölkələrin iqtisadiyyatına daha çox aqrarxammal istiqaməti vermişdir.

Beynəlxalq əmək bölgüsünün **müsbət** cəhətləri kimi hər bir ölkənin öz daxili imkanlarından daha dolğun surətdə istifadə edərək, həm daxili, həm də xarici bazarın tələblərini yüksək keyfiyyətli məhsullarla təmin etməsini göstərmək olar.

Eyni zamanda, bu prosesin mənfi (**neqativ**) **cəhəti** kimi – tədricən **bir sıra ölkələrin** yeni texnika və texnologiya bazasında inkişaf edərək, yüksək sənaye dövlətləri səviyyəsinə çatmasını, digərlərinin isə yalnız xammal bazası kimi geridə qalmalarını göstərmək olar. Bu işdə inkişaf etmiş ölkələrin geridə qalmış ölkələrə **kapital ixrac etmələri** ciddi rol oynayaraq, onların ümumi iqtisadi-sosial inkişafını ləngitmiş, təsərrüfat həyatının birtərəfli, səmərəsiz (monokulturizm) yönlü ixtisaslaşmasının əsasını qoymuşdur.

* * *

**2.** Azad və sətrbəst rəqabət kapitalizmi, yaxud inhisarçılıqdan əvvəlki kapitalizmi şəraitində inkişaf etmiş ölkələr, dünyanın müxtəlif yerlərinə **əmtəə**, **mal**, **məhsul** ixrac etmişdilər. Lakin imperializm mərhələsində vəziyyət dəyişir. Sanki kəmiyyət dəyişiklikləri keyfiyyət dəyişmələrinə keçir. Bu mərhələdə iqtisadi-sosial inkişafın qeyri-bərabərliyi qanunu əsasında xeyli irəliyə getmiş bir qrup Avropa ölkələri və ABŞ, təkcə başqa ölkələrə xammal, yarımfabrikatlar, hazır sənaye, emal edilmiş kənd təsərrüfatı təhsulları ixrac etməklə (satmaq-la) kifayətlənməyərək, eyni zamanda **pul**, **sərmayə**, **kapital ixrac** etməyə başlamışdılar. Şübhəsiz ki, kapital ixracından başlıca məqsəd, daha yüksək **gəlir**, **mənfəət** əldə etmək olmuşdur.

Başqa, xüsusilə iqtisadi inkişaf baxımından geridə qalmış ölkələrə kapital ixracının digər səbəbi, bir qrup ölkələrdə və əllərdə artıq vəsaitin, məbləğin toplanması olmuşdu. Xarici ticarət əlaqələrinin xeyli genişlənməsi, müstəmləkələrin istismarı (soyulması), sənaye və kənd təsərrüfatı, xammal materiallarının qiymətləri arasında kəsgin fərqlərin olması, bir qrup ölkələrə öz «artıq» kapitallarını ixrac etməyə imkan yaramışdı.

Adətən kapital ixracı əsasən zəif inkişaf etmiş ölkələrə yönəldilir. Bu ölkələrdə yerli sərmayə ehtiyatlarının az olması, iş qüvvəsinin ucuzluğu, xammal mənbələrinin yaxınlığı, istifadəsiz və boş torpaq sahələrinin qiymətinin əlverişliliyi, xarici kapitalı cəlb edən mühüm sərvətlərdir. Kapital ixracı həmin ölkələrə əmtəə-mal ixracı ilə sıx əlaqəli surətdə həyata keçirilir. Zəif inkişaf etmiş borclu ölkələr, kapital ixrac edən dövlətlərin, onların şirkət və inhisarlarının məhsulları üçün əlverişli satış bazarına çevrilirlər.

Şübhəsiz, başqa ərazilərə sərmayə ixrac edən ölkələr bu kapitalı daxildə də istehsal – xidmət sahələrinə yönəldə

bilərdilər. Lakin həmin kapitalın ölkə daxilində tətbiqi yüksək mənfəət vəd etmədiyindən onun geridə qalmış ölkələrə, müstəmləkələrə ixracı, bu yerlərdə olan ucuz xammal mənbələri və iş qüvvəsi sayəsində daha səmərəli idi.

Kapital ixracı 2 yolla həyata keçirilmişdir. **Birbaşa kapital ixracı**, yaxud investisiyalar vasitəsiylə həmin ölkələrdə mülkiyyət hüququ əsasında müxtəlif obyektlər tikilir, dəmir yolları çəkilir. Portfel investisiyası adlanan digər kapital ixracı başqa ölkələrin hökumətlərinə, banklarına borc vermək, yaxud qiymətli kağızlar (səhmlər) buraxmaq, habelə xarici kapitalı qiymətli kağızlar şəklində yerləşdirməyi nəzərdə tutur.

Kapital ixracının müsbət və nöqsan cəhətləri, konkret şərait və şərtlərlə bağlı olduğundan, bu mürəkkəb, habelə zaman keçdikcə dəyişən iqtisadi-siyasi prosesin son nəticələri hərtərəfli təhlil olunub qiymətləndirilməlidir.

*** * ***

**3.** Dünya miqyasında iqtisadi-ticarət əlaqələri genişləndikcə, iri inhisarların təsərrüfat həyatında rolları artdıqca, inkişaf etmiş bir qrup ölkələrin əlində külli miqdarda kapital toplandıqca, dünya bazarını, habelə xammal mənbələrini bölüşdürmək üçün **beynəlxalq inhisarlar yaramışdır**.

**Beynəlxalq inhisarlar** – bazarları bölüşdürmək, qiymət siyasəti, istehsalın həcmi haqqında müxtəlif ölkələrin ən iri inhisarları arasında müvafiq razılaşmalardır, sazişlərdir.

Onu da qeyd etmək lazımdır ki, bir çox beynəlxalq inhisarlar bilavasitə ayrı-ayrı dövlətlərin iştirakı, yaxud onların köməyi ilə yaradılaraq, fəaliyyət göstərməyə başlamışdılar. Bu yeni meyl, inhisarçı kapitalizm mərhələsində dövlətin iqtisadiyyatı tənzimləməsi proseslərinə daha fəal surətdə qoşulması ilə bağlı olmuşdu.

Aydındır ki, dünya bazarının müxtəlif ölkələrin maraqlarını təmsil edən **beynəlxalq inhisarlar** arasında bölüşdürülməsi, ziddiyyətli mübarizələr, hətta toqquşmalarla getmişdir.

Beynəlxalq inhisarlar XIX əsrin sonlarında formalaşmağa başlanmış, XX əsrin 30-40-cı illərində onların sayı 300-400-ə çatmışdır. Hələ I dünya müharibəsi ərəfəsində beynəlxalq neft bazarı, Rokfellerlər ailəsinin əlində olan «Standart oyl» (ABŞ) tresti ilə, əsasən ingilis kapitalının həlledici rol oynadığı «Royal datç Şell» konserni arasında əslində bölüşdürülmüşdü. Eyni zamanda dünya elektrotexnika məmulatları bazarında Almaniyanın «Ümumi elektrik kompaniyası» ilə, ABŞ-ın məşhur Morqan maliyyə-sənaye qrupu ağalıq edirdilər.

ABŞ, İngiltərə, Fransanın I dünya müharibəsində məğlub edilmiş Almaniyaya beynəlxalq inhisar birlikləri xəttiylə maddi-texniki və maliyyə yardımı göstərməsi, habelə Qərb ölkələrinin faşist rejimi ilə geniş əməkdaşlığı, şübhəsiz Hitler Almaniyasının iqtisadi-hərbi potensialının bərpa olunub yenidən dirçəldilməsində mühüm rol oynamışdır. Həmin inhisarlar arasında «Standart oyl» (neft, ABŞ), «Krupp» (metallur-giya, Almaniya), «Armstronq-Vikkers» (silah, İngiltərə), «Şneyder-Krezo» (maşınqayırma, Fransa), «Bofors» (kimya-poliqrafiya, İsveç) və digərlərini göstərmək olar.

Xüsusilə II dünya müharibəsindən sonra, bir sıra dövlətlərin iştirakı ilə nəhəng beynəlxalq inhisarlar meydana çıxdı. «Avropa kömür və polad birliyi», «Avropa iqtisadi birliyi», «Avropa azad ticarət cəmiyyəti», «Avropa atom enerjisi birliyi» buna nümunə ola bilər. Həmin beynəlxalq inhisarların dövrün tələblərinə uyğun müəyyən quruluş və fəaliyyət dairəsindəki dəyişikliklər təkcə Avropada deyil, tədricən bütün dünya miqyasında inteqrasiya proseslərinin güclənməsinə təkan vermişdir.

Beynəlxalq inhisarlar XX əsrin ikinci yarısından başlayaraq trans milli koorporasiyalar (TMK) formasında

yeniləşərək, fəaliyyət göstərməyə nail olmuşlar. TMK-ın iqamətgahı hər hansı bir ölkədə yerləşsə də, onun dünyanın ən az 6 ölkəsində şöbəsi (filialı) olur və onların hər birinin illik dövriyyəsi 100 mln. dolları ötür. Hazırda dünyada 70 minə qədər TMK fəaliyyət göstərir ki, onların 500-ü ən irisi hesab olunur. Bu iri TMK-lar arasında – «Pepsi-kola», «Elektrolyuks», «Royal-Datçşell», «Ford», «Genral Motors», «Ekson», «Penzol», «Mobil», «AMOKO», «Britiş Petroleum», «Lukoyl», «Statoyl» və digərləri vardır.

∗ ∗ ∗

**4.** Beynəlxalq təsərrüfat həyat təcrübəsi göstərir ki, kapital ixracı xüsusi şirkət və firmalar, dövlət, habelə beynəlxalq maliyyə təşkilatları tərəfindən aparılır. Kapital ixracı bir tərəfdən geridə qalmış, yaxud zəif inkişaf etmiş ölkələrdə iqtisadiyyatın müxtəlif sahələrinin dirçəlişinə, iqtsadi-sosial yüksəlişə təkan versə də, digər tərəfdən asılılıq, birtərəfli inkişaf meyli, xarici borclar kimi mürəkkəb problemlər də yaradır.

İstehsalın təmərküzləşməsi və inhisar meylləri, təbii olaraq rəqabət mübarizəsini yeni bir mərhələyə qaldırdığı kimi, bazarlar, xammal mənbələri uğrunda əvvəlki ziddiyyətləri daha da kəsginləşdirilmişdi.

Məsələn, hələ 1897-ci ildə dünya bazarlarını bölüşdürmək barəsində 40 beynəlxalq saziş bağlanmışdı. 1910-cu ildə isə artıq onların sayı 100-ə, XX əsrin 30-cu illərində isə bu cür sazişlərin sayı 320-yə çatmışdı. 70-ci illərdə dünya iqtisadyyatında 300-ə yaxın iri beynəlxalq inhisar bütün ümumi məhsulun 20 faizdən çoxunu öz əlində cəmləşdirmişdi. Hazırda isə dünyada fəaliyyət göstərən minlərlə TMK-lar dünya sənaye istehsalı və ticarət dövriyyəsinin müxtəlif sahələrdə 45-70%-ə qədərinə nəzarət edirlər.

Aydındır ki, dünyada satış və xammal bazarlarının bölüşdürülməsi, eyni zamanda dünya ərazisinin bölüşdürülməsi, habelə yenidən bölüşdürülməsi ilə yanaşı getmişdir. Təsərrüfat həyatında inhisarların hökmüranlığının güclənməsi, o dövrdə dövlətlərin yeritdikləri yeni torpaqlar və müstəmləkələr zəbt etmək siyasətinə təkan verdi. Beləki bir qrup güclü ölkələr arasında dünyanın ərazicə bölüşdürülməsi siyasəti, zorakı yollarla həyata keçirilməyə başlamışdı.

1881-ci ildə Fransa Afrika qitəsində Tunisi zəbt etdi. 1882-ci ildə İngiltərə Misiri işğal etdi. 1884-cü ildə Almaniya Cənub-Qərbi Afrikanı özünə birləşdirdi. 1890-cı ildə İngiltərə və Almaniya Şərqi Tropik Afrikanı bölüşdürmək barədə müqavilə bağladılar. 1885-ci ildə Fransa Ənnam və Tonkini ilhaq etdi. Sonra İngiltərə Birmanı tutdu, Almaniya Yeni Qvineyanın şimal-şərq hissəsini, Marşall adalarını zəbt etdi. Okeanın o tayında, Amerika qitəsindəki ərazilərin böyük hissəsi kiçik müstəmləkə dövlətlərinin – İspaniyanın, Portuqali-yanın, Hollandiyanın, Belçikanın əlinə keçdi. Artıq XIX əsrin sonunda bütün «azad» yaxud «günəş altında» torpaqlar, əslində dünyanın iri və güclü dövlətləri arasında bölüşdürülmüşdü.

Lakin bu, dünyanın və satış bazarlarının ilkin bölüşdürülməsi kimi qiymətləndirilə bilər. 1870-1914-cü illər ərzində dünya ərazisi yenidən bölüşdülərək, bir qrup dövlətin xammal bazası və satış bazarına çevrildi. Həmin illər ərzində iri dövlətlərin müstəmləkə siyasəti və zorakı işğalları nəticəsində Afrika qitəsinin demək olar bütün ərazisi, Latın Amerikasının hamısı, bir qrup dövlətlərin müstəmləkə və yarımmüstəmləkəsinə çevrilərək, onlar üçün ucuz **xammal bazası**, əlverişli satış bazarları, bol **iş qüvvəsi** mənbəyi rolunu oynamışlar.

Bu proseslər dünaynın siyasi və iqtisadi mənzərəsində bir sıra cəhətlərə səciyyələnmişdi. Güclü, hakim dövlətlərlə

yanaşı, dünyada asılı ölkələr, yarım müstəmləkələr və müstəmləkələr meydana çıxmışdı.

**Müstəmləkə sistemi** dedikdə, vaxtilə Asiya. Afrika, Cənubi Amerika ölkələrinin hərbi-siyasi cəhətdən müxtəlif üsullarla, əsasən zorakılıqla iri dövlətlərə tabe edilərək, onların aqrar-xammal əlavəsinə, ucuz iş qüvvəsi mənbəyinə, qeyri-bərabər şərtlərlə aparılan iqtisadi-ticarət obyektinə çevrilməsi prosesi nəzərdə tutulur.

Müstəmləkə sisteminin formalaşması hələ XVI-XVII əsrlərdən başlanmış, XIX əsrin sonu – XX əsrin əvvəllərində əsasən başa çatmış və II dünya müharibəsindən sonra dağılma mərhələsinə daxil olaraq, ötən əsrin 80-90-cı illərində başa çatmışdır.

**Müstəmləkələr** – iqtisadi və siyasi müstəqilliyini itirərək, başqa bir ölkənin, yaxud ölkələr qrupunun əsarəti altında olan ərazilərdir. Afrika qitəsinin, qismən Hindistanın və digər ölkələrin taleyi buna nümunə ola bilər.

**Yarımmüstəmləkələr** – adətən formal cəhətdən, siyasi baxımdan müstəqil sayılan, lakin iqtisadi cəhətdən başqa dövlətlərdən asılı vəziyyətdə olan, yaxud qeyri-bərabər şərtlər əsasında müqavilələrlə hüquqları məhdudlaşdırılmış müəyyən ölkələrdir.

**Asılı ölkələr** – formal baxımdan sərbəst sayılsa da, lakin əslində iri güclü dövlətlərdən müxtəlif sahələrdə asılı olan, habelə həmin dövlətlərin iradəsi əleyhinə getməyən ölkələr qrupudur.

## Mövzu V. Dünya təsərrüfatında iki sistemin yaranması, onların inkişaf qanunauyğunluqları və xüsusiyyətləri

## Mövzu V.1. Dünya təsərrüfatında iki sistemin yaranması

1. İki dünya təsərrüfat sisteminin meydana çıxmasının səbəbləri
2. İki iqtisadi sistemin qarşıdurması və yarışının 3 mərhələsi

*** * ***

**1.** XIX əsrinin sonu və XX əsrin əvvəllərində dünyada gedən iqtisadi-sosial proseslər, qeyri-bərabər inkişaf meylləri, habelə müxtəlif istiqamətli rəqabət mübarizəsi son dərəcə kəskinləşmişdi. Bu ictimai-siyasi və iqtisadi-sosial qarşıdurmanın yaradıb kəskinləşdirdiyi ziddiyyətlər nəticəsində, 1917-ci ilin fevral ayında Rusiyada **burjua-demokratik** inqilabı, həmin ilin oktyabr ayında isə **sosialist** inqilabı baş verdi.

1917-ci ilin oktyabr çevrilişi nəticəsində Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər və onların lideri **V.İ.Lenin**, ölkəni **K.Marks** və **F.Engelsin** ideyaları əsasında idarə edib, burada sosialist (kommunist) prinsiplərinin hakim olduğu bir cəmiyyət qurmaq istəyirdilər.

XIX əsrin ortalarından başlayaraq, Qərbi Avropada belə bir fikir formalaşmaqda idi ki, sərbəst (azad) rəqabətə əsaslanan kapitalist təsərrüfat sistemi, cəmiyyətin getdikcə genişlənib mürəkkəbləşən çoxcəhətli iqtisadi-sosial

problemlərini həll etməyə qadir deyildir. Yaranmış bu real və çətin vəziyyətdən xilas olmaq üçün, habelə səmərəli iqtisadi inkişaf yolları axtarmaq naminə müxtəlif elmi nəzəriyyələr meydana çıxır, ayrı-ayrı konsepsiyalar irəli sürülür, yeni fikirlər söylənilirdi.

**Bir mövqeyə görə**, vaxtilə cəmiyyətin iqtisadi inkişafı üçün böyük imkanlar açmış xüsusi mülkiyyətə əsaslanan və bazar rəqabəti sayəsində inkişaf edən kapitalist təsərrüfatı, tədricən əvvəlki üstünlüklərini itirirdi. Ona görə də dövlət (hakimiyyət, hökumət) ölkənin iqtisadiyyatına, təsərrüfat həyatına daha dərindən nüfuz etməli və həmin prosesləri öz iqtisadi, habelə inzibati-hüquqi tədbirlər sistemi ilə tənzimləməlidir.

**Digər mövgedən** çıxış edən müəlliflər göstərirdilər ki, dövlət ölkənin təsərrüfat həyatı işlərinə, iqtisadi məsələlərə qarışmamalıdır. Çünki, xüsusi mülkiyyət, sərbəst sahibkarlıq və biznes fəaliyyəti, habelə rəqabət, qarşıya çıxan bütün çətinlikləri, problemləri tənzimləmək imkanlarına malikdir. Bu tipli fikirlər, bazar iqtisadiyyatına dair klassik siyasi iqtisad məktəbi ideyalarının yeni şəraitdə təkrarı idi.

**Başqa bir mövqeyə görə**, ümumiyyətlə cəmiyyətin təsərrüfat həyatında xüsusi mülkiyyətə yer olmamalı və o ləğv edilməlidir. Bu ideya tərəfdarlarının, o cümlədən marksist iqtisadi nəzəriyyə yaradıcılarının, habelə davamçılarının fikrincə, cəmiyyətdəki bütün ədalətsizliklərin **mənbəyi**, **səbəbi**, **kökü xüsusi mülkiyyət oldüğündan**, mülkiyyətin bu forması hökmən ləğv edilməlidir.

Onlar düşünür və təbliğ edirdilər ki, cəmiyyətin istehsal vəsitələri, o cümlədən torpaq, yeraltı-yerüstü sərvətlər, banklar, müəssisələr, tikinti obyektləri, iri nəqliyyat hamının (ictimaiyyətin) ümumi mülkiyyəti sayılmalıdır. Eyni zamanda ölkədə əmtəə-pul münasibətləri aradan qaldırılmalı, alğı-satğı olmamalıdır. İnsanlar sərbəst sahibkarlıq fəaliyyəti ilə məşğul

olmamalı, başqasının əməyini istismar etməməli, dövlət bərabərlik prinsipləri əsasında cəmiyyətin hər bir üzvünə normal həyat şəraiti təmin etməlidir.

XX əsrin əvvəllərində Rusiyada hakimiyyəti zorakılıqla ələ keçirmiş bolşeviklər məhz bu yolu özlərinin ideologiyası, siyasi xətti və iqtisadi siyasəti elan edib, həyatda gerçikləşdirilməsi mümkün olmayan xəyaların reallaşdırılmasına başladılar.

Həmin vaxtdan, əvvəllər bütün ölkələrdə mövcud olmuş, oxşar, sərbəst rəqabətə əsaslanan iqtisadi sistem 2 yerə – **sərbəst bazar iqtisadiyyatına** və **planlı sosialist iqtisadiyyatına** parçalandı. Beləliklə iki dünya təsərrüfat sistemi formalaşaraq, ayrılıqda fəaliyyətə başladı.

Sosialist (sovet) təsərrüfat sistemi öz inkişafının ilk mərhələsində həqiqətən ciddi çətinliklərlə rastlaşmışdı. O dövrdə aclıq və xəstəliklər məngənəsində boğulan, imperialist və vətəndaş müharibəsi nəticəsində dağıdılmış bir ölkəni xilas etmək üçün bütün ölkədə, habelə ucqarlarda, o cümlədən bolşevik rejimi tərəfindən işğal olunmuş Azərbaycanda **milliləşdirmə, daşınar mülkiyyətdən məhrum etmə**, **hərbi kommunizm**, **ərzaq sapalağı** kimi ədalətsiz tədbirlərdən, vasitələrdən yerli-yersiz istifadə edilmişdi.

Lakin bu sərt iqtisadi siyasət xəttinin uğursuzluğu, ölkədə yeni iqtisadi siyasət (YİS – NGP) vasitəsiylə xırda istehsalçılara, sənətkarlara, kəndlilərə, ticarətlə məşğul olanlara müəyyən fəaliyyət sərbəstliyi verilməklə nəticələndi. Təəssüf ki, bir müddətdən sonra bütün bunlara son qoyuldu, xüsusi mülkiyyət və azad təsərrüfatçılıq fəaliyyəti məhdudlaşdırılaraq, müvafiq qadağan tədbirləri ilə ölkənin iqtisadi həyatından sıxışdırılıb çıxarıldı.

Vahid ideologiya əsasında bolşevik rejimi və formalaşan inzibati-amirlik sisteminin iqtisadiyyatı sərt mərkəzləşdirilmiş idarəçilik metodları ilə planlaşdırması yolu, tədricən dövlət mülkiyyətinin, bir qədər sonra isə mahiyyətcə ondan

fərqlənməyən kolxoz-kooperativ mülkiyyətinin ölkənin təsərrüfat həyatında tam bərqərar olması ilə nəticələndi.

*** * ***

**2.** 1917-ci ildən başlayaraq, ümumdünya miqyasında iki təsərrüfat sisteminin kəsgin və ziddiyyətli qarşıdurma, habelə rəqabət mübarizəsi getmişdir.

Bu mürəkkəb proses qlobal miqyasında xüsusi mülkiyyətə, iqtisadi sərbəstliyə, şəxsi təşəbbüskarlığa, elmi-texniki tərəqqi əsasında rəqabət üzərində qurulan bir iqtisadiyyatla, yəni kapitalist iqtisadi sistemi ilə ictimai mülkiyyətə əsaslanıb, yuxarıdan əmrlə idarə olunan planlı sosialist iqtisadi sisteminin həm yarışı, həm də ölüm-dirim mübarizəsi kimi səciyyələndirilməlidir.

Deməli, planlı sosialist təsərrüfat sisteminin meydana çıxması ilə o vaxta qədər vahid sayılan dünya iqtisadiyyatı parçalanaraq 2 hissəyə ayrıldı. İki dünya təsərrüfat sisteminin **siyasi**, **iqtisadi** və **hərbi** qarşıdurması öz tarixi inkişafı gedişində 3 mərhələ keçmişdir:

**Birinci mərhələ**, Rusiyada 1917-ci ilin oktyabr ayından başlamış və II dünya müharibəsindən sonra, Sovet İttifaqının liderliyi ilə dünya sosialist sisteminin yaranmasına qədər olan təxminən 30 illik bir dövrü əhatə edir. Bu mərhələdə, tərkibinə Azərbaycanın da daxil olduğu keçmiş sovet imperiyası, təkbaşına dünya kapitalist sisteminə qarşı durmuşdu. O vaxt sosializm sistemini cəmisi 2 dövlət SSRİ və Monqolstan Xalq Respublikası təmsil edirdi. Monqolstanın real iqtisadi və texniki imkanları nəzərə alınarsa, o zamanlar Sovet İttifaqının sosialist təsərrüfatının həlledici qüvvəsi sayıldığı aydın olar.

Rəsmi statistika məlumatlarına görə, 1913-cü ildə Rusiya dünya sənaye məhsulunun 4%-ni verərək, bu göstəriciyə görə Avropada İngiltərə, Almaniya, Fransadan sonra 4-cü, dünyada isə ABŞ da daxil olmaqla 5-ci yeri tutmuşdu. Hələ o vaxt Rusiya dunyanın inkişaf etmiş ölkələrindən 50-100 il geri

qalırdı. Sonrakı 1918-1920-ci illərdə vətəndaş müharibəsi və xarici müdaxilə nəticəsində onun iqtisadiyyatı xeyli geri atınaraq, öz iqtisadi inkişaf səviyyəsinə görə dünyada 17-20-ci yerə sıxışdırılmışdı.

Bu göstəricilərdən aydın olur ki, iki sistem arasındakı rəqabətli yarış, sosialist təsərrüfat sistemi üçün son dərəcə əlverişsiz bir şəraitdə başlanmışdı. Başlanğıc mərhələdə Rusiya və Monqolostan dünya ərazisinin 1/6 hissəsini təşkil etdiyi halda, ümumdünya sənaye məhsulunun cəmisi 3%-ni vermişdi. 1940-cı ildə sosialist təsərrüfatı ümumdünya sənaye məhsulunun artıq 16%-ni vermişdi.

Ölkənin dağıdılmış xalq təsərrüfatını bərpa edib, yeni yüksəlişə nail olmaq üçün çox ciddi problemləri həll etmək lazım gəlmişdi.

Bu məqsədlə ölkənin bütün xalq təsərrüfatının yenidən qurulması və inkişaf etdirilməsinə dair kompleks plan – QOELRO (Rusiyanın elektrikləşdirilməsi üzrə dövlət planı – QOGLRO) qısa müddətdə işlənib hazırlanaraq, 1920-ci ilin sonunda qəbul edilmişdir.

Təsərrüfat quruculuğunun böyük planı kimi tərtib olunmuş QOELRO, Rusiyanın dağıdılmış və geridə qalmış iqtisadiyyatını yaxın 10-15 il ərzində yeni texniki baza – elektrikləşdirmə bazasında əsaslı surətdə bərpa edib, sürətlə yüksəltməyi nəzərdə tuturdu. Planın əsas məqsədi «yüz milyonlarla insanlara vahid bir plan əsasında rəhbərlik edib, onu işlək bir təsərrüfat orqanizmi halına salmaq» kimi müəyyənləşdirilmişdi.

QOELRO planının baş xətti, ilk növbədə ölkənin ağır sənayesini və onun inkişafı üçün zəruri sayılan uyğun maddi-texniki bazanın, müvafiq enerji növü kimi energetika təsərrüfatının yaradılması olmuşdu. Plana əsasən, ölkədə ümumi gücü 1,5 milyon kilovat olan 30 rayon elektrik stansiyası tikilib istifadəyə verilməli və onların illik elektrik enerjisi hasilatı 8,8 milyard kilovat-saata çatmalı idi.

QOELRO planında o zaman sovet imperiyasının tərkibində olmuş Qafqazın, o cümldən də Azərbaycanın elektrikləşdirilməsi məsələləri öz əksini tapmışdı. Planda Bakı sənaye rayonunun, neft mədənlərinin elektrikləşdirilməsi, Kür və Araz çaylarının su enerjisi ehtiyatlarından səmərəli istifadə olunması perspektivləri əsaslandırılmışdı.

Ölkənin bütün maddi-maliyyə texniki və əmək resurslarının səfərbərliyə alınması, inzibati-amirlik sisteminin sərt mərkəzləşdirilməsi, planlaşdırma üsullarının əmr formasında tətbiqi sayəsində, QOELRO planında nəzərdə tutulmuş tapşırıqlar artıqlamasilə yerinə yetirildi.

Sənaye istehsalının 1913-cü il səviyyəsi artıq 1928-ci ildə təmin edildi. 1935-ci ildə isə ölkədə sənaye məhsulunun ümumi həcmi, planda nəzərdə tutulan 1,8-2 dəfə əvəzinə 5,7 dəfə artdı. Elektrik stansiyalarının ümumi gücü və hasilatı da sürətlə artaraq, 1935-ci ildə müvafiq surətdə 6,9 milyon kilovat və 26,3 milyard kilovat-saata çatdırılmışdı. Təkcə elektrik enerjisi hasilatına görə deyil, ümumiyyətlə sənaye məhsulu istehsalına, o cümlədən iqtisadi potensialına görə Sovet İttifaqı, XX əsrin 30-cu illərinin sonlarında **Avropada birinci**, dünyada isə **ABŞ-dan sonra ikinci** yerə çıxmışdı.

Lakin 1941-1945-ci illəri əhatə etmiş Böyük Vətən Müharibəsi ölkəyə ciddi zərər vurdu. Faşist Almaniyası ilə 1.418 gün davam etmiş müharibə nəticəsində, ölkə milli sərvətinin 30% itirdi, 32 min sənaye müəssisəsi dağıdıldı, 26 milyon nəfər əhali həlak oldu.

Həmin dövrdə dünya kapitalist təsərrüfatının başında duran ABŞ, hərbi sifarişlər nəticəsində sənaye məhsulu istehsalını xeyli artırmağa nail oldu. Məsələn, müharibə illərində ABŞ-da emal sənayesinin gücü 30%, elektrotexnika sənayesinin məhsul buraxılışı 75% çoxalmış, iri inhisarların mənfəəti isə 300% artmışdı.

**İkinci mərhələ**, II dünya müharəbəsindən sonra XX əsrin 60-cı illərinə qədər olan bir dövrü əhatə etmişdir. Bu

dövrün səciyyəvi xüsusiyyəti – II dünya müharibəsindən sonra Şərqi Avropanın Almaniya, Polşa, Çexoslovakiya, Macarıstan, Bolqarıstan, Rumıniya, Albaniya, Yuqoslaviya; Asiyanın Çin, Koreya, Vyetnam; Amerika qitəsinin Kuba kimi ölkələrində xalq demokratik inqilablarının qalib gəlməsi, habelə dünyada müstəmləkə sisteminin tədricən dağılması olmuşdu.

Bir qədər sonra dünya sosializm sisteminin formalaşması, Qarşılıqlı İqtisadi Yardım Şurası (1949-cu il) və Varşava Hərbi Müqaviləsi (1955-ci il) çərçivəsində birləşmiş sosialist ölkələri qrupunun dünya kapitalist sistemi ilə **siyasi**, **iqtisadi**, **ideoloji** mübarizəsi gah kəsginləşib, gah da müəyyən qədər zəifləsə də, lakin dünya siyasi-iqtisadi həyatının aparıcı tarixi prosesi kimi XX əsrin 80-cı illərinə qədər davam etmişdir.

İkinci mərhələnin başlanğıcında sosialist təsərrüfat sistemi dünya sənaye məhsulu istehsalının 20 %-ə yaxınını vermişdisə, 70-ci illərin sonu və 80-cı illərin əvvəllərində bu rəqəm 33-34%-ə çatmışdı. Hesablamalara görə o vaxt dünya sosialist təsərrüfatının başında dayanmış Sovet İttifaqı, kapitalist təsərrüfat sisteminin dayağı sayılan ABŞ-ın iqtisadi potensialının üçdə bir hissəsini təşkil edərək, öz geriliyini 50-100 ildən 20 ilə qədər azalda bilmişdi.

XX əsrin 70-80-ci illərini əhatə etmiş **üçüncü mərhələdə** dünya sosialist sistemində planetimizin əhalisinin 24-25%-nin yaşamasına, dünya sənaye məhsulunun 33-35%-ni və kənd təsərrüfatı məhsullarının 28-29%-ni verməsinə baxmayaraq, istər əhalinin hər nəfərinə düşən mühüm məhsulların miqdarına, istərsə də insanların ümumi yaşayış səviyyəsi göstəricilərinə görə kapitalist düyası və təsərrüfat sisteminin iqtisadi-sosial göstəricilərindən xeyli geridə qalırdı.

Məsələn, həmin dövrdə yüksək inkişaf etmiş kapitalist sistemi ölkələrində dünya əhalisinin 16%-i yaşadığı halda, bu ölkələr dünya ümumi sənaye məhsulunun 57%-ni, kənd təsərrüfatı məhsullarının isə 40%-ə qədərini vermişdir. Bu müqayisəli rəqəmlərdən aydın olur ki, müəyyən uğurlara

baxmayaraq, sosialist təsərrüfat sistemi iqtisadi rəqabət yarısında **kapitalist təsərrüfat sisteminə uduzurdu**.

Beləliklə 74 il davam etdikdən sonra iflasa uğramış planlı sosialist təsərrüfat sistemi, dəyişən dünyanın sivil təsərrüfatçılıq formalarına və qarşılıqlı əməkdaşlıq prinsiplərinə uyğunlaşmayan; müasir elm və texnikanın, habelə mütərəqqi texnologiyanın nailiyyətlərindən insanların rifahı üçün faydalanmayan; bazar münasibətləri iqtisadiyyatının – xüsusi mülkiyyət, sərbəst sahibkarlıq fəaliyyəti, rəqabət mübarizəsi kimi təməl şərtlərini qəbul etməyən bir ictimai-siyasi quruluş, iqtisadi-sosial sistem, mənəvi-əxlaqi cəmiyyət nümunəsi timsalında, son nəticə etibarilə məhv olub tarixin arxivinə getdi.

# Mövzu V.2. 1929-1933-cü illərin dünya iqtisadi böhranı

1. İqtisadi böhranlar və onların mahiyyəti
2. 1929-1930-cü illəri əhatə etmiş dünya iqtisadi böhranının gedişi prosesi
3. İqtisadi böhranların sosial-iqtisadi nəticələri və onun tənzimlənməsi

* * *

**1.** Dünya miqyasında XIX əsrin əvvəllərindən başlayaraq, yəni maşınlı iri sənaye istehsalı meydana gəldiyi zamandan etibarən, sərbəst sahibkarlıq prinsiplərinə əsaslanan kapitalist geniş təkrar istehsal prosesinin gedişi, vaxtaşırı iqtisadi böhranlarla rastlaşmışdı. Bu hadisə bir tərəfdən ümumiyyətlə iqtisadi inkişaf və iqtisadi artımın qeyri-sabitlik meyli ilə səciyyələnərək, **dövrü** (**tsikl**) xarakter daşıması, digər tərəfdən isə bazar (sərbəst) iqtisadiyyatın **tələb-təklif**, **qiymət dəyişkənliyi** (enib-qalxması), habelə **rəqabət mübarizəsi** şəraitində daha yüksək mənfəət əldə etmək məqsədi (prinsipi, qanunu) ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, ayrı-ayrı sənaye sahələrini əhatə etmiş böhranlar, ilk vaxtlar özünü ifrat istehsal böhranları kimi göstərmişdir. İfrat böhranlar o deməkdir ki, cəmiyyətdə istehsal olunmuş müxtəlif təyinatlı əmtəələr (hazır məhsullar) satılmır, insanlara təklif olunan xidmətlərdən istifadə olunma səviyyəsi aşağı düşməyə doğru meyl edir.

Böhran nəticəsində bəzən ayrı-ayrı sahələrdə, bəzən isə bir-biri ilə əlaqədar olan sahələrdə, bəzən də bütövlükdə sənaye istehsalında, hətta aqrar bölmədə (kənd təsərrüfatında) belə məhsul buraxılışı aşağı düşür, işsizlərin sayı çoxalır. Böhran

ticarət əlaqələrinin normal gedişini pozur, kredit əlaqələri məhdudlaşır, pul qıtlığı əmələ gəlir, müxtəlif şirkətlərin səhmlərinin, habelə qiymətli kağızlarının satış məzənnəsi sürətlə aşağı düşür.

Maraqlıdır ki, böhranlar vaxtı əmtəə – xidmətlərin **artıq**, yaxud **ifrat** istehsalı mütləq deyil, **nisbi** bir xarakter daşayır. Bu isə o deməkdir ki, cəmiyyətdə istehsal olunmuş məhsul və xidmətlər insanların **həqiqi tələbatlarına** görə deyil, yalnız onların **ödəniş** (tədiyyə) **qabiliyyətli tələblərinə** nisbətən artıqlıq edir. Bu ziddiyyətli və təzadlı vəziyyəti, XVIII əsrdə yaşamış fransız sosialist-utopisti Ş.Furye «bolluq dönüb ehtiyac və məhrumiyyətlər mənbəyi olur» kimi qiymətləndirmişdir.

Hər hansı bir ölkədə ümumi iqtisadi-sosial inkişafın qeyri-sabitliyi meylinin, tələblə təklifin müxtəlif formalarda uyğunsuzluğunun təzahürü kimi meydana çıxan böhran proseslərinin bir sıra daxili-xarici səbəbləri mümkündür. **Daxili səbəblər** sırasında – əsas istehsal fondlarının xidmət müddətinin başa çatmasını, istehsal və şəxsi xarakterli istehlakın dəyişməsini, istehsal-xidmət dairəsinə sərmayə qoyuluşlarının artmasını, istehsalın yeniləşdirilməsini, yeni iş yerləri yaradılması ilə bağlı məsələləri, dövlətin yeritdiyi iqtisadi siyasət xəttinin ölkənin və əhalinin tələbatına, onun istehlakına, habelə son nəticə etibarilə istehsala hansı istiqamətdə təsir göstərəcəyini qeyd etmək olar. **Xarici səbəblərə** gəldikdə, – müharibələri, təbii fəlakətləri, siyasi-ictimai və sosial-iqtisadi sarsıntıları, yeni təbii sərvətlərin kəşfini, mədən-yataqların istifadəyə verilməsini, əhalinin miqrasiyasını, ölkənin demoqrafik vəziyyətində baş verən dəyişiklikləri, dünya bazarında qiymətlərin enib-qalxmasını, beynəlxalq iqtisadi əlaqələr sistemində obyektiv-subyektiv amillər üzündən irəli gələn prosesləri göstərmək olar.

Hələ XVIII əsrin sonu və XIX əsrin əvvəllərində, ayrı-ayrı sənaye sahələrini qismən sarsıdan ifrat istehsal böhranları

– «dünya emalatxanası» adını almış və dünyada «sənaye çevrilişinin» vətəni sayılan İngiltərədə baş vermişdi.

Təsərrüfat həyatının bütün sahələrini əhatə etmiş **ilk sənaye** böhran 1825-ci ildə İngiltərədə olmuşdu. 1836-cı ildə burada başlamış iqtisadi böhran bir qədər sonra ABŞ-a keçmişdi. 1847-1848-ci illərdə Avropanın bir sıra ölkələrini və Birləşmiş Ştatları əhatə etmiş sarsıntılar, əslində dünya iqtisadi böhranı kimi səciyyələndirilə bilərdi. Sonra, 1857-ci ildə yenidən iqtisadi böhran Avropa və Amerika qitəsinin bir sıra ölkələrinin təsərrüfat həyatını pozmuşdu. Bunun ardınca, 1866, 1873, 1882, 1890-cı illərdə müxtəlif dünya ölkələrinin sənaye istehsalında iqtisadi böhranlar özünü göstərmişdi.

XX əsrdə dünyanın müxtəlif ölkələrinin, o cümlədən Rusiyanın, ABŞ-ın, İngiltərənin, Almaniyanın timsalında iqtisadi böhranlar qeydə alınmışdı. 1900-1903-cü illərdə, 1907-ci ildə, I dünya müharibəsindən sonra 1920-1921-ci illərdə, 1929-1933-cü illərdə (bu böhran haqqında sonra daha ətraflı danışacayıq) 1937-1938-ci illərdə, II dünya müharibəsindən sonra isə 1948-1949-cu illərdə, 1953-1954-cü illərdə, 1957-1958-ci illərdə, 1960-1961-ci illərdə, 1970-1973-cü illərdə, XX əsrin 80-90-cı illərində Avropadan başlamış Cənubi Amerika ölkələrinə qədər və Cənub-Şərgi Asiyadan ta ABŞ-a kimi dünyanın ayrı-ayrı ölkələri sənaye, maliyyə, aqrar bölmələrdə iqtisadi böhranın təsirinə məruz qalmışlar.

Hər hansı bir iqtisadi böhranın başlanğıcından, digər böhranın başlanğıcına qədər olan dövrə tsikl deyilir. Adətən tsikl 4 fazadan (pillədən, mərhələdən) ibarət olur. Həmin fazalar bunlardır: **böhran**, **depresiya** (**durğunluq**), **canlanma** (**tərpəniş**, **dircəliş**, **oyanış**) və **yüksəliş** (sıçrayış).

**Böhran** – tsiklin əsas fazası və başlanğıc nöqtəsidir. Bu faza istehsal imkanları ilə əhalinin ödəmiş (tədiyə) qabiliyyətli tələblərinin aşağı düşməsi ilə bağlıdır. Bu fazada istehsalın artması fonunda qiymətlər aşağı düşür, dövriyyədə pul kütləsi məhdudluğu yaranır, birjalarda (əmtəə, kapital, iş qüvvəsi)

ciddi sarsıntılar baş verir, əmək haqqı aşağı düşür, cəmiyyətdə sosial gərginlik artır.

**Depresiya** (**durğunluq**) – tsiklin böhrandan sonra gələm fazasıdır. Bu fazanın səciyyəvi cəhətləri kimi sənaye istehsalının durğunlaq vəziyyətində olmasını; əmtəələrin qiymətlərinin aşağı səviyyədə qalmasını; ticarətin zəif getdiyini; istifadə olunmayan sərbəst pul kapitalının mövcudluğunu; kreditlər üçün faiz dərəcəsinin aşağı olmasını qeyd etmək mümkündür.

**Canlanma** (**dirçəliş**) – fazasında istehsal-xidmət dairələri, şirkətlər, birliklər tədricən iqtisadi böhranın vurduğu zərbələri aradan qaldırmağa çalışır, istehsalın artım səviyyəsi yüksəlməyə doğru meyl edir, qiymətlər yüksəlir, mənfəət norması çoxalır.

**Yüksəliş** – fazasında sənaye istehsalı əvvəlki tsikldə əldə olunmuş səviyyəni ötüb keçir. Yüksəliş fazasında yeni sənaye müəssisələri və müxtəlif təyinatlı obyektlər inşa olunur, nəqliyyat-ticarət və digər xidmət sahələri inkişaf edir, qiymətlər artır, əhalinin alıcılıq qabiliyyəti artır.

Bu iqtisadi vəziyyət müəyyən müddət (5-7-10) il davam etdikdən sonra, iqtisadi inkişaf üçün səciyyəvi sayılan qeyri-sabitlik meylinə və bazar münasibətləri sisteminə xas olan prinsiplərə (qanunauyğunluqlara) uyğun surətdə, şübhəsiz müəyyən dəyişikliklərlə **bütün tsikl** yenidən təkrar olunur.

*** * ***

**2.** 1929-1933-cü illəri əhatə etmiş və «böyük durğunluq» kimi səciyyələndirilən dünya iqtisadi böhranı şərti olaraq, 1929-cu il oktyabr ayının 24-də Nyu-York fond (kapital və qiymətli kağızlar) birjasındakı ümumi çaxnaşma ilə başlanmışdı.

«Qara cümə axşamı» adlanan həmin gün Uoll-stritdə yerləşən Nyu-York fond birjasında 12,8 milyon səhm, yaxud həmin birjanın tarixindəki ən yüksək səhm satışından 1,5 dəfə

(150%) çox səhm reallaşdırılmışdı. Cəmisi bir neçə gün sonra, oktyabr ayının 29-da birjada yaranmış süni hay-küy sayəsində, geniş yayılmış müxtəlif şayələr nəticəsində 16,4 milyon səhm bir əldən başqalarının əlinə keçmişdi. Həmin gün Nyü-York birjasının tarixinə «qara bazar ertəsi» kimi daxil olmuşdur.

Nyu-York birjasının iflası nəticəsində, dünyanın bir çox ölkələrinin kapitalının ABŞ-dan axını başlandı. Bu isə dolların rəsmi məzənnəsinin başqa ölkələrin valyutalarına nisbətən aşağı düşməsinə, habelə xırda (məhdud miqdarda) səhm sahiblərinin ciddi narahatlığına, eyni zamanda onların arasında böyük çaxnaşmaya səbəb oldu.

Müxtəlif şirkət və birliklərin səhmlərinin məzənnəsinin aşağı düşməsi prosesi 3 ildən artıq bir müddət ərzində dalğavari surətdə davam etmişdir. Mütəxəssislərin hesablamalarına görə 1929-1933-cü illərdə Nyu-York fond birjasında aksiyaların (səhmlərin) məbləğinin ümumi dəyəri 4-5 dəfə azalaraq, cəmisi 19,0 milyard dollar səviyyəsinə enmişdi.

1929-1933-cü illərin dünya iqtisadi böhranı bütövlükdə kapitalist təsərrüfat sisteminə ciddi ziyan vuraraq, müxtəlif ölkələrdə istehsalın aşağı düşməsinə (20-45 faiz), işsizliyin artmasına (15-40 faiz), əhalinin iqtisadi-sosial vəziyyətinin xeyli pisləşməsinə səbəb olmuşdu.

Əgər XX əsrdə baş vermiş iqtisadi böhranlar zamanı kapitalist ölkələrinin təsərrüfat həyatı 3-5 il geri atılmışdısa, XX əsrin 1929-1933-cü illərini əhatə etmiş böhran vaxtında isə iqtisadiyyat daha uzun bir müddətə geri düşmüşdü.

Rəsmi məlumatlara görə 1929-1933-cü illəri əhatə etmiş ümumi iqtisadi böhran nəticəsində, bütün kapitalist ölkələrində istehsalın həcmi 40 faiz, dünya ticarətinin ümumi həcmi isə 60 faiz aşağı düşmüşdü.

Həmin dövrdə ABŞ-da çuqun metal əridilməsi 80 faiz, Almaniyada isə 70 faiz aşağı düşmüşdü. İngiltərə, Fransa, İtaliya, Kanada, Yaponiya, habelə dünyanın digər ölkələrində

də maşınqayırma, kimya, poladəritmə kimi aparıcı sənaye sahələrində, tikinti işlərində ciddi problemlər meydana çıxmışdı.

Böhran nəticəsində yaranmış kütləvi işsizlik və inflyasiya (pulun qiymətdən düşməsi) prosesləri, bank və maliyyə qurumlarının iflası, əhalinin iqtisadi vəziyyətini xeyli pisləşdirmiş, cəmiyyətin müxtəlif təbəqələrinin yaşayış səviyyəsinə mənfi təsir etmiş, sosial gərginliyi xeyli dərəcədə artırmışdı.

Məsələn, ABŞ-da emal sənayesində çalışan fəhlə və qulluqçulara ödənilən əmək haqqı 58 faiz azaldılmışdı. Bu meyl sənaye istehsalının başqa sahələrində də özünü göstərmiş, habelə digər ölkələrdə də qeydə alınmışdı. Müxtəlif ölkələrin fəhlə və qulluqçularının böhran nəticəsində **nominal** əmək haqqından məhrum olmaları, onların **real əmək** haqqının aşağı düşməsi ilə birgə getdiyindən, əhalinin sosial-iqtisadi vəziyyətini xeyli mürəkkəbləşdirmişdi.

İqtisadi böhran gedişində, milyonlarla yoxsulluq həddində yaşayan insanların müxtəlif yaşayış vasitələri ilə təmin olunmadığı halda, qiymətlərin aşağı düşməsinin qarşısını almaq, yaxud rəqabət mübarizəsi naminə külli miqdarda məhsulların (buğda, mal-qara, kartov, pambıq, qəhvə) məhv edilməsi; İngiltərə, ABŞ, Almaniya, Fransada onlarla domna sobalarının sökülməsi; yükdaşıyan gəmilərin məhv edilməsi; müflisləşmiş milyonlarla fermer təsərrüfatlarının dəyər-dəyməzinə satılması; yetişmiş pambıq tarlalarının şumlanıb hazır məhsulunun yararsız hala salınması; barlı meyvə bağlarının qırılması, bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin, şübhəsiz müəyyən üstünlüklərinə baxmayaraq, eyni zamanda onun nöqsan cəhətlərini, habelə bazarda hökm sürən tələb-təkliflə bağlı meydana çıxan dəyişikliklərə hazır olmadığını göstərdi.

1929-1933-cü illərin dünya böhranının ağır iqtisadi-sosial nəticələri, öz fəsadlarını sonrakı dövrdə də ayrı-ayrı ölkələrin

təsərrüfat həyatına bilavasitə, yaxud dolayı yollarla göstərmişdi. Təsadüfi deyildir ki, «böyük böhran və durğunluq» illəri kimi səciyyələndirilən bu dövrün yaratdığı müxtəlif istiqamətli iqtisadi-sosial problemləri hələ tamamilə aradan qaldıra bilməmiş kapitalizm aləmi, onun iqtisadi sistemi, 1937-1938-ci illərdə yeni bir iqtisadi böhran dalğası ilə qarşılaşmalı oldu.

*** * ***

**3.** Bütövlükdə dünya miqyasında və ayrı-ayrı ölkələrdə baş verən istər istehsalın müxtəlif sahələrində, istərsə də ümumi təsərrüfat həyatındakı böhranlar, həmişə cəmiyyətdə iqtisadi-sosial problemlər yaradır. Ona görə də dünyanın ayrı-ayrı dövlətlərinin, xüsusilə də sənaye cəhətdən inkişaf etmiş ölkələrin hökumətləri iqtisadiyyatın vaxtaşırı enib-qalxan, qeyri-sabit, yaxud tərəddüdlü inkişafının tənzimlənməsi üçün müəyyən tədbirlər sistemi hazırlayıb, ardıcılıqla həyata keçirirlər.

İstər ölkənin təsərrüfat həyatının vaxtaşırı böhranlı inkişafını doğuran səbəblər, istərsə də bunun qarşısını almaq üçün həyata keçirilməli olan konkret tədbirlər sistemi haqqında iqtisadçılar və mütəxəssislər arasında dəqiq fikir birliyi yoxdur. **Bəziləri** iqtisadi inkişafın qeyri-sabitliyini (enib-qalxmasını, böhran xarakterli gedişini) tənzimləmək məqsədiylə məcmu **tələbin tənzimlənməsi** istiqamətində **antitsiklik** tədbirlərin həyata keçirilməsini irəli sürürlər. **Digərləri** isə bu prosesi **məcmu təkliflə** əlaqələndirərək, **antitsiklik tədbirlərin** məhz bu istiqamətə yönəldilməsini zəruri hesab edirlər.

Ümumiyyətlə ölkənin təsərrüfat həyatının antitsiklik tənzimlənməsini həyata keçirmək məqsədiylə aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun sayılır:

**Əvvələn**, istehsalın aşağı düşdüyü dövrdə dövlət böhran əleyhinə tədbir kimi **tələbi stimullaşdırmalı**, yüksəliş

dövründə isə antiinflyasiya tədbiri kimi **tələbi məhdudlaşdırmalıdır**.

**Sonra**, büdcə-vergi siyasəti çevik bir xarakter daşıyaraq, istehsalın aşağı düşdüyü vaxtlarda azaldılmalı, istehsalın yüksəliş dövründə isə əks istiqamətdə getməlidir, yəni artırılmalıdır.

**Nəhayət**, istehsalın aşağı düşməsi və böhran dövründə, hökumət əhalinin maddi rifahi və yaşayış səviyyəsini yaxşılaşdırmağı nəzərdə tutan sosial tədbirlər Proqramını həyata keçirməlidir. Eyni zamanda elmi-texniki nailiyyətlərindən və istehsalın quruluş dəyişiklərindən çevikliklə istifadə olunmalıdır.

Sərbəst bazar iqtisadiyyatı və dövlətin ölkənin çoxsahəli təsərrüfat həyatını tənzimləmək sahəsindəki konkret tədbirlərinə baxmayaraq, bu proseslərin qarşısının alındığını, habelə yaranmış problemlərin həll olunduğunu söyləmək, şübhəsiz çətindir.

Məlumdur ki, iqtisadi böhranların tənzimlənməsi zamanı istifadə olunmuş ənənəvi metod və üsullar, məsələn büdcə-vergi, habelə pul-krudit siyasəti ilə bağlı tədbirlər heç də həmişə istənilən müsbət nəticələrə gətirib çıxarmamışdır. Əksinə ABŞ, İngiltərə, Almaniya, Fransa, İtaliya kimi ölkələrdə əhalinin nisbətən az gəlirli təbəqələrinin sosial vəziyyəti xeyli gərginləşmişdi.

XX əsrin 70-80-ci illərində dünya miqyasında istehsal və xidmət dairəsinin qeyri-sabit inkişafı və bunun nəticəsi kimi işsizlik və inflyasiyanın səviyyəsinin artması müşahidə olunmuşdur. Yaranmış vəziyyətin tənzimlənməsi prosesi İngiltərədə M.Tetçer hökumətinin, ABŞ-da R.Reyqan kabinetinin, Almaniyada H.Koll hökumətinin bir sıra əməli tədbirləri ilə hə-yata keçirilmişdi. Uyğun tənzimləmə siyasəti ilə Yaponiya, İndoneziya, Fransa kimi ölkələrdə də müntəzəm surətdə məşğul olmuş və olmaqdadırlar.

Müasir dövrdə bazar münasibətləri iqtisadiyyatına keçən ölkələr, o cümlədən də Azərbaycan Respublikası, sərbəst bazar

münasibətləri iqtisadi sisteminə xas olan ölkənin təsərrüfat həyatının qeyri-sabit inkişaf meyli ilə bağlı olan müxtəlif problemlərlə rastlaşır. İqtisadi sabitliyin təmin olunması üçün dünya ölkələrinin təsərrüfat təcrübəsindən məqsədəuyğun surətdə faydalanmaqla yanaşı, yerli şəraiti, habelə onun özünəməxsus konkret xüsusiyyətlərini də nəzərə almaq zəruridir.

Milli iqtisadiyyatların qeyri-sabit inkişaf meylləri müasir dünyanın inteqrasiya və qloballaşma prosesləri ilə yanaşı getdiyindən, onun düşünülmüş tənzimlənməsi zəruriliyi, təkcə ölkənin təsərrüfat həyatının davamlı dayanaqlı inkişafının deyil, eyni zamanda onun ümumi ictimai-siyasi durumu mənzərəsinin də mühüm şərtidir.

## Mövzu V.3. II dünya müharibəsi və sosializm sisteminin formalaşması

1. II dünya müharibəsinin siyasi-iqtisadi nəticələri
2. Dünya sosialist sisteminin formalaşması və inkişaf xüsusiyyətləri
3. Dünya sosialist təsərrüfat sisteminin dağılması və bunun səbəbləri

* * *

**1.** 1939-1945-ci illəri əhatə etmiş II dünya müharibəsindən sonra dünyanın siyasi-ictimai və iqtisadi-sosial mənzərəsində çox ciddi dəyişikliklər baş verdi. Bu müharibəyə dünyanın 61 ölkəsi cəlb olunmuş, hərbi əməliyyatlar 40 ölkənin ərazisində aparılmış, Yer kürəsi əhalisinin 75-80%-i müharibənin bilavasitə, yaxud dolayı yollarla iştirakçısı olmuşdu.

II dünya müharibəsi planetin müxtəlif dövlətlərinə və xalqlarına küllü məbləğdə ziyan vurmuş, 55 milyondan artıq adam həlak olmuş, on milyonlarla adam yaralanmış, yaxud şikəst edilmişdir.

Bu müharibədə alman faşizminin və yapon militarizminin məğlubiyyəti nəticəsində, vaxtilə onların təsiri, yaxud əsarəti altında əzilən ölkələrin, habelə onların xalqlarının suverenliyi bərpa olundu. İkinci dünya müharibəsi, Avropa və Asiyanın bir çox ölkələrində milli azadlıq hərəkatının, habelə köklü inqilabi dəyişikliklərin başlanğıcını qoydu.

İlk növbədə Şərqi Avropa ölkələrində, şübhəsiz sovet qoşunlarının və ideologi vasitələrinin ciddi köməyi ilə demokratik quruluşlu dövlətlər formalaşmağa başladı. Bunların sırasında Çexoslovakiyanı, Macarıstanı, Polşanı,

Yuqoslaviyanı, Bolqarıstanı, Rumıniyanı, ADR-nı, Albaniyanı göstərmək olar.

Şərqdə, 1949-cu ildə ÇXR-nın sosialistcəsinə inkişaf yoluna qədəm qoyması, Şimali Koreya, Vyetnam, Monqolustandakı dəyişikliylər, habelə 1959-cu ildə Kubadakı hadisələr dünyanın siyasi-iqtisadi həyatında mühüm dəyişikliklərlə səciyyələndi. Bu hadisələrdən sonra dünya iki bir-birinə zidd, hərbi, iqtisadi cəhətdən qarşı-qarşıya duran kapitalizm və sosializm cəbhəsi sistemlərinə parçalandı.

Dünya sosialist sisteminə 14 müxtəlif ölkə daxil idi. Həmin dövlətlər aşağıdakılar olmuşdu: Sovet İttifaqı, Albaniya Xalq Respublikası, Bolqarıstan Xalq Respublikası, Macarıstan Xalq Respublikası, Almaniya Demokratik Respublikası, Vyetnam Demokratik Respublikası, Çin Xalq Respublikası, Koreya Xalq Demokratik Respublikası, Kuba Respublikası, Monqolstan Xalq Respublikası, Polşa Xalq Respublikası, Rumıniya Sosialist Respublikası, Çexoslovakiya Sosialist Respublikası, Yuqoslaviya Sosialist Federativ Respublikası.

XX əsrin ikinci yarısından başlayaraq, dünya sosializm sisteminin yaranması, genişlənməsi və tədricən formalaşması, bu birliyi dünyanın siyasət və təsərrüfat həyatının mühüm amillərindən birinə çevirmişdi. Müxtəlif qitələrdə yerləşib, fərqli tarixi inkişaf yolu keçmiş bu ölkələri formalaşmış dünya sosializm sistemində birləşdirən cəhətlər, – **eyni tipli iqtisadi əsasa, yəni istehsal vasitələri üzərində ictimai mülkiyyətə, eyni tipli dövlət quruluşuna, vahid marksizm-leninizm ideologiyasına əsaslanmaları və son məqsədlərinin isə kommunizm cəmiyyəti qurmaq arzusu olmuşdu.**

Ötən əsrin son rübündə sosializm birliyi ölkələri, dünya ərazisinin 25,9 faizini əhatə etmiş, bu ölkələrdə planetin əhalisinin 36,6 faizi yaşamış, burada dünya sənaye məhsulunun 38 faizi, kənd təsərrüfatı məhsullarının isə 27 faizi istehsal olunmuşdu.

XX əsrin ortalarından bir-birinə əks olan iki təsərrüfat sisteminin mövcudluğu, onların müxtəlif sahələrdə gedən rəqabət mübarizəsini şərtləndirməklə yanaşı, eyni zamanda həmin sistemlərin iqtisadi yarışını da nəzərdə tuturdu.

Məlumdur ki, elm və texnikanın inkişafı, dövlətlərin hərbi gücünün getdikcə artdığı bir şəraitdə iki sistem arasında iqtisadi sahədəki yarış, obyektiv zərurət kimi qiymətləndirilməlidir. Bu mənada müxtəlif ictimai-siyasi quruluşlara malik ölkələrin dinc yanaşı yaşamasını təmin etmək və beynəlxalq münasibətlər sistemində «soyuq müharibə» strateji xəttindən əl çəkib, yaranmış gərginliyi azaltmaq üçün iqtisadi yarış, habelə dinc əməkdaşlıq yolu ən səmərəli, hətta alternativi olmayan faydalı variant, «əlaqələndirici körpü» rolunu oynamalı idi.

Bir-birinə zidd olan iki sistemin dinc iqtisadi yarışının ilkin mərhələsində sosializm sistemi, ümumiyyətlə planlı iqtisadiyyata xas olan üstünlüklərdən müəyyən dərəcədə istifadə etməklə, bir sıra uğurlar əldə edə bilmişdi. O dövrdə istər sənaye istehsalının, aqrar bölmənin, xidmət dairəsinin ümumi inkişaf sürətində, istərsə də hər nəfərə düşən mühüm sənaye və kənd təsərrüfatı məhsullarının, habelə əhaliyə göstərilən müxtəlif təyinatlı xidmətlərin artımında müsbət irəliləyişlərin əldə edilməsi danılmazdır.

Lakin xüsusi mülkiyyətə, azad iqtisadi fəaliyyətə və sərbəst bazar rəqabəti prinsiplərinə əsaslanan dünya kapitalist təsərrüfat sistemi, sosializmlə başlanmış iqtisadi yarış meydanında daha çevik, habelə insanların rifahı üçün xeyli əlverişli imkanlar yaratmağa qadir olduğunu təcrübədə sübut edə bildi.

*   *   *

**2.** II dünya müharibəsindən sonra dünya miqyasında baş verən obyektiv və sübyektiv səbəblərlə bağlı meydana çıxaraq, bir sistem kimi formalaşmış **dünya sosializm sistemi**, habelə

bu zəmində yaranmış **dünya sosialist təsərrüfatı** XX əsrin 50-60-cı illərindən başlayaraq, həmin əsrin 80-cı illərinin sonu – 90-cı illərinin əvvəllərinə qədər yaşamış, fəaliyyət göstərmişdir.

Dünya sosialist təsərrüfat sisteminə Mərkəzi və Şərgi Avropanın, Asiya, habelə Amerika qitəsinin – Almaniya Demokratik Respublikası, Bolqarıstan, Macarıstan, Yuqoslaviya, Polşa, Rumıniya, Sovet İttifaqı, Çexoslovakiya, Şimali Koreya, Vyetnam, Çin, Monqolustan, Kuba, Albaniya kimi ölkələri daxil edilirdi.

Bu ölkələrin eyni, yaxud oxşar tipli iqtisadi əsası, dövlət quruluşu, vahid marksist ideologiyası, ümumi mənafe və məqsəd birliyi olmuşdu. Dünya sosialist təsərrüfat sistemi, beynəlxalq əmək bölgüsü və dünya sosializm bazarı ilə bağlı olan suveren sosialist dövlətlərinin təsərrüfat həyatının qarşılıqlı əlaqəsini, habelə tədricən bir-birinə yaxınlaşması prosesinin gücləndirilməsini nəzərdə tuturdu.

Dünya sosializm sistemi ölkələrinin iqtisadi və elmi-texniki əməkdaşlığı prosesi gedişində, yeni tipli, sosialist xarakterli **beynəlxalq əmək bölgüsü** formalaşmışdı. Beynəlxalq sosialist əmək bölgüsündən **başlıca məqsəd**, yalnız öz məhdud milli mənafeyi üçün deyil, eyni zamanda bütün sosialist iqtisadi sistemi üçün səmərəli fəaliyyət göstərmək prinsipi olmuşdu.

Dünya sosialist təsərrüfatının qarşılıqlı yardım, əməkdaşlığın genişləndirilməsi əsasında tarazlı və dinamik inkişafının başlıca istiqaməti – hər bir ölkənin milli iqtisadiyyatını irəlilətmək üçün göstərilən real səylərinin, ahəngdar surətdə başqa sosialist dövlətlərinin ümumi səyləri, potensial imkanları ilə optimal əlaqələndirilməsi kimi müəyyənləşdirilmişdi.

Eyni zamand, əvvəllər iqtisadi-sosial inkişaf göstəricilərinə görə xeyli geridə qalmış bir sıra (Monqolstan Xalq Respublikası, Vyetnam Demokratik Respublikası,

Albaniya Xalq Respublikası) sosialist ölkələrinin səviyyələrinin tarazlaşması prosesi qarşıya qoyulmuşdu. Əlbəttə, sosialist ölkələrinin iqtisadi inkişaf sviyyələrinin tarazlaşması problemi, həmin ölkələrin coğrafi mövqeyi, təbii resursları, əhalinin milli mentalitet xüsusiyyətləri ilə bağlı müəyyən çətinliklər yaratsa da, ideoloji-siyasi cəhətlərinə baxmayaraq, beynəlxalq əmək bölgüsünün prinsipləri nöqteyi-nəzərindən müsbət bir meyl olmuşdu.

Siyasi məqsəd və ideoloji mövqelərdən asılı olmayaraq, keçmiş sosialist ölkələri arasında əməkdaşlığın müxtəlif formalarının tədricən genişləndirilməsi xətti, bu əlaqələrin çox vaxt iqtisadi səmərəlilik prinsipləri ilə deyil, inzibati-amirlik üsulları ilə birtərəfli qaydada hazırlanıb həyata keçirilməsinə baxmayaraq, obyektiv surətdə sosializm aləmində **iqtisadi inteqrasiya proseslərinin** formalaşmasına yönəlmişdi.

İlk dövrlərdə dünya sosialist ölkələri arasında iqtisadi əlaqələrin əsas formaları **ticarət və kredit** əlaqələri olmuşdu. Lakin zaman keçdikcə və dünya iqtisadiyyatında vəziyyət dəyişib mürəkkəbləşşdikcə, həmin əlaqələrin kifayət etmədiyi aydın olmuşdu. Bu proseslərə müəyyən müsbət təsir göstərmək üçün sosialist ölkələrinin iqtisadi əməkdaşlıq əlaqələrinin ağırlıq mərkəzini istehsal dairəsinə yönəltmək zərurəti yaranmışdı. XX əsrin 50-ci illərinin ikinci yarısından başlayaraq, sosialist ölkələrinin xalq təsərrüfatı inkişafı **planlarının əlaqələndirilməsi**, **istehsalın ixtisaslaşdırılması** və **kooperasiyalaşdırılması**, **birgə müəssisələr**, **qurğular**, **tikintilər aparılması** işinə ciddi diqqət yetirilməyə başlanmışdı.

Bütövlükdə sosialist ölkələrinin qarşılıqlı iqtisadi əməkdaşlığını inkişaf etdirmək məqsədiylə, 1949-cu ildə bu ölkələrin kollektiv iqtisadi orqanı sayılan – Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) təşkil ollundu. Bu təşkilatın ilk tərkibinə hüquq bərabərliyi əsasında Sovet İttifaqı, Şərqi Avropa xalq

demokratiyası ölkələri, Monqolustan Xalq Respublikası daxil idilər.

Sonrakı illərdə dünya sosialist ölkələri arasındakı çoxcəhətli əlaqələr sistemi getdikcə daha da təkmilləşərək, xeyli möhkəmlənmişdi. Həmin ölkələr arasında formalaşmış iqtisadi və elmi-texniki əlaqələr sistemi, – xalq təsərrüfatı planlarının bir-biri ilə uyğunlaşdırılması; istehsalın beynəlxalq ixtisaslaşdırılması və kooperativləşdirilməsi; kompleks elmi tədqiqatların aparılması; beynəlxalq ticarət və hesablaşmalar; birgə obyektlər tikilməsi; beynəlxalq iqtisadi təşkilatlar yaratmaq kimi istiqamətlərdə aparılmışdır.

* * *

**3.** Ölkələrin və iqtisadi sistemlərin ümumi inkişaf göstəriciləri və xüsusilə əhalinin hər nəfərinə düşən mühüm məh-
sul, habelə xidmətlərin miqdarı (həcmi) elə göstəricilərdir ki, bunlar həmin sistemin nəyə qadir olduğunu əyani surətdə sübut edir.

XX əsrin 70-80-ci illərindən başlayaraq, Azərbaycan Respublikasının da daxil olduğu dünya sosialist təsərrüfat sistemi öz daxili inkişaf dinamikliyini ləngitməyə başlamış, aparıcı iqtisadi-sosial göstəriciləri aşağıya düşməyə meyl etmiş, xüsusilə ölkə əhalisinin həyat səviyyəsinə (əmək haqqı, mənzil şəraiti, orta ömür səviyyəsi, iş həftəsinin uzunluğu, pensiya təminatı və sair) görə çox geridə qalmışdı.

Belə bir vəziyyətin yaranmasına səbəb:

– iqtisadiyyatın son dərəcədə mərkəzləşdirilərək, **dövlət mülkiyyəti** əsasında qurulması;

– iqtisadi artım və inkişafın qənaət rejimi, habelə elmi-texniki nailiyyətlərin tətbiqinə əsaslanmayan **ekstensiv** yollarla aparılması;

– istehsal vasitələri istehsalına üstünlük verilməsi prinsipi altında, **istehlak şeyləri istehsalına və xidmət dairəsinə** kifayət qədər qayğı göstərilməməsi;

– dünyada **kommunizm ideyalarının hökmən qələbə çalacağı prinsiplərindən** çıxaraq, başqa ölkələrə yardım və hərbi sənaye kompleksinin inkişafına külli miqdarda vəsait yönəldilməsi;

– xüsusi mülkiyyət əsasında **sərbəst sahibkarlığa** və **işgüzar biznes fəaliyyətinə** yol verilməməsi, – olmuşdu.

Doğrudur, dünya sosialist təsərrüfat sisteminin böhranı, geriləməsi, dağılması prosesi birdən-birə və «gözlənilməz» sürətdə baş verməmişdi. Hələ 50-ci illərin sonu və 60-cı illərin əvvəllərindən başlayaraq, ölkədə müəyyən təsərrüfat, habelə idarəetmə islahatlarına başlanmışdı. Lakin bu yarımçıq və əlaqələndirilməmiş iqtisadi tədbirlər, bütövlükdə pozulmağa, yeni dövrün tələblərinə, beynəlxalq əmək bölgüsü prinsiplərinə, dünya bazarında hökm sürən sərt rəqabət qaydalarına, inteqrasiya və qloballaşma meyllərinə, vahid dünya təsərrüfat sisteminin formalaşması qanunauyğunluqlarına cavab vermədiyindən, son nəticə etibarilə bütövlükdə iqtisadiyyatın geriləməsinin qarşısını ala bilmədi.

Sosialist təsərrüfat sisteminin çökməsi qarşısını almaq üçün ötən əsrin 60-80-cı illərində həyata keçirilən tədbirlər sırasında kənd təsərrüfatında çalışanların **əməyinin həvəsləndirilməsini**, **yerli təsərrüfat və idarəetmə orqanlarında təşəbbüskarlığın yüksəldilmiəsinə** müəyyən imkanlar yaradılmasını**, sənaye və tikinti təşkilatlarının fəaliyyətinin səmərəli istiqamətdə təkmilləşdirilməsi cəhdlərini göstərmək olar**.

Bütün bu tədbirlər, axtarışlar, təcrübələr, islahatlar, yenidərqurma cəhdləri, dünya sosialist təsərrüfat sistemini yaşada bilmədi. Çünki, bu totalitar iqtisadi sistemdə inzibati-amirlik üsullarının hakim olması, insanların iqtisadi maraq və

mənafelərinin nəzərə alınmaması, şəxsiyyətin siyasi-iqtisadi sərbəstliyinin məhdudlaşdırılıb boğulması, onun yeni təsərrüfatçılıq prinsipləri əsasında, sivil qaydalarla qurulmasına imkan verilməyərək, sərt mərkəzləşdirilmiş sosialist planlaşdırılması çərçivəsində aparılması, sistemin zəruri iflasına səbəb oldu.

İqtisadi sistemlərin yaşayıb inkişaf etməyə qadir olduğunu sübut edən **yeganə meyar – real həyat təcrübəsi və praktikadır**. Həmin sınanmış obyektiv meyarlar isə sübuta yetirdilər ki, iqtisadi prinsiplərə məhəl qoymayan, məcburiyyət və zorakı metodlara əsaslanan dünya sosialist təsərrüfat sistemini düşdüyü siyasi-ictimai, iqtisadi-sosial, mənəvi-əxlaqi böhrandan xilas etmək mümkün deyildi. Ona görə də bu iqtisadi sistem məhv olub, sıradan çıxdı.

Tarixən mövcud olmuş iqtisadi sistemlərin varlığı və yaşayıb fəaliyyət göstərməsi müddətləri elan edilmiş bəyanatlar, tərtib olunmuş Proqramlar, verilmiş vədlərlə deyil, müəyyən vaxt ərzində daxili-xarici siyasət sahəsində qazanılmış ümumi uğurlar, insanların həyat səviyyəsindəki dəyişikliklər, nəhayət müasir inteqrasiya prosesləri gedişində qloballaşan dünyanın orta iqtisadi-sosial göstəriciləri ilə əyani müqayisələr, onun real üstünlüyünü təsdiq edir.

Cəmiyətin bir kompleks halında təsərrüfat həyatının bu qanunauyğun meyllərinin pozulması, iqtisadi-sosial inkişaf məsələlərinin sırf siyasi mövqelərdən və inzibati-amirlik metodları ilə həlli cəhdləri, son nəticə etibarilə bütövlükdə sistemin dağılmasına səbəb oldu.

Müasir mərhələdə keçmiş sosialist və sovet ölkələri yeni bir iqtisadi sistemə, **bazar münasibətlərinə** keçirlər. Əlbəttə, bazar iqtisadiyyatı bir sistem kimi cəmiyyətin bütün sosial-iqtisadi qayğalırını, problemlərini həll etməyə hazır deyildir. Amma, **xüsusi mülkiyyətə**, **şəxsi marağa, sərbəst rəqabətə** əsaslanıb, azad sahibkarlıq və işgüzar biznes fəaliyyətinə geniş imkanlar açan bazar münasibətləri iqtisadiyyatı, hazırda hələlik

**alternativi olmayan** bir təsərrüfat sistemi kimi özünün müxtəlif **modelləri**, **variantları** (amerika, isveç, alman, çin, yapon və sair) ilə bütün dünyada aparıcı təsərrüfat formasına çevrilməkdədir.

1991-ci ildən müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası da, bazar münasibətləri iqtisadi sistemini formalaşdıraraq, **sosial yönümlü**, yəni cəmiyyət üzvləri üçün normal həyat şəraiti təmin edən sivil bir quruluşa keçmək yolu ilə irəliləyir.

# Mövzu VI. Sosialist iqtisadiyyatının inkişaf mərhələləri və xüsusiyyətləri

## Mövzu VI.1. Planlı sosialist iqtisadiyyatının inkişaf mərhələləri

1. Planlı sosialist təsərrüfat sisteminin iqtisadi əsası və formalaşması prosesi
2. Sosialist iqtisadiyyatının inkişaf mərhələləri və iqtisadi-sosial göstəriciləri

*** * ***

**1.** Planlı və mərkəzləşdirilmiş sovet-sosialist iqtisadi sisteminin əsasını istehsal vasitələri (torpaq, sənaye müəssisələri, tikinti obyektləri, nəqliyyat, rabitə, maliyyə-bank sistemi, ticarət-xidmət sahəsi) üzərində **ümumxalq** (**dövlət**), habelə **kolxoz-kooperativ** mülkiyyəti təşkil etmişdi.

K.Marksın və F.Engelsin sənaye cəhətdən inkişaf etmiş Qərbi Avropa ölkələrinin təcrübəsi əsasında işlənib hazırlanmış iqtisadi nəzəriyyəsini geridə qalmış, feodal münasibətləri ölkəsi kimi səciyyələnən Rusiyaya mexaniki surətdə tətbiq etmiş inqilabçı proletariatın bolşevik liderləri, tarixin təkərini geriyə döndərməyə çalışmışdılar.

«Biz köhnə dünyanı yıxacaq və əvəzində yeni dünya quracağıq!» prinsipi, habelə niyyəti ilə hakimiyyəti ələ keçirmiş bolşeviklər, **xüsusi mülkiyyətə**, sahibkarlıq və işgüzar biznes fəaliyyətinə imkan verməyərək, geniş bir əraziyə malik olan ölkənin çoxsahəli təsərrüfat həyatında inzibati-amirlik qaydaları ilə idarə edilən, totalitar iqtisadi sistem yarada bildilər.

Cəmiyyətin sosialistcəsinə yenidən qurulması vəzifələrini həyata keçirmək üçün siyasi hakimiyyətin dövlət forması kimi meydana çıxmış **proletariat diktaturası**, «öz düşmənlərini əzmək yolu ilə» köhnə kapitalist iqtisadi bazisini məhv edərək, onun yerində, əvvəlki «istismarçıların istismarı» əsasında planlı təsərrüfat qurmalı idi. Bolşeviklər inanırdılar ki, yalnız proletariat diktaturası həm siyasətdə, həm də iqtisadiyyatda kapitalizmin müqavimətini, onun iqtisadi köklərinin tamamilə yox edilməsini, müəyyən bir tarixi dövr ərzində hökmən təmin edəcəkdir.

Bu işin həyata keçirilməsi və kapitalist istehsal münasibətlərinin ləğv olunaraq, əvəzində yeni planlı sosialist istehsal münasibətlərinin formalaşması, habelə möhkəmlənərək hakim təsərrüfat formasına çevrilməsi üçün **xüsusi bir keçid dövrünün olması zəruri idi**.

Daxili və beynəlxalq aləmdə obyektiv-subyektiv səbəblərin ziddiyyətli qovuşması, habelə təsadüfi amillər nəticəsində hakimiyyətə gəlmiş bolşeviklər, həqiqətən ciddi iqtisadi-sosial çətinliklərlə rastlaşdılar. Ədalət naminə qeyd etmək lazımdır ki, oktyabr çevrilişindən sonra Rusiyada, onun işğal etdiyi ucqarlarda, o cümlədən də Azərbaycanda istər siyasi-ictimai, istərsə də iqtisadi-sosial vəziyyət ağır və mürəkkəb olmuşdu.

Sənaye və kənd təsərrüfatına böyük zərər dəymiş, fabrik-zavodlar bağlanmış, əkin sahələri azalmış, ticarət əlaqələri zəifləmiş, dəmir yollarında qatarların hərəkət cədvəlləri (qrafikləri) pozulmuş, pulun alıcılıq qabiliyyəti dəfələrlə aşağı düşmüş, ölkədə aclıq və xəstəliklər geniş yayılmışdı.

Belə bir çətin vəziyyətdə fəhlə-kəndli və əsgər-matros hakimiyyəti, ölkədə milliləşdirmə haqqında dekretlər verərək, bütün təsərrüfat həyatının dövlətin əlində mərkəzləşdiyini elan etdi. Xarici şirkət və sahibkarların, habelə bankların mülkiyyəti dövlətin ixtiyarına keçdi.

Ölkədə əsas istehsal vasitələrinin sosialistcəsinə ictimailəşdirilməsi nəticəsində iqtisadiyyatda **sosialist bölməsi** (ukladı, təsərrüfat forması, tipi) yaradılsa da, lakin bununla yanaşı xüsusi mülkiyyətə əsaslanan, – **patriarxal kəndli təsərrüfatı**, **xırda əmtəə** (sənətkarlar, kustarlar) **istehsalı**, kapitalizm və **dövlət kapitalizmi** də hələ xeyli müddət təsərrüfat həyatında birgə fəaliyyət göstərmişdi.

İqtisadiyyatın müxtəlif ukladları arasında qarşılıqlı əlaqə, şərikli əməkdaşlıq, çoxtərəfli mübadilə prosesləri baş versə də, tədricən siyasi hakimiyyətə arxalanan **sosialist bölməsi**, ölkənin təsərrüfat həyatında **aparıcı** qüvvəyə çevrilərək, keçid dövrünün ziddiyyətli «kim-kimi» ölüm-dirim mübarizəsini öz xeyrinə həll etdi.

Totalitar və mərkəzləşdirilmiş planlı sosialist iqtisadi sistemi zorakılıq, represiyalar hesabına olsa da, sərt intizam əsasında səfərbəredici gücə malik üstünlüyünü bütün dünyaya subut edə bildi.

Nəhəng bir ölkənin təsərrüfat həyatını elektrik enerjisi bazasında yenidən qurmağı nəzərdə tutan QOELRO (QOGLRO – Qosudarstvennaə Komissiə po glektrifikaüii Rossii) planı tərtib olunaraq həyata keçirilməyə başlandı. Ölkənin **sənayeləşdirilməsi**, **kollektivləşdirilməsi**, **mədəni inqilabın** həyata keçirilməsi, Sovet İttifaqını dünyada ABŞ-dan sonra ikinci ən güclü dövlət mövqeyinə çıxardı.

Bu işin həyata keçirilməsi üçün bütün ölkənin, o cümlədən də sovet imperiyasının tərkib hissəsi sayılan Azərbaycan Respublikasının iqtisadi və insan resursları tam səfərbərliyə alınaraq, mərkəzin ehtiyaclarına tabe edilmişdi. Digər müttəfiq respublikalar kimi Azərbaycan da planlı, inzibati-amirlik metodları ilə idarə olunmuş vahid təsərrüfat sisteminin həlqələrindən biri kimi fəaliyyət göstərmişdi.

*** * ***

**2.** İqtisadi-sosial inkişaf səviyyəsinə görə Avropa dövlətlərindən və ABŞ-dan xeyli geridə qalan, I dünya, habelə vətəndaş müharibəsindən sonra geniş bir əraziyə, çoxmillətli əhaliyə malik ölkədə, yeni yaradılacaq sosialist-kommunist cəmiyyətinin iqtisadiyyatının qurulması, mühüm vəzifə kimi qarşıda durmuşdu. Sovet quruluşu üçün təsərrüfat həyatının yeni prinsiplər əsasında formalaşdırılaraq inkişaf etdirilməsi, təkcə daxili siyasət məsələsi olmayıb, eyni zamanda onun kapitalizmə nisbətən üstünlüklərini bütün dünyaya sübut etməli, beynəlxalq nüfuzunu möhkəmləndirməli idi.

Sovetlər ölkəsində sosializm quruluşunun əsas istiqamətləri kimi sənayeləşdirmə, dağınıq kəndli təsərüüfatlarının kollektivləşdirilməsi və mədəni inqilabın həyata keçirilməsi nəzərdə tutulmuş QOELRO planından başlayaraq, sonralar tərtib olunmuş 10 beşillik planlar, dövrün tələbləri ilə bağlı konkret tapşırıqların yerinə yetirilməsinə yönəldilsə də, ümumi strateji xətt, yeni təsərrüfat formasının kapitalizmdən üstünlüyü və ona qalib gələcəyi prinsiplərinə əsaslanmışdı. Bu mürəkkəb və ziddiyyətli, eyni zamanda daxili və xarici çətinliklərlə bağlı proses, öz reallaşdırılması gedişində bir sıra konkret tarixi mərhələlərdən keçmişdir.

Planlı sovet-sosialist iqtisadi sisteminin 74 illik təsərrüfat həyatı təcrübəsində aşağıdakı iri mərhələləri ayırmaq mümkündür:

a) 1918-1921-ci illəri əhatə edən **hərbi kommunizm dövrü**, istehsalın milliləşdirilməsi, xüsusi təsərrüfatçılıq fəaliyyətinin qadağan olunması, kənd təsərrüfatı məhsullarının müəyyən hissəsinin «**ərzaq sapalağı**» adı altında məcburi surətdə kəndlilərdən alınması ilə səciyyələnmişdi. Eyni zamanda pul tədavülü məhdudlaşdırılmış, məhsulların pulsuz bölüş-
dürülməsi, habelə sənaye ilə kənd təsərrüfatı müəssisələri arasında **natural** (barter) mübadiləsi həyata keçirilmişdi.

«Hərbi kommunizm» siyasəti, ölkənin düşdüyü ağır siyasi və iqtisadi böhran nəticəsində, zərurət üzündən həyata keçirilən məcburi tədbirlər sistemi olmuşdu. Lakin tezliklə belə inzibatı üsullarla iqtisadiyyatı idarə etməyin səmərəsizliyi, hətta ölkə üçün təhlükə yaratması aydın oldu.

Ölkədə məcburi əmək qaydalarının tətbiqi, pulun mübadilə vasitəsi kimi öz rolunu itirməsi, kəndlilərə qarşı tətbiq edilən zorakılıq halları, təkcə əhalinin müxtəlif təbəqələri arasında deyil, hakimiyyət daxilində də ciddi narazılıq və ixtilaflar doğurmuşdu. Buna görə də 1921-ci ilin birinci yarısından etibarən ölkədə yeni iqtisadi siyasət tətbiq olundu.

b) Ölkənin iqtisadi inkişafında 1921-1925-ci illəri əhatə etmiş **ikinci mərhələ**, **yeni iqtisadi siyasət** (NGP) dövrü adlanır.

Həmin dövrdə iqtisadiyyatın aparıcı sahələrində, xüsusilə ağır sənayedə həlledici mövqeləri öz əlində saxlayan hakimiyyət, digər bir sıra təsərrüfat sahələrinin xüsusi bölmə daxilində fəaliyyətinə icazə verdi.

Bu sahələrə xırda və orta tipli müəssisələr, ticarət obyektləri, şirkətlər təşkili, dövlət və xarici kapitalla əməkdaşlıq, müzdla iş qüvvəsindən istifadə etmək, istehsal edilmiş məhsulları bazar qiymətinə sata bilmək imkanı daxil idi.

Yeni iqtisadi siyasətə keçid, məcburi ərzaq sapalağını əvvəlcədən müəyyən olunmuş ərzaq vergisi ilə əvəz etdiyindən, kəndlilər istehsal etdikləri məhsulun artıq qalan hissəsini istədikləri kimi istifadə edə və sərbəst qiymətlərlə bazarda sata bilərdilər. Eyni zamanda müəyyən çərçivə daxilində sənətkarların fəaliyyətinə, xırda tipli müxtəlif təyinatlı müəssisələrin açılmasına, xüsusi ticarətə, dövlət səviyyəsində xarici kapitalla ayrı-ayrı istehsal-xidmət sahələrində əməkdaşlığa şərait yaradıldı.

Belə bir siyasət, dağıdılmış təsərrüfat həyatının maddi maraq prinsipi əsasında bərpa və inkişafına; şəhərlə kənd

arasında pozulmuş iqtisadi əlaqələrin nizama salınmasına; xarici ölkələrin işguzar dairələri ilə **konsensiyalar** (birgə, şərikli) əsasında əməkdaşlığa yönəldilmişdi.

Lakin bu yeni iqtisadi siyasət xətti, sosializm cəmiyyəti quruculuğunun nəzəri-ideoloji müddəalarına uyğun gəlmədiyindən, müvəqqəti bir xarakter daşıyaraq, 20-ci illərin axırlarından müxtəlif yollarla (ağır vergi siyasəti, qadağan tədbirləri, qolçomaqla mübarizə, sinfi düşmən, zərərli ünsür damğası) məhdudlaşdırılaraq dayandırıldı.

c) 20-ci illərin axırlarından 50-ci iilərin ortalarına qədər olan dövr, keçmiş sovet birliyinin iqtisadi inkişafında **üçüncü mərhələ** kimi səciyyələndirilə bilər. Bu illər totalitar inzibati-amirlik üsullarının bütün təsərrüfat həyatında tam hökmüranlığı dövrüdür. Həmin dövrün səciyyəvi xüsusiyyəti, mərkəzdən verilmiş plan tapşırıqlarının **məqsəd** və **iqtisadi nisbətlər** baxımından səmərəliliyinin əsaslandırılması deyil, sırf **siyasi cəhətdən zəruriliyi** həlledici amil sayılmışdı.

Təsərrüfat həyatı təcrübəsi baxımından haqq qazandırılması mümkün olmayan belə bir iqtisadi sistemi hələ o vaxt obyektiv mütəxəssislər «resursların maksimum sərfi bazasında ağır sənayenin artım sürətini maksimum həddə çattdırmaq» kimi qiymətləndirmişdilər.

Ötən əsrin 30-cu illərinin ikinci yarısında ölkədə sosializmin «tam və qəti qələbəsi» sayəsində, **milli gəlirdə** sosialist təsərrüfat formalarının payı 99,1 faiz, sənayedə 99,95 faiz, kənd təsərrüfatında 96,3 faiz, ticarətdə 100 faiz təşkil etmişdi. Kapitalizmdən sosializmə keçid mərhələsinin başa çatması kimi səciyyələndirilən bu dövrdə, cəmiyyətin sosial quruluşunda da əsaslı dəyişikliklər baş vermişdi. İngilabdan əvvəl ölkədə fəhlə və qulluqçular əhalinin 15-17 faizini, xırda əmtəə istehsalçıları (kəndlilər, sənətkarlar, kustarlar) 65-70 faizini, mülkədar və kapitalistlər 15-16 faizinim təşkil etmişdirsə, keçid dövrünün sonunda SSRİ-də mülkədar və kapitalistlər tamamilə ləğv edilmiş, fəhlə və qulluqçuların

əhalinin ümumi sayında xüsusi çəkisi 45,7 faiz, kolxozçu kəndlilərin və kooperativlərdə birləşmiş kustarların, xüsusi çəkisi 48,8 faiz, təktəsərrüfatçı və fərdi əməklə məşğul olanların xüsusi çəkisi 5,5 faiz səviyyəsində olmuşdu.

ç) 50-ci illərin ortalarından planlı sosialist iqtisadiyyatı özünün **dördüncü mərhələsinə** daxil olmuş və bu dövr 80-cı illərin yarısına qədər davam etmişdir. Həmin illərdə iqtisadiyyatın və xalqın rifahının yaxşılaşdırılması istiqamətində müəyyən uğurlar qazanılsa da, lakin kapitalist sisteminin inkişaf etmiş ölkələri ilə müqayisədə bu nailiyyətlər çox solğun, habelə zəif görünürdü.

Xüsusilə planlı sosialist sisteminin tənəzzülü meylləri, ölkədə bürokratik partiya-dövlət aparatı məmurlarının səmərəsiz fəaliyyəti, gizli yaxud «kölgə iqtisadiyyatının» genişlənməsi, rüşvət-korrupsiya hallarının çoxalması ilə daha da kəsginləşmişdi.

d) 80-cı illərin ortalarından 90-cı illərin əvvəllərinə kimi olan dövrü, sosialist iqtisadi sistemini xilas etmək üçün **yenidənqurma**, yaxud **beşinci mərhələ**, habelə onun tam **iflası**, **sonu**, **məhvi** adlandırmaq mümkündür.

80-cı illərin ikinci yarısından etibarən planlı sovet sosialist iqtisadi sisteminin daxili imkanlarının tükəndiyi və neft-qaz ixracatından əldə etdiyi məbləğin sürətlə aşağı düşdüyü, özünü aydın surətdə göstərmişdi.

Bu mənfi iqtisadi proseslər nəticəsində Sovet İttifaqının dünyanın digər yüksək inkişaf etmiş ölkələrindən, xüsusilə də ABŞ-dan geri qalması meyli güclənmişdi. SSRİ-nin dünyanın yüksək inkişaf etmiş dövlətlərindən geri qalması faktı özünü həm istehsalın intensivləşdirilməsində, həm onun səmərəliliyinin yüksəldilməsində, həm də əhalinin həyat səviyyəsi göstəricilərində təsdiq olunurdu.

Xüsusilə ölkənin elmi-texniki tərəqqi istiqamətində, hərbi sahələrdə ABŞ-dan geri qalması və dünyanın ikinci dövləti kimi öz yerini tədricən Yaponiyaya, Almaniyaya verməsi

prosesinin siyasi-ictimai nəticələri dünya sosialist təsərrüfatı sistemində böyük narahatlıq, habelə daxildə aşkar narazılıq yaradırdı.

Hakimiyyət orqanlarının yaranmış vəziyyəti nəzarət altında saxlamaq yolundakı siyasi və iqtisadi səylər göstərməsinə, ayrı-ayrı vaxtlarda sənayenin müxtəlif sahələrində, tikintidə, aqrar bölmədə, xidmət dairəsində, daxili və xarici iqtisadi əlaqələr sistemində, elmdə, təhsildə, mədəniyyətdə yarımçıq, habelə bir-biri ilə əlaqəsiz islahat xarakterli tədbirlər həyata keçirməsinə baxmayaraq, ciddi bir dəyişikliyə nail olmaq qeyri-mümkün idi. Çünki, sosialist iqtisadi sisteminin böhranı, bütün cəmiyyət həyatının müxtəlif sahələrini əhatə etdiyindən, onun xilası yalnız, yeni bir iqtisadi sistemlə əvəz edilməsində ola bilərdi.

# Mövzu VI.2. Sosialist iqtisadiyatının dağılması və bunun səbəbləri

1. Planlı təsərrüfatın üstün cəhətləri və uğurları
2. Sosialist iqtisadiyyatının nöqsanları
3. Sosialist iqtisadi sisteminin iflası

*** * ***

**1.** Planlı sosialist iqtisadiyyatı və onun mərkəzləşdirilmiş inzibati-amirlik üsulları ilə idarə olunmasına baxmayaraq, 74 il ərzində istər ölkənin ümumi iqtisadi-sosial inkişafı istiqamətində, istərsə də əhalinin güzaranının yaxşılaşdırılması sahəsindəki müəyyən uğurları, elm və təhsilin, mədəniyyət və incəsənətin bütün dünyada etiraf edilmiş nailiyyətlərini inkar etmək olmaz.

Geridə qalmış bir ölkənin nisbətən qısa tarixi dövr ərzində dünyanın sənaye cəhətdən inkişaf etmiş dövlətləri arasında II yerə çıxması, Hitler Almaniyası kimi son dərəcə güclü düşmənin hücumuna məruz qalaraq ona qalib gəlməsi, dünya sosialist birliyini təşkil edib bu sistemə başçılıq etməsi, kosmosu ilk fəth etməsi, atom və nüvə enerjisindən təkcə hərbi məqsədlər üçün deyil, eyni zamanda dinc məqsədlərə də zəngin bir enerji mənbəyi kimi istifadəsi, şübhəsiz danılmaz tarixi hadisələrdir.

Keçmiş sovet imperiyası tərkibində olmuş Azərbaycana gəldikdə, burada neft-kimya sənaye kompleksinin təşkili, güclü və ixtisaslaşdırılmış maşınqayırma-cihazqayırma-elektrotexnika sənaye sahələrinin inkişafı, etibarlı energetika bazasının formalaşması, irriqasiya-suvarma kanalları şəbəkəsinin çəkilməsi, iqtisadi baxımdan sərfəli olan pambıqçılıq və üzümçülüyün inkişafı, geniş tikinti-quraşdırma

və abadlıq işləri görülməsi, Xəzər dənizində dünyada nadir, əfsanəvi «Neft daşları»nın yaradılması, elm, təhsil, mədəniyyətin yüksəlişi bir çox hallarda mərkəzin mənafeyinə uyğun, son iqtisadi-sosial nəticələri nəzərə alınmadan, səmərəlilik prinsipləri gözlənilmədən, sırf birtərəfli ideoloji xarakter daşısa da, lakin ümumi milli tərəqqimizin real yekunlarıdır.

Həmin müvəffəqiyyətləri şərtləndirən aşağıdakı səbəblər olmuşdur:

I. Nəhəng bir ölkənin bütün maddi, maliyyə, insan, resurslarının mərkəzləşdirilmiş surətdə dövlətin əlində cəmlənib toplanması və oradan sərt nəzarət prinsipi üzrə təyinatına görə istehsal-xidmət dairəsinə yönəldilməsi;

II. Ölkənin təsərrüfat həyatının inzibati-amirlik üsulları əsasında ciddi nizam-intizam və sərt qayda-qanunlarla idarə olunması;

III. Böyük təbliğat-təşviqat və vahid məcburi ideologiya əsasında, bütün xalqa onun dövlət mülkiyyətinin əsl sahibi olması fikrinin yeridilməsi, psixoloji cəhətdən ona güclü təsir göstərilməsi;

IV. İqtisadi inkişaf və istehsalın əsas məqsədinin xalqın vəziyyətinin yaxşılaşdırılması olması ideyası ətrafında, cəmiyyətin bütün təbəqələrinin maddi-mənəvi imkanlarının bu vahid məqsəd yolunda səfərlər edilərək birləşdirilməsi;

V. Əməyə görə bölgə prinsipinin həyata keçirilməsi və «işləməyən dişləməz» tələbinin ölkənin Konstitusiyasında (Əsas Qanunda) əks olunması və işsizliyin aradan qaldırılması sahəsində qəti inzibati-iqtisadi vasitələrdən istifadə olunması;

VI. Əhalinin dövlət tərəfindən işlə təmin olunması, işçilərin sosial müdafiəsi, onların pulsuz təhsil almaları, mənzil şəraitlərinin yaxşılaşdırılması, səhiyyə xidmətləri göstərilməsi, maddi və mənəvi həvəsləndirmə tədbirlərindən geniş istifadə olunması sisteminin ardıcılıqla həyata keçirilməsi;

VII. Güzəştli şərtlərlə əhalinin istirahətinin təşkil edilməsi, uşaqlara və gənclərə qayğı göstərilməsi, həmkarlar təşkilatı xəttiylə xarici ölkələrə istehsalat təcrübəsinə və turist səfərlərinə, səyahətlərə göndərilməsi, müalicə-istirahət ocaqlarında sağlamlıqlarının bərpa olunması, tamaşa-konsertlərə gedişlərin təşkil edilməsi, müxtəlif həvəsləndirici mükafatların verilməsi, şübhəsiz totalitar rejimin yaşayıb fəaliyyət göstərməsi mexanizminin mühüm amilləri olmuşdur.

*** * ***

**2.** Cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarından irəli gələn bu müsbət cəhətlərlə yanaşı, planlı sosialist iqtisadiyyatına mahiyyətcə xas olan aşağıdakı nöqsan və neqativ cəhətlər onun dağılmasına səbəb oldu:

– mərkəzləşdirilmiş və hər şeyi öz əlində cəmləşdirilmiş bir iqtisadi sistemin, bütövlükdə çoxsahəli xalq təsərrüfatını uğurla idarə edib, onun müxtəlif problemlərini səmərəli həll etməsi, istər nəzəri, istərsə də əməli baxımdan mümkün deyildi;

– sosialist iqtisadi sistemi, müasir elmi-texniki tərəqqi və elmi-texniki inqilabın, habelə mütərəqqi texnologiyaların açdığı geniş imkanlardan birtərəfli (hərbi-sənaye kompleksi istiqamətində) qaydada faydalansa da, lakin sözün əsl mənasında həmin nailiyyətləri çoxsahəli xalq təsərrüfatının, habelə cəmiyyət üzvlərinin güzaranının yaxşılaşdırılmasına, onların xidmətinə yönəldə bilmədi;

– geniş bir əraziyə malik, kifayət qədər yerüstü və yeraltı sərvətlərlə zəngin ölkə, yeni dövrün tələblərinə uyğun qənaətli, yüksək məhsuldar texnika-texnologiya bazasında **ekstensiv** inkişaf tipindən qənaət rejimli, son iqtisadi-sosial nəticələri baxımından optimal bir istiqamət sayılan, əsl **intensiv** inkişaf yoluna keçə bilmədi;

– istehsal prosesinin real imkanları, əhalinin maddi və mədəni rifahının köklü surətdə, dünya standartlarına uyğun səviyyədə yaxşılaşdırılmasına yönəldilmədi;

– ölkənin iqtisadi resursları hərbi xərclərə, kommunizm ideyalarının təbliğinə, beynəlxalq fəhlə və kommunist hərəkatına aşkar-gizli kömək göstərilməsinə yönəldildi;

– cəmiyyət üzvlərinin şəxsi təşəbbüskarlıq və yaradıcılıq səyləri məhdudlaşdırılaraq, onların sərbəst iqtisadi fəaliyyətinə, işguzar biznes, habelə səmərəli sahibkarlıqla məşğul olmalarına imkan verilmədi;

– planlı sosialist iqtisadiyyatının bir növ qapalı xarakter daşıması, onun beynəlxalq inteqrasiya proseslərinə vaxtında qoşula bilməməsi, dünya bazarında kəsqinləşən rəqabət mühitinə davam gətirə bilməməsi, son nəticə etibarilə iqtisadi sistem kimi iflasını sürətləndirdi.

* * *

**3.** Sovet-bolşevik rejiminin hələ ilk illərindən başlayaraq, ölkənin təsərrüfat həyatının əmrlə idarə olunması üsullarına diqqəti cəlb edən yerli və xarici alimlər, iqtisadçılar, mütəxəssislər belə bir sistemin tez-gec iflasa uğrayacağını söyləmişdilər. Onların fikrincə, xüsusi mülkiyyət, iqtisadi maraq, tələb və təklif, bazar rəqabəti üzərində qurulmayan cəmiyyət, müasir dünyanın iqtisadi inkişaf qanunauyğunluqları, inteqrasiya, habelə qlobal miqyasda vahid dünya təsərrüfat sisteminin formalaşması prosesləri ilə ayaqlaşa bilməzdi.

Marksist və ehkamçı mövqedə dayanmış Kommunist Partiyası və Sovet hökuməti, ölkə alimlərinin obyektiv mülahizələrini «düşmən fikirləri» kimi qarşılayaraq, həbslər, represiyalar, ölkədən xaricə sürgün etmək yolu ilə onları sıradan çıxardı.

«Siyasət iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir» prinsipindən çıxaraq, «siyasət iqtisadiyyatdan üstündür»

mövqeyini əsaslandırmağa çalışan totalitar bolşevik rejimi, öz doqmatik iqtisadi siyasətinin strategiyası və taktikasında, ölkənin təsərrüfat həyatının aktual problemlərini son səmərəlilik meyarları baxımından deyil, əsasən siyasi məqsədlərə nail olmaq nöqteyi-nəzərdən həllini daha vacib saymışdı.

Sosialist iqtisadiyatı öz varlığının ilk və növbəti mərhələlərində, xalq təsərrüfatının ayrı-ayrı sahələrində inzibati idarəçilik metodları tətbiq edərək, bir sıra sanballı uğurlar qazansa da, lakin sonrakı dövrdə həmin yüksək templəri, tələb olunan optimal nisbətləri, istehsal-xidmət dairəsinin quruluş çevikliyini, zəruri struktur dəyişikliklərini həyata keçirə bilmədiyindən, qanunauyğun surətdə, tədricən çökməyə başladı.

Xarici ölkələrdə nəşr olunmuş elmi-nəzəri əsərlərdə sosialist iqtisadi sistemi «**qırmızı imperializm**», «**tarixin səhvi**», «**xalq üçün faciə**», «**şər imperiyası**» adlandırılır və bu cəmiyyətdə yaşayanları «**hüquqsuz kütlə**», «**itirilmiş nəsl**» kimi səciyyələndirirdilər. Onlar subut edirdilər ki, planlı sosialist iqtisadi sistemi çərçivəsində «ədalətli» və «xoşbəxt» cəmiyyət qurmaq arzusu boş, əlçatmaz xülyalardan başqa bir şey deyildir.

Doğrudan da 74 il davam etdikdən sonra süquta uğrayan sosialist təsərrüfat sistemi, sivil dünya prinsiplərinə məhəl qoymayan, elmi-texniki nailiyyətlərdən insanın rifahına faydalanmayan, bazar münasibətlərinin xüsusi mülkiyyət, sərbəst iqtisadi fəaliyyət müstəqilliyi, rəqabət mübarizəsi tələbləri ilə uyğünlaşmağı bacarmayan bir siyasi-ictimai, iqtisadi-sosial quruluş kimi dağıldı.

# Mövzu VII. Yüksək inkişaf etmiş ölkələrin müasir təsərrüfat həyatı

## Mövzu VII.1. Yüksək inkişaf etmiş ölkələrin dünya iqtisadiyyatında mövqeyi

1. Müasir dünya ölkələrinin iqtisadi-sosial inkişaf səviyyələrinə görə qruplaşdırılması
2. Yüksək inkişaf etmiş ölkələrin coğrafi yerləşməsi və səciyyəvi inkişaf xüsusiyyətləri

* * *

**1.** İki yüzdən artıq müxtəlif dövlətlərin, ölkələrin, ərazilərin iqtisadiyyatlarından ibarət olan müasir dünya təsərrüfat sistemi, ümumiləşdirilmiş şəkildə aşağıdakı 3 istiqamətli qrupu özündə birləşdirir: a) yüksək inkişaf etmiş sənaye ölkələri; b) inkişaf etməkdə olan ölkələri; c) keçid mərhələsində olan postsosialist və postsovet ölkələrini. Bu ölkələr dünyanın müxtəlif qitələrində yerləşirlər.

Birləşmiş Millətlər Təşkilatının (BMT) qəbul etdiyi bu təsnifat, bütün dünyada əsasən bəyənilir və müasir beynəlxalq aləmdə yaranmış real vəziyyəti obyektiv surətdə əks etdirir. Həmin təsnifata görə Azərbaycan Respublikası, postsovet ölkələri qrupuna daxil edilir. Müasir dünyanın iqtisadi və siyasi həyatında, habelə beynəlxalq əməkdaşlıq əlaqələri sistemində **yüksək inkişaf etmiş sənaye** dövlətləri aparıcı rol oynayırlar.

Yüksək inkişaf etmiş ölkələr qrupuna, hazırda dünyanın 30-35 dövləti daxil edilir. Bu ölkələrin 29-u «İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı»nda (İƏİT) birləşmişlər. Həmin ölkələr bunlardır: Avstraliya, Avstriya, Almaniya, ABŞ, Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, İsveçrə, İsveç,

İspaniya, İtaliya, Kanada, Yaponiya, Yeni Zellandiya, Lüksemburq, Malta, Niderland, Norveç, Portuqaliya, İsrail, Fransa, Finlandiya və sair.

Düyna Bankı və digər beynəlxalq təşkilatların son hesabatları, habelə müstəqil ekspertlərin müqayisəli məlumatları, yüksək inkişaf etmiş ölkələrin dünya iqtisadiyyatında tutduğu yeri, oynadığı sanballı rolu aydın göstərir.

Hazırda ümumi dəyəri 60 trilyon dolları ötən ümumdünya məhsul istehsalının və xidmətlər göstərilməsinin yarıdan çoxu, 20 trilyon dolları ötən dünya ticarət dövriyyəsinin üçdə iki hissəsi məhz bu ölkələr qrupunun payına düşür.

Şübhəsiz, ayrı-ayrılıqda bu qrupa daxil olan ölkələrin hər birinin iqtisadi güc və imkanları, elmi-texniki potensial və resursları, ixrac və idxal səviyyələri müxtəlifdir. Lakin, ərazilərinin böyük-kiçikliyindən, əhalisinin sayından, yerüstü-yeraltı sərvətlərindən, siyasi-ictimai quruluşlarından asılı olmayaraq, bu dövlətlər öz ümumi iqtisadi-sosial göstəricilərinə görə yüksək inkişaf etmiş sənaye ölkələri sırasına daxil edilirlər.

Son 20 ildə yüksək inkişaf etmiş ölkələrin orta illik artım tempi 4-6 faiz arasında dəyişsə də, XXI əsrin əvvəllərində bu rəqəm 2,5-3 faiz təşkil etmişdir.

Bu dövlətlərin iqtisadi durumunun mühüm ümumi (makro) göstəricilərindən sayılan əmək qabiliyyətli əhalinin işsizlik səviyyəsi orta hesabla 7-8 faiz, milli valyutanın inflyasiyası 6-10 faiz, tədiyyə balansları normal göstəricilərə uyğun olmuşdur.

** * **

**2.** Planetin Avropa, Amerika, Asiya Avtraliya kimi qitələrində yerləşmiş yüksək inkişaf etmiş ölkələr qrupu iqtisadi-sosial inkişafın qeyri-bərabərliyi və «dalğavari» enib-

qalxması qanunauyğunluqlarının yaratdığı xüsusiyyətlərə baxmayaraq, xüsusi mülkiyyətə, sərbəst iqtisadi fəaliyyətə, rəqabət mübarizəsinə, tarazlaşdırılmış dövlət tənzimlənməsi siyasətinə əsaslanan bu dövlətlər intensiv bir yolla, çoxsahəli təsərrüfat həyatında ciddi uğurlar qazanmağa nail olmuşlar.

Bazar münasibətləri iqtisadi sisteminin ölkənin təsərrüfat həyatının dəyişkən tələb-təklif prinsipləri təməlində qurulması, elmi-texniki nailiyyətlərin və mütərəqqi texnologiyaların istehsal proseslərinə çevik tətbiqi, əhalinin rifahının yüksəldilməsi sahəsində düşünülmüş sosial siyasət xəttinin müəyyən bir ardıcıllıqla həyata keçirilməsi təcrübədə sübut etdi ki, bu təsərrüfatçılıq forması inzibati-amirlik üsulları ilə, mərkəzləşdirilmiş qaydalarla idarə olunan planlı sosialist sisteminə nisbətən aşkar üstünlüklərə malikdir.

Aşağıdakı cədvəldə «İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı»na daxil olan ölkələrin ümumdünya məhsul istehsalında və xidmətlər göstərilməsində yeri, habelə mövqeyi göstərilmişdir. Bu göstəricilər, həmin ölkələrin müasir dünya iqtisadiyyatı və təsərrüfat həyatında oynadıqları rolu aydın izah edir.

**XX əsrin sonu və XXI əsrin əvvəllərində yüksək inkişaf etmiş ölkələrin dünya məhsul-xidmətlər (dünya ümumi daxili məhsulu) istehsalında xüsusi çəkisi, yaxud payı (faizlə)**

| «İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına» daxil olan ölkələr | Göstəricilər | |
|---|---|---|
| | XX əsrin 90-cı illəri | XX əsrin sonu və XXI əsrin əvvəlləri |
| Bu təşkilata daxil olan bütün ölkələr birlikdə | 54,3% | 47% |
| o cümlədən:<br>ABŞ | 20,2% | 18% |
| Yaponiya | 8,3% | 7,8% |
| Kanada | 1,9% | 1,6% |
| Avropa Birliyi (AB) ölkələri | 21,0% | 18,2% |

| | | |
|---|---|---|
| o cümlədən:<br>Almaniya | 5,0% | 4,2% |
| Fransa | 3,7% | 3,0% |
| İtaliya | 3,4% | 2,9% |
| İngiltərə | 3,4% | 3% |

Cədvəldə göstərilən rəqəmlərdən aydın olur ki, yüksək inkişaf etmiş ölkələr qrupuna aid edilən 35-ə yaxın dövlət, II düyna müharibəsindən sonra və xüsusilə də XX əsrin 70-80-cı illərində, habelə 90-cı illərin əvvəllərində dünya ümumi məhsul-xidmətlər istehsalının yarıdan çoxunu verərək, bütövlükdə Planetin təsərrüfat həyatında həlledici rol oynayırlar.

Müasir mərhələdə də yüksək inkişaf etmiş ölkələr qrupu dünya iqtisadiyyatında mühüm rol oynasa da, lakin ötən yüzilliyin 90-cı illərinin ikinci yarısından başlayaraq, vəziyyət tədricən dəyişməyə doğru meyl etməkdədir.

Cədvəldəki rəqəmlərdən göründüyü kimi, istər yüksək inkişaf etmiş ölkələr qrupuna daxil olan dövlətlərin hər birinin ayrılıqda, istərsə də bu qrupun bütövlükdə dünya istehsal-xidmətlərindəki xüsusi çəkisi getdikcə azalır. Əlbəttə, onların pay etibarilə mövqelərinin aşağı düşməsi, bu ölkələrin ümumi inkişaf səviyyəsinin dəyişməsi demək deyildir.

Yüksək inkişaf etmiş ölkələrin dünya istehsal və xidmətlərindəki payının dəyişməsi, ilk növbədə digər ölkələr qrupunun (inkişaf etməkdə olan ölkələrin və keçid mərhələsini yaşayan ölkələrin) inkişaf templərinin artması; başqa ölkələrdə elmi-texniki tərəqqinin nailiyyətlərindən daha geniş miqyasda faydalanmaq meylləri; müxtəlif ölkələr və qruplaşmalar arasında rəqabət mübarizəsinin kəsginləşməsi ilə bağlıdır.

Yüksək inkişaf etmiş ölkələr qrupuna daxil olan hər bir dövlətin, XXI əsrin əvvəllərində müasir dünyanın ümumi məhsul və xidmətlər istehsalındakı rolunu, aşağıdakı cədvəldən görmək mümkündür:

## Müasir dövrdə yüksək inkişaf etmiş ölkələrin dünya məhsul və xidmətlər istehsalında payı (faizlə)[1]

| Sıra №-si | Ölkələr | Dünya məhsul və xidmətlər istehsalında payı | Dünyada tutduğu yer |
|---|---|---|---|
| 1. | Avstraliya | 1,60 | IX |
| 2. | Avstriya | 0,50 | XVII |
| 3. | Almaniya | 4,8 | III |
| 4. | Amerika Birləşmiş Ştatları | 18,0 | I |
| 5. | Belgiya | 0,65 | XV |
| 6. | Böyük Britaniya | 3,0 | V |
| 7. | Cənubi Koreya (Koreya Respublikası) | 1,20 | X |
| 8. | Cənubi Afrika Respublikası | 0,70 | XIII |
| 9. | Çexiya | 0,34 | XXII |
| 10. | Danimarka | 0,34 | XXI |
| 11. | Fransa | 3,60 | IV |
| 12. | İrlandiya | 0,18 | XXVI |
| 13. | İspaniya | 1,8 | VIII |
| 14. | İtaliya | 3,0 | VI |
| 15. | İsveç | 0,49 | XVII |
| 16. | İsveçrə | 0,50 | XVI |
| 17. | İsrail | 1,0 | XII |
| 18. | Yaponiya | 7,8 | II |
| 19. | Yeni Zellandiya | 0,18 | XXV |
| 20. | Yunanıstan | 0,40 | XVIII |
| 21. | Finlandiya | 0,27 | XXIV |
| 22. | Kanada | 1,7 | VII |
| 23. | Lüksemburq | 0,40 | XIX |
| 24. | Malta | 0,01 | XXIX |
| 25. | Niderland | 0,90 | XIII |
| 26. | Norveç | 0,28 | XXIII |
| 27. | Portuqaliya | 0,38 | XX |
| 28. | Türkiyə | 1,0 | XI |
| 29. | Slovakiya | 0,11 | XVII |

[1] Cədvəl, müxtəlif mənbələrin müqayisəli rəqəmləri əsasında tərtib olunmuşdur

Dünya əhalisinin 20 faizinin yaşadığı yüksək inkişaf etmiş dövlətlər, planetin elmi-texniki potensialının əksər hissəsini öz əllərində mərkəzləşdirmişlər. Onların daxili və xarici siyasət xəttləri, elmi-texniki nailiyyətləri bütün dünyada bu sahədəki dəyişikliklərə həlledici təsir göstərməklə yanaşı, istehsalın strukturuna (quruluşuna) zəruri yeniliklər gətirir. Bu proseslər isə beynəlxalq miqyasda kapitalın və iş qüvvəsinin, habelə dünya ticarətinin inkişaf istiqamətlərində bəzən müsbət, bəzən də mənfi cəhətləri ilə fərqlənən ziddiyyətli dəyişikliklər yaradır.

Hazırda yüksək inkişaf etmiş, ölkələrdə, orta dünya göstəriciləri ilə müqayisədə hər nəfərə düşən ümumi daxili məhsulun həcmi 5-7 dəfə çoxdur. Lakin inkişafın qeyri-bərabərliyi qanununun fəaliyyəti nəticəsində, həmin ölkələrdə vaxtaşırı dalğavari meyllər də özünü göstərir.

Müasir mərhələdə yüksək inkişaf etmiş ölkələri bir-biriylə sıx elmi-texniki, iqtisadi-ticarət, maliyyə-kredit, miqrasiya, turizm-idman, mədəni əlaqələr şəbəkəsinin birləşdirilməsinə baxmayaraq, onların arasında gizli-aşkar şəkildə rəqabət mübarizəsi gedir.

Hazırda dünya iqtisadiyyatında formalaşmış «üç mərkəz» – ABŞ, Qərbi Avropa və Yaponiya arasındakı rəqabət, həm xammal mənbələrini, həm satış bazarlarını, həm də kapital ixracını əhatə edir. Müasir şəraitdə çoxmillətli kapital əsasında yaradılıb və dünyanın müxtəlif ölkələrdə istehsal-xidmət fəaliyyəti ilə məşğul olan trans milli korporasiyalar (TMK), bu «üç mərkəz» arasında davam edən real rəqabətə mübarizəsinə, şübhəsiz yeni çalarlar verir. Çin Xalq Respublikası, Hindistan, Malayziya kimi ölkələrin, eyni zamanda keçid mərhələsində olan dövlətlərin son vaxtlar iqtisadi-sosial inkişaf yolundakı uğurları, gələcəkdə bazar münasibətləri sisteminin hərəkətverici amillərindən sayılan rəqabət mübarizəsinin, daha da kəsginləşəcəyini proqnozlaşdırmağa imkan verir.

# Mövzu VII.2. «Səkkizlər qrupu» ölkələrinin inkişaf yolu və iqtisadi-sosial göstəriciləri

1. «Səkkizlər qrupu»na daxil olan ölkələrin ümumi səciyyəsi
2. «Səkkizlər qrupu» ölkələrinin müasir iqtisadi-sosial göstəriciləri

* * *

**1.** Müəyyən problem və vaxtaşırı çətinliklərə baxmayaraq, Qərbi Avropa ölkələrinin II dünya müharibəsindən sonrakı dövrdə və xüsusilə də XX əsrin axırlarındakı inkişafı, ümumiyyətlə yüksələn bir xəttlə gedərək, dinamik xarakter daşımışdır.

XX əsrin sonu və XXI əsrin əvvəllərində Avropa Birliyində (İttifaqında) birləşmiş 15 Qərbi Avropa ölkəsinin orta illik ümumi daxili məhsul (ÜDM) istehsalı 2,5-3,2%, illik sənaye məhsulu istehsalı həcmi isə 2,8-3,1 artırmışdır. 2004-cü ildən daha 12 ölkə bu birliyə qəbul edilərək, onların sayı 27-yə çatdırılmışdır.

Bu ölkələrdə vahid milli valyuta kimi tətbiq olunmağa başlamış **avronun** ilk vaxtlar dollara nisbətən məzənnəsinin aşağı olması, xarici dövlətlərlə xüsusilə də Asiya ölkələri ilə ticarət əlaqələrinin genişlənməsinə səbəb olmuşdu. Sonralar avronun məzənnəsi qalxsa da, gələcəkdə bu prosesin tarazlaşacağı gözlənilir.

«Səkkizlər qrupu»na (ABŞ, Yaponiya, Almaniya, İngiltərə, Fransa, İtaliya, Kanada, Rusiya) daxil olan dövlətlər arasında Fransa, İngiltərə, Almaniya öz sabit inkişaf templəri ilə seçilmişlər.

Lakin belə bir cəhət diqqəti özünə cəlb edir ki, son dövrlərdə Qərbi Avropa ölkələri iqtisadiyyatına sərmayə qoyuluşları azalmağa doğru meyl etmişdir. Əgər ABŞ-da XX əsrin sonu və XXI əsrin əvvəllərində ölkə iqtisadiyyatına investisiya qoyuluşu ildə 8,2% təşkil etmişdisə, Qərbi Avropa dövlətlərində bu rəqəm 5% olmuşdu. Bu prosesin bir səbəbi Qərbi Avropa iqtisadiyyatının **investisiya** qoyuluşu baxımından şərti olaraq «**doyması**» idisə, digər tərəfdən ABŞ-ın yüksək bank faizləri ilə investorları ölkəyə cəlb etməsi olmuşdu. Bu kapital axını prosesi adlanır. Son vaxtlar isə əks proseslər getməkdədir.

«Səkkizlər qurupu»na daxil olan ölkələr arasında Yaponiya öz inkişaf yolu və xüsusiyyətlərinə görə fərqlənir. Atom bombası zərbələrinə məruz qalmış, II dünya müharibəsi gedişində məğlub olmuş, təbii sərvətləri zəngin olmayan, ərazisi məhdud adalardan ibarət bu «gündoğar» ölkənin son 50 ildə iqtisadi-sosial yüksəliş yolunda əldə etdiyi nailiyyətlər, həqiqətən sərbəst bazar münasibətlərinin «möcüzələr» yarada bildiyinə əyani sübutdur.

Öz iqtisadi gücü və potensialına görə müasir dünya ölkələri arasında II yeri tutan Yaponiya, ABŞ-nın 60-65 faizi həddində iqtisadi güdrətə malikdir. Hər nəfərə düşən mühüm sənaye məhsulları istehsalına görə isə Yaponiya bir sıra sahələrdə ABŞ-dan irəlidədir.

İkinci dünya müharibəsindən əvvəl Şərgi Asiya ölkələrinin ümumi məhsulunun cəmisi 3%-ni vermiş Yaponiya, hazırda bu ölkələr arasında payını 60%-ə çatdırmışdır. İqtisadiyyatın və sosial sahənin müxtəlif istiqamətlərində ciddi uğurlar qazanmış Yaponiyanın elmi-texniki, ən müasir texnoloji və istehsalın elm tutumlu sahələrində əldə etdiyi müvəffəqiyyətlər çox böyükdür.

Yaponiyanın «səkkizlər qrupu» daxilində, Qərbi Avropa ölkələri və Cənub-Şərgi Asiya regionu dövlətləri ilə münasibətlərində, şübhəsiz çətinlikləri , habelə problemləri

vardır. Amma dəfələrlə subut olunmuşdur ki, Yaponiya və onun yüksək ixtisaslı peşəkar mütəxəssisləri, daxili-xarici bazarın dəyişkən tələb-təklif dalğasında, sərt rəqabət-qiymət mübarizəsində ən optimal variantlar tapa bilməyə qadirdirlər.

ABŞ və Rusiyaya gəldikdə, müasir dünya iqtisadiyyatında, onların rolu xeyli fərqli olsa da, lakin gələcək inkişaf perspektivləri böyükdür.

Maraqlıdır ki, klassik sərbəst bazar münasibətlərinin formalaşıb bərqərar olduğu sənaye cəhətdən yüksək inkişaf etmiş ölkələrdə, **vahid iqtisadi sistemin müxtəlif modelləri** fəaliyyət göstərir.

Məsələn, bazar iqtisadiyyatının **İsveç modeli** əhalinin aztəminatlı təbəqəsinin xeyrinə olaraq, ölkənin milli gəlirinin yenidən bölüşdürülməsi ilə səciyyələnir. Bütün dünyada böyük rəğbət doğüran həmin model – **sosial istiqamətli bazar modeli** adlanır. Dövlət büdcəsi vasitəsiylə, hökumətin həyata keçirdiyi sosial-iqtisadi siyasət xətti, ölkədə yüksək vergilər qoyulması ilə tənzimlənir.

**Amerika modeli**, əhalinin sosial bərabərlik prinsipini qabartmadan, xüsusi mülkiyyət əsasında sahibkarlıq, habelə işgüzar biznes fəaliyyətinin gücləndirilməsi, insanların varlanması üçün əlverişli iqtisadi, hüquqi, inzibati-təşkilati şərait yaradılmasını nəzərdə tutur.

**Almaniya modeli**, ilk növbədə orta və xırda sahibkarların, müəssisələrin (**mitteleştand**) inkişafına hərtərəfli dövlət qayğısı göstərməklə fərqlənir.

**Yaponiya modeli** isə, yüksək əmək məhsuldarlığı, bazar dəyişkənliyi əsasında ümumi milli miqyasda proqnozlaşdırma ilə səciyyələnir. Bu iqtisadi modeldə, istehsalın ənənəvi ailə əlaqələri, milli-psixoloji xüssusiyyətlər, milli və beynəlxalq əmək haqqı arasındakı şüurlu fərqlər, işçilərin eyni zamanda çalışdıqları müəssisənin səhmlərinə sahib olmaları, əhəmiyyətli bir rol oynayır.

* * *

**2.** I dünya müharibəsində (1914-1918) məğlub olmuş **Almaniya**, 1919-cu il iyun ayının 28-də Paris şəhəri yaxınlığında yerləşən **Versalda**, ağır şərtlərlə sülh müqaviləsi bağlamağa məcbur oldu. Bu müqavilə dünyanın bölüşdürülməsini qalib dövlətlərin xeyrinə həll etdi. Almaniya özünün Afrika, Sakit okean, Cənub Şərgi Asiyadakı bir sıra ərazilləri itirdi. Beləliklə, o özünün xammal mənbələri və xarici satış bazarlarından məhrum olundu.

Enyi zamanda Almaniyanın ərazisinin müəyyən hissəsi (Elzas və Lotaringiya) Fransaya; Poznan və Qərbi Prusiya Polşaya; digər hissələri Belçikaya, Danimarkaya, Çexoslovakiya, Litvaya (Klaypeda şəhəri) verildi. Nəticədə Almaniya əvvəlki ərazisinin 13,5 faizini (73 min kv. km), əhalisinin 10 faizini (6,5 mln. nəfər) itirmiş oldu. Həmin ərazilərdə Almaniyanın dəmir filizi ehtiyatlarının 75%-i, daş kömür mədənlərinin 20%-i yerləşir, habelə çuqun istehsalının 1/5 hissəsi hazırlanırdı.

Almaniya məğlub bir dövlət kimi 132 milyard marka (100 milyon dollardan artıq) məbləğində qızıl pulla hərbi təzminat ödəməli idi. Ölkənin 150 min vaqonu, 5 min parovozu, 140 min baş iri buynurlu mal-qarası əlindən alındı və yaxın 10 il müddətində bir sıra məhsullarla qalib ölkələri təmin etməsi öhdəliyini üzərinə götürdü.

Belə bir çətin vəziyyətə salınmış Almaniyada iqtisadi böhran, dağıntı yoxsulluq, ağır həyat şəraiti 1924-cü ilə kimi davam etdi. Xüsusilə, sürətlə davam edən inflyasiya alman markasının alıcılıq qabiliyyətini 4-6 dəfə aşağı salmışdı.

1924-cü ildə Londonda çağrılmış xüsusi konfransda ABŞ mütəxəssisi Çarliz Dauesin adı ilə bağlı qəbul olunmuş «Daues planı»nda, Almaniyanın üzərinə qoyulmuş ağır şərtlər xeyli yüngülləşdirildi. Məhz həmin vaxtdan başlayaraq,

Almaniyanın iqtisadiyyatının sağlamlaşdırılması prosesi həyata keçirildi.

ABŞ və İngiltərənin milyardlarla kapitalının Almaniyanın iqtisadiyyatına qoyuluşu başlandı. Ölkədə tədricən iri alman inhisar birlikləri – Krupp, Monnesman (metallurgiya), Simens (elektrik avadanlıqları), «İ.Q.Farbenindustri» (kimya) öz fəaliyyətlərini bərpa edərək, ölkə iqtisadiyyatında həlledici rol oynamağa başladılar.

1928-ci ildə Almaniya öz istehsalının müharibədən əvvəlki səviyyəsinə çataraq, onu 8 faiz ötə bildi. Bu səviyyənin əldə edilməsində ölkəyə axan xarici kapital, istehsalın yenidən qurulması amilləri, inhisarların fəaliyyəti, ölkənin beynəlxalq bazara çıxışı, habelə alman xalqının öz daxili imkanlarını səfərbərliyə alması, işgüzarlığı kimi amillərin mühüm rolu olmuşdu.

1929-1933-cü illərin dünya iqtisadi böhranı Almaniyanın təsərrüfat həyatına ciddi zərbə vurdu. Bu dövr ərzində ölkədə sənaye istehsalı 40%-dən də çox aşağı düşdü, işsizlərin sayı 9 milyon nəfərə çatdı, əhalinin sosial vəziyyəti xeyli pisləşdi, orta əmək haqqı yaşayış minimumu səviyyəsindən 2 dəfə aşağı endi. Aqrar bölmədə hökumətin siyasəti nəticəsində vəziyyət nisbətən sabit qalsa da, lakin 5 milyon xırda kəndli təsərrüfatından 560 mini müflüs olub satıldı.

1933-cü ildə yenidən Prezident seçilən **Qinderburq**, **Adolf Hitleri** baş nazir (reyxkansler) təyin etdi və Almaniyada faşist diktaturası dövrü başlandı. Bütün iqtisadi imkanlarını dünyada ağalıq etmək məqsədinə yönəldən Almaniya, tədricən Avropanın bir sıra ölkələrini işğal, digərlərini isə özündən asılı edərək, 1939-cu il sentryabrın 1-də Polşaya qarşı hücuma keçdi və beləliklə II dünya müharibəsi başlandı. II dünya müharibəsindəki məğlubiyyətdən sonra AFR və ADR-na parçalanan Almaniya müxtəlif yollarla inkişaf etsələr də, 1990-cı ildə onlar vahid bir dövlət şəklində birləşdilər. Müxtəlif iqtisadi-sosial problemlərə baxmayaraq, Avropa Birliyinə daxil

olan Almaniya, müasir dünyanın yüksək inkişaf etmiş dövlətlərindən biridir.

**İngiltərənin** I dünya müharibəsindən sonrakı illər ərzində keçdiyi iqtisadi inkişaf yolunun özünəməxsus xüsusiyyətlərini nəzərdən keçirdikdə aydın olur ki:

**Əvvələn**, İngiltərə birinci dünya müharibəsindən qalib bir dövlət kimi çıxıb, müəyyən üstünlüklər qazansa da (Almaniyanın müstəmləkəninin müəyyən hissəsi onun əlinə keçmiş, hərbi təzminatlar almış, Almaniya kimi ciddi rəqibi zəifləmiş), lakin 750 min döyüşçüsü cəbhələrdə həlak olmuş, 1,7 milyon adam yaralanmış, öz milli sərvətinin 30%-ni, ticarət donamasının 40%-ni itirmiş, sənaye məhsulları istehsalı 20% azalmışdı. Eyni zamanda ölkənin daxili borcu 10 dəfə artmışdı. 1,2 milyard funt sterlinqə çatan xarici borcun 850 milyon dollarını İngiltərə ABŞ-a borclu idi. Beləliklə, vaxtilə «dünya bankiri» və «sənaye emalatxanası» rolunu oynamış İngiltərə, öz mövqelərini itirərək, ABŞ-dan asılı vəziyyətə doğru gedirdi.

**Sonra**, 1918-ci ildən hakimiyyətə gəlmiş Lloyd Corc hökuməti dövründə ölkə iqtisadiyyatının hərbi xəttdən dinc-mülki quruculuq yoluna keçirilməsi ilə səciyyənənmişdi.

**Daha sonra,** 1924-cü ildə hökumətə gəlmiş **leyborist Makdonald** hökuməti müəyyən çətinliklərlə rastlaşsa da, iqtisadiyyatın canlanmasına nail oldu və İngiltərə 1929-cu ildə sənaye sahəsində məhsul buraxılışını 1913-cü il səviyyəsinə çatdıra bildi. Lakin o dünya ticarətində öz üstünlüyünü itirərək, bu sahədəki payı 1911-1913-cü illərdəki 15-16%-dən, 1928-1929-cu illərdə 12,5%-ə endi.

**Nəyayət**, 1929-1933-cü illərin dünya iqtisadi böhranı İngiltərədə nisbətən gec başlayıb zəif templərlə getsə də, lakin 1933-cü ildə bu tənəzzül prosesi ən yüksək həddə çataraq, 1929-cu ilin istehsal səviyyəsinin cəmisi 23%-ni təşkil etmişdi. Daş kömür, çuqun, gəmiqayırma, polad istehsalı, ticarət xeyli aşağı düşdü, kənd təsərrüfatı məhsulları istehsalı azaldı, xarici

ticarətin həcmi 2 dəfə ixtisar olundu, işsizlik səviyyəsi 25-26%-ə çatdı.

Belə bir vəziyyətdən çıxmaq üçün həyata keçirilən maliyyə, sənaye, kənd təsərrüfatı sahələrindəki bir sıra tədbirlər sayəsində, tədricən ölkə yaranmış böhran mərhələsindən uzaqlaşmağa başladı. XX əsrin 30-cu illərinin sonu üçün dünyanın nüfuzlu kapitalist dövlətlərindən sayılan İngiltərə, bir müstəmləkəçi ölkə kimi dünyanın neft ehtiyatlarının 58%-nə, hasilatının isə 80%-nə nəzarət edir, başqa müstəmləkələri hesabına iri xammal mənbələrinə ağalıq edirdi.

Lakin, bütün səylərinə baxmayaraq, İngiltərə dünya miqyasında öz əvvəlki mövqelərini istər sənaye, istərsə də ticarətdə bərpa edib, saxlaya bilmədi.

II dünya müharibəsində ABŞ və Sovet İttifaqı ilə birlikdə, faşist Almaniyasına qarşı vuruşmuş İngiltərənin 250 minə qədər əsgər və zabitini itirməsi, ölkənin milli sərvətinin 25 faizindən məhrum olması, daxili və xarici borclarının 7,2 milyard funt sterlinqə çatması, sənaye istehsalının müharibədən əvvəlki səviyyəyə nisbətən əhəmiyyətli dərəcədə azalması, bütövlükdə ölkənin iqtisadiyyatına ciddi zərər vurmuşdu. Xüsusilə, Hindistan. Pakistan, Birma, Seylon (Şri-Lanka) kimi müstəmləkələrin və Ərəb ölkələrindəki bazarların, habelə nüfuzunun aşağı düşməsi, İngiltərənin dünya ticarət əlaqələrindəki əvvəlki mövqelərinin zəifləməsi, onun ABŞ-dan asılılığını xeyli gücləndirdi.

Yaranmış çətin iqtisadi vəziyyətdən çıxmaq üçün İngiltərə ABŞ-ın «Marşall planı»na qoşulmaq haqqında 1948-ci ildə ikitərəfli müqavilə imzaladı. II dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrinə kömək məqsədiylə hazırlanmış bu plana əsasən, İngiltərənin iqtisadiyyatına 3 milyard dollar məbləğində avadanlıq və borc (kredit) verilmişdi.

1948-ci ildə İngiltərə sənayesi müharibədən əvvəlki səviyyəyə çatıb sonrakı illərdə həmin həddi ötsə də, lakin bu inkişaf qeyri-bərabər surətdə davam etmiş və energetika,

maşınqayırma, kimya sənayesi kimi sahələrdə irəliləyişlər baş versə də, ölkənin ənənəvi sənaye sahələri sayılan daş kömür, toxuculuq sahələrində dönüşə nail olmaq mümkün olmamışdı. Kənd təsərrüfatında müəyyən uğurlar qazanılsa da, o dövrdə ölkə özünü ərzaq məhsulları ilə təmin edə bilməmişdi.

1951-ci ildə ölkədə leyboristlər partiyasının lideri K.Ettli hökumətini mühafizəkarlar partiyasının lideri U.Çörçill hökuməti əvəz etdi. Bu yeni hökumətin iqtisadi siyasətinin başlıca istiqamətləri – sənayenin bəzi milliləşdirilmiş sahələrinin yenidən xüsusi sahibkarlara qaytarılması; iri inhisar birliklərinin formalaşmasına əlverişli şərait yaratmaq; sənayenin quruluşunda elmi-texniki ingilabın tələblərinə uyğun dəyişikliklər aparmaq; dünya miqyasında ölkənin müstəqil iqtisadi vəziyyətini qoruyub saxlamaq naminə, bir sıra Avropa dövlətlərinin birliyini yaratmaq səyləri kimi səciyyələndirilə bilər.

Ölkənin iqtisadiyyatında «Vikkers» (maşınqayırma), «Royal-Datç-Şell» (neft), «Britiş petroleum» (neft). «Mindeld bank», «Bestminster bank», «Ellayen» kimi iri istehsal, bank, sığorta bilikləri mühüm rol oynamışdı.

1957-ci ildə yaradılmış və Fransa. AFR, İtaliya, Belçika, Hollandiya, Lüksemburqun daxil olduğu «Ümumi bazar» təşkilatına İngiltərə xeyli sonra – 1973-cü ildə qoşulmuşdu. Bu qurum ilk növbədə dünya iqtisadi-ticarət əlaqələrində yaranmış yeni meyllərlə əlaqədar olaraq, Qərbi Avropa ölkələrini ABŞ və Yaponiyanın beynəlxalq miqyasda kəsginləşən rəqabət mübarizəsindən qorumaq, habelə həmin dövlətlərin iqtisadi inteqrasiya proseslərini sürətləndirmək məqsədiylə yaradılmışdı. 70-ci illərdə dünya bazarında neftin qiymətinin kəsgin surətdə bahalaşması, Ərəb ölkələrindən neft edən İngiltərə iqtisadiyyatı üçün ciddi problemlər yaratdı.

1979-cu ildə M.Tetçerin başçılıq etdiyi mühafizəkarlar hökumətinin həyata keçirdiyi iqtisadi siyasət xətti, sərbəst sahibkarlıq fəaliyyətinə geniş imkanlar açdığından, dövlətin

təsərrüfat həyatındakı rolunu məhdudlaşdırdığından, dövlət mülkiyyətində olan iri obyektləri özəlləşdirdiyindən, vergi sahəsində dəyişikliklər aparıldığından, ölkə iqtisadiyyatında müsbət dəyişikliklər başlandı.

Sonrakı baş nazir Toni Bler hökuməti (leyboristlər partiyası) dövründə, müəyyən dəyişikliklərə baxmayaraq, iqtisadi siyasət sahəsində «tetçerizm» xətti davam etdirilmişdir.

**Fransada** birinci dünya müharibəsindən sonra ölkənin iqtisadi-sosial həyatında ciddi dəyişikliklər baş vermişdi. Fransa 1,3 milyon adam itirmiş və 750 min nəfər əlil, şikəst olmuşdur. Onun Şimal-Şərq departamentində gedən 4 illik müharibə nəticəsində 6 min km dəmir yolu xətti sıradan çıxmış, 52 min km şosse yolları dağıdılmışdı. Alman qoşunları Fransa ərazisində olan 550 min evi dağıtmış, 23 min fabrik-zavod-şaxta bərbad hala salınmış, ticarət donanmasının yarısı zərər çəkmişdi. Ölkənin ümumi itgiləri 134 milyard frank məbləğində qızıl pulla hesablanırdı. Xarici borclar 62 mlrd. dollara, daxili borclarla birlikdə ümumi dövlət borcu isə 1920-ci ildə 300 mlrd. franka çatırdı. Ölkənin sənaye istehsalı yarıya qədər, kənd təsərrüfatı məhsulları isə 1/3 qədər azalmışdı.

Ölkədə qiymətlər 5-7 dəfə bahalaşmış, vergilər 4 dəfə çoxalmış, əmək haqqı isə cəmisi 2-2,5 dəfə artmışdı.

Lakin I dünya müharibəsinin qaliblərindən sayılan Fransa öz nüfuzunu artıraraq, Avropada birinci I yerə çıxdı. Tezliklə ölkədə hərbi vəziyyətin sərt qaydaları aradan qaldırıldı, talon (kartoçka) sistemi ləğv olundu, hərbi zavodların bir hissəsi xüsusi kapital sahiblərinə satıldı.

Fransanın iqtisadiyyatının I dünya müharibəsindən sonra bərpa olunaraq, yenidən qurulub inkişaf etdirilməsində bir sıra iri inhisar sahiblərinin, o cümlədən – **de Vendelin**, **Şneyderin**, **Rotşildin** böyük rolu olmuşdu.

Ölkədə siyasi mübarizə və qarşıdurma şəraitində gedən iqtisadi inkişaf gah yüksələn, gah da enən xətt üzrə davam etmişdir. 1929-1933-cü illərin böhranı Fransa iqtisadiyyatına

da çox böyük zərbə vurdu. Onun, 1929-cu ildə müharibədən əvvəlki dövrdə çatdığı səviyyə və sonrakı artımı, böhran nəticəsində pozularaq, bu geriləmə 1935-ci ilə qədər davam etdi. Doğrudur, Fransada iqtisadi böhran ABŞ və İngiltərəyə nisbətən az dağıdıcı xarakter daşımışdı, lakin daha uzun bir proses kimi tədricən xeyli müddət davam etmişdir.

1936-cı ildə Fransada sosialist partiyasının lideri **Blyum** hökumətinin tərkibinə 12 sosialist daxil olmuşdu. Onların həyata keçirdikləri iqtisadi islahatlar müəyyən uğurlar gətirsə də, lakin çox davam etmədi. 1938-ci ildə **Daladye** hökuməti daha sərt bir iqtisadi qaydalar həyata keçirməyə başladı. Ölkədə dövlətin iqtisadiyyatı tənzimlənməsi xətti öz müəyyən müsbət nəticələrini versə də, lakin iqtisadi-sosial inkişaf prosesi ziddiyyətli qeyri – sabitliyi ilə fərqlənmişdi.

1940-cı ildə Fransa faşist Almaniyası tərəfindən işğal olunaraq, ölkənin iqtisadi resursları müharibənin ehtiyaclarına yönəldildi. Müharibə və Fransanın 1944-cü ilə qədər işğalı ölkənin təsərrüfat həyatına böyük zərbə vurdu. Fransa iqtisadiyyatına vurulmuş zərər 1,5 trilyon frank olmuş, sənaye istehsalı 70% azalmış, kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfə aşağı düşmüş, minlərlə yaşayış binası və istehsal-xidmət obyektləri dağılmış, aclıq çəkən əhalinin yaşayış səviyyəsi son dərəcə pisləşmişdi. Eyni zamanda Fransa özünün Hind-Çin, Suriya, Livan kimi müstəmləkələrini itirdi.

1944-cü ildə Fransa müttəfiqlər tərəfindən azad edildikdən sonra, avqust ayında general Şarl de Qolun başçılıq etdiyi Müvəqqəti hökumət, yaranmış böhranlı vəziyyəti aradan qaldırmaq üçün inflyasiyanı zəiflətmək, əhalinin vəziyyətini yaxşılaşdırmaq yolunda bir sıra tədbirlərin həyata keçirilməsinə başladı.

1945-1947-ci illərdə Fransada iqtisadiyyatın energetika, daş kömür mədənləri, qaz və təyarəqayırma sənaye sahələri. Dəniz gəmiçiliyi, «Reno» avtomobil zavodu, bir sıra bank və sığorta təşkilatları milliləşdirilərək, dövlətin əlində

mərkəzləşdirildi. Bu addım ölkədə inhisarların fəaliyyətini müəyyən qədər məhdudlaşdırdı.

1948-ci ildə Parisdə imzalanmış «Marşall planı»na əsasən, Fransa iqtisadiyyatını inkişaf etdirmək üçün 2,5 mlrd. dollar ayrıldı. ABŞ-ın Fransaya göstərdiyi ərzaq və digər məhsullarla yardımı nəzərə alınarsa, 1951-1958-ci illərdə bu məbləğ 12 milyard dollara çatmışdı. ABŞ sərmayəsi ilk növbədə Fransanın metallurgiya, kimya və avtomobil sənaye sahələrinə yönəldilmişdi.

1947-1961-ci illəri əhatə etmiş ölkə iqtisadiyyatının müxtlif sahələrinin yeni texnika-texnologiya əsasında modernləşdirilməsi və ölkədə istehsal olunan məhsulların dünya bazarında rəqabət mübarizəsinə davam gətirməsi xəttinin həyata keçirilməsi, tədricən öz müsbət nəticələrini verdi.

1949-cu ildə Fransanın NATO hərbi blokuna[*], 1957-ci ildə Avropa İqtisadi Birliyinə (İttifaqına) daxil olması, onun siyasi, iqtisadi və hərbi vəziyətində xeyli dəyişikliklər yaratdı. Ərzaq və kənd təsərrüfatı sahəsində baş verən müsbət dəyişikliklər, Fransanı bu məhsulları başqa ölkələrdən gətirməyə məcbur olan ölkədən, həmin məhsulları ixrac edən dövlətə çevirdi.

Fransanın əsasən Afrika qitəsində yerləşən 14 müstəmləkəsini itirməsi, onun öz xarici iqtisadi əlaqələrini, ilk növbədə Avropa dövlətləri ilə qurmağa yönəltdi.

XX əsrin 70-ci illərindən başlayaraq Fransada milli valyutanın sürətlə qiymətdən düşməsi,dünya bazarında neftin qiymətinin bahalaşması, daxili-xarici bazar münasibətlərinin yaratdığı müxtlif çətinliklərə baxmayaraq, Fransa tədricən kapitalist aləmində öz mövqelərini möhkəmləndirərək ABŞ, Yaponiya, Almaniya, İngiltərədən sonra yüksək inkişaf etmiş

---

[*] Сонралар Франса Республикасы НАТО щярби блокундакы фяалиййятини мящдудлашдырылмышдыр.

ölkələr qrupu içərisində 5-ci yeri tutumuş, son vaxtlar isə 4-cü yerə çıxmışdır.

Fransanın Azərbaycan Respublikası ilə iqtisadi-ticarət və elmi-texniki, habelə turizm-mədəni sahələrdə çoxcəhətli əlaqələri getdikcə genişlənərək, dinamik bir xəttlə inkişaf etməkdədir.

**Yaponiya** üçün I dünya müharibəsi (1914-1918) illəri, dünyanın bir sıra ölkələrindən fərqli olaraq xeyli əvlerişli şəraitdə keçmişdi. Müharibə meydanlarından uzaqda yerləşən Yaponiya, bu dövrdə öz sənaye istehsalı həcmini 5 dəfə artırmış, xarici ticarət dövriyyəsini çoxaltmış, valyuta-qızıl ehtiyatlarını 6 dəfəyə yaxın artırmışdı. Hərbi xarakterli iqtisadi yüksəliş, ölkədə «Mitsyi», «Mutsubisi», «Sumitomo» kimi iri inhisarların daha da güclənməsinə səbəb olmuşdu. Lakin bu uğurlar, fəhlə-qulluqçuların son dərəcədə gərgin işlədilərək istismar olunması, xırda-orta sahibkarların müflisləşməsi və kəndlilərin var-yoxdan çıxması prosesi ilə yanaşı getmişdir.

1920-1921-ci illərdə başlanmış böhran və 1923-cü ildə dəhşətli zəlzələ nəticəsində 140 min adamın həlak olması, habelə ölkəyə 5 milyard iyen məbləgində dəymiş maddi ziyan, Yapon iqtisadiyyatını xeyli zəiflətdi. Sənaye istehsalı 20%, xarici ticarət dövriyyəsi 35% aşağı düşdü. Böhran göstərdi ki, Yapon iqtisadiyyatı tarazlı inkişaf etmir, xarici bazardan asılıdır, ölkənin kənd təsərrüfatı əhalinin ehtiyaclarını ödəyə bilmir.

1924-1926-cı illərdəki yeni yüksəliş yapon iqtisadiyyatını xeyli irəlilətdi. Xüsusilə maşınqayırma sənayesinin müstəqil bir sahəyə çevrilərək sürətlə inkişafı, iqtisadiyyatın başqa sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə kömək etdi. Həmin dövrdə dövlətin yardımı ilə **ailəvi inhisarların** (dizaybatsu) formalaşması, başqa ölkələrdə olan rəqabətlə bağlı inkişafı, qohumluq əsasında olan yüksəlişlə əvəz etmişdi. Eyni zamanda yapon inhisarları dünya

bazarlarında mövqelərini möhkəmlətmək üçün dempinq (uçuz ixrac) siyasətindən də geniş istifadə etmişlər.

1929-1933-cü illərin dünya iqtisadi böhranı Yaponiyaya da öz mənfi təsirini göstərdi. Ölkənin sənaye istehsalı 32%, kənd təsərrüfat məhsulu istehsalı 60% azaldı. Xüsusilə Yaponiyanın ənənəvi ixrac məhsulları sayılan **xam ipək** və **düyü** ixracının azalması, kənd əhalisinin müflisləşməsinə səbəb oldu.

Lakin dövlətin həyata keçirdiyi tədbirlər, iqtisadiyyatın hərbiləşdirilməsi istiqaməti, sənayenin yenidən yüksəlişini təmin edərək, onun illik artımını 8%-ə qaldırdı. Öz iqtisadi potensialına arxalanan Yaponiya, müstəmləkəçilik-işğalçılıq siyasətinə başladı.

Cənub-Şərqi Asiyada özünün hərbi və iqtisadi mövqelərini möhkəmləndirmək məqsədilə, Yaponiya 1941-ci ilin sonunda ABŞ və İngiltərənin Sakit okeandakı hərbi bazalarına hücum etməklə, II dünya müharibəsinə qoşuldu.

II dünya müharibəsində məğlub olmuş Yaponiya ilə danışıqsız təslim olmaq haqqında 2 sentyabr 1945-ci ildə sülh müqaviləsi bağlandıqdan sonra, ABŞ hərbi bazalarının yerləşdiyi Yaponiyada iqtisadi vəziyyət son dərəcə ağır olmuşdu. Ölkənin sənaye istehsalı müharibədən əvvəlki səviyyənin cəmi 14 faizini təşkil etmiş, kənd təsərrüfatı ciddi zərər çəkmiş, inflyasiya 400 faizə çatmış, fəhlələrin real əmək haqq 7-8 dəfə aşağı düşmüş, işsizlərin sayı 10 milyon nəfər təşkil etmişdi.

Sonrakı illərdə ölkədə aparılan aqrar islahatları, sənaye sahəsində həyata keçirilən tədbirlər, həddsiz inhisarçılıq meyllərinin məhdudlaşdırılması, ABŞ-ın 1950-ci ildən başlayaraq Koreyada apardığı müharibə dövründə yapon iqtisadiyyatına hərbi sifarişləri, ölkənin pozulmuş təsərrüfat həyatının dirçəldilməsinə səbəb oldu. Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi inkişafında «Mitsubisi», «Sumitomo», «Fud-

zi», «Soni» kimi iri inhisar birlikləri və onların yerli şöbələri də mühüm rol oynamışlar.

XX əsrin 50-ci illərinin ortalarından başlayaraq, ölkədə «yapon möcüzəsi» adlı, sürətli iqtisadi-sosial inkişaf dövrü başlanmışdı. 1951-1970-ci illərdə yapon sənayesi dünyada o illərdə görünməmiş bir templə, ildə 15 faizdən artıq bir sürətlə inkişaf etmişdi. Artıq 1969-cu ildə Yaponiya öz ÜDM istehsalı həcminə görə yüksək inkişaf etmiş ölkələr arasında ikinci yerə çıxmış və indiyə qədər bu mövqedə qalaraq, ümumdünya istehsal-xidmətlərinin 7-8 faizini verir. Bu sıçrayışlı inkişafa səbəb, – iqtisadiyyata iri həcmli investisiya qoyuluşları, elmin-təhsilin inkişafına diqqət, iqtisadiyyatın tarazlı dövlət tənzimlənməsi, müasir sənaye sahələrinin yaradılması, xarici ticarət əlaqələrinin genişlənməsi, yüksək ixtisaslı işçi qüvvəsinin olması, sahibkarlarla işçilər arasında qarşılıqlı ahəngdar münasibətlər sisteminin formalaşması kimi amillər olmuşdur.

**İtaliyada** sənaye çevrilişiXIX əsrin sonlarında başa çatsa da, lakin ölkədə kənd təsərrüfatının geriliyi, onun ümumi yüksəlişinə ciddi maneələr yaratmışdı. Xüsusilə yarımfeodal vəziyyətdə qalan ölkənin Cənub əyalətləri, sənaye cəhətdən inkişaf etmiş Şimalın bir növ ağalığı altında olmuşdu. Ölkədə əhalinin vəziyyəti ağır olduğundan, xarici dövlətlərə, xüsusilə də ABŞ-a miqrasiya güclənmişdi. İtaliya xarici siyasət sahəsində irticaçı bir xətt yeridərək, 1911-1912-ci illərdə **Türkiyə** ilə müharibə aparmış, **Afrikada Liviyanı** zəbt etmişdi.

Birinci dünya müharibəsi dövründə İtaliya əvvəlcə öz bitərəfliyini elan etsə də, lakin sonralar **Antanta** tərəfinə keçərək, Almaniyaya qarşı vuruşmuşdu. Müharibədən sonrakı bir sıra beynəlxalq müqavilələrə əsasən **Cənubi Tirol**, **İstriya** və digər **torpaqlar İtaliyaya verilmişdi**.

Müharibədən sonrakı illərdə İtaliyanın aqrar-sənaye tipli bir ölkədən sənaye-aqrar ölkəsinə çevrilməsi prosesi

başlanmışdır. 1922-ci ildə ölkədə formalaşan iri burjuaziyanın yaxından köməyi ilə **Mussolinin** başçılıq etdiyi faşist diktatura rejimi hakimiyyətə gəldi. Bu dövrdə ölkənin iqtisadi-sosial inkişafında müəyyən uğurlar qazanılsa da, lakin xarici siyasət sahəsində mürtəcə xətt yeridilərək, Afrikada Efiopiya (Həbəşstan) işğal olunmuş, İtaliya Almaniya ilə birləşərək, İspaniyaya qarşı hərbi müdaxilədə iştirak etmişdir.

İkinci dünya müharibəsində Almaniya ilə birgə vuruşan İtaliya, müttəfiqlərin zərbələri altında məğlub edildi. Müharibədən sonrakı dövrdə, 1948-ci ildən başlayaraq «Marşall planı» üzrə ABŞ-ın iqtisadi yardımı ilə Avropanın digər bir sıra dövlətləri ilə yanaşı, ölkənin təsərrüfat həyatının dirçəldilməsinə başlandı. İtaliya 1949-cu ildə NATO hərbi blokuna və 1957-ci ildə Avropa İqtisadi Birliyinə (Avropa İttifaqına) daxil olmuşdur. Müasir dövrdə İtaliya yüksək inkişaf etmiş «Səkkizlər qrupu» ölkələri sırasına daxildir və dünyanın siyasi-iqtisadi həyatında mühüm rol oynayır.

**Kanada** XV əsrdə avropalılar tərəfindən kəşf və zəbt olunduqdan sonra uzun müddət Fransanın hökmranlığı altında olmuşdur. Sonralar, XVIII əsrdə İngiltərənin hakimiyyəti altına keçmişdir. XIX əsrin əvvəllərindən başlayaraq, Kanadaya İngiltərə və ABŞ-dan əhalinin kütləvi mühaciratı nəticəsində, burada sərbəst sahibkarlıq, habelə işgüzar biznes münasibətlərinin tədricən formalaşması prosesi getmişdir. 1841-ci ildə ölkənin Yuxarı və Aşağı Kvebek adlandırılan hissələri (əyalətləri) vahid Kanada kimi birləşdirilərək, ona qismən özünüidarə hüququ verilmişdi.

XIX əsrin ortalarından etibarən ölkədə feodal münasibətləri qəti ləğv olundu, iqtisadi-ticarət əlaqələri üzərindəki məhdudiyyətlər tədricən aradan qaldırıldı. Bu iqtisadi islahatlar xəttinin həyata keçirilməsi, ölkənin təsərrüfat həyatının sürətli inkişafını təmin etdi. XIX əsrin sonu və XX əsrin əvvəllərində Kanadada kapitalın və sənaye istehsalının təmərküzləşməsi prosesi xeyli gücləndi. Xaricdən gələnlərin

hesabına ölkə əhalisinin sayı 1900-1918-ci illərdə 64% artmışdı.

Birinci dünya müharibəsində Kanada, Böyük Britaniyanın **dominionlarından** biri kimi Antanta tərəfində kayzer Almaniyasına qarşı vuruşmuşdur. Sonrakı illərdə ölkənin iqtisadi-sosial inkişafı güclənsə də, lakin 1929-1933-cü illərin dünya iqtisadi böhranı, Kanadanın iqtisadiyyatına ciddi ziyan vuraraq, istehsalın ümumi həcminin **2 dəfə aşağı** düşməsinə səbəb oldu. 30-cu illərin ikinci yarısından ölkədə iqtisadiyyatın yenidən yüksəlişi prosesi başlanmışdır.

İkinci dünya müharibəsi dövründə faşist Almaniyasına qarşı müharibəyə qoşulan Kanadanın iqtisadiyyatı, müttəfiqlərin müxtəlif təyinatlı sifarişlərini yerinə yetirməsi sayəsində öz ümumi istehsal həcmini 2,5 dəfə artıra bilmişdi.

Hazırda dünyanın yüksək inkişaf etmiş «səkkizlər qrupu» ölkələri sırasına daxil olan Kanada, öz əhalisinin həyat səviyyəsi və ümumi sosial-iqtisadi inkişaf göstəricilərinə görə dünyada qabaqcıl yerlərdən birini tutur.

**Rusiya**, son illərdə əvvəllər «yeddilər qrupu» adlandırılan ölkələrinin hər il keçirilən maliyyə nazirləri və Prezidentlərinin görüşlərinə dəvət olunduğundan, habelə müasir dünyanın hərbi-iqtisadi cəhətdən, öz ərazisi, əhalisi, imkanları baxımından güclü dövləti sayıldığından, bu qrupa daxil edilərək artıq **«səkkizlər qrupu»**nun üzvü sayılır.

Keçmiş Sovet İttifaqı dağıldıqdan sonra, onun ərazisində formalaşmış 15 müstəqil ölkədən biri sayılan Rusiya Federasiyaasının ərazisi 17 mln. kv. kilometr, əhalisi isə 150 mln. nəfərə yaxındır.

Müstəqil Rusiya Federasiyasının suveren bir dövlət kimi, iqtisadi-sosial inkişaf yolunu şərti olaraq 2 mərhələyə ayırmaq olar. **Birinci mərhələ** 1991-1995-ci illəri əhat edərək, ölkənin təsərrüfat həyatının müxtəlif sahələrinin, istehsal və xidmət dairəsinin zəifləməsi, inflyasiya proseslərinin güclənməsi,

xarici ticarət dövriyəsinin azalması, əhalinin yaşayış səviyəsinin aşağı düşməsi ilə səciyyələnmişdi.

Təsadüfi deyildir ki, mütəxəssislər 1992-1993-cü illərdə Rusiyada baş vermiş iqtisadi prosesləri, 1929-1933-cü illərin dünya iqtisadi böhranı ilə müqayisə edirlər. Belə bir ciddi iqtisadi tənəzzül və böhranın yaranmasına səbəb, – ölkədə siyasi sabitliyin olmaması, keçmiş iqtisadi əlaqələr sisteminin pozulması, düzgün iqtisadi siyasət xəttinin işlənib hazırlanmaması, milli münasibətlərin gərginləşməsi, Çeçenistanda 1994-cü ilin sonundan başlanmış və indiyə qədər davam edən müharibə olmuşdu.

Rusiya Federasiyasının təsərrüfat həyatında **ikinci mərhələ** 1994-1995-ci illərdən başlayaraq, bizim günlərimizə qədər olan dövrü əhatə edir. Həmin müddət ərzində bütün nöqsan cəhətlərinə baxmayaraq, ölkədə dövlət mülkiyyətinin özəlləşdirilməsi, sərbəst sahibkarlıq-biznes fəaliyyətinə əlverişli imkanlar yaradılması, maliyyə-kredit və pul sisteminin möhkəmləndirilməsi sahəsindəki tədbirlər, aqrar bölmədə islahatlar nəticəsində ölkəyə xarici kapital axını artmış, ÜDM-un templəri yüksəlmiş, xarici ticarət dövriyyəsinin həcmi xeyli çoxalmış, əhalinin maddi vəziyyəti nisbətən yaxşılaşmış, xalqın sosial müdafiəsi istiqamətində bir sıra addımlar atılmışdır.

Bu iqtisadi-sosial dəyişikliklər sayəsində Rusiya Federasiyası hazırda dünya siyasəti və iqtisadiyyatında getdikcə daha sanballı bir rol oynamaqdadır. Xüsusilə Qərbi Avropa ölkələrinin qaz-yanacaq resursları ilə təmin olunması və bu sahədə iri layihələrin həyata keçirilməsi perspektivləri, Rusiyanın gələcəkdə dünya iqtisadiyatı və təsərrüfat həyatında rolunun daha da artacağını göstərir. Rusiyanın Yaponiya, Çin Xalq Respublikası və Cənub Şərqi Asiya ölkələri ilə olan, habelə genişlənən iqtisadi-ticarət əlaqələri də, onun iqtisadi potensial imkanlarını sübut edir.

Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə iqtisadi-ticarət və mədəni əməkdaşlıq əlaqələri müsbət bir

istiqamətdə davam etməkdədir. Hazırda Rusiya-Azərbaycan iqtisadi-ticarət əlaqələrin ümumi dövriyəsi təxminən 1 mlrd. dollar təşkil edir ki, bunun da əksər hissəsi idxalın, nisbətən az hissəsi isə ixracın payına düşür.

Rusiya Federasiyası öz ÜDM-un həcminə görə hazırda dünyada 10-cu yeri, hər nəfərə düşən ümumi daxili məhsulun həcminə görə 56-cı yeri, ölkə əhalisinin gəlirlərinə (yaşayış səviyyəsinə) görə isə 95-ci yeri tutur.

# Mövzu VII.3. ABŞ-ın dünya təsərrüfatında yeri və rolu

1. Amerika Birləşmiş Ştatlarının keçdiyi iqtisadi inkişaf yolu və onun mərhələləri
2. ABŞ-ın müasir iqtisadi-sosial göstəriciləri və dünya təsərrüfat həyatında mövqeyi

* * *

**1.** XV əsrdə Amerikanın kəşfindən sonra bu qitənin ərazisi İspaniya, Hollandiya, İngiltərə, Fransa kimi ölkələr tərəfindən zəbt olunmuşdu. Bu proses XVI-XVII əsrlərdə də davam etmişdir. XVIII əsrdə isə ruslar Alyaskanı kəşf etmiş və sonralar ABŞ hökumətinə satmışlar.

Vaxtilə İngiltərənin müstəmləkəsi olmuş Şimali Amerika ərazisində, ilkin sərbəst sahibkarlıq (kapitalist) münasibətləri XVII əsrin ikinci yarısından formalaşmağa başlamışdı. Lakin torpaq üzərində feodal münasibətləri hələ uzun müddət qalmış və ölkənin geniş plantasiyalarında, hətta qul əməyindən də geniş istifadə olunmuşdu. Öz müstəmləkəsi olan bu ölkəyə xammal bazası və satış bazarı kimi baxan İngiltərə, Şimali Amerikada sənayenin inkişafına imkan verməyərək, burada ağalığını möhkəmlətməyə çalışmışdı.

Bu isə metropoliya İngiltərə və müstəmləkə Şimali Amerika arasındakı ziddiyyətləri tədricən kəsginləşdirmiş və burada istiqlaliyyət uğrunda mübarizəyə təkan vermişdir.

1775-1783-cü illəri əhatə etmiş Şimali Amerikadakı istiqlaliyyət müharibəsi nəticəsində Amerika Birləşmiş Ştatları yaradıldı və burada İngiltərənin ağalığına son qoyuldu. 1783-cü ildə isə İngiltərə ABŞ-ı rəsmi surətdə tanıdı. Ölkənin istiqlaliyyət uğrunda mübarizəsində T.Cefferson, V.Franklin,

C.Vaşinqton ideoloji liderlər və təşkilatçılar kimi çox mühüm rol oynamışlar.

Ölkədə istiqlaliyyət mübarizəsi gedişində 1787-ci ildə qəbul olunmuş yeni Konstitusiya, 1789-cu ildən rəsmi qüvvədədir. ABŞ-ın ilk Prezidenti olmuş Corc Vaşinqton bu vəzifəyə 1789-cu ildə seçilmişdir.

1861-1865-ci illəri əhatə etmiş vətəndaş müharibəsi, ölkənin Şimal hissəsindəki burjuaziyanın Cənub hissəsindəki quldarlar üzərindəki qələbəsindən sonra ABŞ-ın kapitalistcəsinə inkişafı sürətlə davam etmişdir.

Sərbəst sahibkarlıq və azad biznes münasibətlərinin yeni texnika, habelə mütərəqqi texnologiya təməlində inkişafına əsaslanan ABŞ iqtisadiyyatı, nisbətən qısa tarixi dövr ərzində çox böyük bir yüksəliş yolu keçmişdir.

XIX əsrin sonlarından başlayaraq öz inkişaf sürətinə və iqtisadi gücünə görə tədricən Fransanı, Almaniyanı, İngiltərəni ötən ABŞ dünyada birinci yerə çıxmış, habelə 100 ildir ki, bu üstünlüyü saxlamaqdadır.

Son 100 ildə ABŞ öz iqtisadi-sosial inkişafında enişli-yoxuşlu, yüksəlişli-böhranlı irəliləyişində bir sıra mərhələlər keçmişdir. Həmin mərhələlər sırasında: a) ölkənin inkişafının XIX əsrin sonlarından başlayaraq, XX əsrin əvvəllərinə qədər, yaxud I dünya müharibəsinə qədər olan dövrü; b) 1914-1918-ci illəri əhatə edən I dünya müharibəsi dövrü; c) XX əsrin 20-ci illəri dövrü; ç) 1929-1933-cü illərin dünya iqtisadi böhranı və ondan sonrakı dövrü; d) II dünya müharibəsi dövrü; e) II dünya müharibəsindən sonrakı dövrü göstərmək olar.

**XIX əsrin sonu** və **XX əsrin** əvvəlləri ABŞ-da sərbəst rəqabətin inhisarlarla əvəz olunması, yaxud inhisarçı kapitalizm mərhələsi kimi səciyyələnir. Bu cəhətlər özünü həm ölkənin daxili təsərrüfat həyatında, həm də Amerika qitəsində real siyasi nüfuzunu yüksəltmək istiqamətindəki siyasətində göstərmişdi. Ölkə daxilində güclənən inhisarlar, daxili bazarla yanaşı, xarici bazarları da ələ keçirməyə çalışır, istər Amerika

qitəsində, istərsə də dünya miqyasında ağalığın timsalı olan **panmerikanizm** (Amerika amerikalılar üçündür) və «açıq qapılar» (Çində) siyasətini həyata keçirmişdilər.

1914-1918-ci illəri əhatə edən birinci dünya müharibəsində iştirak etmiş ABŞ, 50 min əsgər və zabit itirmiş, habelə 230 min yaralananı olmuşdu. Lakin eyni zamanda bu illər ərzində ölkənin ixracı 2,4 milyard dollardan 7,9 milyard dollara çatmışdır. 1914-1919-cu illərdə ABŞ inhisarlarının gəliri 34 milyard dollar təşkil etmişdi.

Müharibə meydanları və cəbhələrdən xeyli uzaqda yerləşən ABŞ, birinci dünya müharibəsindən xeyli güclənmiş bir vəziyyətdə çıxmışdı. 20-ci illərin əvvəllərində ABŞ iqtisadiyyatı dünya daş kömür istehsalının 60 faizini, çuğun istehsalının 70 faizini, avtomobil istehsalının 85 faizinim vermişdi. Birinci dünya müharibəsi illərində ABŞ bir sıra ayrı-ayrı sahələrdə İngiltərəni arxada buraxaraq, xeyli irəliyə çıxmışdı. Eyni zamanda həmin dövrdə ABŞ dünyanın maliyyə mərkəzinə çevrilmişdi. Həmin dövrdə ABŞ, Qərbi Avropa ölkələrinə 11 milyard dollar həcmində borc vermişdi və onun başqa dövlətlərindəki kapital qoyuluşunun həcmi 7 milyard dollara çatmışdı.

Birinci dünya müharibəsi illərində ABŞ-ın dünya bazarı və beynəlxalq ticarət əlaqələrində rolu da xeyli artmışdır. Bu meyl özünü xüsusilə Cənubi Amerika ölkələrinə qarşı münasibətdə daha aydın surətdə göstərmişdi. O dövrdə ABŞ Meksika, Haiti, Nikaraqua, Kuba, Dominikan Respublikasına qarşı iqtisadi tədbirlərlə yanaşı, hərbi əməliyyatlar da həyata keçirmişdi.

XX əsrin 20-ci illərində ABŞ əhalisinin sayı 110 milyon nəfərə çatmışdı. Ölkə əhalisinin 42 milyonu əmək qabiliyyətli olub, təsərrüfatın müxtəlif sahələrində çalışmışdı. İşləyən əhalinin yarıdan çox hissəsi sənaye, nəqliyyat və xidmət dairəsində, 40 faizə qədəri isə kənd təsərrüfatında məşğul olmuşdu.

Həmin dövrdə ABŞ-ın çoxsahəli təsərrüfat həyatında bir sıra dəyişikliklər baş vermişdi. Əhalisinin sayı sürətlə artan bu ölkə, tədricən yüksək inkişaf etmiş sənaye ölkəsinə çevrilirdi. Bu dövrdə ilk dəfə olaraq, ölkədə şəhər əhalisi üstünlük təşkil edərək, kənd əhalisinin sayını ötmüşdü. ABŞ-da həmin dövrdə ölkənin 42 milyon məşğul əhalisinin 25 milyon nəfəri, yaxud 60%-ə yaxını – sənayedə, nəqliyyatda, tikintidə və xidmət dairəsində çalışmışdı.

Lakin 1920-1921-ci illərdə ABŞ iqtisadiyyatı yenidən iqtisadi çətinliklərlə rastlaşaraq, böhran mərhələsinə daxil oldu. Bunun nəticəsində ölkədə ümumi sənaye istehsalı 32% aşağı düşdü. Xüsusilə sənayenin ağır sənaye sahələrində itgilər daha böyük olmuşdu. 1921-ci ilin sonu və 1922-ci illərin başlanğıcına ölkədə işsizlərin sayı 5 milyon nəfərə çatmışdı. 1920-1922-ci illərdə ölkədə ticarətlə məşğul şirkət və biznesmenlər arasında 52 min müflis olmaq (bankrot) halları qeydə alınmışdı.

Böhran öz təsirini aqrar bölməyə də göstərmişdi. Həmin illərdə ölkə fermerlərinin gəlirləri 40 faiz aşağı düşmüşdü. Aqrar bölmədə böhran prosesi, sənaye sahələrindən daha uzun bir müddət davam etdiyindən, kənd əhalisinin 2 milyon nəfəri öz yaşayış yerlərini tərk edərək, şəhərlərə axışmışdılar.

Ölkənin təsərrüfat həyatının müxtəlif sahələrində baş vermiş böhran və tənəzzül, əhalinin geniş təbəqələrinin sosial vəziyyətinə, habelə yaşayış səviyyəsinin pisləşməsinə səbəb olmuşdu.

1923-cü ildən başlayaraq, 1929-cu ilə kimi yaranmış iqtisadi böhran vəziyyətindən çıxmaq mümkün olsa da, lakin 1929-1933-cu illəri əhatə edən dünya iqtisadi böhranı, bütün kapitalizm aləminin, o cümlədən də ABŞ-ın təsərrüfat həyatını yenidən sarsıtdı.

**1929-1933-cü illərin dünya iqtisadi böhranı** ABŞ-ın təsərrüfat həyatına ciddi zərbə vurdu. Bu dövr ərzində ölkədə daş kömür çıxarılması 42 faiz, polad istehsalı 4 dəfə azalmışdı.

Həmin illərdə 130 min müflis olmaq (bankrot) hadisəsti qeydə alınmış, 5.760 bank öz fəaliyyətini dayandırmışdı. Pulun qiymətdən düşməsi və inflyasiya prosesləri nəticəsində ölkədə qiymətlərin ümumi orta səviyyəsi 33 faiz artmışdı. İqtisadi böhran ABŞ-ın fermer təsərrüfatlarına da çox böyük ziyan vurmuşdu. Ölkədə 897 min fermer təsərrüfatı iflasa uğramışdı. İşsizlik səviyyəsi 25-30 faizə çataraq, 12 milyon nəfər əmək qabiliyyətli işçini əhatə etmişdi.

Belə bir doğrudan da iqtisadi çətinliklər və sosial gərginlik dövründə, 1932-ci ildə keçirilən prezident seçkilərində yaranmış vəziyyətdə köklü dəyişikliklər yarada bilməyən Respublikaçılar Partiyasının nümayəndəsi **Quveri**, Demokratlar Partiyasının namizədi **F.Ruzvelt** əvəz etdi.

F.Ruzvelt və onun Kabineti, ABŞ tarixində «yeni kurs» adlanan iqtisadi siyasət xəttini ardıcıllıqla həyata keçirməyə başladı. Hökumətin bu səyasəti ingilis iqtisadçısı C.M.Keynisin nəzəri müddəalarına və xüsusilə də ölkənin təsərrüfat həyatının dövlət tərəfindən tənzimlənməsi fikirlərinə əsaslanmışdı.

4 mart 1933-cü ildə hakimiyyət fəaliyyətinə başlamaq münasibətilə keçirilən andiçmə mərasimində F.Ruzvelt demişdir: «Bizim ən çox qorxduğumuz şey – elə qorxunun özüdür!. Ölkəyə ciddi, fasiləsiz, cəsarətli addımlar lazımdır. Biz yeni metodlar seçib, onları sınaqdan keçirməliyik. Əgər bir şey alınmasa, yenilərini sınaqdan keçirməliyik. Ən başlıcası isə axtarmalı və sınaqdan çıxarıb yoxlamayıq».

6 mart 1933-cü ildə Prezident ona verilən geniş səlahiyyətli hüquqlarından istifadə edərək, ABŞ-da fövqəladə vəziyyət elan etdi və ölkədəki bütün bankların fəaliyyətini dayandırmaq haqqında sərəncam verdi. Tezliklə bankların «sağlamlaşdırırlması» işləri aparıldı, onların ümumi sayı xeyli azaldıldı, əhalinin əmənətlərinin sığortası üçün daha ciddi şərtlər qoyuldu ki, bankların müflisləşə biləcəyi hallarda onların əmanətçiləri zərər çəkməsinlər. Məsələn, rəsmi

qaydada, bankların müflisləşdiyi halda 10.000 dollara qədər olan əmanətlər 100%, 10-50 min dollar məbləğindəki əmanətlər 75%, 50 min dollar məbləğindən artıq olan əmanətlər isə 50% sığorta ilə təmin olunurdu.

1934-cü ilin yanvar ayında ABŞ-da dolların devalvasiyası keçirilərək, 1 unsiya (31,1qr.) qızıl üçün 35 dollar müəyyənləşdirildi. Əvvəllər 1 unsiya qızılın qiyməti 20,6 dollar idi. Tədricən ABŞ hökuməti tərəfindən «halal rəqabət», iş gününün uzunluğu, sənaye müəssisələrinin bərpası istiqamətində də bir sıra tədbirlər həyata keçirildi.

Aqrar bölmədə fermerlərə konkret kömək məqsədiylə **subsidiya** (əvəzsiz yardım) və **dövlət sifarişləri** yollarından geniş istifadə olunmuşdu. Ölkə banklarının aqrar bölməyə yönəldilən sərmayələr üçün faiz dərəcəsi xeyli aşağı salındı.

Ölkədə əhalinin sosial müdafiəsi ilə bağlı, işsizliyi ləğv etmək məqsədiylə ayrıca tədbirlər sistemi hazırlandı, Xüsusi Federal Təşkilat yaradıldı və bu işə 4 milyard dollar vəsait ayrıldı. 18-25 yaşlı gənclər üçün dövlət tərəfindən ictimai iş yerləri (yolların çəkilişi, meşə zolaqları salınması, istirahət parklarının təşkili) yaradıldı. Əhalinin pensiya təminatı sahəsində islahatlar aparıldı. İş yerini itirənlərə müəyyən müddətə yardım göstərilməsi qaydaya salındı.

Bu kompleks tədbirlər nəticəsində, 30-cu illərin sonunda ABŞ-ın təsərrüfat həyatı xeyli sağlamlaşaraq, yaranmış çətinlikləri aradan qaldırdı və yüksəlməyə başladı.

1939-1945-ci illəri əhatə etmiş II dünya müharibəsi dövründə ABŞ kapitalist aləminin aparıcı ölkəsi və lideri kimi tanınmışdı. O dövrdə Birləşmiş Ştatlar dünyanın ən güclü sənaye dövləti olub, bu sahədə birinci yeri tuturdu.

İkinci dünya müharibəsi isə bu ölkənin daha da güclənməsinə, iqtisadi və hərbi yüksəlişinə çox böyük bir təkan verdi. Müharibə illərində ABŞ-da sənaye istehsalı və ölkənin milli gəliri 2 dəfə artmışdı.

İkinci dünya müharibəsində İngiltərə və Sovet İttifaqı ilə antihitler koalisiyasına (birliyinə) qoşulub, hərbi əməliyyatlarda iştirak edən ABŞ, öz müttəfiqlərinin xammal, ərzaq, yanacaq, hərbi texnika, habelə müxtəlif təyinatlı avadanlıqlarla təchiz olunmasında böyük rol oynamışdır. Müharibə illərində ölkə 175 milyard dollar məbləğində hərbi sifarişləri yerinə yetirmişdi. ABŞ-ın iri inhisar birliklərinin xalis gəliri isə 75 milyard dollar təşkil etmişdi.

Hərbi əməliyyatlardan uzaqda yerləşib və əhalisi 150 milyon nəfərə çatan ABŞ, o dövrdə bütün kapitalist ölkələrində istehsal olmuş sənaye məhsulunun 60%-ni, daş kömür çıxarılmasının 50%-ni, neft hasilatının 64%-ni, polad əridilməsinin 53%-ni, taxılın 17%-ni, qarğıdalının 63%-ni vermişdi. O zaman ABŞ dünya qızıl ehtiyatının 2/3 hissəsini, kapitalist ölkələrinin ixracının 1/3 hissəsini öz əlində mərkəzləşdirilmişdi. 1944-cü ildə ABŞ-ın Bretton-Vuds şəhərində keçirilmiş konfransda imzalanmış sazişə görə, dollar rəsmi surətdə beynəlxalq valyuta (hesablaşma vahidi) rolunu oynayaraq, 1 unsiya qızıl 35 dollara bərabər (ekvivalent) tutulmuşdu.

İkinci dünya müharibəsi faşist Almaniyası üzərində müttəfiq qüvvələrin qələbəsi ilə başa çatdıqdan sonra Birləşmiş Ştatların iqtisadi-sosial inkişafında yeni bir mərhələ başlandı.

* * *

**2.** İkinci dünya müharibəsindən bizim günlərimizə qədər (1946-2007-cı illər) olan dövr ərzində ABŞ-ın təsərrüfat həyatı müxtəlif səpgili çətinlik və problemlərə (istehsal quruluşundakı dəyişikliklər, işsizlik, inflyasiya, enerji böhranı, büdcə kəsiri, 2001-ci ilin 11 sentyabr terror aktı, Vyetnam, Koreya, Əfqanistan, İraqda apardığı hərbi əməliyyatlar və sairə) baxmayaraq, bazar münasibətləri iqtisadi sistemi, habelə iqtisadiyyatın dövlət tənzimlənməsi üsullarından bacarıqla

faydalanaraq, dinamik bir iqtisadi-sosial inkişaf yolu keçmişdir.

1946-cı ildə qəbul olunmuş ölkə əhalisinin məşğulluğunun təmin edilməsi qanununa görə, hökumətin iqtisadi siyasəti «maksimum məşğulluq, istehsal və alıcılıq qabiliyyəti» prinsipləri əsasında qurulmalı idi. Müharibədən sonrakı illərdə artmağa meyl edən və gözlənilən inflyasiya proseslərinin qarşısını almaq, habelə tənzimləmək üçün bir sıra tədbirlər sistemi həyata keçirilmişdi.

1948-ci ildən başlayaraq, sonrakı 4 il ərzində həyata keçirilən «Marşall planı», bir tərəfdən II dünya müharibəsi nəticəsində xeyli zəifləmiş Qərbi Avropa ölkələrinin iqtisadiyyatının dircəldilməsinə, digər tərəfdən isə daxili bazarın tələblərindən artıq istehsal edilmiş məhsulların Avropaya ixracı, habelə həmin ölkələrə investisiya (kapital, sərmayə) qoyuluşları yönəldilməsi istiqamətində maliyyə-kredit siyasətinin reallaşdırılmasına xidmət etmişdi. Avropanın 16 ölkəsinə «Marşall planı» çərçivəsində ayrılmış 13 milyard dollar məbləğində vəsaitin üçdə iki hissəsi ABŞ-da istehsal edilmiş müxtəlif təytinatlı məhsul və texniki avadanlıqların alınmasına sərf olunmuşdu.

İqtisadçılar və mütəxəssislər ABŞ iqtisadi sisteminin intensiv inkişafını, – ölkənin zəngin təbii sərvətləri, iş qüvvəsinin kəmiyyət və peşə-ixtisas səviyyəsi, çevik maliyyə və bank-kredit sistemi, iqtisadi fəaliyyətin bütün sahələrdə yüksək səmərəlik əldə edilməsinə yönəldilməsi, təsərrüfatın müxtəlif sahələrinin düşünülmüş «elmi menecment» prinsipləri əsasında idarə olunması ilə əlaqələndirirlər.

XX əsrin ikinci yarısından elmi-texniki inqilabın kəşf və texnoloji nailiyyətlərinin istehsal, habelə xidmət dairələrində geniş miqyasda tətbiqinin uğurları, ölkə əhalisinin sosial vəziyyətinin, gündəlik həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına real imkanlar yaratmışdı.

Son 50 il ərzində, məhz yeni texniki kəşflərin və mütərəqqi texnologiyaların istahsal-xidmət sahələrində geniş tətbiqi sayəsində, iqtisadiyyatın maddi-texniki bazasının durmadan yeniləşdirilməsi, daxili-xarici bazarın kəsgin rəqabət mübarizəsi şəraitində, dəyişkən tələblərinin dolğun ödənilməsi üçün bütövlükdə ABŞ iqtisadiyyatının quruluşunda (strukturunda) ciddi dəyişikliklər getmişdir. Qənaət rejimi, yüksək peşəkarlıq, yeni material və yanacaq növlərindən istifadə, başqa ölkələrdən mütəxəssisləri cəlb etmək, istehsalın ixrac yönümlü olmasını həvəsləndirmək, ölkə hüdudlarından kənarda investisiyaların həcminin artması kimi amillərin təsiri altında baş vermiş struktur dəyişikliklərini aşağıdakı cədvəldən görmək olar:

**XX əsrin 50-ci illərində və XXI əsrin əvvəllərində ABŞ-ın ÜDM-nun struktur quruluşu (faizlə)***

| Sahərlər | XX əsrin 50-ci illəri | XXI əsrin əvvəlləri |
|---|---|---|
| Kənd təsərrüfatı | 8-9% | 1,7% |
| Hasilat sənayesi | 2,9% | 1,3% |
| Tikinti | 3,8% | 3,8% |
| Emal sənayesi | 28,9% | 17,2% |
| Nəqliyyat | 5,8% | 3,2% |
| Rabitə | 1,3% | 2,7% |
| Elektroenergetika və qazenergetikası | 1,6% | 2,8% |

* Ъядвял мцхтялиф мянбялярин мцгайисяли рягямляри ясасында тяртиб едилмишдир

| | | |
|---|---|---|
| Ticarət | 18,7% | 15,4% |
| Maliyyə, sığorta, daşınmaz əmlak | 9,8% | 18,3% |
| Digər xidmətlər | 8,8% | 19,3% |
| o cümlədən:<br>Federal və ştat hökumətləri üzrə | 8,3% | 13,4% |

ABŞ iqtisadiyyatının ayrı-ayrı sahələrində gedən dəyişikliklərin təhlili sübut edir ki, ölkədə istehsalın mütləq mənada inkişafı daxili və xarici bazarın tələblərinə uyğun, optimal surətdə tazarlı artımı saxlanılsa da, lakin xidmət dairəsinin daha yüksək templərlə inkişafı prosesi getməkdədir. Son məlumatlara görə müasir dünya məhsul və xidmətlərinin təxminən beşdə bir hissəsini verən, dünya iqtisadi-ticarət dövriyyəsinin altıda bir hissəsini təşkil edən ABŞ-ın ümumi daxili məhsulunda (ÜDM) istehsal dairəsinin payı 27-28 faizi, xidmət-servis sferasının payı isə 72-73 faizi təşkil edir. Eyni zamanda ölkədə 140 milyona yaxın məşğul əhalinin yalnız 24 faizi maddi istehsal sahələrində və 76 faizi isə qeyri-istehsal (xidmət) dairəsində çalışır.

Ölkənin çoxsahəli təsərrüfat həyatının son iqtisadi-sosial səmərəliliyin təmin olunmasına yönəlmiş bu mütərəqqi meyl, onun elmi-texniki nailiyyətlər əsasında formalaşmış müasir tipli maddi-texniki bazaya, yüksək əmək məhsuldarlığına, demokratik təsərrüfatçılıq prinsiplərini tənzimləyən hüquqi bazaya, sərbəst sahibkarlıq və işgüzar biznes fəaliyyəti üçün zəruri sayılan imkanlara, yüksək peşəkarlıq səviyyəsi ilə fərqlənən ixtisaslı mütəxəssislərə, nəhayət səriştəli komanda ilə işləməyi özünə şərəf borcu bilən siyasi dövlət xadimlərinə, müxtəlif siyasi partiya liderlərə malik olduğunu təsdiq edir.

# Mövzu VII.4. Yüksək inkişaf etmiş ölkələr arasında rəqabət mübarizəsi

1. Yüksək inkişaf etmiş ölkələr arasında iqtisadi rəqabətin zəruriliyi və səbəbləri
2. Müasir mərhələdə yüksək inkişaf etmiş ölkələr arasında iqtisadi rəqabətin «üç mərkəzi»
3. Yüksək inkişaf etmiş ölkələr arasında iqtisadi rəqabətin güclənməsi və iqtisadiyyatın dövlət tənzimlənməsi prosesi

*** * ***

**1.** Müasir bazar iqtisadiyyatı şəraitində rəqabət mübarizəsi, bu iqtisadi sistemin daxili mexanizmlərindən biri olub, onun fasiləsiz, habelə optimal faydalılıq (gəlir) prinsipləri əsasında fəaliyyətinin başlıca amillərindəndir. Ölkə daxilində və beynəlxalq miqyasda **torpaq**, **əmək**, **kapital** kimi istehsal amilləri, habelə **əmtəə-xidmətlər** bazarının mövcudluğu şəraitində rəqabət mübarizəsinin olması tamamilə təbii, həm də qanunauyğun bir hadisədir. İstər daxili bazarın, istərsə də xarici bazarın müxtəlif obyektiv-subyektiv səbəbləri əsasında formalaşan tələblə-təklifin dinamik dəyişmə meylləri rəqabət mübarizəsini müxtəlif səviyyələrdə, yəni həm şirkətlər, həm inhisar birlikləri, həm də ölkələr arasında şərtləndirir.

Əmtəə-xidmətlər və satış bazarları uğrunda hələ lap qədimlərdən başlamış rəqabət mübarizəsi, öz tarixi təkamül və inkişafı yolunda müxtəlif formalar almışdır. İstehsalçılarla istehlakçılar, alıcılarla satıcılar, istehsalçıların özlərinin arasında, habelə beynəlxalq miqyasda rəqabət mübarizəsi bir sıra formalarda aparıla bilər. Həmin formalar 4 rəqabət

mübarizəsini əhatə edir: a) sərbəst rəqabət; b) inhisarçı rəqabət; c) oliqoroliya rəqabəti; ç) xalis inhisar rəqabəti.

Müasir inkişaf mərhələsində müxtəlif ölkələr və beynəlxalq miqyasda bu başlıca rəqabət formalarının qarışıq şəkildə, ayrı-ayrı səviyyələrdə hər birinə rast gəlinsə də, lakin **inhisarçı rəqabət** və **oliqopoliya** rəqabəti formaları üstünlük təşkil edir. Eyni zamanda hazırda dünya təsərrüfat həyatında və onun son dərəcə intensiv şəkildə aparılan iqtisadi-ticarət, elmi-texniki əməkdaşlıq, mədəni, turizm, iqtisadi əlaqələr sistemində sağlam rəqabət mübarizəsi, bütövlükdə qloballaşan dünya iqtisadiyyatında mühüm rol oynayır.

*** * ***

**2.** Dünya ölkələri arasında iqtisadi inteqrasiya proseslərinin dərinləşdiyi və vahid dünya təsərrüfat sisteminin tədricən formalaşdığı müasir inkişaf səviyyəsində, rəqabət mübarizəsi nəinki zəifləyir, əksinə aşkar-gizli üsullarla, həm də yeni çalarlarla güclənməklə davam etməkdədir.

Müasir qərabət mübarizəsi müəyyən qeyd-şərtlər və özünəməxsus xüsusiyyətlərlə ayrı-ayrı qrup ölkələr, habelə dövlətlər arasında qanunauyğun, eyni zamanda təbii bir proses kimi aparılsa da, lakin həmin iqtisadi qarşıdurmanın əsas meydanı – yüksək inkişaf etmiş ölkələr arasında davam edən rəqabətdir.

Məlumdur ki, müasir dünyanın 30-35 dövlətini əhatə edən yüksək inkişaf etmiş ölkələr arasında sıx iqtisadi-ticarət, elmi-texniki, hərbi, mədəni əlaqələr sistemi formalaşmışdır. Həmin çoxcəhətli əlaqələr sistemi getdikcə daha intensiv bir xarakter almaqdadır. Lakin bu həqiqətən sıx işgüzar və faydalı qarşılıqlı əlaqələrin indiki səviyyəsi, habelə gələcək perspektivləri, həmin ölkələr arasında bazar münasibətləri iqtisadiyyatına xas olan rəqabət mübarizəsini, onun müxtəlif formalarını, aşkar-gizli üsullarını, metodlarını ləğv etmir.

Hazırda dünya iqtisadiyyatında formalaşmış «üç rəqabət mərkəzi» – **ABŞ**, **Qərbi Avropa** və **Yaponiya** arasında mübarizə həm xammal mənbələrini, həm satış bazarlarını, həm də müxtəlif xidmətlər dairəsini əhatə edir. Müasir şəraitdə çoxmillətli kapital əsasında yaradılıb və beynəlxalq miqyasda istehsal-xidmət təyinatlı geniş fəaliyyət göstərən güclü trans milli korporasiyalar (TMK), dünyanın bu «üç mərkəzi» arasındakı rəqabət mübarizəsinə, şübhəsiz yeni çalarlar verir.

*** * ***

**3.** Müasir mərhələdə müxtəlif dövlətlərin ölkənin təsərrüfat həyatında iştirakı, iqtisadiyyatın inkişafı gedişinə qarışıb onu tənzimlənməsi prosesi reallıq olduğundan, təbiidir ki, bu iş yüksək inkişaf etmiş dövlətlərdə də aparılır.

Doğrudur, bu qrup ölkələrdə dövlətin iqtisadiyyatı tənzimlənməsi işi və təsərrüfat həyatının subyekti kimi həmin proseslərdə iştirakı (8-12 faizdən 30-35 faizə qədər) müxtəlif olsa da, lakin bir meyl kimi özünü göstərməkdədir.

Tanınmış iqtisadçı, Nobel mükafatı laureatı V.Leontyev özünün «İqtisadi esselər» adlı kitabında yazmışdı ki, «bazar münasibətləri **maraq** (gəlir, mənfəət) **küləyi ilə** iqtisadiyyat gəmisinin yelkənlərini hərəkətə gətirir; dövlətin iqtisadiyyatı tənzimlənməsi isə sükan rolunu oynayır. «Küləksiz (mənfəətsiz, gəlirsiz, maraq olmadan) gəmi elə yerindəcə ləngər vuracaq, amma irəli getməyəcəkdir... Sükansız isə gəmini üğurla idarə etmək olmaz».

Məşhur xeyriyyəçi və biznes adamı C.Soros da dövlətin iqtisadiyyata müdaxiləsinə müsbət yanaşaraq «Böhran konsepsiyası» adlı kitabında göstərir ki, müasir mərhələdə sərbəst sahibkarlıq fəaliyyətinə, habelə xüsusi mülkiyyətçiliyə həlledici rol ayırmaq, son nəticə etibarilə gözlənilən ümumi iqtisadi-sosial səmərəliliyi təmin edə bilməz. Onun fikrincə, cəmiyyət həyatında azad sahibkarlıq və həddsiz xüsusi

mülkiyyətçiliyə aludəçilik «**mərkəzləşdirilmiş inzibati-amirlik metodları ilə idarəçiliyin tərs üzü olduğundan**, «**bazar fundamentalizmi**» (market fundamentalist) kimi qiymətləndirilməlidir. Çünki sərbəst bazara həddsiz vurğunluq mövqeyi, müasir dünyada baş verən iqtisadi inteqrasiya proseslərinə zidd olduğundan, qlobal miqyasda vahid dünya təsərrüfat sisteminin (interiqtisadiyyat, ekoiqtisadiyyat) formalaşdığı şəraitdə bu meyl, «**demokratik**, **yaxud «açıq cəmiyyət» üçün totalitar ideologiyadan daha təhlükəlidir**».

İstər tarixi inkişaf boyunca, istərsə də müasir mərhələdə dövlətin iqtisadi proseslərə müdaxilə edərək, onu tənzimlənməsi cəhdləri, qaydaları, prinsipləri, üsulları, formaları, özünəməxsus xüsusiyyətləri, səmərəli hüdudları, müxtəlif iqtisadçılar, habelə mütəxəssislər tərəfindən birmənalı qiymətləndirilməsə də, lakin hamı bu işin son dərəcə zəruri olan müəyyən cəhətlərini etiraf edir.

Dövlət tənzimlənməsi, yüksək inkişaf etmiş ölkələrin təcrübəsində – iqtisadi və sosial sahələri əhatə edərək, hökumətin iqtisadi (cari və perspektiv) siyasəti səviyyəsində həyata keçirilir. Onun mahiyyəti, – bazar münasibətləri şəraitində qanunverici, icraedici və nəzarət xarakterli tədbirlər vasitəsiylə, müxtəlif dövlət orqanları və təşkilatlarının ölkənin təsərrüfat həyatı problemlərinin həllinə təsir göstərməsi, yaxud zərurət yarandıqda bilavasitə qarışmasıdır.

Yüksək inkişaf etmiş ölkələrin uzun illəri əhatə edən təsərrüfat təcrübəsi təsdiq edir ki, iqtisadiyyatın tənzimlənməsi prosesində bazar mexanizminin «görünməyən əl» (A.Smit) prinsipini, müasir inteqrasiya və qloballaşma şəraitində dövlətin düşünülmüş tənzimləmə siyasəti tamamlamalıdır. Xüsusilə, dövlətin konkret şəraitdən asılı olaraq, **inhisarçılığa**, **inflyasiyaya**, **işsizliyə** qarşı **inandırma**, **maraqlandırma** və **məcburetmə** prinsiplərinə əsaslanan müdaxiləsi olmadan, yaranmış problemlərin uğurla həlli çətindir.

Dövlət tənzimlənməsinin **obyektləri** kimi iqtisadiyyata sərmayə (kapital) qoyuluşlarını, ölkənin xarici iqtisadi əlaqələrini, qiymətlər sistemini, məşğulluq və inflyasiyanın səviyyəsini, maliyyə-kredit və pul sisteminin sabitliyini, sosial sahəni, elmi, təhsili, mədəniyyəti, ətraf mühitin qorunmasını, təbii sərvətlərdən səmərəli istifadə olunmasını göstərmək olar. Bu prosesin **subyektlərinə**, – mülkiyyət forması və gəlirlərinə görə fərqlənən həm dövlət, həm də bazar iqtisadi sisteminə aid edilən, cəmiyyətin ayrı-ayrı sosial qruplardır.

Hüquqi, iqtisadi, inzibati yollarla həyata keçirilən dövlət tənzimlənməsində, hökumətin iqtisadi siyasətinin tərkib hisssəsi sayılan onun fiskal siyasəti, vergilərin toplanması, maliyyə, pul-kredit, qiymət, sosial sahə mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, dövlətin iqtisadiyyatı tənzimlənməsi prosesi tarixən 3 mərhələ keçmişdir:

**Birinci mərhələ**, XVIII əsrin sonlarından – XX əsrin əvvəllərinə qədər davam etmiş **klassik iqtisadi nəzəriyyə mərhələsidir**. Bu dövr üçün dövlətin iqtisadiyyata **qarışmaması, iqtisadi sərbəstlik, bazar və qiymətlərin** hər şeyi həll etməsi fikirləri səciyyəvidir.

**İkinci mərhələ**, XX əsrin əvvəllərindən, xüsusilə 1929-1933-cü illərin dünya iqtisadi böhrandan sonra, dövlətin iqtisadi proseslərə qarışması və onun tənzimlənməsi zərurəti ilə bağlıdır. Dövlətin iqtisadiyyatı tənzimlənməməsi ideyası, elmi-nəzəri şəkildə öz əksini ingilis iqtisadçısı C.M.Keynsin əsərlərində tapmışdır. Onun və davamçılarının fikirləri, daha optimal bir variant tapmaq istiqamətində aparılmışdır.

**Üçüncü mərhələ**, XX əsrin70-ci illərindən başlayaraq, dövlətin iqtisadiyata həddsiz qarışmasının yaratdığı çətinlik və problemlərlə səciyyələnir. Belə bir meylə qarşı çıxan ABŞ iqtisadçısı **Milton Fridmen**, özünün **monitar**, yaxud **monitarst** baxışlarını irəli sürmüşdü. Həmin nəzəriyyə, dövlətin iqtisadiyyata yalnız tədavül dairəsində olan **pul kütləsini** tənzimləməklə qarışmasını əsaslandırmışdı. Bu

nəzəriyyə, dövlətin iqtisadiyyatın digər sahələrdə müdaxilə və qarışmasını məqsədəuyğun hesab etməmişdi.

Maraqlıdır ki, Dünya Bankının hesabatlarında XX əsrin son 50 ili ərzində dövlətin iqtisadiyyatı tənzimlənməsi sahəsində uğur üsütünlük və nöqsanları, obyektiv təhlil olunaraq yazılmışdı: «...ümumi iqtisadi tərəqqi , elm, təhsil, səhiyyə, sosial ədalətin tarazlığı sahəsindəki onun rolu həyati əhəmiyyətə malikdir... Lakin dövlət, ölkənin **təsərrüfat həyatının iştirakçısı (subyekti) olmaq əvəzinə**, iqtisadi inkişafının təminatçısı (qarantı) olmalıdır».

Deməli, ölkənin çoxsahəli təsərrüfat həyatını səmərəli, faydalı, ağıllı idarə etmək üçün dövlətin iqtisadi siyasət xətti ilə ayrı-ayrı adamların, xüsusi mülkiyyətçilərin, sahibkarların, işgüzar biznes adamlarının səylərini, ümumi milli maraq-mənafe əsasında əlaqələndirmək zəruridir.

Müasir dövrdə dünya miqyasında gedən inteqrasiya prosesləri və qlobal təsərrüfat sisteminin formalaşması, dövlətin iqtisadiyyatı tənzimləməsi probleminə yeni mövqelərdən yanaşmağı irəli sürür. Çünki qloballaşan dünya təsərrüfat sistemi reallığında, dövlətin iqtisadiyyata, xüsusilə onun prioritet istiqamət və problemlərinə biganə münasibəti bağışlanmaz olduğu kimi, həddsiz müdaxiləsi də yolverilməzdir. Bu sahədə yüksək inkişaf etmiş ölkələrin nəzəri-əməli təcrübəsindən yaradıcılıqla faydalanmaq lazımdır.

# Mövzu VIII. İnkişaf etməkdə olan ölkələrin milli dirçəliş və sosial-iqtisadi tərəqqi problemləri

1. Müstəmləkə sisteminin dağılması prosesi və inkişaf etməkdə olan ölkələrin təsərrüfat həyatı
2. İnkişaf etməkdə olan ölkələrin iqtisadi-sosial problemləri və perspektivləri

* * *

**1.** Bəzən «üçüncü dünya ölkələri», «Cənub ölkələri», yaxud «əyalət ölkələri» adlandırılan **inkişaf etməkdə olan ölkələr qrupu**, müasir dünyanın siyasi-ictimai, iqtisadi-sosial və mənəvi-mədəni həyatında əhəmiyyətli rol oynayırlar. Hazırda dünya ölkələrinin beşdə dörd hissəsi bu dövlətlər qrupuna aid edilir və Planetimizin əhalisinin 80 faizi həmin ölkələrdə yaşayır. Bu mənada inkişaf etməkdə olan ölkələrdə baş verən çoxcəhətli ictimai-iqtisadi proseslər, bütövlükdə dünyanın ümumi vəziyyətinə, onun qayğı və problemlərinə öz təsirini bilavasitə, yaxud dolayı yollarla göstərir.

Coğrafi baxımdan dünya ərazisinə səpələnmiş inkişaf etməkdə olan ölkələr qrupuna – Cənubi Afrika Respublikasını çıxmaqla bütün Afrika qitəsi dövlətləri; Cənubi Amerika (Latın Amerikası) ölkələri; Asiya qitəsinin isə Yaponiya, Cənubi Koreya və İsraili çıxdıqdan sonra yerdə qalan dövlətləri daxil edilir.

Birləşmiş Millətlər Təşkilatının təsnifatına və məlumatına görə, XXI əsrin əvvəllərinə inkişaf etməkdə olan ölkələr qrupuna, dünyanın 150-yə yaxın dövləti daxildir. Həmin ölkələr arasında Çin, Hindistan, İndoneziya, Misir, Braziliya, Kolumbiya kimi iri dövlətlərlə yanaşı, Asiya, Afrika,

Cənubi Amerikanın orta və kiçik ölkələri də vardır. Bu ölkələrin əksəriyyəti keçmişdə dünyanın böyük dövlətlərindən iqtisadi və siyasi cəhətdən asılı vəziyyətə salınmışdılar.

II dünya müharibəsindən sonra dünyada baş vermiş köklü dəyişikliklər, onun əvvəlki siyasi-ictimai və iqtisadi-sosial mənzərəsində yeniliklərlə səciyyələnən proseslər nəticəsində, müstəmləkə sistemi getdikcə dağılmağa başladı.

XX əsrin 50-ci illərinin ortalarına Asiya və Afrika qitələrində cəmisi 20 ölkə xarici ağaların zülmündən azad olmuşdusa, 60-cı illərin ortalarında belə ölkələrin sayı 65-ə çatmışdı. 80-cı illərin sonlarından isə bütün əvvəlki asılı və əsarət altında olmuş ölkələr, müstəqil inkişaf, habelə suveren sosial-iqtisadi tərəqqi yoluna qədəm qoymuşlar.

Şübhəsiz, bu qrupa daxil olan ölkələrin bütövlükdə səciyyəsi, tarixi inkişaf yolları, milli adət-ənənələri, hazırkı siyasi-ictimai quruluşları, iqtisadi-sosial göstəriciləri, təbii sərvətləri, iqtisadi resursları, yüksəliş perspektivləri olduqca müxtəlif, habelə rəngarəngdir. Lakin bütün bu fərqli cəhət və özünəməxsus xüsusiyyətlərə baxmayaraq, inkişaf etməkdə olan ölkələri birləşdirən ümumi cəhətlər vardır. Həmin oxşar cəhətlər sırasında – **birtərəfli inkişaf meylini** (monokulturizmi), iqtisadiyyatın **struktur** (quruluş) nöqsanlarını, **elmi-texniki** və **maliyyə-kredit** asılılığını, hər nəfərə düşən **mühüm məhsul** göstəricilərinin aşağı olmasını göstərmək mümkündür.

Əksəriyyətinin XX əsrin ortalarından başlayaraq milli və müstəmləkə asılılığından xilas olmuş bu ölkələrin iqtisadi-sosial tərəqqisində tədricən müəyyən fərq, habelə xüsusiyyətlərin meydana çıxması təbii sayılmalıdır.

Məsələn, 1950-ci ildə inkişaf etməkdə olan ölkələr arasında 35-i öz inkişaf səviyyəsinə görə, bu qrupa daxil edilən digər dövlətlərə nisbətən daha sürətlə inkişaf etmişdi. Həmin 35 dövlət, orta templərlə inkişaf edən ölkələri 2,4 dəfə, zəif inkişaf etmiş ölkələri isə 5,4 dəfə ötmüşdü.

Artıq XX əsrin 90-cı illərinin ortalarında, inkişaf etməkdə olan ölkələrin ümumi sırasında irəliyə çıxmış 19 ölkə, bu qrupda olan orta səviyyəli dövlətləri 2,9 dəfə və zəif inkişaf etmiş dövlətləri isə 12,2 dəfə ötmüşdü. Bu müqayisələr, inkişaf etməkdə olan ölkələr qrupu daxilində obyektiv və subyektiv amillərlə bağlı, kəsgin iqtisadi-sosial fərqlərin meydana çıxdığını göstərir.

Həmin mürəkkəb proseslər nəticəsində, inkişaf etməkdə olan ölkələrin ümumi iqtisadi-sosial mənzərəsində iki ziddiyyətli meyl özünü aydın göstərmişdir. Bir tərəfdə zəngin təbii sərvətlərinə söykənərək, neft-qaz yaxud dağ-mədən sənayesinin inkişafı sayəsində, iqtisadi-sosial vəziyyətini xeyli yaxşılaşdıra bilmiş ölkələr durur. Bu təbii yeraltı-yerüstü sərvətlərinin köməyi ilə irəliləmiş ölkələrə – Küveyt, Səudiyyə Ərəbistanı, Qatar, Ərəb əmirlikləri, Baham adaları, «yeni sənaye ölkələri» adlanan Cənub-Şərqi Asiyanın – Sinqapur, Tayvan, Cənubi Koreya, Honkonq və Latın Amerikasının Argentina, Braziliya, Venesuela, Kolumbiya nümunə ola bilər.

İnkişaf etməkdə olan dövlətlər qrupunun başqa bir qütbündə Afrika və Asiyanın 30-a yaxın Mozambik, Həbəşistan (Efiopiya), Tanzaniya, Uqanda, Çad, Nepal, Butan, Vyetnam kimi zəif inkişaf etmiş ölkələr yerləşir. Buna səbəb, həmin ölkələrin tarixən iqtisadi-sosial inkişaf baxımından ümumiyyətlə geridə qalmaları, ölkədə siyasi qeyri-sabitliyin hökm sürməsi, etnik zəmində vaxtaşırı münaqişələrin baş verməsi, hərbi toqquşmalar və hakimiyyət çevrilişləri olmuşdu. Eyni zamanda əhalinin artım sürətinin, dünyanın başqa bölgələrinə nisbətən yüksək olması, onların iqtisadi-sosial vəziyyətlərinin qısa müddət ərzində, köklü surətdə yaxşılaşdırılmasına mane olur. Ona görə də beynəlxalq təşkilatların və müxtlif dövlətlərin yardımına baxmayaraq, həmin ölkələrdə orta ömür qısa, savadsızlıq səviyyəsi yüksək, maddi-texniki baza zəif, yaşayış göstəriciləri aşağıdır.

Bu iki əks qütbün arasında isə digər, orta qrupa daxil edilən inkişaf etməkdə olan ölkələrin xeyli hissəsi durur. Asiya qitəsinin Cənub-qərb, Cənub və Cənub-şərq ərazisində yerləşən Çin Xalq Respublikası, Hindistan, İndoneziya, Malayziya, Pakistan habelə Afrika qitəsinin Misir, Əlcəzair kimi ölkələrinin iqtisadi-sosial inkişafı son dövrlərdə xeyli intensivləşmişdir. Hazırda inkişaf etməkdə olan ölkələrin dünya istehsal-xidmətlərində payı 41,9 faiz olduğu halda, Çinin xüsusi çəkisi 13%, Hindistanınkı 6,2%, Braziliyanınkı 2,8%, Meksikanınkı 1,8%, İndoneziyanınkı 1,4%, Türkiyəninki 1%, İranınkı 0,9%, Pakıstanınkı 0,6%, Misirinki 0,5%, Banqladeşinki 0,5%, Əlcəzairinki 0,4% təşkil edir. Həmin ölkələrin özlərinin də ümumiləşdirici iqtisadi-sosial göstəriciləri fərqlidir.

Lakin bu aşkar fərqlərə baxmayaraq, inkişaf etməkdə olan ölkələri bir-biri ilə yaxınlaşdıran aşağıdakı ümumi cəhətlər vardır:

– iqtisadiyyatın çoxukladlığı, yəni müxtəlif təsərrüfat və mülkiyyət formalırının qarışıq fəaliyyət göstərməsi;

– müəyyən istisnalarla, həmin ölkələrin ümumi inkişaf səviyyəsinin aşağı olması;

– istehsalın və sərmayə qoyuluşlarının başqa ölkələrindən, habelə xarici dövlətlərdən asılı olması;

– iqtisadiyyatda aqrar-sənaye istiqamətinin üstünlük təşkil etməsi;

– bu ölkələrin ixtisaslı iş qüvvəsi və mütəxəssislərin başqa yerlərdə iş axtarması, yaxud «beyinlərin axını» prosesi;

– xarici borclar probleminin kəsginləşməsi.

Dünya Bankının məlumatlarına görə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına 1 trilyon dollardan artıq sərmayə qoyulmuşdur. Bu sahədə **birinci yeri** Yaponiya (300 milyard dollar), **ikinci yeri** ABŞ (200 milyard dollar), **üçüncü yeri** Almaniya (150 milyard dollar), **dördüncü yeri** Fransa (130 milyard dollar) tutur.

Ümumiyyətlə bütün dünyada 1,5-1,8 trilyon dolları ötən xarici borcların 1,2-1,4 trilyon dolları məhz inkişaf etməkdə olan dövlətlərin payına düşür.

Bu borcların böyük məbləğinin, sanballı faiz dərəcələrinin yaratdığı real çətinlikləri və gələcək ciddi iqtisadi-sosial problemlərin təhlükəli nəticələrinin qarşısını almaq üçün BMT-nin rəhbərliyi hələ ötən əsrin sonlarında yüksək inkişaf etmiş dövlətlərin liderlərinə kömək üçün müraciət etmişdir.

BMT-nin müraciətində, inkişaf etməkdə olan ölkələrin borclarının bir hissəsinin ləğv edilməsi, kredit faizlərinin daha güzəştli şərtlərlə qaytarılması, yaranmış vəziyyətdən çıxmaq üçün bu dövlətlərə konkret yardım göstərilməsi zəruriliyi qeyd olunmuşdu.

«Səkkizlərin qrupu» liderlərinin son görüşlərində bu problemlə bağlı fikir mübadiləsi aparılmış, həmin borcların bir hissəsinin ləğv olunması, kredit faizlərinin aşağı salınması və borcların 10 faizə qədərinin ləğvi haqqında müzakirələr getmişdir. Hələlik, inkişaf etməkdə olan ölkələrin xarici borclarının taleyi tam həll edilməmişdir.

* * *

**2.** Müasir mərhələdə inkişaf etməkdə olan ölkələr, tarixi inkişaf yolunun doğurduğu obyektiv və subyektiv səbəblər üzündən bir sıra ciddi iqtisadi-sosial problemlərlə rastlaşırlar. Bu geniş əhatəli həyatı problemlər arasında ərzaq çatışmazlığı, yoxsulluq, işsizlik, yerli sərmayə qoyuluşlarının məhdudluğu, ixtisaslı kadrın axını, iqtisadiyyatda quruluş nöqsanları, ətraf mühitin qorunması və ekologiya məsələləri xüsusi yer tutur.

ABŞ iqtisadçısı Maykl Morqan özünün «İqtisadiyyat» adlı əsərində inkişaf etməkdə olan ölkələrin yoxsulluq səbəblərini təhlil edərək, aşağıdakı 4 amili ön plana çəkmişdir.

**Birincisi**, yüksək inkişaf etmiş ölkələr, inkişaf etməkdə olan dövlətlərin xammal ixracına mane olurlar. Bir növ sənaye

məhsulları ilə kənd təsərrüfat məhsulları qiymətləri arasında «**qayçı siyasəti**» tətbiq edərək, yüksək inkişaf etmiş dövlətlər, bu ölkələrə həm idxal, həm də ixrac sahəsində böyük zərbə vururlar.

**İkincisi**, inkişaf etməkdə olan ölkələr, burada həyata keçirilən sənayeləşdirmə istiqamətindəki işlərindən və ixracın səviyyəsindən narazıdırlar.

**Üçüncüsü**, bu ölkələrə iqtisadi-sosial inkişaf üçün ayrılan kreditlərin məbləği çox olsa da, lakin vəsaitin tətbiqi ərazisi xeyli geniş, istehsal-xidmət sahələri müxtəlif olduğundan, bu investisiyaların iqtisadi səmərəliliyini azaldır.

**Dördüncüsü**, inkişaf etməkdə olan dövlətlər tələb edirlər ki, Qərbin imkanlı ölkələri, həmin zəif inkişaf etmiş dövlətlərə, onların gələcək yüksəlişi naminə daha geniş miqyasda kömək göstərsinlər.

Müəyyən mənada bütün inkişaf etməkdə olan dünya ölkələrinə aid edilə biləcək bu qlobal iqtisadiyyatla bağlı məsələləri necə həll etmək lazımdır?

**Əvvələn**, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında mühüm rol oynamış **dövlət mülkiyyətinə yaranmış keçmiş müəyyən düzgün olmayan münasibət kökündən dəyişməlidir**. Ölkənin təsərrüfat həyatında dövlət bölməsinin üstün mövqeyə malik olduğu, hətta həlledici rol oynadığı dövrlərin iqtisadi siyasət xətti, müasir mərhələdə doğru sayıla bilməz. Dünya təcrübəsinin təsdiq etdiyi kimi iqtisadiyyatın bəzi sahələri dövlət bölməsində qalmaqla yanaşı, tədricən ölkənin təsərrüfat həyatında xüsusi mülkiyyətə, şərikli işgüzar fəaliyyətə, qarışıq mülkiyyət əsasında formalaşan sahibkarlığa, biznes işinə hüquqi və inzibati-təşkilati imkanlar yaradılmalıdır.

**Sonra, xaricə sərmayə axını** və investisiyaların iqtisadiyyata yönəldilməsi prosesini, habelə bu işin gələcək nəticələrini düzgün proqnozlaşdıraraq, həmin maliyyə-kredit resurslarından daha səmərəli istifadə olunmalıdır.

**Daha sonra**, bu ölkələr müasir elmi-texniki nailiyyətlərdən faydalanaraq, mütərəqqi texnologiya əsasında əhalinin işsizlik problemini həll etmək üçün yeni iş yerləri yaradılmasını təkcə **əməktutumlu** sahələr hesabına deyil, həm də **elmtutumlu**, **kapitaltutumlu** sahələr hesabına həll etməlidirlər.

**Daha sonra**, **hərbi xərclərin artırılması, korrupsiya-rüşvətxorluq meylləri aradan qaldırılaraq**, başlıca diqqət əhalinin iqtisadi-sosial vəziyyətinin yaxşılaşdırılmasına, ölkənin təbii sərvətlərindən səmərəli istifadəyə, ekologiya problemlərinin həllinə yönəldilməlidir.

**Nəhayət**, inkişaf etməkdə olan ölkələr, iqtisadi gerilik əlaməti sayılan **monokulturizm** «xəstəliyindən» xilas olaraq, iqtisadiyyatın yalnız bir sahəsinə arxalanmayaraq, başqa təsərrüfat sahələrinin də ahənqdar inkişafını təmin etməklə (**diversifikasiya yolu ilə**) bütövlükdə ümumi iqtisadi-sosial yüksəlişə nail olmalıdırlar.

Son illərdə dünyada baş vermiş müxtəlif iqtisadi böhran və maliyyə sarsıntıları, inkişaf etməkdə olan ölkələrin təsərrüfat həyatına xeyli mənfi təsir göstərmişdir.

Bu böhran xarakterli iqtisadi proseslər nəticəsində istər ümumdünya (qlobal) miqyasda, istərsə də ayrı-ayrı ölkələrin timsalında iqtisadi artım templərinin aşağı düşməsi, xarici sərmayə (investisiya) qoyuluşlarının azalması, milli valyutaların məzənnələrinin dəyişməsi, işsizlik səviyyəsinin yüksəlməsi meylləri müşahidə olunmaqdadır.

Yaranmış belə bir qeyri-sabit iqtisadi-sosial vəziyyətdən, inkişaf etməkdə olan ölkələrin xarici ticarət əlaqələri də ciddi zərər çəkmişdir. Kənd təsərrüfatı məhsulları və neft-yanacaq məhsullarına dünya bazarında qiymətlərin dəyişkənliyi hadisəsi, həmin məhsulları ixrac edən dövlətlərin təsərrüfat həyatına hiss ediləcək dərəcədə güclü zərbə vurmuşdu.

Təsadüfi deyildir ki, XX əsrin 90-cı illərinin əvvəllərində inkişaf etməkdə olan ölkələrin iqtisadi artım templəri hər il 5-6

faiz olduğu halda, artıq 90-cı illərin ikinci yarısından başlayaraq bu artım templəri müəyyən istisnalarla aşağı düşməyə doğru meyl etməkdədir.

Mütəxəssislərin hesablamalarına görə ötən əsrin 90-cı illərində neft və neft məhsullarının dünya bazarlarında qiymətinin kəsgin surətdə enib-qalxma dəyişiklikləri nəticəsində, neft ixrac edən ölkələr birlikdə bu qeyri-sabitlikdən 100 milyard dollar itirmişlər. Əksinə, əsas neft idxal edən dövlətlər sayılan ABŞ və Kanada bu proseslər nəticəsində 50 milyard dollar, Qərbi Avropa ölkələri isə 33 milyard dollar qazanmışlar.

Perspektiv proqnozlara görə, yeni minillik və XXI əsr inkişaf etməkdə olan ölkələr qrupu üçün əvvəllər görünməmiş işıqlı inkişaf perspektivləri açmalıdır.

Xüsusilə yeni dövrdə Cənub Şərqi Asiya bölgəsinin İndoneziya, Çin, Hindistan, Birma, Malayziya kimi ölkələri iqtisadi-sosial sahədə daha ciddi uğurlar əldə edə bilərlər.

Beynəlxalq iqtisadi münasibətlər üzrə mütəxəssislərin proqnoz hesablamaları göstərir ki, 2030-cu ildə bu bölgə ölkələri öz ümumi daxili məhsul (ÜDM) istehsalı və xarici iqtisadi əməkdaşlıq (ticarət, elmi-texniki, mədəni-turizm) əlaqələri göstəricilərinə görə Qərbi Avropa bölgəsi dövlətlərini qabaqlaya bilmək imkanlarına malikdirlər.

Uzunmüddətli proqnozlara görə, Latın Amerikası ölkələrinin də perspektivdə, çoxsahəli xalq təsərrüfatının müxtəlif istiqamətlərində özlərinin zəngin yerüstü-yeraltı sərvətlərinə arxalanaraq, sanballı iqtisadi-sosial uğurlar qazana bilərlər.

Belə real iqtisadi-sosial inkişaf imkanları Yaxın, Orta Şərq, Ərəb ölkələrində də vardır. Lakin bir sıra obyektiv-subyektiv amillər, həmin ölkələrin potensial imkanlarını tam reallığa çevirməyə, təəssüf ki, hələlik imkan vermir.

Afrika qitəsi ölkələri qrupuna gəldikdə isə burada ictimai, siyasi, iqtisadi, sosial, mədəni həyatının müxtəlif

sahələrində mütərəqqi irəliləyişlər şübhə doğurmasa da, lakin görünür həmin dövlətlərin nisbi geriliyi, hələ xeyli davam edəcəkdir.

Müasir iqtisadi inteqrasiya proseslərinin getdikcə genişlənib dərinləşməsi, tədricən vahid dünya təsərrüfat sisteminin formalaşması, şübhəsiz inkişaf etməkdə olan ölkələrin iqtisadi-sosial tərəqqisində daha əhəmiyyətli bir yüksəliş mərhələsi olacaqdır. Bu ilk növbədə həmin ölkələrdə əhəmiyyətli rol oynayan iqtisadiyatın dövlət bölməsinin optimal nisbətlər çərçivəsində məhdudlaşdırılmasından; siyasi sabitliyin yaradılmasından; demokratik təsisatların möhkəmləndirilməsindən; beynəlxalq maliyyə qurumları və ayrı-ayrı dövlətlərin kredit, habelə müxtəlif təyinatlı yardımlarından səmərəli faydalanmaqdan; təsərrüfat həyatındakı monokulturizm (neft, kofe, şəkər) meyllərinin birtərəfli inkişaf istiqamətinin aradan qaldırılmasından; təbii sərvətlərdən uzaqgörənliklə istifadə etmkdən; bölgələrin tarazlı inkişafının təmin edilməsindən; ətraf mühitin qorunması və getdikcə kəsginləşən ekologiya məsələlərinə qayğı göstərməkdən əhəmiyyətli dərəcədə asılı olacaqdır.

# Mövzu IX. Postsosialist ölkələrinin iqtisadi-sosial inkişaf problemləri və xüsusiyyətləri

1. Postsosialist ölkələrinin ümumi inkişaf mənzərəsi
2. Postsosialist ölkələrinin bazar münasibətlərinə keçid yolları (variantları)
3. Bazar münasibətlərinə keçidin qanunauyğunluqları, xüsusiyyətləri və vəzifələri

* * *

**1.** Postsovet və postsosialist ölkələri qrupuna ilk növbədə keçmiş Sovet İttifaqının (SSRİ) 15 müttəfiq respublikası; Şərqi Avropanın Çexiya, Slovakiya, Macarıstan, Polşa, Rumıniya, Albaniya, Bolqarıstan, Yuqoslaviya Federasiyasının parçalanması nəticəsində yaranmış Bosniya, Hersoqoviniya, Serbiya, Makedoniya, Xorvatiya kimi ölkələri; Asiya qitəsində yerləşən Monqolstan, Vyetnam, Şimali Koreya kimi, ümumi sayı 30-a qədər olan dövlətlər daxil edilir.

XX əsrin 90-cı illərində iki dünya təsərrüfat sistemindən biri sayılan dünya sosialist iqtisadi sistemi iflasa uğradıqdan sonra formalaşmış bu ölkələr qrupu, 16 ildən artıqdır ki, **keçid mərhələsində olub, bazar münasibətləri iqtisadiyyatı sistemi qururlar.**

Dövlət mülkiyyətinin özəlləşdirilməsi, torpaq islahatlarının aparılması, demokratik hüquqi dəyişikliklər xətti, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi tədbirləri, bazar münasibətləri iqtisadiyyatına gedən çətin və mürəkkəb yolun uğurlu ilkin addımları kimi qiymətləndirilməlidir.

Xüsusilə bu dövlətlərin beynəlxalq aləmdə tanınmaları, onların tədricən müasir dünyanın iqtisadi inteqrasiya

proseslərinə qoşulmaları, müəyyən qlobal problemlərə münasibətdə müstəqil mövqe tutmaları, özlərinin beynəlxalq iqtisadi-ticarət, elmi-texniki, mədəni əlaqələr sisteminin genişləndirib dərin-ləşdirmələri, şübhəsiz müstəqil dövlətçilik siyasətinin mühüm amilləri, cəhəttləri kimi böyük əhəmiyyətə malikdir.

Rəsmi məlumatlara görə keçid mərhələsində olan bu dövlətlər, hazırda dünya məhsul – xidmətlərinin 5-7 faizini, dünya ticarət dövriyyəsinin 4-5 faizini verirlər.

Qeyd etmək lazımdır ki, BMT-nin təsnifatına görə keçmiş sosializm sisteminə daxil olan Çin Xalq Respublikası və Kuba Respublikası postsosialist ölkələri sırasına daxil edilmir. Çin Xalq Respublikası, 1979-cu ildən etibarən Birləşmiş Millətlər Təşkilatının təsnifatına görə beynəlxalq aləmdə, **inkişaf etməkdə olan ölkələr** sırasına daxil edilir.

Kuba Respublikası da inkişaf etməkdə olan ölkələr qrupuna aid edilsə də, lakin o özünü sosializm cəmiyyəti quran bir ölkə kimi səciyyələndirir.

İqtisadçıların və mütəxəssislərin fikrincə, **postsosialist** ölkələri ilə **inkişaf etməkdə olan** ölkələr arasında müəyyən **ümumi oxşar** cəhətlər vardır. Həmin oxşar cəhətlər, Vyanada (Avstriya) yerləşən **Beynəlxalq Tətbiqi Təhlil Sistemi İnstitutunun** araşdırmalarına görə aşağıdakılardır:

I. Postsosialist və postsovet ölkələrinin əhalisi arasında yoxsulluğun nisbətən geniş yayılması;

II. Bu ölkələrin sərvətlərinin bölgüsündə ədalətsizliyin hökm sürməsi;

III. Bütövlükdə iqtisadiyyatın, xüsusilə sənayenin müasir sahələrinin zəif inkişaf etməsi;

IV. Bu ölkələrin milli valyutalarının məzənnələrinin xeyli aşağı olması;

V. Rüşvət-korrupsiya hallarının geniş yayılması və məhkəmə sisteminin səmərəsiz fəaliyyət göstərməsi;

VI. Bu ölkələrin əksəriyyətinin kifayət qədər yanacaq-enerji ehtiyatlarına malik olmaması;

VII. Postsosialist və postsovet ölkələrinin, hələ keçmişdən miras qalmış ayrı-ayrı bölgələrinin (regionlarının) iqtisadi-sosial inkişaf səviyyəsində ciddi fərqlərin olması.

Lakin bütün bu nöqsan və çatışmayan cəhətlərə baxmayaraq, XX əsrin sonlarında Avropa və Asiyanın bir sıra ölkələrinin inzibati-amirlik üsulları ilə idarə olunan planlı sosialist iqtisadi sistemindən üzülərək, **xüsusi mülkiyyətə**, **iqtisadi sərbəstliyə**, **rəqabət prinsiplərinə əsaslanan bazar münasibətlərinə keçidi**, son dərəcə mühüm, habelə tarixi inqilabi bir proses oldu.

Şübhəsiz, bazar iqtisadi münasibətlərinin hakim olduğu iqtisadi bir sistem heç də ideal deyildir. Onun ədalətsizlik, işsizlik, inflyasiya kimi vaxtaşırı təkrar olunan prosesləri, cəmiyyət üçün ciddi iqtisadi-sosial problemlər yaradır.

Amma, bunlara baxmayaraq, bəşəriyyətin çoxəsirlik təsərrüfat həyatı təcrübəsi sübut edir ki, hələlik bazar iqtisadiyyatı sistemi insanların axtarıb tapdıqları elə bir müvafiq təsərrüfatçılıq formasıdır ki, onların şəxsi mənafeyinə, xüsusi maraqlarına, mənfəət əldə etmək niyyətlərinə daha optimal surətdə cavab verir.

*** * ***

**2.** XX əsrin 90-cı illərində dünya sosializm sisteminin dağılması nəticəsində, geniş bir ərazidə müstəqil və demokratik dövlətlərin formalaşması, habelə onların bazar münasibətləri iqtisadi sisteminə keçid prosesi başlanmışdı. Bütövlükdə sosialist qrupu ölkələrinin təsərrüfat həyatının ümumi oxşar cəhətlərinin olmasına baxmayaraq, yeni iqtisadi sistemə keçid mərhələsinin başlanğıcında həmin ölkələrin fərqli xüsusiyyətləri özünü göstərmişdi. Bu amillər sırasında iqtisadiyyatda inzibati-amirlik usullarının hökmranlıq müddətini, xalq təsərrüfatının quruluş xüsusiyyətini, xüsusi

(özəl) bölmənin ölkənin təsərrüfat həyatında payını və rolunu, inflyasiya səviyyəsini, əhalinin əmək-peşə qabiliyyəti ilə bağlı milli mentalitetini, xarici iqtisadi əlaqələr sistemini, daxili-xarici borclarını göstərmək olar.

Bazar münasibətləri iqtisadi sisteminə keçən postsovet və postsosialist ölkələrini öz ümumi inkişaf səviyyəsi, habelə bir sıra digər xüsusiyyətlərinə görə aşağıdakı 3 qrupa ayırmaq mümkündür:

**Birinci qrupa** daxil edilən Çexoslovakiya (sonralar Çexiya və Slovakiya), Macarıstan. Polşa, ADR (vahid Almaniyanın tərkibində) və Baltikyanı ölkələr (Litva, Latviya, Estoniya) daha böyük inam, habelə sürətlə bazar iqtisadiyyatı quruculuğu yolu ilə irəliləməyə başladılar. Bu qrup ölkələrin bazar münasibətlərini formalaşdırmaq istiqamətindəki uğurları, ilk növbədə aşağıdakı səbəblərlə izah olunmalıdır:

– bazar münasibətləri ənənələrinin, həmin ölkələrin hələ II dünya müharibəsindən sonra onların sosialist sisteminə daxil olmasından daha əvvəlki dövrdə mövcudluğu və dərin köklərinin fəaliyyət göstərməsi;

– bu ölkələrin Qərbi Avropa dövlətləri ilə tarixən formalaşmış iqtisadi-mədəni əlaqələr sistemi;

– xalq təsərrüfatının ümumi quruluşunun daha tarazlı və əhəngdar nisbətlərə malik olması;

– əhalinin təhsil, peşə-sənətkarlıq və mədəni səviyyəsinin yüksəkliyi;

– cəmiyyətin müxtlif ictimai təbəqələri arasında, bazar münasibətləri iqtisadi sisteminə keçidin zəruriliyinin dərk edilməsi.

**İkinci qrupda** yerləşmiş Rusiya və digər keçmiş sovet respublikaları, o cümlədən də Azərbaycan, habelə Bolqarıstan, Rumıniya, Albaniya, Yuqoslaviya, Monqolstan kimi ölkələrin əvvəlki planlı sosialist təsərrüfatından yeni bazar münasibtləri iqtisadi sisteminə keçidi prosesi, bir sıra aşkar çətinliklərlə rastlaşmışdı. Bu səbəbdən, həmin ölkələrdə irəliləyişlər ləng

getmiş və xeyli uzanmışdır. 70 ildən artıq davam etmiş sərt mərkəzləşdirilmiş inzibati-amirlik metodları, iqtisadiyatın quruluşundakı nöqsanlar, birtərəfli inkişaf meylləri, bərabər bölgü qaydalarının yaratdığı psixoloji maneələr sərbəst sahibkarlıq və təşəbbüskarlıq fəalliyyətinin boğulması, beynəlxalq və qabaqcıl ölkələrlə hərtərəfli iqtisadi-ticarət, elmi-texniki əlaqələrin məhdudlaşdırılması, əhalinin əksəriyyətinin həyata keçirilməsi qarşıda duran köklü iqtisadi-sosial islahatlara hazır olmaması, şübhəsiz zəruri dəyişikliklərə öz ləngidici təsirini göstərmişdi.

**Üçüncü qrupa** Şərqi Asiyanın Çin, Vyetnam, Şimali Koreya və Amerika qitəsinin Kuba kimi ölkələri daxil edilmişdi (BMT-nin təsnifatına görə Çin Xalq Respublikası və Kuba Respublikası, postsosialist deyil, inkişaf etməkdə olan ölkələr sayılır). II dünya müharibəsindən sonra meydana çıxmış bu ölkələrdə inzibati-amirlik sisteminə xas olmuş sərt ictimai (kollektiv) təsərrüfatçılıq metodları geniş yayılmamış, ənənəvi fərdi kəndli təsərrüfatları tam dağıdılmamış, sənaye sahələri nisbətən zəif inkişaf etmiş, əhalinin əmək fəaliyyəti və yaşayış tərzi, habelə milli mentalitet xüsusiyyətləri əvvəlki dövrdən az fərqlənmiş, nəhayət siyasi hakimiyyət öz mahiyyətli etibarilə totalitar bir rejim xarakteri daşımışdı.

Konkret tarixi şərait, daxili-xarici vəziyyət, ölkənin müxtəlif təyinatlı iqtisadi resurslarla təminatı səviyyəsi, bu ölkələrə yeni formalaşan bazar münasibətləri sisteminə keçidin **fərqli yolllarını**, variantlarını seçmək imkanı yaratmışdı. Bu istiqamətlərdən biri **təkamül yolu** (variantı) olub, ölkədə bazar iqtisadi sisteminə keçidin tədrici addımlar, müəyyən mərhələlər və islahatlarla aparılmasını nəzərdə tutur. Digər variant isə bu keçidin **radikal vasitələrlə**, **«təcili əməliyyat»** (şok terapiya) xarakterli üsullarla və daha tez bir vaxtda, həm də sürətlə aparılmasına əsaslanır.

Hər hansı bir postsosialist və postsovet ölkəsinin bu variantlardan uyğununu seçməsi, ilk növbədə siyasi iradə,

habelə subyektiv amillərdən asılı olmayıb, konkret **siyasi**, **iqtisadi**, **çosial-mədəni** şərtlərin təsiri ilə müəyyənləşmişdir. Məsələn, təkamül yolundan ən geniş şəkildə Macarıstan və Çində, radikal variantdan isə Polşa, Çexiya və Estoniyada istifadə olunmuşdu. Başqa postsosialist və postsovet ölkələrində hər 2 variantın müxtəlif ünsürləri, şəraitə uyğun olaraq, yeri gəldikcə tətbiq edilmişdir.

Təkamül yolu, dövlətin uzunmüddətli islahatlar proqramı əsasında, tədricən iqtisadiyyatın idarə olunmasındakı inzibati-amirlik metodlarının, bazar mexanizmi (tələb-təklif, qiymət, rəqabət) prinsipləri ilə əvəzlənməsini nəzərdə tuturdu. Eyni zamanda, keçid dövrünün yaratdığı istehsalın aşağı düşməsi, işsizlik, inflyasiya kimi proseslərin əhalinin yaşayış səviyyəsinə və cəmiyyətdə sosial gərginliyin artmasına yol verməmək üçün dövlət tərəfindən bir sıra tədbirlər (maddi yardım güzəştlər) həyata keçirilir. Daha sonra təkamül yolu, ölkədə özəl bölmənin yaradılması, kənd təsərrüfatı və sənaye sahələrində xırda-orta sahibkarlığın inkişafına qayğı göstərilməsi, istehlak malları istehsalı və ticarət-xidmət dairəsinin canlanması, qiymətlərə dövlət nəzarəti edilməsi, sərt maliyyə-kredit siyasəti aparılması, fəal surətdə bazar infrastrukturunun formalaşdırılması ilə səciyyələnmişdi.

Bazar münasibtləri iqtisadi sisteminə keçidin radikal, yaxud «şok cərrahiyə» variantı gedişində, ölkədə qiymətlər sərbəstləşdirilir, dövlət mülkiyyətinin özəlləşdirilməsi və torpağın onu bəcərənlərə verilməsi sürətlə aparılr, maliyyə və pul-kredit dairəsində sabitləşməyə nəzarət edən hakimiyyətin rolu, iqtisadiyyatın başqa sahələrində tədricən məhdudlaşır, dövlət aparatının saxlanması xərcləri ixtisar olunur, mərkəzləşdirilmiş maddi-texniki təchizat qaydalarını tələb-təklif əsasında formalaşan alqı-satqı əməliyyatları əvəz edir, ölkənin xarici ticarət əlaqəlri xeyli sərbəstləşdirilir (liberallaşdırılır).

Bu yol, əslində məcburi xarakter daşıyıb, ölkənin çətin maliyyə vəziyyəti, ciddi mal qıtlığı, iqtisadiyyatın səmərəsiz və müstəqil bir ölkənin çoxcəhətli tələblərinə cavab verməyən struktur xüsusiyyətləri ilə bağlı olmuşdu. Onun nöqsan cəhətləri kimi sərmayə qoyuluşlarının daha çox hissəsinin yüksək mənfəət vəd edən ticarət və xidmət dairəsinə yönəldilməsini, inflyasiyanın güclənməsini, əhalinin güzəranının pisləşməsini, yoxsulluğun artmasını, sosial təbəqələşmənin sürətlənməsini ədalət prinsiplərinin pozulması hallarını göstərmək olar.

Təkamül yaxud radikal variantlarla bazar münasibətləri iqtisadi sisteminə keçidin fərqi, ilk növbədə aparılan dəyişikliklərin **müddətlərindən**, ölkənin təsərrüfat həyatını **əhatə dairəsindən**, dövlətin zəruri **tənzimləyici vəzifələrindən** asılıdır.

Azərbaycan Respublikasında bazar münasibətləri iqtisadi sisteminə keçid mərhələsində, ölkənin milli mənafeyinə uyğun və sosial yönümlu, düşünülmüş surətdə tənzimlənən bir inkişaf modelinin formalaşması gedişi, burada həm təkamül, həm də radikal variantların müəyyən cəhətlərindən yaradıcılıqla faydalanmağı irəli sürmüşdür.

* * *

**3.** Mərkəzləşdirilmiş planlı sosialist təsərrüfat sistemindən bazar münasibətlərinə keçən və sərbəst rəqabət prinsiplərinə üstünlük verən postsosialist-postsovet ölkələri, təbii olaraq öz inkişaf yollarında bir sıra ciddi iqtisadi-sosial problemlərlə rastlaşmışlar.

Cəmiyyət həyatının ictimai-siyasi, iqtisadi-sosial və mədəni-mənəvi sahələrini kompleks halında əhatə edən bu problemlər öz əksini postsovet-postsosialist ölkələrinin rastlaşdıqları **keçid dövrünün ümumi qanunauyğunluqları**, **özünəməxsus xüsusiyyətləri**, habelə **konkret vəzifələrində tapmışdır**.

Postsosialist və postsovet ölkələrinin sərbəst bazar münasibətlərinə **keçid mərhələsində** fəaliyyət göstərən **ümumi qanunauyğunluqlar** kimi aşağıdakıları göstərmək olar:

– Milli iqtisadiyyat çərçivəsində dövlətin əvvəllər oynadığı iqtisadi rol xeyli dəyişərək, öz əhatə və təsir dairəsini nisbətən azaldır, zəiflədir, məhdudlaşdırır.

– Cəmiyyət miqyasında, xüsusilə maliyyə-bank sistemi sahəsində makroiqtisadi sabitliyin təmin edilməsi tələb olunur.

– Dövlət mülkiyyətinin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, habelə torpaq islahatlarının aparılması zəruriliyi irəli sürülür.

– Bütövlükdə cəmiyyət həyatının müxtəlif sahələrində iqtisadi-sosial dəyişikliklərin aparılması xətti həyata keçirilir.

– Dünya ölkələri ilə iqtisadi –ticarət əlaqələri yenidən qurulur və inteqrasiya prosesləri tədricən güclənir.

Keçid mərhələsinin **özünəməxsus xüsusiyyətləri** də postsovet-postsosialist ölkələrinin rastlaşdıqları müxtəlif problemlərin meydana çıxıb formalaşmasına, habelə həlli üsullarına bilavasitə, yaxud dolayı yollarla təsir göstərir. Həmin özünəməxsus xüsusiyyətləri aşağıdakı kimi səciyyələndirmək mümkündür:

a) bu ölkələrdə iqtisadiyyatın və ümumiyyətlə **təsərrüfat həyatının həddsiz səviyyədə dövlətləşdirilərək**, hakimiyyət dairələrinin sırf təsərrüfat işlərinə qarışması;

b) 70 il ərzində qeyri-bazar münasibətlərinin ölkə iqtisadiyyatında hökm sürməsi nəticəsində, sərbəst bazar münasibətlərinə keçidin aşkar-gizli, rəsmi və psixoloji hazırlıq baxımından müəyyən çətinliklər yaratması;

c) ölkənin təsərrüfat həyatında **inhisarlaşdırılmış iqtisadiyyatın** və **mərkəzləşdirilmiş dövlət idarəçiliyi** səviyyəsinin son dərəcədə yüksək olması;

ç) iqtisadiyyatın strukturunun düzgün qurulub formalaşdırılmaması, onun əsasən mərkəzin ehtiyac və tələblərinə uyğunlaşdırılması;

d) bu qrup ölkələrin iqtisadiyyatının **rəqabət qabiliyyətli olmaması**, dünya bazarı və beynəlxalq aləmdə baş verən elmi-texniki yeniliklərdən müəyyən mənada təcrid olunmaları;

e) postsosialist və postsovet ölkələrində bazara xidmət edib, onun formalaşmasına, habelə hərtərəfli inkişafına əlverişli şərait yaradan **infrastruktur** şəbəkəsinin (əmtəə, əmək, qiymətli kağızlar birjalarının, reklam agentliklərinin, kredit təşkilatlarının, hüquq və audit xidmətinin) olmaması, şübhəsiz sərbəst bazar münasibətlərinin daha uğurla qurulmasına ləngidici təsir göstərmişdi.

Keçid dövrünün ümumi qanunauyğunluqları və özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla, postsosialist – postsovet ölkələrinin sərbəst bazar iqtisadiyyatını formalaşdırıb qurmaq yolundakı **başlıca vəziyələri** bunlardır:

1. İqtisadiyyatın **liberallaşdırılması**, yəni onun xüsusi mülkiyyət, bazar rəqabəti və işgüzar biznes prinsipləri üzərində qurulması.

2. **Dövlət mülkiyyətinin özəlləşdirilməsi** tədbirlərinin ardıcıl mərhələlərlə, optimal nisbətləri gözləməklə həyata keçirilməsi.

3. İstehsalın və ölkənin təsərrüfat həyatının inhisarsızlaşdırılması, xırda və orta sahibkarlıq fəaliyyətinin genişlənməsinə əlverişli **hüquqi**, **maliyyə-kredit**, **inzibati-təşkilati** mühit yaradılması.

4. Aqrar bölmədə torpaq islahatları həyata keçirərək, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və daxili bazarın tələbatının yerli imkanlar hesabına təmin olunması.

5. İqtisadiyyatın quruluşunda **zəruri struktur dəyişiklikləri** apararaq, onun müstəqil bir dövlətin müasir tələbləri səviyyəsinə uyğunlaşdırılması.

6. Makroiqtisadi sabitliyin təmin olunması bazasında, bazar prinsiplərinə keçilməsi, infrastrukturun formalaşdırılması, iqtisadiyyatın səmərəli «açıq modeli» əsasında, xarici iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi.

7. Əhalinin sosial müdafiəsi sahəsində, **ünvanlı təminata**, yəni hamının yox, sosial ədalət prinsiplərini təmin edən daha çox ehtiyacı olan təbəqələrə kömək göstərilməsi sisteminə keçilməsi.

Postsosialist və postsovet ölkələrinin inzibati-amirlik sistemindən bazar münasibətlərinə keçid dövrü, XX əsrin 90-cı illərindən başlayaraq müəyyən mərhələlər keçmişdir. Doğrudur, ayrı-ayrı ölkələrin iqtisadi-sosial inkişaf səviyyəsində konkret tarixi şəraitlə bağlı müxtəlif fərqli cəhətlər meydana çıxsa da, lakin ümumi oxşar bənzəyişlər də olmuşdur. Bu səciyyəvi dəyişikliklər, ilk növbədə XX əsrin 90-cı illərinin ikinci yarısından etibarən, postsosialist və postsovet ölkələrinin tədricən iqtisadi-sosial böhrandan çıxmalarıdır.

Aşağıda verilmiş cədvəldə, XX əsrin 90-cı illərində postsosialist və postsovet ölkələrində illik ümumi məhsul istehsalı artımının sürəti (templəri) verilmişdir. Bu rəqəmlər, həmin ölkələrdəki iqtisadi həyatın dirçəldilməsi prosesinin dinamikasını əks etdirir:

| Sıra №-si | Ölkə qrupları | XX əsrin 90-cı illəri (faizlə) | | |
|---|---|---|---|---|
| | | 90-cı illərin əvvəli | 90-cı illərin ortaları | 90-cı illərin sonu |
| I | Bütün postsosialist və postsovet ölkələri | – 13% | – 11% | +3,2% |
| II | O cümlədən: Mərkəzi və Şərqi Avropa ölkələri | – 99,5% | +4,9% | +4,5% |
| III | Baltikyanı ölkələr | – 31,4% | +2,1% | +5,2% |
| IV | Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri | –13,4% | –6,4% | –1,7% |
| V | O cümlədən: Azərbaycan Respublikası | –15-20% | +1,3% | +8–9% |

Bu iqtisadi mənzərə, çətinliklə də olsa, ötən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq, postsosialist ölkələrinin sərbəst bazar iqtisadiyyatına doğru irəliləyiş yolunu göstərir.

Müasir mərhələdə postsosialist və postsovet ölkələrində ziddiyyətlərlə olsa da, bazar münasibətləri əsasında yeni bir **iqtisadi sistemin** (**bazar münasibətləri iqtisadiyyatının**) **formalaşması prosesi** gedir.

Yaxın (cari, 1-3 il müddətinə), orta (3-7 il müddətinə) və uzaq perspektivdə (10-15 il müddətinə) bu ölkələr qarşısında duran olduqca mürəkkəb problemlər ictimai-siyasi iqtisadi-sosial, mədəni-mənəvi sahələri əhatə edir.

**İctimai-siyasi sahədə**, ilkin mühüm şərt kimi bu ölkələrdə daxili sabitliyi qoruyub saxlamaq, onu daha da möhkəmlətmək, demokratik təsisatları genişləndirmək, çoxpartiyalıq əsasında siyasi plyuralizmi təmin etmək, insan hüquqlarının qorunması məsələləri ön plana çəkilir. Şübhəsiz, beynəlxalq təşkilatların bilavasitə nəzarəti altında olan bu

vəzifələrin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilsə də, lakin qarşıda daha ciddi məsələlər öz real həllini gözləyir.

**İqtisadi-sosial sahədə**, ölkənin təsərrüfat həyatının canlandırılması, sahibkarlıq və işgüzar biznes fəaliyyətinə geniş şərait yaradılması, yeni iş yerləri açılması, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması problemləri, nisbətən qısa tarixi bir müddət ərzində həll edilməlidir.

Aydındır ki, bu mühüm prosesdə, ölkə iqtisadiyyatında tədricən öz mövqelərini möhkəmlədən xüsusi mülkiyyət və özəl bölmə həlledici rol oynamalıdır. Son məlumatlara görə postsosialist və postsovet ölkələrinin ümumi daxili məhsulunun tərkibində (həcmində) **özəl bölmənin** payı, yaxud xüsusi çəkisi təxminən belədir: Albaniya – 80%, Azərbaycan – 81%, Belorus – 55%, Bolqarıstan – 70%, Çexiya – 85%, Estoniya – 90%, Qazaxıstan – 72%, Gürcüstan – 70%, Ermənistan – 70%, Polşa – 85%, Rumıniya – 75%, Rusiya – 75%, Ukrayna – 60%, Özbəkistan – 56%.

**Mədəni-mənəvi sahəyə** gəldikdə, keçid dövrünün real çətinliklərini, ciddi maliyyə resursları məhdudluğunu nəzərə almaqla yanaşı, eyni zamanda bu istiqamətlərin gələcək əhəmiyyətini son iqtisadi-sosial nəticələr baxımından düzgün qiymətləndirərək, **təhsilə**, **elmə**, **mədəniyyətə**, **səhiyyəyə**, **incəsənətə**, **idmana** dövlət səviyyəsində qayğı göstərilməsinin müxtəlif yollarının, formalarının axtarılıb tapılması, habelə ardıcıllıqla həyata tətbiq olunması lazımdır.

## Mövzu X. Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf yekunları, problemləri və perspektivləri

1. Azərbaycan Respublikasının keçdiyi inkişaf yolu
2. Azərbaycan Respublikasının müasir iqtisadi-sosial göstəriciləri
3. Azərbaycan Respublikası iqtisadiyyatının problemləri və inkişaf perspektivləri

*** * ***

**1.** Qədim və zəngin bir tarixə malik olub, əlverişli iqlim, mühüm strateji mövqedə yerləşən, saysız-hesabsız yeraltı-yerüstü sərvətləri ilə fərqlənən Azərbaycanın çoxsahəli təsərrüfat həyatı, iqtisadiyyatı enişli-yoxuşlu, yüksəlişli-tənəzzülü mürəkkəb bir inkişaf yolu keçmişdir.

Minillikləri əhatə edərək, müxtəlif ölkələrin qoşun və sərkərdələrinin (farsların, romalıların, yunanların, türklərin, tatarların, monqolların, ərəblərin, rusların) hücumlarına, təyziqlərinə, təsirlərinə məruz qalmış Odlar Yurdu, özündə daxili bir inam qüvvəsi, həyat enerjisi taparaq yenidən dirçəlmiş, varlığını və əzəli ləyaqətini tarixin sərt sınaqlarında zaman-zaman təsdiq etmişdir.

Xalq şahiri Səməd Vurğun haqlı olaraq yazmışdı:

*Bilinməyir yaşın Sənin,*
*Nələr çəkmiş başın Sənin...*

Həqiqətən çox böyük və uzun bu tarixi inkişaf yolunda, XIX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan ərazisinin ilk mərhələdə çar Rusiyası, XX əsrin başlanğıcında (1920-ci il) bolşeviklər tərəfindən işğalından sonra ötən təxminən 2 əsrlik

dövr ərzindəki müddət, Azərbaycanın iqtisadi-sosial inkişafı gedişində ayrıca bir mərhələ təşkil edir.

Qonşu İranla Rusiya arasında uzun sürən müharibələrdən sonra razılaşmaya əsasən, **Gülüstan** (1813-cü il) və **Türkmənçay** (1828-ci il) müqavilələri nəticəsində, Araz çayından şimalda yerləşən ərazilər Rusiyanın, cənubda yerləşən Azərbaycan əraziləri isə İranın tabeliyinə keçdi. Azərbaycan torpaqları o vaxtdan iki yerə parçalandı və indi də bu tarixi ədalətsizlik davam etməkdədir... Müxtəlif səy və təşəbbüslərə baxmayaraq, Azərbaycan bu gün də, müasir dünyanın ikiyə bölünmüş xalqlarından biri olaraq qalmaqdadır.

Tarixi obyektivlik naminə qeyd etmək lazımdır ki, Azərbaycanın Rusiya tərəfindən işğal olunaraq, yarımmüstəmləkə və hətta bəzi hallarda müstəmləkə vəziyyətinə salınmasına; onun siyasi, ictimai, diplomatik sahələrdə hüquqlarının pozulmasına; dilinin, dininin, adət-ənənələrinin, milli mentalitetinin məhdudlaşdırıb sıxışdırılmasına; ölkənin təsərrüfat həyatının mərkəzin xammal və digər tələb olunan zəruri məhsulların təchizatçısına çevrildiyinə baxmayaraq, şübhəsiz müəyyən müsbət meyllər də olmuşdur.

Geniş bir əraziyə malik, nəhəng keçmiş Rusiyası imperiyasının və totalitar hakimiyyət tipli bolşevik rejiminin ümumiyyətlə zəbt olunmuş ucqarların, o cümlədən də Qafqazın və xüsusilə də Azərbaycanın zəngin sərvətlərinə böyük ehtiyacı vardı.

Obyektiv zərurət xarakteri daşıyan məhz bu iqtisadi tələblər və Rusiya iqtisadiyyatının real ehtiyacları sayəsində, Azərbaycanda müxtəlif istehsal sahələrini sürətlə irəliləmişdi. Tezliklə burada istehsal olunmuş kənd təsərrüfatı və sənətkarlıq məhsulları Rusiya bazarlarında daha geniş tanınmış, oradan isə Avropa, habelə dünya bazarına yol tapmışdır.

Həmin təsərrüfat sahələrindən pambıqçılığı, ipəkçiliyi, tütünçüliyi, üzümçülüyü, meyvəçiliyi, neft və onunla bağlı sahələri, yüngül, yeyinti sənayeni, eyni zamanda elm, təhsil, səhiyyə, mədəniyyətini mütərəqqi meyllərin təsiri altında inkişafını göstərmək olar.

1917-ci ildə Rusiyada fevral burjua inqilabı və oktyabr bolşevik çevrilişindən sonra, milli ucqarlarda müstəqillik uğrunda azadlıq mübarizəsi yeni bir mərhələyə daxil oldu.

Azərbaycan Milli Şurasının 28 may 1918-ci ildə elan olunmuş bəyannaməsi ilə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti, bütün Şərqdə ilk çoxpartiyalı, müxtəlif millətlərin təmsil olunduğu, demokratik parlamentli quruluş kimi tarixə daxil olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin varlığının ilk günlərindən daxili-xarici siyasət sahəsində xalqın öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün dövlətlərlə dinc şəraitdə yaşamaq, bir-birinin suverenliyinə, habelə ərazi bütövlüyünə hörmətlə yanaşmaq kimi demokratik prinsipləri, bu hakimiyyətin nüfuzunu yüksəldərək, onun beynəlxalq aləmdə tanınmasını şərtləndirmişdi.

1918-1920-ci illəri əhatə etmiş təxminən 2 illik fəaliyyəti dövründə, yeni hakimiyyət rastlaşdığı ciddi siyasi və iqtisadi çətinliklərə baxmayaraq, ölkənin pozulmuş təsərrüfat həyatının bərpası, habelə dirçəldilməsi istiqamətində ilk addamlarını həyata keçirməyə başladı.

Azərbaycan Xalq Cümhuriyyətinin mülkiyyət münasibətlərinin dəyişdirilməsi kimi mürəkkəb və ziddiyyətli proseslərdə təmkinli mövqeyi, aqrar proqramı, sənaye sahələrinin inkişafına dair xətti, maliyyə-valyuta siyasəti, inflyasiyaya qarşı tədbirləri, ölkənin xarici iqtisadi-ticarət əlaqələrini genişləndirməsi yolundakı səyləri, iqtisadiyyatın dövlət tənzimlənməsi istiqamətindəki addımları, əhalinin güzəranını yaxşılaşdırmaq, təhsil, səhiyyə, habelə digər

sahələrdəki fəaliyyəti, əsl milli-demokratik hökumət qayğılarının ifadəsi idi.

Milli hökumətin uzaqqörənliklə düşünülmüş, dünya təsərrüfat təcrübəsinə əsaslanmaqla yanaşı, konkret şəraitin xüsusiyyətlərini nəzərə alan iqtisadi tədbirlərinin tədricən həyata keçirilməsi məntiqi, şübhəsiz hakimiyyətin uğurları kimi qiymətləndirilməlidir. Qısa bir dövr ərzində, hakimiyyətin səyləri nəticəsində neft sənayesi böhran vəziyyətindən çıxarılmış, Bakı-Batum neft kəmərinin işi qaydaya salınmış, Kür çayı üzərindən yeni körpü inşa olunmuş, Bakı-Culfa dəmir yolu xəttinin yarımçıq qalan hissəsinin çəkilişi başa çatdırılmış, Azərbaycan Dövlət Bankı yaradılmış, milli pul vahidi dövriyyəyə buraxılmış, Xəzər dəniz gəmiçilərinin inkişafı üçün ciddi tədbirlər görülmüş, ölkədə ilk ali təhsil ocağı sayılan Dövlət Universiteti açılmış, Bakıda və respublikanın müxtəlif ərazilərində məktəb-təhsil şəbəkəsi genişləndirilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin lideri M.Ə.Rəsulzadənin «fikri, milli və siyasi istiqlalımızın kökü iqtisadi istiqlaldır» ideyasına əsaslanan yeni hakimiyyət, iqtisadi sərbəstlik prinsipi təməlində, müxtəlif mülkiyyət formalarının fəaliyyət göstərməsinə imkan yaratmışdı.

Azərbaycan Xalq Cümhuriyyət və onun liderləri, o dövrdə Rusiyada tətbiq edilmiş zorakı metodlardan (milliləşdirmədən) fərqli olaraq, əsas istehsal vasitələri (torpaq, fabrik-zavod, nəqliyat, ticarət-xidmət dairəsi obyektləri) üzərində xüsusi mülkiyət hüququnu rədd etməmişdilər. Əksinə, onlar hesab edirdilər ki, bu tipli «mülkiyyəti aradan qaldırmaq, indiki vəziyyətdə insanların şəxsi təşəbbüskarlığını zorakı olaraq aradan götürür».

Demokratik hökumət eyni zamanda ölkənin təsərrüfat həyatında fəaliyyət göstərən xüsusi mülkiyyət obyektlərinin hüdudlarının müəyyənləşdirilməsini zəruri hesab etmişdi. Hökumətin iqtisadi platformasına görə cəmiyyətdə qeyri-

məhdud mülkiyyət və bundan irəli gələn gəlirlərin bölgüsündəki ədalətsizlik meylləri yolverilməz sayılmalıdı.

Belə bir cəhət də maraqlıdır ki, hökumətin mövqeyinə görə xüsusi mülkiyyətin saxlanması hüququ, həmin mülkiyyətin parçalanıb xırdalanmasına doğru aparmamalı idi. Dövlətçilik və ümummilli təsərrüfat həyatı mənafeyi baxımından əhəmiyyətli müəssisələrin, mədənlərin, fabrik-zavodların, nəqliyyat-rabitə sisteminin parçalanması yolu, hökumət tərəfindən son iqtisadi-sosial nəticələrinə görə səmərəli sayılmamışdı.

Ölkə əhalisinin 80 faizə yaxınının fəaliyyət sahəsi və dolanacaq mənbəyi olan torpaqla bağlı islahatların aparılması, hökumətin qarşısında duran ən kəsgin sosial-siyasi məsələlərdən biri olmuşdu. O dövrdə kəndlilərin müxtəlif yerlərdə mülkədar torpaqlarını özbaşına tutması, malikanələrin talan edilməsi, etiraz çıxışlarının vaxtaşırı təkrar olunması, aqrar islahatların keçirilməsinə dair hökumətlə parlament arasındakı fikir ayrılığı, bu məsələnin həllini xeyli mürəkkəbləşdirmişdi.

Aqrar proqramı və torpaq islahatları keçirilməsi ilə bağlı ölkə parlamentinə 2 layihə müzakirəyə çıxarılmışdı. Həmin layihələrin birində, torpaq sahiblərinin mülkiyyətində 75 desyatin torpaq sahəsi, digərində isə yerli şəraitdən asılı olaraq bundan fərqli torpaq sahəsi saxlanması nəzərdə tutulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dəyərlərə və sərbəst sahibkarlıq fəaliyətinə əsaslanan maliyyə-büdcə, bank-kredit, vergi-gömrük siyasəti, inflyasiyaya qarşı tədbirləri, milli valyutanın buraxılması, pul tədavülu ilə bağlı məsələlərə münasibəti, xarici iqtisadi-ticarət əlaqələrinin bərpası istiqamətindəki səyləri, Hollandiya, Fransa, ABŞ kimi dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri qurması, ölkənin təsərrfat həyatını çevik surətdə tənzimləməsi sübut edir ki, hökumət o çətin dövrün ziddiyyətli obyektiv-subyektiv meyllərini əsasən düzgün müəyyənləşdirə bilmişdi.

Hökumətin sosial siyasət sahəsindəki tədbirləri, ilk növbədə əhalinin aztəminatlı təbəqələrinin, – fəhlələrin, qulluqçuların, kəndlilərin, eyni zamanda o dövrdə yaranmış qarşıdurma və milli münaqişələr nəticəsində öz yaşayış yerlərini tərk etmiş ailələrin, kimsəsiz-köməksiz insanların qayğılarını yüngülləşdirməyə, bütövlükdə xalqın maddi həyat səviyəsinin tədricən yaxşılaşdırılmasına yönəlmişdi.

Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, keçmiş çar Rusiyasının milli ucqarları öz əsarətində saxlamaq siyasətinin formalarını dəyişən bolşevik rejimi, mahiyyətcə eyni olan bütün fəaliyyət və imkanlarını, müstəqillik əldə etmiş xalqları yenidən təsir dairəsinə qaytarmağa səfərlər etdi.

Bolşevik rejimi bu məkrli məqsədini həyata keçirmək üçün,ölkə daxilindəki tərəfdarlarının («beşinci dəstənin») pozucu fəaliyyətindən başlamış, hiyləgər diplomatik oyunlara qədər müxtlif vasitələrdən istifadə etməklə, son nəticə etibarilə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı hərbi müdaxilə hazırlayaraq, ölkəni işğal etdi. Beləliklə, Şərqdə ilk demokratik respublika 28 may 1920-ci ildə süqut etdi.

Azərbaycanda 70 ildən artıq davam etmiş sovet quruluşu dövründə onun iqtisadiyyatı, nəhəng imperiyanın vahid təsərrüfat kompleksinin tərkib hissələrindən biri kimi mərkəzləşdirilmiş planlı sosialist sisteminin sərt inzibati-amirlik üsulları ilə idarə olunmuşdur. Təbii olaraq, planlı sosialist iqtisadiyyatının keçdiyi ümumi iqtisadi-sosial inkişaf yolu və onun ayrı-ayrı tarixi mərhələləri, şübhəsiz müəyyən özünəməxsus cəhətlərinə baxmayaraq, bütövlükdə Sovet İttifaqının müttəfiq respublikalarından biri sayılan Azərbaycan Sovet Sosialist Respublikasına da aid edilə bilər.

Sovet hakimiyyətinin ilk günlərindən tətbiq olunmuş məcburi «hərbi kommunizm» tədbirləri, yeni iqtisadi siyasət, dağıdılmış xalq təsərrüfatının bərpası, ölkənin sənayeləşdirilməsi xətti, xırda kəndli təsərrüfatlarının kollektivləşdirilməsi, mədəni inqilabın həyata keçirilməsi, II

dünya müharibəsində iştirakı, müharibədən sonrakı quruculuq işləri, dünya sosializm təsərrüfat sisteminin formalaşması, iki sistemin iqtisadi yarışı və siyasi-hərbi qarşıdurması, totalitar rejimin çökməsinin qarşısını almaq üçün yarımçıq və əlaqəsiz islahat cəhdləri, hərtərəfli hazırlanmamış yenidənqurma prosesi, nəhayət planlı sosialist iqtisadi sisteminin dağılması dövrləri, həm də Azərbaycan xalqının müxtəlif nəsillərinin həyatı, əmək fəaliyyəti, yaşayış səviyəsi, düşüncə tərzinin formalaşması, taleyi ilə bağlı tarixi mərhələlər olmuşdur.

İqtisadi-sosial nəticələri tam düşünülməmiş milliləşdirmə siyasətinin, haqqsız siyasi təqiblərin, ədalətsiz sürgünlərin, birtərəfli inkişaf meyllərinin, siyasətin iqtisadiyyatdan üstünlüyü haqqında əzbərçi müddəaların, qondarma beynəlmiləlçilik ideyaları adı altında bütün dünyada sosializm-kommunizm təliminin təsir gücünün müxtəlif yollarla artırılması cəhdlərinin yaratdığı gərginliklərə, məhrumiyyətlərə, çətinliklərə baxmayaraq, bütövlükdə sovet imperiyasının, o cümlədən də Azərbaycanın 70 illik inkişafının uğurları danılmazdır.

Keçmiş SSRİ ərazisinin 4%-ni təşkil etmiş, əhalisinin 2,1%-nin yaşadığı Azərbaycanın İttifaqın milli gəlirinin və xarici ticarət dövriyəsinin 1-2%-ni, neft-yanacaq hasilatının müxtəlif dövrlərdə 5-75%-ni, neft maşınqayırma sənayesi məmulatlarının 80%-dən çoxunu, pambığın, tütünün, üzümün, meyvə-tərəvəzin, subtropik bitgilərin, qara kürünün əhəmiyyətli hissəsini verməsi, eyni zamanda təhsil, elm, mədəniyyət istiqamətlərində əldə etdiyi nailiyyətlər tarixi faktlardır.

Lakin bu iqtisadi-sosial inkişaf prosesi, totalitar rejimin xidməti olmayıb, cəmiyyətin ümumi ictimai-iqtisadi tərəqqi qanunauyğunluqlarının məntiqi yekunu kimi qiymətləndirilməlidir. Əlverişli strateji mövqeyə, rəngarəng təbiətə, zəngin yeraltı-yerüstü sərvətlərə malik bir ölkənin zəhmətsevər xalqının əmək səyləri, maddi resursları və intelektual səyləri bu inkişafın başlıca amilləri olmuşdu.

Obyektiv-subyektiv xarakterli kompleks şərtlərin yekunu sayılan bu ziddiyyətli inkişaf prosesinin zahiri dinamik mənzərəsinə baxmayaraq, bütövlükdə Azrbaycanın potensial resursları mərkəzin xammal, yanacaq, yarımfabrikat, hazır məhsullara olan ehtiyaclarına uyğunlaşdırılaraq, inzibati-amirlik metodları ilə idarə olunan totalitar imperiya rejiminin yarımmüstəmləkə, bəzi sahələrdə isə hətta müstəmləkə xarakterli əlavəsinə çevrilmişdi.

Şübhəsiz, tarixi müddət və vaxt amili baxımından, bolşevik rejiminin 71 illik ölkənin milli məhsuldar güvvələrinin düşünülmüş tarazlı inkişafını ləngidən əsarəti olmasaydı, Azərbaycanın iqtisadi-sosial inkişaf səviyyəsi, şubhəsiz daha uca zirvələrə yüksələ bilərdi.

* * *

**2.** Azərbaycan xalqının çətin bir şəraitdə, totalitar siyasi-ictimai və iqtisadi-sosial rejimə qarşı apardığı gizli-aşkar mübarizə, 1991-ci ildə Sovet İttifaqının dağılması ilə reallığa çevrildi.

Onilliklər boyu bolşevik-kommunist diktaturasının inzibati-amirlik üsulları ilə idarə etdikləri hakimiyyət, həmin quruluşun represiyalara, həbslərə, zorakılığa, insan hüquqlarının tapdalanmasına, cəmiyyət üzvlərinin siyasi və iqtisadi azadlıqlarının, sərbəstliyinin boğulmasına əsaslanan bir iqtisadi sistem kimi məhv oldu.

18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdi. Suveren və müstəqil bir ölkə kimi Azərbaycan Respublikası, planlı sosialist təsərrüfat sistemindən ayrılaraq, xüsusi mülkiyyətə, azad sahibkarlığa və işgüzar biznes fəaliyyətinə, sərbəst rəqabət prinsiplərinə əsaslanan bazar münasibətlərinə keçməyə istiqamətləndi.

Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasının qarşısında:

– ölkənin dövlətçilik prinsiplərini getdikcə möhkəmlətmək;

– demokratik, hüquqi və dünyəvi bir cəmiyyət qurmaq;

– dövlətin ərazi bütövlüyünü bərpa etmək;

– iqtisadiyyatda və bütövlükdə idarəetmə strukturunda (quruluşunda) ciddi dəyişikliklər aparmaq;

– əhalinin iqtisadi-sosial vəziyyətini tədricən yaxşılaşdırmaq kimi məsuliyyətli vəzifələr dururdu.

Həmin ictimai-siyasi, iqtisadi-sosial, mənəvi-əxlaqi sahələri əhatə edən mühüm problemlər sırasında ilk növbədə, şübhəsiz cəmiyyətin iqtisadi bazisi sayılan ölkənin təsərrüfat həyatı ilə bağlı məsələlər, problemlər, öz təxirəsalınmaz həllini gözləyirdi.

Müstəqilliyin ilk mərhələsində obyektiv və subyektiv amillərin təsiri altında yaranmış mürəkkəb vəziyyət nəticəsində, əvvəlki bir neçə nəslin zəhmət-səylərinin formalaşdırdığı güclü maddi-texniki baza xeyli zəifləmişdi.

Azərbaycan Respublikasının cəlb olunduğu Qarabağ müharibəsi, orada qərəzli şəkildə qızışdırılan bədnam «milli separatçılıq» hərəkatı, Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz ata-baba yurdlarından məcburi köçürülmələri, ölkənin sərhədlərinin pozulması, bir sıra rayonların müvəqqəti işğalı, keçid mərhələsini yaşayan yenicə formalaşan müstəqil dövlət üçün əlavə hərbi-diplomatik və iqtisadi-sosial problemlər yaratmışdı.

Ölkənin çoxsaylı müəssisə və obyektlərinin əksəriyyəti öz istehsal fəaliyyətini dayandırmış, baxımsızlıq, habelə laqeyd münasibət üzündən texniki-texnoloji avadanlıqlar sıradan çıxarılaraq yarıtmaz vəziyyətə salınmış, ixtisaslı kadrlar öz əsas ixtisas-peşə dairəsindən uzaqlaşmış, məmləkətdən ən qiymətli kapital sayılan «beynlərin axını» prosesi başlanmış, daxili və xarici istehsal, xidmət, ticarət, təchizat əlaqələri pozulmuş, maliyyə-bank və pul-kredit sistemi ciddi çətinliklərlə rastlaşmışdı.

Qeyd etmək lazımdır ki, ölkənin təsərrüfat həyatının belə acınacaqlı vəziyyəti, keçid mərhələsinin başlanğıcında, sovet imperiyasının süqutundan sonra meydana çıxmış bütün müstəqil dövlətlərin real iqtisadi-sosial mənzərəsi üçün səciyyəli idi.

Azərbaycan Respublikasında 90-cı illərin əvvəllərindən başlanmış təsərrüfat həyatının böhranı, 1995-ci ilədək davam etmişdi. Tədricən əldə olunmuş siyasi sabitlik nəticəsində iqtisadi tənəzzülün qarşısı alındıqdan sonra, çətin də olsa 1996-cı ildən etibarən milli iqtisadiyyatda ilkin dirçəliş prosesləri başlanmışdı.

Bazar iqtisadiyyatının formalaşması istiqamətində ardıcıllıqla həyata keçirilən mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi; aqrar islahatı və torpaqların xüsusi mülkiyyətə verilməsi; böyük perspektivlərə malik qarışıq mülkiyyət prinsipi əsasında birgə müəssisələrin təşkil edilməsi; dünyanın aparıcı dövlətləri ilə iri miqyaslı neft sazişləri imzalanması; xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunması üçün əlverişli şərait yaradılması, öz müsbət bəhrələrini verməkdədir.

XXI əsrin əvvəllərinə respublikanın ümumi daxili məhsulunda (ÜDM) özəl bölmənin payı (xüsusi çəkisi) 80 faizə çatmışdır. Bu o deməkdir ki, indi ölkədə istehsal olunan məhsulların və göstərilən müxtəlif təyinatlı xidmətlərin beşdə dörd iki hissəsi, xüsusi mülkiyyət və bazar rəqabəti prinsipləri əsasında aparılan azad sahibkarlıq, habelə işgüzar biznes fəaliyyətinin nəticəsidir.

Son 16 illik müstəqillik şəraitində ölkədə aparılmış dövlət mülkiyyətinin özəlləşdirilməsi, torpaq islahatları, neft strategiyası, xarici sərmayələrin respublikanın iqtisadiyyatına cəlb olunması, xarici ticarət əlaqələrinin genişlənməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, qeyri-neft bölməsinin problemlərinə qayğı göstərilməsi, əhalinin maddi-mə-dəni rifahının yaxşılaşdırılması yolunda həyata

keçirilmiş tədbirlər sayəsində qazanılmış uğurları, aşağıdakı rəqəmlərdən görmək olar:*

| **Sıra №-si** | **Göstəricilər** | **1 yanvar 2006-ci il üçün (mln. manatla)** |
|---|---|---|
| 1 | Ümumi Daxili Məhsul | 11.875.0 |
| 2 | Sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi | 8.861,0 |
| 3 | Əsas kapitala (fondlara) yönəldilmiş investisiyalar | 5.769,9 |
| 4 | Kənd təsərrüfatı məhsullarının ümumi həcmi | 1.731,2 |
| 5 | Nəqliyyat bölməsində yük daşınması (mln. ton/km) | 26.431 |
| 6 | Poçt və rabitə xidmətlərinin həcmi | 437,2 |
| 7 | Pərakəndə əmtəə dövriyyəsi | 4.622,2 |
| 8 | Əhaliyə göstərilən pullu xidmətlər | 960,7 |
| 9 | Xarici ticarət dövriyyəsi (min ABŞ dolları ilə), o cümlədən:<br>İxrac<br>İdxal | 8.558,4<br><br>4.347,2<br>4.211,2 |
| 10 | Dövlət büdcəsinin gəlirləri | 2.055,2 |
| 11 | Dövlət büdcəsinin xərcləri | 2.140,7 |
| 12 | Dövlət büdcəsinin kəsiri | - 85,5 |
| 13 | Hər nəfərə düşən pul gəlirləri (manatla) | 942,0 |
| 14 | Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı (manatla) | 117,9 |
| 15 | Qeydə alınmış işsizlərin sayı (nəfər) | 56.343 |
| 16 | Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun (ÜDM) həcmi (manatla) | 1.410 |

Mürəkkəb və ziddiyyətli ictimai-siyasi hadisələr, iqtisadi-sosial problemlər, mənəvi-əxlaqi dəyərlərin dəyişkən meylləri axarında keçid mərhələsində Azərbaycan Respublikasının

* Азярбайъан рягямлярдя 2006. Бакы, 2006, сящ.11, 101 вя 108 (Дяйяр ифадясиндя олан эюстяриъиляр манатын деноминасийасы нязяря алынмагла, йени Азярбайъан манаты иля верилмишдир).

bazar münasibətlərinin formalaşması yolundakı uğurları, şübhəsiz müsbət qiymətləndirilməlidir.

Lakin bu o demək deyildir ki, müxtəlif çətinlikləri və təzadları ilə seçilən keçid dövrünün, cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən çoxcəhətli problemlərinin həlli yolunda hər iş qaydasındadır.

Birləşmiş Millətlər Təşkilatı və bir sıra beynəlxalq təşkilatlarının müqayisəli məlumatlarına görə Azərbaycan Respublikası Planetin ərazisinin 0,06 faizini tutur, burda Yer kürəsi əhalisinin 0,14 faizi yaşayır. Onun ümumdünya məhsul istehsalı və xidmətlər göstərilməsində payı 0,03 faiz, dünya xarici ticarət dövriyyəsində xüsusi çəkisi 0,02 faiz, valyuta-qızıl ehtiyatlarında payı isə 0,001 faizdir.

Beynəlxalq təşkilatların və müstəqil mütəxəssislərin təhlili araşdırmaları göstərir ki, Azərbaycan Respublikasında əhalinin hər nəfərinə düşən **ümumi daxili məhsulun həcmi**, mühüm sənaye və kənd təsərrüfatı məhsullarının miqdarı, əhalinin yaşayış səviyyəsinin müasir parametrləri, habelə digər bir sıra iqtisadi-sosial göstəriciləri, hələlik orta dünya standartlarından (8.000-8.500 ABŞ dolları) xeyli, yüksək inkişaf etmiş ölkələrin müasir iqtisadi-sosial inkişaf səviyyəsindən (40-60 min dollar) isə çox geridədir.

Keçid mərhələsində olan bir ölkənin iqtisadi sosial vəziyyətinin bu çatışmayan cəhətlərinin təsiri bilavasitə, yaxud dolayı yollarla özünü respublika əhalisinin məşğulluq və işsizlik səviyyəsində, yaşayış minimumunda, orta və minimum əmək haqqı məbləğində, vergi və gömrük təşkilatlarının fəaliyyətində, xarici ticarət əlaqələrinin ixrac hissəsinin birtərəfli (yanacaq və xammal) istiqamət xarakteri daşımasında, təhsil və səhiyyədə, elm və mədəniyyət, sosial müdafiə və pensiya təminatında, habelə cəmiyyət həyatındakı rüşvətxorluq, bürokratik əngəllər, korrupsiya hallarında göstərir.

Dünya təcrübəsinin müxtəlif ölkələrin təsərrüfat həyatının inkişafı nümunəsidə sübut etdiyi kimi, müstəqillik və suverenlik yolu şərəfli olduğu qədər də məsuliyyətli, çətin, hətta əzablı bir prosesdir. Bu böyük yolun zəruri keçid mərhələsini uğurla başa çatdırıb, daha sanballı müvəffəqiyyətlərə nail olmaq, habelə iqtisadi-sosial inkişaf istiqamətində yeni zirvələr fəth etmək üçün milli daxili birlik, öz imkan və qüvvələrini hərtərəfli səfərbərliyə almaq, elmi-texniki fikrin son yeniliklərindən faydalanmaq əsasında, vahid dünya təsərrüfat sisteminə inteqrasiya etmək istiqaməti tarixi bir zəruriyyətdir.

* * *

**3.** Gələcəkdə müstəqil Azərbaycan Respublikasının iqtisadi-sosial yüksəlişinə nail olmaq üçün burada dövlət mülkiyyətinin özəlləşdirilməsi və torpaq islahatları aparılması kompleksli surətdə başa çatdırılmalı; neft-qaz, yanacaq və onunla bağlı istehsal obyektləri ilə yanaşı, digər təsərrüfat sahələrinin inkişafına qayğı göstərilib diqqət yetirilməli; respublikaya daxil olan xarici investisiyaların müəyyən hissəsinin Azərbaycan rayonlarına yönəldilməsi işi rəğbətləndirilməli; yerli istehsala və sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara əlverişli şərait yaradılaraq, etibarlı daxili bazarın formalaşması prosesi başa çatdırılmalı; ölkənin ixrac imkanları yeni məhsullar, habelə xidmətlər hesabına xeyli genişləndirilməlidir.

Bu mürəkkəb iqtisadi-sosial vəzifələri nisbətən qısa müddətdə və uğurla həyata keçirmək üçün respublikanın perspektiv milli inkişaf **Konsepsiyası** hazırlanıb, ardıcıl mərhələlərlə reallaşdırılmalıdır.

Yaşadığımız keçid dövrünün müxtəlif səpgili problemləri nə qədər çətin və müasir dəyişkən şəraitdə iqtisadi-sosial inkişafın gələcək perspektivlərini proqnozlaşdırmaq mürəkkəb olsa da, müstəqil bir dövlətin ümummilli mənafeyi, cari

məsələlərin (1-3 il) həllini diqqət mərkəzində saxlamağı tələb etməklə yanaşı, eyni zamanda orta (5-7 il), habelə uzunmüddətli (10-15 il) dövrləri əhatə edən **vahid milli iqtisadi-sosial inkişaf Konsepsiyanın** hazırlanmasını irəli sürür.

Bu Konsepsiya müəyyən prinsiplər əsasında, konkret şəraiti və real imkanları nəzərə almaqla formalaşan strateji məqsədin, ən optimal yollarla, taktiki vasitələrlə həyata keçirilməsini təmin etməlidir.

# Mövzu XI. Müasir iqtisadi qloballaşma və bəşəriyyətin sosial-iqtisadi problemləri

1. Milli iqtisadiyyatların inteqrasiyası prosesi
2. Bəşəriyyətin qlobal problemləri və onların həlli yolları

*** * ***

**1.** XX əsrin sonları və XXI əsr, milli iqtisadiyyatların yüksək templərlə yüksəlib xeyli inkişaf etməsi, onların güclənməsi ilə yanaşı, eyni zamanda dünya miqyasında iqtisadi inteqrasiya meyllərinin, yəni müxtəlif ölkələrin təsərrüfat həyatlarının bir-birinə yaxınlaşması, onların qovuşması prosesi ilə səciyyələnir.

Bu ciddi dünya miqyaslı mütərəqqi hadisəyə, planetimizdə tədricən vahid məlumat və rabitə sistemlərinin yaradılması, vaxtilə iki dünya təsərrüfat sisteminin ideoloji prinsiplər təməlində yaratdığı qarşıdurmanın getdikcə aradan qalxması, ölkələr arasında iqtisadi-ticarət əlaqələrinin liberallaşması (sərbəstləşdirilməsi), kapital və iş qüvvəsi hərəkəti axınının intensivləşməsi, mədəni əlaqələrin və beynəlxalq turizmin genişlənməsi, transmilli korporasiyaların (TMK) bir çox ölkələri əhatə edən fəaliyyəti, rəqabət mübarizəsinin yeni forma və xüsusiyyətləri kimi amillər böyük təsir göstərmişdir.

Bu iqtisadi proseslərin qlobal xarakter almasında, bir sıra ölkələrin regional (bölgə) iqtisadi inteqrasiyası mühüm rol oynamışdır və hazırda da oynamaqdadır. Həmin iqtisadi birliklərə nümunə kimi aşağıdakıları göstərmək olar:

**I. Avropa Birliyi (İttifaqı)** – 1957-ci ildə Roma sazişi ilə yaradılmışdır. Sonra bu iqtisadi birlik, «altılar ittifaqı» və

«ümumi bazar» ölkələri kimi tanınmışdır. Öz inkişafında müxtəlif mərhələlər keçmiş bu iqtisadi və valyuta təşkilatına hazırda Qərbi və Şərqi Avropanın, habelə Baltikyanının 27 dövləti daxildir. Avropa Birliyinə Almaniya, İngiltərə, Fransa, İtaliya, Avstriya, Belçika, Danimarka, İspaniya, Portuqaliya, İrlandiya, İsveç, Finlandiya, Niderland, Yunanıstan, Çexiya, Polşa, Macarıstan, Bolqarıstan və digər ölkələr üzvdürlər.

**II. MERKOSUR** – (Cənubi Amerika ölkələri birliyi) Argentina, Braziliya, Uruqvay və Paraqvayın iqtisadi regional təşkilatıdır. Bu birlik 1991-ci ildə formalaşmış və 1995-ci ildən rəsmi fəaliyyətə başlamışdır. Təşkilata daxil olan 4 ölkədə Cənubi Amerika əhalisinin 45 faizi yaşayır və regionunun ümumi daxili məhsulunun (ÜDM) yarıya qədəri istehsal olunur. Bu qrup ölkələrin ticarət əlaqələrinin 90 faizi gömrük rüsumlarından azaddır və onlar başqa ölkələrə qarşı razılaşdırılmış iqtisadi siyasət xətti həyata keçirirlər.

**III. NAFTA** – (Azad Ticarət haqqında Şimali Amerika Sazişi), 1994-cü ildə ABŞ, Kanada və Meksikanın iştirakıyla yaradılmışdır. Müasir dünyada böyük iqtisadi və potensial ticarət imkanlarına malikdir.

**IV. ASEAN** – (Cənub-Şərqi Asiya ölkələri birliyi), 1967-ci ildə təşkil olunmuşdur və bu regionun İndoneziya, Malayziya, Filippin, Sinqapur, Tailand, Bruney, Vyetnam kimi 7 ölkəsini birləşdirir.

**V. ATES** – (Asiya-Sakit okean ölkələri birliyi), 1989-cu ildə yaradılmışdır və buraya dünyanın Çin, ABŞ, Rusiya, Avstraliya, Yeni Zellandiya, Kanada, Cənubi Koreya, habelə digər 20-dən artıq ölkəsi daxildir.

**VI. MDB** – (Müstəqil Dövlətlər Birliyi), 1992-ci ildə yaradılmışdır. Bu iqtisadi birliyə, Baltikyanı ölkələri çıxmaq şərtiylə, hazırda müstəqil dövlətlər kimi formalaşmış 12 keçmiş sovet respublikaları, o cümlədən Azərbaycan Respublikası 1993-cü ildən daxildir.

**VII. QDİƏT** – (Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı), 1992-ci ildə yaradılmışdır və bu təşkilata Azərbaycan, Türkiyə, Yunanıstan, Ukrayna, Gürcüstan, Moldova, Rumıniya, Bolqarıstan habelə digər ölkələr daxildir.

**VIII. İƏT** – (İqtisadi Əməkdaşlıq Təşkilatı), 1985-ci ildə İran, Türkiyə və Pakistan tərəfindən təsis olunmuşdur. Sonralar Əfqanistan da bu təşkilata qoşulmuşdur. Hazırda, Sovet İttifaqı dağıldıqdan sonra müstəqillik əldə etmiş – Azrbaycan, Qazaxstan, Qırğızıstan, Tacikistan. Türkmənistan və Özbəkistan İƏT—nın üzvüdürlər.

Bu iqtisadi bölgə (region) qruplarından başqa, dünyanın müxtəlif ərazilərində ayrı-ayrı ölkələrin dövlət səviyyəsində birlikləri fəaliyyət göstərməkdədir. Afrika qitəsində «Cənubi Afrika İnkişaf Komitəsi» (SADK) – Anqola, Botsvana, Lesoto, Mialavi, Mozambik, Cənubi Afrika Respublikası, Tanzaniya, Zimbabveni; «Qərbi Afrika İqtisadi və Valyuta İttifaqı» – Nigeriya, Toqo, Benin, Maldivini; Asiya qitəsində «Cənubi Asiya bölgə əməkdaşlıq birliyi» (SAARK) – Hindistan, Pakistan, Banqladeş, Nepal, Butan, Maldivini özündə birləşdirir.

Asiya qitəsinin digər bölgələrində də dövlətlərarası iqtisadi qruplaşma prosesləri müxtəlif formalarda fəaliyyət göstərir. Bölgə və qrup iqtisadi əməkdaşlıq əlaqələrində fəal iştirak edən Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyi ilə yanaşı, Mərkəzi Asiya dövlətləri iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının, Qara dəniz dövlətləri iqtisadi əməkdaşlıq təşkilatının üzvü, 30-dan artıq ölkənin səylərini birləşdirən «Böyük İpək yolu» (Avropa – Qafqaz – Asiya – TRASEKA nəqliyyat dəhlizi) proqramının fəal iştirakçısıdır. Respublikamız Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Bankı, İslam Bankı və digər maliyyə qurumları ilə öz işgüzar əlaqələrini uğurla genişləndirir.

Bu meyl və müsbət iqtisadi proseslər, tədricən qloballaşma təməlində vahid dünya təsərrüfat sisteminin formalaşmasının davam etdiyini göstərir.

* * *

**2.** Dünya iqtisadiyyatı vahid bir sistem kimi formalaşmaq yolu ilə irəlilədikcə, bəşəriyyətin qayğı və problemləri də tədricən ümumi bir məna kəsb edərək, qloballaşır. Çünki Planetimiz, burada yaşayan xalqların və millətlərin böyüklüyündən yaxud kiçikliyindən, iqtisadi-sosial inkişaf səviyyəsindən, dilindən və dinindən, irqindən və cinsindən asılı olmayaraq, hamının **ümumi evidir**. Bu ümumi evdə yaşayanlar isə getdikcə daha çox, sərhəd və millət tanımayan **qlobal problemlərlə** üzləşirlər. Həmin qlobal bəşəri problemlər aşağıdakılardır:

a) **Ümumi hərbi təhlükəsizliyin təmin edilməsi**, müharibə və sülh problemi, iqtisadiyyatın militaristləşdirilməsi, bütövlükdə bəşəriyyəti hədələyən ən ciddi fəlakətdir.

Müasir dövrdə bəşəriyyətin kəsgin iqtisadi-sosial problemlərlə üz-üzə durduğu bir şəraitdə, dünya ölkələrinin hərbi xərcləri təxminən 2 trilyon dollar təşkil edir, silah və hərbi texnika ilə ticarət dövriyyəsi 35-40 milyard dollara yaxınlaşır. Mütəxəssislərin hesablamalarına görə, hazırda dünyanın 135 ölkəsinin nizami ordusunda 30 milyon nəfər xidmət edir. Orduya müxtəlif istiqamətlərdə xidmət göstərən istehsal sahələrində 60 milyondan artıq adam çalışır.

Hazırda dünyanın 10 ölkəsinin nüvə silahı vardır və 30 ölkənin belə silah hazırlamağa real texniki imkanları təsdiq olunur.

Öz hərbi xərclərini minimum həddə saxlayan Avstriya, İsveçrə, Yaponiya, Avstraliya, İsveç kimi dövlətlərin iqtisadi-sosial inkişaf istiqamətindəki sanballı uğurları, şübhəsiz başqa ölkələr üçün də nümunə ola bilər.

b) Bəşəriyyət qarşısında duran aktual qlobal problemlər sırasında **ərzaq və yanacaq-enerji təchizatı** məsələləri xüsusi əhəmiyyətə malikdir.

Son iki əsrdə dünya əhalisinin sayının 6 dəfə artması, insanların müxtəlif təyinatlı tələbatlarının çoxalması, torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsindən çıxarılması, korlanması, erroziyaya uğraması, təbii olaraq əhalinin ərzaqla təminatında ciddi çətinliklər yaratmışdı.

Elmi-texniki yeniliklərin və biologiya-fiziologiya sahəsindəki kəşflərin, nailiyyətlərin bilavasitə aqrar bölmədə tətbiqi, torpaq islahatları, habelə məhsul bolluğu yaratmış «**yaşıl inqilablar**» sayəsində, XX əsrin ikinci yarısından başlayaraq, bu istiqamətdə xeyli iş görülmüşdür.

Lakin, bu irəliləyişlə yanaşı, BMT-nin məlumatlarına görə XXI əsrin əvvəllərində dünya əhalisinin 1 milyarda qədəri ərzaq sarıdan korluq çəkir, yarıya qədəri lazım olan kalori və keyfiyyət səviyyəsində, ekoloji baxımdan təmiz ərzaqla təmin olunmur, yarıdan çoxu saf su mənbələrindən istifadə edə bilmirlər. Ayrı-ayrı ölkələr əhalinin ərzaq məhsulları ilə təchizatında fərqlənsələr də, bütövlükdə dünya əhalisi orta hesabla hər nəfər üçün hesablanmış gündəlik kalori miqdarından (2500-2700 kalori) xeyli az (1800-2100 kalori) qida məhsulları qəbul edir.

Yanacaq-enerji təchizatına gəldikdə isə, onun coğrafi yerləşməsi (70%-i Şərq ölkələrinin payına düşür) ilə istehlakı (Qərb ölkələri və ABŞ-Yaponiya) arasındakı uyğunsuzluq, həmişə ziddiyyətlərə gətirib çıxardığından, bu sahədə dövlətlərin ədalətli prinsiplər əsasında əməkdaşlığı zəruridir.

c) **Elm və texnika sahəsində beynəlxalq əməkdaşlıq** problemi, qlobal bir məsələ kimi dünyanın müxtəlif ölkələrinin intelektual imkanlarını və qüvvələrini birləşdirib, qarşılıqlı əməkdaşlıq istiqamətinə yönəltməsi tələb olunur.

Kosmosun fəthi, dünya okeanları və dənizlərinin sirrilərinin öyrənilməsi, günəşin, küləyin, dəniz qabarma-çəkil-

mələrinin, yeraltı qaynar suların (geotermal) enerjisindən istifadə etmək, tullantısız istehsal proseslərini təşkil etmək, ekoloji cəhətdən təmiz (saf) məhsullar əldə etmək, – elə problemlərdir ki, həmin məsələlərin daha tez, həm də səmərəli həlli yolları, məhz beynəlxalq əməkdaşlıq prinsiplərini ön plana çəkir.

Aydındır ki, bu mürəkkəb və bəşəriyyət üçün böyük əhəmiyyət kəsb edən perspektiv elmi-nəzəri problemlərin tədqiqi külli məbləğdə vəsait, habelə müxtəlif istiqamətli elmi qüvvələrin səfərbərliyə alınmasını tələb etdiyindən, şübhəsiz ayrı-ayrı dövlətlərin təcrid olunmuş səyləri, lazımı səmərəli nəticələr verə bilməz.

Qlobal iqtisadi-sosial problemlər, bəşəriyyətin birgə əməkdaşlıq əlaqələrini gücləndirməyi tələb etdiyindən, ən optimal yol, hökmən bu istiqamətdə axtarılmalıdır.

Müxtəlif ölkə və dövlətlərin bəşəriyyətin gələcəyi naminə qarşılaşdığı qlobal iqtisadi-sosial məsələləri birlikdə həll etmək cəhdləri, şübhəsiz onlar arasında qarşılıqlı inam yaradılmasında, bir-birinə etimadsızlıq amillərinin aradan qaldırılmasında müsbət rol oynaya bilər.

ç) Müasir mərhələdə, qlobal miqyasda bəşəriyyəti hədələyən, onun psixoloji-əsəbi narahatlığına səbəb olan problemlərdən biri də, – **təbii fəlakətlər**, **zəlzələ hadisələri**, **çay daşqınları**, **qasırğalar**, **uşqunlar**, **erroziya halları**, **yer çökmələri**, **meşələrin azalması**, **vulkanların püskürməsi**, **ərazilərin səhralaşmasıdır**.

Son vaxtlar Cənubi Amerikada, ABŞ-da, Çində, Hindistanda, İndoneziyada, Rusiyada, Qafqazda, İranda, Türkiyədə, Yaponiyada, Orta Asiyada baş vermiş fəciəli təbii fəlakətlər, istər həmin proseslərin əvvəlcədən öyrənilib proqnozlaşdırılması, istər imkan daxilində müəyyən qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, istərsə də baş vermiş nəticələrinin aradan qaldırılmasında birgə əməkdaşlıq tələb edir.

Dünya təcrübəsi sübut edir ki, heç bir ölkə və xalq belə təbii fəlakətlərdən sığorta olunmamışdır. Təbii fəlakət və onun müxtəlif təzahürləri ilə hər hansı bir dövlət və millət qəfildən rastlaşa bilər. Məhz belə bir şəraitdə ölkələrin və xalqların bir-birinə köməyi, sadəcə humanizm əlaməti olmayıb, eyni zamanda müxtəlif dövlətlərin siyasi, ideoloji, dini fərqlərindən asılı olmayaraq, bəşəriyyətin qarşılaşdığı, habelə gələcəkdə qarşılaşa biləcəyi məlum, yaxud hələlik məlum olmayan, lakin gözlənilə biləcək qlobal iqtisadi-sosial problemlərə qarşı birgə, həm də şüurlu mübarizə əməkdaşlığı kimi böyük əhəmiyyətə malikdir.

d) **Xarici borclar problemi**, son yarım əsrdə müxtəlif ölkələri, xüsusilə inkişaf etməkdə olan ölkələri ən çox narahat edib düşündürən, eyni zamanda yaranmış, habelə getdikcə mürəkkəbləşən maliyyə-kredit münasibətləri düyünündən xilas olmaq məsələsidir.

İqtisadiyyatın normal fəaliyyət göstərdiyi ölkələrin xarici borclar problemi təhlükəli deyildir. Lakin ölkənin iqtisadiyyatı qeyri-sabit fəaliyyət göstərdikdə, təsərrüfat həyatının ahəngdar nisbətləri pozulduqda, xarici ticarət balansında böyük məbləğdə kəsir yarandıqda, şübhəsiz xarici borclar təhlükəli bir xarakter alır.

Müasir dünya ölkələri arasında ən çox xarici borcu olan, ilk növbədə Cənubi Amerika və Afrikanın inkişaf etməkdə olan ölkələridir. Azərbaycan Respublikasının xarici borcları 1,7 milyard dollardan artıqdır. Hazırda dünya ölkələrinin birlikdə xarici borclarının ümumi məbləği 2 trilyon dollara çatır.

Yüksək inkişaf etmiş ölkələrin liderlərinin, beynəlxalq maliyyə-kredit təşkilatlarının mütəxəssislərinin, BMT rəhbərliyinin bir sıra səylərinə baxmayaraq, hələlik bu problem hər iki tərəfi, yəni borc verənləri (kreditorlar) və borc alanları (kredit götürənlər) razı salacaq şəkildə həll edilməmişdir. Lakin, getdikcə həqiqətən qlobal bir problemə çevrilən

müxtəlif ölkələrin xarici borcları məsələsinin həlli, XXI əsr reallığının həyatı tələbidir.

e) **Ekologiya və ətraf mühitin qorunması** problemlərinə dünya ictimaiyyəti, habelə beynəlxalq təşkilatların getdikcə daha ciddi diqqət yetirmələri təsadüfi deyildir.

Mütəxəssislərin hesablamalarına görə son 100-120 ildə bütün dünyada ümumi istehsal 60-70 dəfə artmışdır. Bu intensiv inkişaf templəri təbiətlə cəmiyyət arasındakı tarazdığı pozaraq, ətraf mühitin korlanmasına, atmosferə, habelə Yer kürəsinin müxtəlif ərazilərinə lazımsız sənaye tullantılarının atılıb, orada normal həyat üçün əlverişsiz şərait yaradılması ilə nəticələnmişdir. Atmosfer qatlarında «**ozon dəliyi**», yaxud anormal hadisəsinin yaranması, zərərli ultra bənövşəyi şüaların təsiri, yer üzərindəki bitgi və canlılar aləmi üçün əsl təhlükə törədə bilər.

Belə bir təhlükənin qarşısını almaq üçün, ətraf mühiti qorumaq məqsədiylə 1987-ci ildə beynəlxalq miqyasda **Monreal protokolu** (Kanada) və 1995-ci ildə Kioto sazişi (Yaponiya) imzalanmışdır. Həmin sənədin məqsədi, müxtəlif dövlətlərin atmosferə atdıqları, yaxud buraxdıqları zərərli tullantıların, qazların miqdarını maksimum dərəcədə məhdudlaşdırmaq olmuşdu. Qeyd etmək lazımdır ki, aparılan tədqiqatlar sübut etmişdir ki, XX əsrin 80-cı illərindən başlayaraq, dünya miqyasında atmosferə buraxılan zərərli sənaye və kənd təsərrüfatı tullantılarının (xlorftor oksid birləşmələrinin) miqdarı kəsgin surətdə azalmışdır.

Lakin ekologiya ilə bağlı digər problemlər də vardır və həmin çətinliklər özünü Azərbaycan Respublikasında da göstərir. Hazırda respublikada **300 mindən artıq əhalinin yaşadığı ərazi sel, sürüşmə və uçqun təhlükəsi altındadır. 200 mindən artıq əhalinin 45 yaşayış məntəqəsi və onun əhalisi Xəzər dənizinin səviyyəsinin vaxtaşırı dəyişməsindən (enib-qalxmasından) ziyan, habelə əziyyət çəkir**.

Azərbaycan torpaqlarının 40%-ə qədəri su və külək erroziyasından korlanmaqdadır. Son 50 ildə respublikada hər nəfərə düşən əkin sahəsi xeyli azalaraq, 0,18 hektar olmuşdur. Əhalinin içməli suya olan tələbatı normal ödənilmir, torpaqların şoranlaşması prosesi davam edir...

Azərbaycan Respublikasında qarşıya çıxan müxtəlif istiqamətli ekologiya problemlərini həll etmək məqsədiylə, **Dünya Bankının** yardımı ilə xüsusi bir **Proqram** hazırlanmışdır. «**Azərbaycanda ətraf mühitin qorunmasına dair Milli fəaliyyət planı**» adlı həmin Proqrama əsasən, burada aşağıdakı istiqamətlərdə bir sıra işlər aparılmalıdır:

1. Azərbaycanın zəngin və nadir balıq ehtiyatlarının qorunması, habelə balıqçılıq təsərrüfatlarına maliyyə, elmi-metodik yardım göstərilməli;

2. Sumqayıt şəhəri və onun ətraf zonasında ekoloji şəraitin yaxşılaşdırılması, habelə Xəzər dənizinə, kanalizasiya sisteminə axıdılınan tullantılar zərərsizləşdirilməli;

3. Xəzər dənizinin səviyyəsinin enib-qalxması ilə bağlı, əhaliyə və yerli təsərrüfatlara dəyən ziyanın qarşısı alınmalı;

4. Ekologiyaya nəzarət edən dövlət idarə və təşkilatların müvafiq qurumları yenidən təşkil olunaraq, onların fəaliyyəti yaxşılaşdırılmalı, habelə təbiətdən istifadənin səmərəliliyi yüksəldilməlidir. Bu Proqram və məqsədlər üçün ayrılmış vəsait hesabına, artıq respublikada bir sıra tədbirlər həyata keçirilməkdədir.

ə) Müasir dünyada **insan hüquq və haqqlarının qorunub müdafiə olunması** məsələləri, beynəlxalq aləmdə aktual qlobal xarakterli problem kimi qiymətləndirilir.

BMT-nin insan hüquqları Bəyannaməsində öz əksini tapmış bütün insanların siyasi və **iqtisadi sərbəstliyi**, iş, təhsil, istirahət, ilkin tibbi yardım göstərilmək hüququ, hazırda inteqrasiya proseslərinin getdiyi, habelə vahid dünya təsərrüfat sisteminin formalaşdığı bir şəraitdə, həqiqətən qlobal əhəmiyyət kəsb edir.

Bəşəriyyətin XXI əsrdə rastlaşdığı iqtisadi-sosial qlobal problemlər arasında, yuxarıda qeyd olunanlarla yanaşı, hazırda siyasi, iqtisadi-sosial, mənəvi-əxlaqi cəhətləri özündə birləşdirən **beynəlxalq terrorizm**; **əhalinin siyasi**, **iqtisadi**, **sosial səbəblərlə bağlı könüllü**, **yaxud məcburi miqrasiyası**; **qaçqınlar və məcburi köçgünlər axını**; **vahid nəqliyyat**, **rabitə**, **məlumat-informasiya şəbəksi yaradılması; kütləvi xəstəliklərlə birgə mübarizə** aparmaq qayğıları da ciddi diqqət və bu sahədə dünya ölkələrinin birgə əməkdaşlığının daha da genişləndirilməsini irəli sürür.

# *ƏLƏVƏ 1*

## XXI əsrin əvvəllərinə dünya təsərrüfat həyatının əsas göstəriciləri (milli valyutanın paritet alıcılıq qabiliyyəti qiymətləri ilə)*

| Ölkələr qrupu | Ümumi daxili Məhsul (ÜDM) | | | ÜDM-da əhalinin gəlirlərinin payı (faizlə) | Əhalinin hər nəfərinə düşən gəlirlərin orta dünya göstəricisinə nisbəti |
|---|---|---|---|---|---|
| | milyard dollar | dünyada yeri | Dünya ÜDM-da payı (faizlə) | | |
| *1* | *2* | *3* | *4* | *5* | *6* |
| **Bütün dünya** | **52.000** | | **100** | **60** | **100** |
| Yüksək inkişaf etmiş ölkələr | 27.000 | | 52.0 | 63 | 400 |
| o cümlədən: ABŞ | 11.000 | 1 | 21.0 | 70 | 530 |
| Yaponiya | 3.600 | 3 | 7.0 | 56 | 320 |
| Almaniya | 2.280 | 5 | 4.5 | 59 | 330 |
| Fransa | 1.635 | 6 | 3.2 | 55 | 305 |
| İngiltərə | 1.607 | 7 | 3.1 | 66 | 360 |
| İtaliya | 1.560 | 8 | 3.0 | 60 | 330 |
| Kanada | 965 | 11 | 1.9 | 56 | 345 |
| İnkişaf etməkdə olan ölkələr | 21.700 | | 42.09 | 57 | 50 |
| o cümlədən: Çin Xalq Pespublikası | 6.640 | 2 | 13.0 | 43 | 45 |
| Hindistan | 3.100 | 4 | 6.0 | 65 | 38 |
| Braziliya | 1.372 | 9 | 2.7 | 58 | 91 |
| Meksika | 935 | 12 | 1.8 | 70 | 130 |
| Cənubi Koreya | 860 | 14 | 1.7 | 62 | 225 |
| İndoneziya | 722 | 15 | 1.4 | 71 | 48 |
| Türkiya | 480 | 17 | 0.9 | 71 | 97 |
| İran | 475 | 20 | 0.9 | 50 | 72 |

* Cədvəl, «Mirovaə gkonomika i mejdunarodnıe otnoşeniə». №7, 2005, s.85-89 əsasında tərtib olunmuş və bəzi rəqəmlər yuvarlaqlaşdırılmışdır.

| | | | | | |
|---|---|---|---|---|---|
| Tayland | 470 | 21 | 0.9 | 58 | 89 |
| Argentina | 445 | 22 | 0.9 | 61 | 143 |
| Tayvan | 440 | 24 | 0.9 | 60 | 240 |
| Filippin | 352 | 25 | 0.7 | 69 | 60 |
| Kolumbiya | 302 | 26 | 0.6 | 66 | 90 |
| Pakistan | 293 | 28 | 0.6 | 74 | 29 |
| Səudiyyə Ərəbistan | 281 | 29 | 0.5 | 37 | 93 |
| Misir | 270 | 30 | 0.5 | 79 | 63 |
| Keçid mərhələsində olan post-sosialist və postsovet ölkələri | 3.247 | | 6.3 | 60 | 110 |
| o cümlədən: Rusiya | 1.320 | 10 | 2.6 | 51 | 95 |
| Polşa | 445 | 23 | 0.9 | 65 | 152 |
| Ukrayna | 265 | 31 | 0.5 | 56 | 62 |
| Çexiya | 168 | 44 | 0.3 | 53 | 176 |
| Rumıniya | 161 | 46 | 0.3 | 76 | 111 |
| Macarınstan | 148 | 47 | 0.3 | 67 | 197 |
| Qazaxıstan | 98 | 57 | 0.2 | 60 | 79 |
| Slovakiya | 72 | 64 | 0.1 | 55 | 149 |
| Bolqarıstan | 62 | 70 | 0.1 | 69 | 109 |
| Belorus | 60 | 71 | 0.1 | 61 | 74 |
| Xorvatiya | 50 | 74 | 0.1 | 60 | 135 |
| Özbəkistan | 45 | 79 | 0.1 | 58 | 20 |
| Litva | 39 | 80 | 0.1 | 62 | 141 |
| Sloveniya | 38 | 83 | 0.1 | 55 | 214 |
| Azərbaycan | 30 | 93 | 0.1 | 60 | 79 |
| Türkmənistan | 29 | 95 | 0.1 | 49 | 58 |
| Bosniya | 25 | 99 | 0.05 | 113 | 137 |
| Latviya | 24 | 101 | 0.04 | 63 | 127 |
| Estoniya | 18 | 109 | 0.03 | 58 | 156 |
| Albaniya | 15 | 113 | 0.03 | 93 | 86 |
| Makedoniya | 14 | 115 | 0.03 | 77 | 105 |
| Gürcüstan | 14 | 118 | 0.03 | 81 | 49 |
| Ermənistan | 11 | 122 | 0.02 | 87 | 63 |
| Qırğızstan | 9 | 127 | 0.02 | 67 | 23 |
| Tacikistan | 7 | 130 | 0.01 | 82 | 19 |
| Moldaviya | 7 | 131 | 0.01 | 86 | 26 |

## Müstəqil Azərbaycan Respublikasının iqtisadi-sosial inkişaf göstəriciləri

| Göstəricilər | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **1990** | **1995** | **1998** | **2001** | **2002** | **2003** | **2004** | **2005** |
| ***1*** | ***2*** | ***3*** | ***4*** | ***5*** | ***6*** | ***7*** | ***8*** | ***9*** |
| Milli sərvət (milyon manat) | 1,4 | 3.016,0 | 18.415,0 | 23.560,0 | 26.035,0 | 29.764,5 | 34.251,6 | 42.200,0 |
| Əhalinin sayı (milyon nəfər) | 7,2 | 7,7 | 7,8 | 8,1 | 8,2 | 8,3 | 8,4 | 8,5 |
| Ümumi daxili məhsul (milyonmanat) | 0,4 | 2.133,8 | 2.500,0 | 5.315,6 | 6.062,5 | 7.146,5 | 8.530,2 | 11.876,6 |
| Sənaye məhsulun ümumi həcmi | 0,2 | 1.7711,1 | 2.960,0 | 3.769.0 | 4.019,5 | 4.982,1 | 5.961,4 | 8.861,0 |
| Əsas kapitala yönəldilən investisiyalar (milyon manat) | - | 228,0 | 790,0 | 1.170,8 | 2.107,0 | 3.786,4 | 4.922,8 | 5.769,9 |
| Kənd təsərrüfatı məhsullarının ümumi həcmi (milyon manat) | 0,1 | 713,4 | 930,0 | 1.198,0 | 1.289.0 | 1.386,0 | 1.496,3 | 1.731.2 |
| Nəqliyyat bölməsində yük dövriyyəsi (milyon ton-km) | 4.954 | 8.331 | 13.500 | 18.447 | 20.277 | 22.291 | 23.284 | 26.431 |
| Satışın bütün kanallarda pərakəndə əmtəə dövriyyəsi (milyon manat) | 560,51 | 1.058,7 | 1.690,0 | 2.375,5 | 2.688,5 | 3.062,0 | 3.729,9 | 4.622,2 |
| Xidmətlərin bütün kanalları üzrə əhaliyyə göstərilən həcmi (milyon manat) | - | 167,5 | 290,5 | 497,7 | 531,8 | 592,2 | 694,6 | 960,7 |
| Xarici ticarət dövriyyəsi (milyon ABŞ dolları) | - | 1.304,9 | 1.682,7 | 3.745,3 | 3.892,9 | 5.216.6 | 7.131,4 | 8.558,4 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| O cümlədən:<br>a) ixrac<br>b) idxal | <br>-<br>- | <br>637,2<br>667,7 | <br>606,2<br>1.076,5 | <br>2.314,2<br>1.431,1 | <br>2.167,4<br>1.665,5 | <br>2.590,4<br>2.626,2 | <br>3.615,4<br>3.516.0 | <br>4.347,2<br>4.211,2 |
| Dövlət büdcəsinin gəlirləri (milyon manat) | - | 420,0 | 510,0 | 784,8 | 910,2 | 1.220,9 | 1.509,5 | 2.055,2 |
| Dövlət büdcəsinin xərcləri (milyon manat) | - | 430,0 | 520,0 | 807,5 | 931,8 | 1.234,5 | 1.502,1 | 2.140,7 |
| Əhalinin pul gəlirləri (milyon manat) | - | 1.340,5 | 2.884,8 | 3.802,0 | 4.244,1 | 4.978,9 | 6135,3 | 7792,3 |
| Hər nəfərə düşən pul gəlirləri (manat) | - | 177,2 | 306,5 | 475,8 | 527,1 | 614,0 | 749,4 | 942,0 |
| Bir işçiyə hesablanmış nominal orta aylıq əmək haqqı (manat) | 7,5 | 12,5 | 40,0 | 52,0 | 63,1 | 77,4 | 99,4 | 117,9 |
| İşçilərin sayı (nəfər) | - | 28.314 | 37.513 | 48.446 | 50.963 | 54.365 | 55.945 | 56.343 |
| Hər nəfərə düşən ümumi daxili məhsul (manatla / və dollarla) | 0 | 282,1 | 441,5 | 665,2 | 752,9 | 880,7 | 1042,0 | 1.435,7 |
| | 346,3 | 319,3 | 570,6 | 714,3 | 774,5 | 896,7 | 1060,3 | 1517,6 |

Cədvəl, «Azərbaycan rəqəmlərdə». Bakı, 2006, səh.11, 14, 18, 25, 61 və 118 əsasında tərtib olunmuşdur.
Dəyər ifadəsində olan göstəricilər manatın denominasiyası nəzərə alınmaqla, yeni Azərbaycan (AZN) manatı ilə verilmişdir.

***ƏLAVƏ 1***

# Dünya təsərrüfatı tarixinin mühüm hadisələri

## İbtidai dövr

| | | |
|---|---|---|
| İbtidai icma quruluşu | – | eramızdan əvvəl 4-5 milyon ildən – eramızdan əvvəl IV minilliyə qədər |
| Daş dövrü | – | e.ə. 4-5 milyon ildən – e.ə. II minilliyə qədər |
| Tunc dövrü | – | e.ə. II minillikdən – e.ə. I minilliyə qədər |
| Dəmir dövrü | – | e.ə. I minillikdən başlanmışdır |
| Qida toplamaq və ovçuluq təsərrüfat tərzi | – | e.ə. XL minillikdən – e.ə. X minilliyə qədər |
| İstehsal edən təsərrüfat tərzi | – | e.ə. X minillikdən – e.ə. V minilliyə qədər |
| Təbii və ictimai əmək bölgüsünün meydana çıxması | – | e.ə. X minillikdən başlanmışdır |
| Neolit dövru | – | e.ə. VIII minillikdən – e.ə. III minilliyə qədər |
| İbtidai icma quruluşunda mübadilə və xüsusi mülkiyyətin meydana çıxması | – | e.ə. X-IX minilliklərdən başlanmışdır |
| İbtidai cəmiyyətinin pozulması və dağılması | – | e.ə.V-IV minilliklərdən başlanmışdır |

# Qədim dünya

| | | |
|---|---|---|
| İlkin qədim dövr | – | e.ə. IV minilliyin sonlarından – e.ə. II minilliyin sonlarına qədər |
| Qədim tərəqqi və yüksəliş dövrü | – | e.ə. II minilliyin sonlarından – I e.ə. minilliyin sonlarına qədər |
| Son qədim dövr | – | e.ə. I minilliyin sonu |
| İlk sivilizasiya və dövlətlərin meydana çıxması (Şumer, Akkad, Babilistan, Mesopotamiya, Hindistan, Çin) | – | e.ə. IV minillikdən – e.ə. III minilliklər |
| Əmək bölgüsünün dərinləşməsi, əmək alətlərinin təkmilləşməsi və mübadilə münasibətlərinin genişlənməsi | – | e.ə. II minilliyin əvvəllərindən – e.ə. II minilliyin sonuna qədər |
| Müxtəlif tayfaların hərəkəti, formalaşmış dövlətlərin ərazilərinə köçəri tayfaların vaxtaşırı hücumları | – | II minilliyin sonları |
| Dünya dövlətlərinin formalaşması | – | e.ə. I-II minilliklərin sonu – bizim eranın I minilliyin birinci yarısı |
| Qədim Yunanıstanın təşəkkülü, təsərrüfat həyatının yüksəlişi və süqutu | – | e.ə. I minillikdən – eramızın V əsrinə qədər |
| Antik Romanın təşəkkülü, təsərrüfat həyatının yüksəlişi və süqutu | | e.ə. VIII-VII əsrlərdən – eramızın V əsrinə qədər |

# Orta əsrlər

| | | |
|---|---|---|
| İlkin feodalizm dövrü | – | eramızın V əsrinin sonlarından – X əsrə qədər |
| Avropada ilk feodal dövlətlərinin meydana gəlməsi | – | V-VII əsrlər |
| Torpaq üzərində xüsusi mülkiyyətin yaranması | – | VI əsr |
| Kəndlilərin torpağa görə və şəxsən feodallardan asılılığının qərarlaşması | – | VI – IX əsrlər |
| Kəndlilərin feodallar tərəfindən işləyib ödəmə (biyar), məhsulla ödəniş (natural) və pul formasında istismarı | – | VI əsrdən başlayaraq davam etmişdir |
| Feodalizmin yüksələn xəttlə inkişafı dövrü | – | XI – XV əsrlər |
| Qərbi Avropa ölkələrində etiraz və narazılıq hərəkatı | – | XII – XIII əsrlər |
| Qərbi Avropa ölkələrində sex quruluşlu istehsalın geniş yayılması | – | XIV əsr |
| Fransada kəndli müharibəsi (Jakeriya) | – | 1358-ci il |
| İngiltərədə Uot Taylerin başçılığı ilə kəndli müharibəsi | – | 1381-ci il |
| Feodalizmin pozulması və kapitalizmin əmələ gəlməsi (ilkin kapital yığımı prosesi) | – | XV əsrin sonlarından – XVII əsrin ortalarına qədər |
| Böyük coğrafi kəşflər | – | XV-XVI əsrlər |
| Kolumb tərəfindən Amerikanın kəşfi | – | 1492-ci il |

| | | |
|---|---|---|
| Vasko da Qamanın Afrika qitəsini dolanaraq Hindistana dəniz yolunu kəşf etməsi | – | 1498-ci il |
| Maqellanın Atlantik okeanından keçərək, Asiya qitəsində başa çatmış dövr – aləm səyahəti | – | 1519-1521-ci illər |
| Qərbi Avropa ölkələrində «qiymətlər inqilabı» | – | XVI əsr |
| Niderlandda (Hollandiada) burjua inqilabı | – | 1566-1609-cu illər |
| Amsterdam bankının təsis olunması | – | 1609-cu il |
| Hollandiyanın «nümunəvi burjua ölkəsinə» çevrilməsi | – | XVII əsrin əvvəlləri – XVII əsrin birinci yarısı |
| Feodalizmin pozulub dağılması və yeni sərbəst sahibkarlıq (kapitalist) münasibətlərinin formalaşmasının ilk addımları | – | XVI – XVII əsrlər |
| Feodal Səfəvilər dövlətinin formalaşması | – | XVI əsrin birinci yarısı |

# Yeni dövr

| | | |
|---|---|---|
| İngiltərə burjua inqilabı | – | 1642-1649-cu illər |
| İnqiltərə bankının təsis olunması | – | 1694-cü il |
| Kapitalizmin manufaktura sənayesi inkişafı mərhələsi | – | XVII əsr – XVIII əsrin 60-cı illəri |
| Rusiyada I Pyotrun intisadi dəyişiklikləri və vahid bazarın formalaşması | – | XVII əsrin sonları – XVIII əsrin birinci rübü |
| İngiltərədə sənaye çevrilişi (sənaye inqilabı) | – | XVIII əsrin 30-40-cı illəri – XIX əsrin birinci rübü |
| Rusiyada dövlət Tacir və Zədəgan banklarının yaradılması | – | 1754-cü il |
| Sərbəst sənaye sahibkarlığı fəaliyyəti ilə məşğul olmaq haqqında II Yekaterinanın Manifesti | | 1755-ci il |
| Şimali Amerika müstəmləkələrinin İngiltərəyə qarşı azadlıq müharibəsi | – | 1775-1783-cü illər |
| Böyük Fransa burjua inqilabı | – | 1789-1794-cü illər |
| Dünyada sənaye sivilizasiyasının formalaşması prosesi | – | XIX əsr |
| Fransa bankının təsis olunması | – | 1800-cü il |
| Torpaq alqı-satqısı haqqında Rusiyada xüsusi fərman verilməsi | – | 1801-ci il |
| Fransada sənaye çevrilişi | – | XIX əsrin əvvəllərindən – XIX əsrin 70-ci illərinə qədər |
| ABŞ-da sənaye çevrilişi | – | XIX əsrin birinci yarısı |

| | | |
|---|---|---|
| Almaniyada təhkimçilik hüququnun ləğv edilməsi | – | 1807-ci il |
| Qafqazın və Azərbaycanın Rusiya tərəfindən işğalı, bu ərazilərin təsərrüfat həyatında baş vermiş dəyişikliklər | – | XIX əsr |
| Rusiyada pul-kredit islahatları | – | 1839-1843-cü illər |
| Rusiyada sənaye çevrilişi | – | XIX əsrin 30-40-cı illərindən – XIX əsrin 80-cı illərinə qədər |
| Almaniyada burjua inqilabı | – | 1848-cı il |
| Bakıda dünyada ilk neft quyusunun qazılması | – | 1848-ci il |
| Rusiyada dövlət bankının təsis olunması | – | 1860-cı il |
| Rusiyada təhkimçilik hüququnun ləğv edilməsi | – | 1861-ci il |
| ABŞ-da vətəndaş müharibəsi | – | 1861-1865-ci illər |
| ABŞ-da quldarlığın ləğvi haqqında qanun qəbul olunması | – | 1862-ci il |
| Rusiyada ilk xüsusi (kommersiya) bankının təsis olunması | – | 1864-cü il |
| Azərbaycand kəndli islahatı | – | 1870-ci il |
| Yaponiyada sənaye çevrilişi | – | 1870-1890-cı illər |
| ABŞ-da ilk inhisarın – «Standart oyl»un yaradılması | – | 1872-ci il |
| «Bakı neft cəmiyyəti»nin yaradılması | – | 1874-cü il |

| | | |
|---|---|---|
| Dünyada ikinci elmi-texniki inqilab | – | XIX əsrin üçüncü rübü |
| Kapitalizmin (sərbəst sahibkarlığın) inhisarçı mərhələyə keçidi prosesi | – | XIX əsrin sonları – XX əsrin əvvəlləri |
| «Nobel qardaşları neft istehsalı birliyi» – səhmdar cəmiyyətinin yaradılması | – | 1879-cu il |
| İngiltərənin sənaye ölkəsi kimi üstün mövqelərini itirməsi və ABŞ-ın sənaye istehsalına görə dünyada I yerə çıxması | – | XIX əsrin sonları |
| Rusiyada pul islahatı | – | 1895-1897-ci illər |
| Azərbaycanda milli burjuaziyanın formalaşması və xarici kapitalın buraya axını | – | XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri |
| Bakıda «Elektriçeskaya sila» səhmdar cəmiyyətinin yaradılması | – | 1899-cu il |
| Dünya ərazisinin bölüşdürülməsinin başa çatması | - | XIX əsrin sonu – XX əsrin əvvəlləri |

# Ən yeni dövr

| | | |
|---|---|---|
| ABŞ iqtisadiyyatının sürətlə inkişaf etməsi | – | 1900-1913-cü illər |
| Rusiyada inhisarların sindikat formasının geniş yayılması | – | XX əsrin əvvəlləri |
| Dünyanın bir sıra ölkələrində iqtisadi böhranların baş verməsi | – | 1900-1903 və 1907-ci illər |
| Rusiyada Stolıpin aqrar islahatlarının həyata keçirilməsi | – | 1906-1910-cu illər |
| Birinci dünya müharibəsi | – | 1914-1918-ci illər |
| Azərbaycanda kəndlilərin etiraz çıxışları | – | 1912-ci il |
| Bakı mədənləri fəhlələrinin iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq üçün mübarizəsi | – | 1913-1915-ci illər |
| Rusiyada fevral burjua-demokratik inqilabı | – | 1917-ci il |
| Rusiyada oktyabr çevrilişi | – | 1917-ci il |
| Rusiyada inqilabi dəyişikliklərin başlanması | – | 1917-1918-ci illər |
| Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, onun iqtisadi platforması və iqtisadi-sosial fəaliyyəti | – | 1918-1920-ci illəri |
| İlk uzunmüddətli vahid təsərrüfat planı olan QOELRO-nun qəbul olunması | – | 1920-ci il |

........

| | | |
|---|---|---|
| QOELRO planında Qafqazın və Bakı sənaye rayonunun inkişaf perspektivlərinin əksi | – | 1920-ci il |
| Azərbaycan bolşevik rejiminin işğalı altında | – | 1920-1991-ci illər |
| Birinci dünya müharibəsindən sonra dünyanın və Avropa ölkələrinin iqtisadi mənzərəsi | – | 1918-1920-ci illər |
| Rusiyada yeni iqtisadi siyasətin tətbiqi və bunun ucqarların təsərrüfat həyatına təsiri | – | XX əsrin 20-ci illəri |
| Birinci dünya müharibəsində məğlub olmuş Almaniyanın iqtisadiyyatını dirçəltmək üçün «Daues planı» | – | 1924-1929-cü illər |
| Sovet İttifaqında sənayeləşdirmə, kollektivləşdirmə və mədəni inqilab xəttinin həyata keçirilməsi | – | 1926-1936-cı illər |
| Dünya iqtisadi böhranı və «böyük durğunluğun» ölkələrin təsərrüfat həyatına təsiri | – | 1929-1933-cü illər |
| ABŞ prezidenti F.Ruzveltin «yeni iqtisadi siyasət xətti» | – | 1933-1936-ci illər |
| Almaniyada hakimiyyətə gəlmiş faşist diktaturasının iqtisadi siyasəti | – | 1933-1939 |
| İkinci dünya müharibəsi | – | 1939-1945-ci illər |
| Böyük Vətən müharibəsi | – | 1941-1945-ci illər |
| Azərbaycanın iqtisadiyyatı Böyük Vətən müharibəsi illərində | – | 1941-1945-ci illər |

| | |
|---|---|
| İkinci dünya müharibəsindən sonra dünya sosializm sisteminin formalaşması | – 1946-1960-cı illər |
| Üçüncü elmi-texniki inqilab, onun mərhələləri və iki dünya təsərrüfat sisteminin hərbi-iqtisadi rəqabət yarısına təsiri | – XX əsrin 50-80-cı illəri |
| Müstəmləkə sisteminin dağılması prosesinin başlanması | – 1945-ci il |
| Qərbi Avropa ölkələrinə yardım məqsədilə «Marşall planı»nın həyata keçirilməsi | – 1949-cu il |
| Azərbaycanda «Neft daşları»nda açıq dənizdə ilk neft quyusunun qazılması | – 1949-cu il |
| Sosialist ölkələrinin «Qarşılıqlı İqtisadi Əməkdaşlıq Şurası» təşkilatının yaradılması | – 1949-cu il |
| Avropa İqtisadi Birliyinin yaradılması | – 1957-ci il |
| BMT-nın müstəmləkə ölkələrinə müstəqillik verilməsi haqqında Bəyannamə qəbul etməsi | – 1960-cı il |
| Dünya iqtisadi böhranı | – 1974-1975-ci illər |
| SSRİ-də yenidənqurma yolunda iqtisadi-sosial dəyişikliklər prosesi | – 1985-1991-ci illər |
| Sovet İttifaqının parçalanması və dağılması | – 1991-ci il |

| | | |
|---|---|---|
| Dünya sosializm sisteminin dağılması və postsosialist-postsovet dövlətlərinin meydana çıxması | – | 1991-ci il |
| Müstəqil Azərbaycan Respublikasının təsərrüfat həyatında iqtisadi-sosial dəyişikliklər | – | 1991-2006-ci illər |
| Dünyanın aparıcı dövlətlərinin neft şirrkətləri ilə uzunmüddətli neft sazışlərinin (müqavilələrinin) imzalanması | – | 1994-cü il |
| Bakı-Tiflis-Ceyran neft boru kəmərinin inşasının başa çatdırılması və fəaliyyətə başlaması | – | 2006-ci il |
| İqtisadi inteqrasiya və qloballaşma şəraitində müstəqil Azərbaycan Respublikasının vahid dünya təsərrüfat sisteminin çoxcəhətli əməkdaşlıq əlaqələrində iştirakı | – | XX əsrin sonları – XXI əsrin əvvəlləri |

# Ədəbiyyat siyahısı


1. Azərbaycanın iqtisadi tarixinə dair materiallar (iqtisadi tarix üzrə beynəlxalq konfrans). Bakı, 1970.
2. Azərbaycanın iqtisadi tarixinin aktual problemləri, Bakı, 1978.
3. Süleymanov N. İqtisadi tarix. Dərs vəsaiti. Bakı, 1999.
4. Azərbaycan iqtisadiyyatı. Bakı, 2001.
5. Azərbaycan tarixi. I-VII cildlər. Bakı, 2000-2004.
6. «İqtisadi tarix» kursuna dair mühafizə mətnləri. Bakı, 2000.
7. İstoriə mirovoy gkonomiki. M., 1999.
8. Druznik M.S. Mirovaə gkonomika na finişe veka, M., 1999.
9. Lukaşeviç M.M. Gkonomiçeskaə istoriə i gkonomiçeskie konüepüii. M., 1991.
10. Gkonomiçeskaə istoriə: issledovaniə, istorioqrafiə, polemika. M., 1992.
11. Gkonomiçeskaə istoriə zarubejnıx stran. M., 1998.
12. Jurnallar: «İqtisadiyat və həyat», «Audit», «Ekspert», «Dirçəliş – XXI əsr».

# «İqtisadi tarix» kursu üzrə referat və kurs işlərin mövzuları

1. İqtisadi tarixin dövrləşdirilməsi
2. Müstəqil Azərbaycan Respublikasının iqtisadi-sosial inkişaf yolu
3. «Sənaye çevrilişi» və dünyanın iqtisadi inkişaf meylləri
4. İki dünya təsərrüfat sisteminin meydana çıxması, inkişafı, rəqabətinin iqtisadi-sosial nəticələri
5. Vahid dünya təsərrüfat sisteminin formalaşması
6. Bəşəriyyətin müasir iqtisadi-sosial problemləri
7. Postsovet ölkələrinin iqtisadi inkişafı
8. Yüksək inkişaf etmiş ölkələr qrupunun müasir təsərrüfat həyatı
9. Sosialist iqtisadi sisteminin əsas inkişaf mərhələləri və onun dağılması
10. İnkişaf etməkdə olan ölkələrin müasir iqtisadi-sosial problemləri
11. Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin iqtisadi əməkdaşlığı
12. Azərbaycan Respublikasının dünya inteqrasiya proseslərinə qovuşması
13. Dünyanın qlobal iqtisadi-sosial problemləri
14. «Səkkizlər qrupu» ölkələrinin iqtisadi-sosial inkişaf göstəriciləri və meylləri

# «İqtisadi tarix» kursu üzrə test sualları

1. İqtisadi tarixin predmeti və metodları
2. İqtisadi tarixə dair mənbə və ədəbiyyatlar
3. İqtisadi tarixin dövrləşdirilməsi
4. İqtisadi-sosial inkişafın qeyri-bərabərliyi meylləri
5. Kapitalist və sosialist sistemlərinin iqtisadi göstəriciləri
6. Sovet iqtisadi sisteminin iflası səbəbləri
7. Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsi
8. İnkişaf etməkdə olan ölkələrin iqtisadi-sosial perspektivləri
9. Postsosialist ölkələrinin gələcək inkişaf yolları
10. Azərbaycan Respublikasının müasir iqtisadi-sosial göstəriciləri
11. Bəşəriyyətin müasir qlobal iqtisadi-sosial problemləri
12. Dünyanın iqtisadi inkişaf yolunun ümumi mənzərəsi
13. Milli iqtisadiyyatların çoxcəhətli əlaqələrinin güclənməsi
14. Azərbaycan Respublikasının iqtisadi-sosial inkişaf perspektivləri
15. Bəşəriyyətin ərzaq problemi və onun həlli yolları
16. Dünya ölkələrinin xarici borcları problemi
17. Vahid dünya təsərrüfat sisteminin formalaşması
18. Müasir dünyanın iqtisadi inteqrasiya prosesləri
19. İngiltərədə «sənaye inqilabı» və onun nəticələri
20. Müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişafının yekunları

21. «Sənaye çevrilişi»ndən sonra Qərbi Avropanın inkişafı
22. Postsosialist ölkələri qrupunun ümumi səciyyəsi
23. İnkişaf etməkdə olan ölkələrin müasir iqtisadi-sosial problemləri
24. «Sənaye çevrilişi»nin dünya ölkələrinin iqtisadi inkişafına təsiri
25. İnkişaf etməkdə olan ölkələrin təsərrüfat həyatının ümumi mənzərəsi
26. «Səkkizlər qrupu» ölkələrinin mühüm iqtisadi göstəriciləri
27. Planlı sosialist iqtisadiyyatının inkişaf mərhələləri
28. Yüksək inkişaf etmiş ölkələr qrupunun dünya iqtisadiyyatında mövqeyi
29. Sosialist iqtisadi sisteminin üstün və nöqsan cəhətləri
30. İki təsərrüfat sisteminin iqtisadi rəqabət mübarizəsi
31. Azad sahibkarlıqdan inhisarçılığa keçid mərhələsi
32. «Böyük coğrafi kəşflər»dən sonra dünyanın iqtisadi inkişafı
33. İqtisad elmində iqtisadi tarixin yeri
34. İctimai elmlər və iqtisadi tarix
35. Dünya təsərrüfat həyatının əsas inkişaf mərhələlərinin xüsusiyyətləri
36. İqtisadi inkişafın qeyri-bərabərliyinin xüsusiyyətləri
37. Azərbaycan iqtisadiyyatı çar imperiyası tərkibində
38. XX əsrin əvvəllərində dünya iqtisadiyyatında iki təsərrüfat sisteminin yaranması
39. İnkişaf etməkdə olan ölkələrin müasir təsərrüfat həyatının xüsusiyyətləri

40. Azərbaycan iqtisadiyyatı keçmiş Sovet İttifaqının tərkibində
41. Almaniyanın iqtisadi inkişaf yolu
42. Transmilli korporasiyaların (TMK) müasir dünya iqtisadiyyatında rolu
43. İqtisadi inteqrasiya proseslərinin genişlənməsi
44. Azərbaycan Respublikasının xarici iqtisadi ticarət əlaqələri
45. Müasir dünya iqtisadiyyatında ABŞ, Qərbi Avropa və Yaponiyadan ibarət «üç rəqabət mərkəzinin» formalaşması
46. Asiya istehsal üsulunun xüsusiyyətləri
47. Tarixi muqayisəlik metodu
48. Antik istehsal üsulunun mahiyyəti
49. Fransanın iqtisadi inkişaf yolu
50. İngiltərənin iqtisadi inkişaf yolu
51. Məntiqilik metodu
52. Kanadanın iqtisadi inkişaf yolu
53. Xronoloji ardıcıllıq metodu
54. «İqtisadi tarix» kursuna dair mənbə və ədəbiyyatlar
55. İtaliyanın iqtisadi inkişaf yolu
56. Azərbaycan-Rusiya iqtisadi-ticarət əlaqələri
57. İbtidai icma quruluşunun başlıca inkişaf xüsusiyyətləri
58. İbtidai icma quruluşunun dağılması səbəbləri
59. İnkişaf etməkdə olan ölkələrin xarici borc problemi
60. Quldarlıq quruluşunun yaranması və yüksəlişi
61. Quldarlıq quruluşunun dağılması səbəbləri
62. Dünya iqtisadiyyatında inhisarların meydana çıxması
63. Azərbaycan Respublikasının neft strategiyası

64. Azərbaycanda qeyri-neft bölməsinin inkişaf perspektivləri
65. Feodalizm istehsal üsulunun formalaşması
66. Feodalizm istehsal üsulunun dağılması və iflası
67. Qərbi Avropa ölkələrinin kapitalist istehsal üsuluna keçidi
68. Azərbaycanın Avropa dövlətləri ilə iqtisadi-ticarət əlaqələri
69. Yüksək inkişaf etmiş «səkkizlər qrupu» ölkələrinin iqtisadi göstəriciləri
70. Qərbi Avropada «Marşall planı»nın həyata keçirilməsi
71. Avropa ölkələrində feodal istehsal üsulunun inkişafı
72. Ərəb ölkələrinin inkişafında neft amilinin rolu
73. «Sənaye çevrilişi» prosesini sərtləndirən amillər
74. Azad sahibkarlıqdan inhisarçılığa keçidin xüsusiyyətləri
75. Birinci dünya müharibəsinin iqtisadi-sosial nəticələri
76. Müstəmləkə sisteminin dağılmasını sərtləndirən səbəblər
77. İkinci dünya müharibəsinin siyasi-iqtisadi nəticələri
78. 1929-1933-cü illərin dünya iqtisadi böhranı
79. Təsərrüfat həyatının dövlət tənzimlənməsinin zəruriliyi
80. İkinci dünya müharibəsindən sonra iki sistem arasında iqtisadi yarış
81. Dünya iqtisadiyyatında ABŞ-ın mövqeyi və rolu
82. Rusiya Federasiyasının iqtisadi-sosial inkişafı
83. Dünya təsərrüfatında Yaponiyanın mövqeyi və rolu

84. Qərbi Avropa ölkələrinin dünya təsərrüfatında yeri
85. Müstəmləkə sisteminin dağılması prosesi
86. Müstəqil Azərbaycan Respublikasının iqtisadi-sosial inkişaf yekunları
87. Qədim Şərq ölkələrinin iqtisadi inkişafı
88. Qədim Yunanıstanın təsərrüfat həyatı
89. Qədim Romanın iqtisadi inkişafının əsas cəhətləri
90. Qərbi Avropa şəhərlərində sənətkarlıq və ticarətin inkişafı
91. Avropada «qiymət inqilabı» və onun sosial-iqtisadi nəticələri
92. Qərbi Avropa ölkələrində manufaktura sənayesinin inkişafı
93. Təbii və ictimai əmək bölgüsü
94. Sənətkarlığın meydana çıxması və metal alətlərdən istifadə olunması
95. Dünya bazarının yaranması və onu sərtləndirən amillər
96. Kənd təsərrüfatında kapitalizmin inkişafının iki yolu
97. Kapital ixracı, onun səbəbləri və formaları
98. İnhisarların yaranması, formaları və fəaliyyəti
99. Müasir dünyada iqtisadi qloballaşma prosesi
100. Qlobal iqtisadi-sosial problemlərin həlli yolları

**«İqtisadi tarix» kursu üzrə dərs saatlarının bölgüsü***

| Sıra №-si | Mövzuların adı | Mühazirə | Məşğələ | Cəmi |
|---|---|---|---|---|
| **1** | Giriş. Kursun məqsəd və vəzifələri, predmeti və metodları, onun dövrləşdirilməsi | 2 | 2 | 4 |
| **2** | Kapitalizmdən əvvəlki dövrün iqtisadi tarixi | 8 | 8 | 16 |
| **3** | Kapitalizm quruluşu | 6 | 6 | 12 |
| **4** | Beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi və dünya təsərrüfatının formalaşmasının başa çatması | 2 | 2 | 4 |
| **5** | Dünya təsərrüfatında iki sistemin yaranması, onların inkişaf qanunauyğunluqları və xüsusiyyətləri | 6 | 2 | 8 |
| **6** | Sosialist iqtisadiyyatının inkişaf mərhələləri və xüsusiyyətləri | 4 | 2 | 6 |
| **7** | Yüksək inkişaf etmiş ölkələrin müasir təsərrüfat həyatı | 8 | 4 | 12 |
| **8** | İnkişaf etməkdə olan ölkələrin milli dirçəliş və sosial-iqtisadi tərəqqi problemləri | 4 | 2 | 6 |
| **9** | Postsosialist ölkələrinin iqtisadi-sosial inkişaf problemləri və xüsusiyyətləri | 6 | 2 | 8 |
| **10** | Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf yekunları, problemləri və perspektivləri | 4 | 2 | 6 |
| **11** | Müasir iqtisadi qloballaşma və bəşəriyyətin sosial-iqtisadi problemləri | 4 | 4 | 8 |
| | **CƏMİ:** | **54** | **36** | **90** |

*Kursun mühazirə və məşğələ saatlarının bölgüsü dəyişdirilə bilər.

## Mündəricat


| | | |
|---|---|---|
| | Ön söz ........................................................................ | **3** |
| | Giriş. «İqtisadi tarix» kursunun məqsəd və vəzifələri ........... | **4-10** |
| **Mövzu I.** | «İqtisadi tarix»in predmeti və metodları, onun dövrləşdirilməsi ............................................................... | **11-20** |
| **Mövzu II.** | Kapitalizmdən əvvəlki dövrün iqtisadi tarixi ....................... | **21-47** |
| **Mövzu III.** | Kapitalizm quruluşu ......................................................... | **48-80** |
| **Mövzu IV.** | Beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi və dünya təsərrüfatının formalaşmasının başa çatması ........................ | **81-88** |
| **Mövzu V.** | Dünya təsərrüfatında iki sistemin yaranması, onların inkişaf qanunauyğunluqları və xüsusiyyətləri ...................... | **89-114** |
| **Mövzu VI.** | Sosialist iqtisadiyyatının inkişaf mərhələləri və xüsusiyyətləri .................................................................... | **115-127** |
| **Mövzu VII.** | Yüksək inkişaf etmiş ölkələrin müasir təsərrüfat həyatı ........................................................................... | **128-167** |
| **Mövzu VIII.** | İnkişaf etməkdə olan ölkələrin milli dirçəliş və sosial-iqtisadi tərəqqi problemləri ............................................... | **168-176** |
| **Mövzu IX.** | Postsosialist ölkələrinin iqtisadi-sosial inkişaf problemləri və xüsusiyyətləri ............................................................ | **177-188** |
| **Mövzu X.** | Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf yekunları, problemləri və perspektivləri ............................. | **189-202** |
| **Mövzu XI.** | Müasir iqtisadi qloballaşma və bəşəriyyətin sosial-iqtisadi problemləri ..................................................................... | **203-212** |
| Əlavə 1 | XXI əsrin əvvəllərində dünya təsərrüfat həyatının əsas göstəriciləri ................................................................... | **213-216** |
| Əlavə 2 | Dünya təsərrüfatı tarixinin mühüm hadisələri ...................... | **217-227** |
| | Ədəbiyyat siyahısı............................................................ | **228** |
| | «İqtisadi tarix» kursu üzrə referat və kurs işlərinin mövzuları ...................................................................... | **229** |
| | «İqtisadi tarix» kursu üzrə test sualları ............................... | **230-234** |
| | «İqtisadi tarix» kursu üzrə dərs saatlarının bölgüsü ........................................................................... | **235** |